RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 122 (10142) 14 iyul 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyevin dünyaya sülh çağırışı:

## “Sülh nail olunmalı olan ən ali məqsəddir”

### Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib

- *Azərbaycanın rolu hər zaman yüksək qiymətləndirilib. Biz müxtəlif dövrlərdə müxtəlif aktorların iştirakı ilə vacib rol oynamışıq. Bizim rolumuz hər zaman konstruktiv və nəticəyönümlü olmuş, gərginliyin azaldılmasına hesablanmışdır.*
- *Azərbaycan hər zaman müsəlman ölkələri arasında həmrəyliyi güclü təşviq edib. Azərbaycanda keçirilən çoxsaylı tədbirlər və irəli sürdüyümüz təşəbbüslər həmrəylik, qarşılıqlı anlaşma və birliyə xidmət edib.*
- *Müdafiə qabiliyyəti, özü də təkcə hərbi paradda deyil, döyüş meydanında göstərilmiş həmin qabiliyyət vacibdir. Əlbəttə, fikrimcə, mühüm meyarlardan biri hüdudlarınızdan kənarda baş verən hadisələrə təkcə bir sözünüzlə və ya bəyanatınızla təsir göstərmək qabiliyyəti də olmalıdır. Azərbaycan bunu dəfələrlə nümayiş etdirib.*
- *Azərbaycanın artıq orta gücə çevrilməsi ilə əlaqədar ekspertlərin müəyyən rəyi ilə tanışam. Bununla belə, düşünürəm ki, bu cür toplantı ölkənin orta güc olmasına dair hansı meyarların dəqiq müəyyənləşdirilməsinə kömək edə bilər. Burada müxtəlif meyarlar ola bilər, çünki vahid bir meyar hələ ki, müəyyən edilməyib. Mənim fikrimcə, bu terminologiya ölkənin potensialının, böyük güclərin necə düşündüyü və ya etdiyindən asılı olmayaraq, onun öz milli maraqlarını müdafiə etmək bacarığının, əgər kimsə sizə zərər vurmaq istəyirsə, bütün potensialınızla müqavimət göstərmək qabiliyyətinin etiraf olunmasını nəzərdə tutur.*
- *Bu ildən etibarən Almaniya və Avstriyaya qaz ixracına başlamışıq. Bu, qlobal, xüsusilə də Avropa qaz bazarında mövqeyimizi genişləndirməyə yönəlmiş ümumi strategiyamızın tərkib hissəsidir. Avropa bazarı yüksək qiymətlərin formalaşdığı, bizim üçün premium hesab edilən bazardır. Buna görə də ixrac imkanlarımızı daha da genişləndirməkdə olduqca maraqlıyıq. Bəli, hazırda biz boru kəmərləri vasitəsilə 16 ölkəyə qaz tədarük edirik və boru kəməri ilə qaz ixracının coğrafi əhatəsinə görə dünyada birinci yerdəyik.*
- *Şimalımızda müharibə vəziyyətində olan bir qonşumuz, cənubumuzda isə müharibə aparan digər qonşumuz var. Biz isə onların arasında yerləşirik. Əlbəttə ki, belə bir şəraitdə ölkəmizi qorumaq və eyni zamanda imkan daxilində, münaqişənin sülh yolu ilə həllinə töhfə vermək bizim üçün böyük əhəmiyyət kəsb edir.*
- *Biz suverenliyimizi bərpa etmək üçün gücdən istifadə etdik. Biz buna nail olduq və daha irəli getmədik. Biz dayandıq və bu, çox vacib idi. Düşünürəm ki, silahlı qarşıdurmanın ən qızğın mərhələsi başa çatdıqdan sonra ən vacib məqamlardan biri məhz vaxtında dayanmağı bacarmaqdır. Bu, asan deyil və biz bunu yaxşı anlayırıq. Biz 30 il qəlbimizdə bu yara ilə yaşamışıq. Lakin dayanmalı olduğumuz anda dayandıq.*
- *Dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən və dost olan Türkiyə və Azərbaycandan başqa digər iki dövlət tapmazsınız. Bu, xalqlarımız, ölkələrimiz üçün böyük zənginlikdir. Biz bir yerdə olanda daha güclüyük.*



# Azərbaycanı zirvələrə aparan siyasət

## Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt Azərbaycanın davamlı inkişafının və etibarlı gələcəyinin möhkəm təməlidir

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövründə həyata keçirdiyi məqsədyönlü siyasət təkcə respublikanın sosial-iqtisadi inkişafını təmin etmədi, eyni zamanda xalqımızın milli oyanışına və milli özünüdərk prosesinin güclənməsinə mühüm təkan verdi. Sovet ideoloji sisteminin mahiyyətini dərindən bilən, milli-mənəvi dəyərlərimizin müxtəlif vasitələrlə sıxışdırıldığını aydın görən Ulu Öndər böyük cəsarətlə bütün siyasi və ideoloji maneələrə sinə gərdi.

20

# DÖVLƏTİMİZ GÜCLÜDÜR, ORDUMUZ İRADƏMİZ YERİNDƏDİR

## Prezident İlham Əliyev Laçın, Şuşa, Xankəndi və Xocavəndə səfər edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Laçında "Həkəriçay" su anbarının təməlini qoyub.

Azərbaycan Prezidenti İlham Əliyev Laçında Hoçaz çayının üzərində yerləşən 14,7 meqavatlıq "Ağbulaq-1", 14,25 meqavatlıq "Ağbulaq-2" və 4 meqavatlıq "Şeylanlı" su-elektrik stansiyalarının onlayn formatda açılışında iştirak edib.

Həmin gün Prezident İlham Əliyev Şuşada tarix-memarlıq abidəsi olan "Sadıqcanın evi"nin bərpadan sonra açılışında iştirak edib.

Sonra Prezident İlham Əliyev Şuşanın Qarabağ küçəsində dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilmiş işlərlə tanış olub və Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilmiş "Yasəmən" hotelinin yeni korpusları ilə tanış olub.

Daha sonra Prezident İlham Əliyev "Xankəndi" hotelinin açılışında iştirak edib.

Prezident İlham Əliyev Şuşa rayonunun Kiçik Qaladərəsi kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub və kəndə qayıdan sakinlərlə görüşüb.

Prezident İlham Əliyev iyulun 11-də Xocavənd rayonunun Quzeyxırman və Güneyxırman kəndlərində olub və sakinlərlə görüşüb.

2-6



# Şuşadan ünvanlanan mesajlar

## IV Qlobal Media Forumu Azərbaycanın beynəlxalq siyasi nüfuzunu və strateji gücünü nümayiş etdirir

Azərbaycan qlobal dialoqların mühüm təşkilatçılarından biri olduğunu çoxdan sübut edib. Prezident İlham Əliyevin uzaqgörən rəhbərliyi ilə yürüdülən strateji kurs ölkəmizi mühüm beynəlxalq toplantıların keçirildiyi etibarlı və nüfuzlu məkana çevirib. Bu kontekstdə, Şuşa Qlobal Media Forumu da respublikamızın beynəlxalq informasiya müstəvisində güclənən mövqeyinin və uğurlu diplomatiyasının növbəti bariz nümunəsidir. Bu forum, sadəcə, media platforması deyil, rəsmi Bakının beynəlxalq münasibətlər sistemində formalaşdırdığı yeni siyasi dialoq formatıdır.

2022-ci ildə ilk dəfə keçirilən və sonrakı illərdə Şuşa Qlobal Media Forumu formatında davam etdirilən bu beynəlxalq təşəbbüs qısa müddətdə qlobal medianın nəbzini tutmağı bacarıb. Forumun ildən-ilə daha geniş iştirakçı coğrafiyasını əhatə etməsi, dünyanın müxtəlif ölkələrindən media rəhbərlərini, ekspertləri və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirməsi onun beynəlxalq nüfuzunun davamlı şəkildə artdığını göstərir.

18

# Etibarlı tərəfdaş, məsuliyyətli dövlət və mühüm geosiyasi aktor

## Prezident İlham Əliyevin xarici siyasəti sayəsində Azərbaycan bu gün beynəlxalq münasibətlər sistemində məhz belə tanınır

Azərbaycanın beynəlxalq əməkdaşlıq siyasətində Avropa dövlətləri ilə ikitərəfli münasibətlər xüsusi yer tutur. Həmin əməkdaşlıq enerji sektoru ilə bərabər, ticarət, investisiya, nəqliyyat, rəqəmsal texnologiyalar, müdafiə sənayesi, kənd təsərrüfatı, elm, təhsil və mədəniyyət kimi çoxsaylı sahələri əhatə edir. Bu, bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin əsas xüsusiyyətlərindən biri məhz müxtəlif dövlətlərlə milli maraqlara əsaslanan praqmatik tərəfdaşlıq münasibətlərinin qurulmasıdır.

Ölkəmizin bu münasibətlər fonunda İrlandiya ilə əməkdaşlığı xüsusi yer tutur. Son illər iki ölkə arasında siyasi dialoq daha da intensivləşmiş, iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycan və İrlandiya beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edir, qarşılıqlı səfərlər və siyasi məsləhətləşmələr həyata keçirilir. Ticarət əlaqələrinin genişləndirilməsi, informasiya texnologiyaları, təhsil, kənd təsərrüfatı, əczaçılıq və xidmət sektorunda əməkdaşlıq üçün geniş potensial mövcuddur.

19

◆ Prezident İlham Əliyevin Laçın, Şuşa, Xankəndi və Xocavəndə səfəri

# DÖVLƏTİMİZ GÜCLÜDÜR, ORDUMUZ GÜCLÜDÜR, İRADƏMİZ YERİNDƏDİR

## Prezident İlham Əliyev Laçında "Həkəriçay" su anbarının təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Laçında "Həkəriçay" su anbarının təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Prezident İlham Əliyevə layihə barədə məlumat verdi.





Bildirildi ki, layihəyə əsasən Azərbaycanın hüdudlarında formalaşan Həkəri çayı üzərində ümumi tutumu 100 milyon kubmetr, faydalı həcmi isə 90 milyon kubmetr olan su anbarı yaradılacaq, həmçinin suburaxma qabiliyyəti saniyədə 8 kubmetr, uzunluğu isə 172 kilometrə yaxın magistral boru kəməri inşa ediləcək.

Bu infrastrukturun Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Xocavənd və Ağdam rayonları üzrə təqribən 700 min nəfəri saniyədə 2,5 kubmetr həcmində keyfiyyətli içməli su ilə təmin etmək potensialı olacaq.

"Həkəriçay" su anbarından qidalanan magistral boru kəmərinin üzərində ümumi gücü 10.81 MVt olan 3 su-elektrik stansiyasının (SES) tikintisi də nəzərdə tutulur.

Qeyd edək ki, "Həkəriçay" su anbarı əhalinin keyfiyyətli və dayanıqlı içməli su təminatı ilə yanaşı, işğaldan azad edilmiş ərazilərimizin su ehtiyatlarının səmərəli idarə olunmasında, bölgənin, habelə ölkəmizin digər iri şəhərlərinin içməli su təchizatının yaxşılaşdırılmasında və regionların sosial-iqtisadi inkişafının dəstəklənməsində mühüm rol oynayacaq.

## Laçında Hoçaz çayının üzərində yerləşən su-elektrik stansiyalarının açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Laçında Hoçaz çayının üzərində yerləşən 14,7 meqavatlıq "Ağbulaq-1", 14,25 meqavatlıq "Ağbulaq-2" və 4 meqavatlıq "Şeylanlı" su-elektrik stansiyalarının onlayn formatda açılışında iştirak edib.**











AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Balababa Rzayev dövlətimizin başçısına Laçın rayonunun enerji potensialı və stansiyaların fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji zonası"na çevrilməsi barədə tapşırıqlarına uyğun olaraq, "Azərenerji" ASC tərəfindən regionda su-elektrik stansiyalarının tikintisi istiqamətində işlər ardıcıllıqla davam etdirilir.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçının su ehtiyatları əsasən ölkə ərazisində formalaşır. Belə ki, Kiçik Qafqazın ölkə daxilində Tərtərçaydan sonra ikinci ən böyük çayı hesab olunan Həkəriçay və onun qolları olan Hoçaz, Şəlvə, Zabux çayları üzərində indiyədək ümumi gücü 72,6 MVt olan 11 su-elektrik stansiyası tikilib.

Laçın rayonunun 8-10 MVt-lıq elektrik tələbat gücü tam olaraq "yaşıl enerji" hesabına qarşılanır. Artıq qalan enerji isə ölkə enerjisisteminə ötürülür.

Hazırda ümumi gücü 10,7 MVt olan 3 yeni SES-in tikintisi davam edir və onlar bu ilin sonunadək istismara veriləcək.

Laçın rayonunun 2040-cı il perspektivində elektrik tələbat gücünün 80 MVt olacağı gözlənilir. Mövcud və tikintisi planlaşdırılan SES layihələri nəzərə alınmaqla, rayon 15 il sonra da tam olaraq "yaşıl enerji" ilə təmin ediləcək.

❖ ❖ ❖

Laçın rayonunun mürəkkəb dağlıq relyefində, dəniz səviyyəsindən 2150 metr yüksəklikdə yerləşən 14,7 MVt-lıq "Ağbulaq-1" Su-Elektrik Stansiyası ölkə energetiklərinin icra etdiyi ən çətin mühəndislik layihələrindən biridir. Stansiya yol infrastrukturu olmayan ərazidə inşa edilərək yerli mütəxəssislərin peşəkarlığını və böyük texniki imkanlarını göstərir. Layihə çərçivəsində müasir baş suqəbuledici qurğu tikilib, suyun stansiyaya çatdırılması üçün 4,8 kilometr uzunluğunda, 1200 millimetr diametrli derivasiya boru xətti çəkilib. Stansiyanın fasiləsiz istismarı üçün bütün zəruri infrastruktur yaradılıb.

"Ağbulaq-1"stansiyasında ildə 93,2 milyon kVt-saat ekoloji təmiz elektrik enerjisi istehsal olunacaq. Bu, hər il 21 milyon kubmetr təbii qaza qənaət edilməsinə, 37 min ton karbon emissiyasının qarşısının alınmasına və təxminən 37 min nəfərin elektrik enerjisinə olan tələbatının "yaşıl enerji" hesabına ödənilməsinə imkan verəcək.

❖ ❖ ❖

Hoçaz çayı üzərində inşa edilən 14,25 MVt-lıq "Ağbulaq-2" Su-Elektrik Stansiyası yalnız elektrik enerjisi istehsalı deyil, həm də regionun enerji infrastrukturunun gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Stansiyada bütün istehsal prosesi müasir avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə həyata keçirilir. Layihə çərçivəsində stansiyanın enerjisistemə etibarlı inteqrasiyasını təmin etmək məqsədilə 110/10 kV-luq, 16 MVA gücündə yeni yarımstansiya tikilib.

Stansiyanın su təminatı üçün 5,7 kilometr uzunluğunda derivasiya xətti çəkilib.

"Ağbulaq-2" SES ildə 87,3 milyon kVt-saat elektrik enerjisi istehsal edəcək. Bunun nəticəsində hər il 19,6 milyon kubmetr təbii qaza qənaət olunacaq, atmosferə 35 min ton karbon emissiyasının atılmasının qarşısı alınacaq və təxminən 35 min nəfərin elektrik enerjisinə olan tələbatı "yaşıl enerji" hesabına təmin ediləcək.

❖ ❖ ❖

Laçın rayonunda inşa edilən 4 MVt gücündə "Şeylanlı" Su-Elektrik Stansiyası layihələndirilərkən ekoloji təhlükəsizliyin qorunması əsas prioritetlərdən biri olub. Çay ekosisteminin mühafizəsi məqsədilə balıqların təbii miqrasiyasına mane olmayan hidrotexniki həllər tətbiq edilib, istifadə olunan hidroaqreqatlar isə suyun təbii axınına və keyfiyyətinə mənfi təsir göstərmir.

Layihə çərçivəsində 1460 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib, mürəkkəb dağlıq relyefdə 4,8 kilometr uzunluğunda derivasiya xətti inşa olunub.

"Şeylanlı" SES-də ildə 19,4 milyon kVt-saat elektrik enerjisi istehsal ediləcək. Bu, hər il 4,4 milyon kubmetr təbii qaza qənaət edilməsinə, 8 min tondan çox karbon emissiyasının qarşısının alınmasına və təxminən 8 min nəfərin elektrik enerjisinə olan tələbatının "yaşıl enerji" hesabına təmin edilməsinə imkan verəcək. Stansiya regionun enerji təhlükəsizliyinin möhkəmləndirilməsi ilə yanaşı, ekoloji tarazlığın qorunmasına və iqtisadi inkişafa da töhfə verəcək.

❖ ❖ ❖

Qeyd edək ki, müasir texnologiyalar və beynəlxalq təcrübə əsasında qurulan, SCADA sistemləri ilə təchiz edilən bu üç su-elektrik stansiyası ölkənin vahid enerji sisteminə inteqrasiya olunaraq il ərzində ümumilikdə 200 milyon kilovat-saatdan çox ekoloji təmiz elektrik enerjisinin istehsalına imkan verəcək. Nəticədə ildə 45 milyon kubmetr təbii qaza qənaət ediləcək, atmosferə təxminən 80 min ton karbon emissiyasının atılmasının qarşısı alınacaq.

## Şuşanın Kiçik Qaladərəsi kəndində görülən işlərlə tanışlıq və kənd sakinləri ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Şuşa rayonunun Kiçik Qaladərəsi kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub və kəndə qayıdan sakinlərlə görüşüb.**





AZƏRTAC xəbər verir ki, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına kənddə görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, Kiçik Qaladərəsində 66 fərdi ev var. Onlardan 19-u yararsız, 47-si isə qismən yararlıdır. Bu evlərdən artıq 26-sı istismara hazırdır. Gələn il isə 21 ev hazır olacaq. İlkin mərhələdə kəndə 15 ailə (51 nəfər) qayıdıb. Bu ilin sonunadək isə daha 11 ailə (45 nəfər) qayıdacaq.

Kənddə sosial infrastrukturun yaradılması istiqamətində bir sıra işlər görülüb. Yeni qaz və su xətləri çəkilib, artezian quyusu bərpa edilib və hazırda 26 fərdi ev su şəbəkəsinə qoşulub, transformator məntəqəsi quraşdırılıb, elektrik hava xətləri bərpa olunub. Sakinlərin istirahəti üçün park və Bayraq meydanı salınıb, kənddaxili yollar asfaltlanıb.

Qeyd edək ki, Kiçik Qaladərəsi Şuşa rayonunun Qaladərəsi kənd inzibati ərazi dairəsinə daxildir və rayon mərkəzindən 40 kilometr cənub-qərbdə yerləşir. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. 2023-cü ildə antiterror əməliyyatı nəticəsində kəndin işğalına son qoyulub.

İşğaldan əvvəl kənd sakinləri əsasən heyvandarlıq, tərəvəzçilik və arıçılıqla məşğul olublar. Kənddə orta məktəb, uşaq bağçası, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi və rabitə şöbəsi fəaliyyət göstərirdi.

Dövlətimizin başçısı kənd sakini Əsəd Əsədovun evində oldu.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Sakinlər:** Salam, xoş gəlmisiniz. Cənab Prezident, Allah-taala Sizi başımızın üstündən əskik etməsin.

**Prezident İlham ƏLİYEV:** Necəsiniz, necə yaşayırsınız?

**Sakin:** Çox sağ olun, yaxşıyıq, Allah Sizdən razı olsun.

**Qadın sakin:** Allah köməyiniz olsun.

**Prezident İlham ƏLİYEV:** Şükür Allaha.

**Sakin:** Sizin sayənizdə. Bəli, bəli, şükür Allaha.

**Qadın sakin:** Allah şəhidlərimizə rəhmət eləsin.

**Prezident İlham ƏLİYEV:** Doğma Qarabağa qayıtmısınız.

**Sakin:** Əlbəttə, Sizin sayənizdə. Şəhidlərimizə Allah rəhmət eləsin, onların sayəsində, başda da Siz - Ali Baş Komandanımız olmaqla.

*Ardı 3-cü səh.*

◆ **Prezident İlham Əliyevin Laçın, Şuşa, Xankəndi və Xocavəndə səfəri**

# DÖVLƏTİMİZ GÜCLÜDÜR, ORDUMUZ GÜCLÜDÜR, İRADƏMİZ YERİNDƏDİR

## Şuşanın Kiçik Qaladərəsi kəndində görülən işlərlə tanışlıq və kənd sakinləri ilə görüş







*Əvvəli 2-ci səh.*






**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin. Ev şəraiti necədir?

**Sakin:** Çox gözəl, Sizin sayənizdə. Bəli, əlbəttə, yaxşıdır. Minnətdaram, hər bir şey yerindədir.

**Prezident İlham ƏLİYEV:** İşğal dövründə harada məskunlaşmışdınız?

**Sakin:** Qaradağ rayonunun "Ümid" qəsəbəsində.

**Prezident İlham ƏLİYEV:** "Ümid" qəsəbəsində?

**Sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** 1990-cı illərin sonlarında "Ümid" qəsəbəsində. O vaxtdan elə orada qalırdınız?

**Sakin:** Allah Ulu Öndər Heydər Əliyevə rəhmət eləsin. Bəli, bəli, orada qalmışıq.

**Prezident İlham ƏLİYEV:** Bir yerdə gəlmişdik.

**Sakin:** Bəli, elə o vaxtdan da orada qaldıq.

**Prezident İlham ƏLİYEV:** Sən necəsən, qızım?

**Sakin:** Allah Sizdən razı olsun.

**Prezident İlham ƏLİYEV:** Yaxşısan? Nə göyçək qızdır.

**Qadın sakin:** Sağ olun.

**Sakin:** Cənab Prezident, yenə deyirəm, bax, gördüyümüz bu mənzərənin hamısı Sizin sayənizdədir. Allah-taala Sizi var eləsin.

**Prezident İlham ƏLİYEV:** Ədalət bərpa edildi.

**Sakin:** Bəli, əlbəttə, o da Sizin sayənizdə oldu. "Dəmir yumruq" haraya vursa, ora Azərbaycandır, bəli.

**Prezident İlham ƏLİYEV:** Uzun illər işğal altında idi buralar.

**Sakin:** Bəli. Siz Azərbaycanın Zəfər tarixini yazdınız.

**Qadın sakin:** Allah köməyiniz olsun.

**Sakin:** Allah Sizdən razı olsun. Minnətdaram. Allah Sizi min budaq eləsin. Allah-taala Sizi bizim başımızın üstündən əskik etməsin.

**Prezident İlham ƏLİYEV:** Görürsünüz, burada qız əl çalır. Qızım əl çal, əl çal.

**Nümayəndə:** Cənab Prezident, Əsəd kişi Vətən müharibəsinin iştirakçısı olub.

**Sakin:** Bəli, Sizin tərəfinizdən də iki medalla təltif olunmuşam.

**Prezident İlham ƏLİYEV:** Hansı istiqamətlərdə? Bax, görürsən, anasının yanına qaçır. Gəl, şəkil çəkdirək, sonra gedərsən.

**Qadın sakin:** Əlbəttə.

**Prezident İlham ƏLİYEV:** O biri qız haradadır?

**Qadın sakin:** Gülər, Gülər.

**Prezident İlham ƏLİYEV:** Onunla ayrıca şəkil çəkdirərik. Deyəsən mənə öyrəşdi, hə? Hansı istiqamətdə?

**Sakin:** Cəbrayıl-Zəngilan istiqamətində. Güləbirddə minaya düşdük. Sizin tərəfinizdən iki medalla təltif edilmişəm.

**Prezident İlham ƏLİYEV:** Könüllü getmişdiniz?

**Sakin:** Bəli, könüllü getmişdim.

**Qadın sakin:** Xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Qadın sakin:** Allah köməyiniz olsun.

**Nümayəndə:** Bir, iki, üç otaq, bu da zal.

**Prezident İlham ƏLİYEV:** Yemək otağı.

**Sakin:** Müəllim, medallarım siz tərəfdədir.

**Nümayəndə:** Dörd otaq, bir də mətbəx.

**Prezident İlham ƏLİYEV:** Medalların buradadır.

**Sakin:** Laçın, Qubadlı. Bu da Vətən müharibəsi iştirakçısı. Allah Sizi var eləsin, çox sağ olun, minnətdarıq Sizə. Allah Sizdən razı olsun, Sizin qadanızı alım.

**Nümayəndə:** Bunun altında yardımçı tikililər də var, tam təsərrüfat imkanlı, böyük bir sahədir.

**Prezident İlham ƏLİYEV:** Mənzərə də çox gözəldir.

**Sakin:** Çox gözəl.

**Prezident İlham ƏLİYEV:** "Ümid" qəsəbəsində mənzərə belə deyildi.

**Sakin:** Xeyr.

**Prezident İlham ƏLİYEV:** Torpaq idi, toz-torpaq.

**Sakin:** Cənab Prezident, bilirsiniz, orada torpaqdan da çox nəmişlik idi. Allah Sizdən razı olsun.

**Prezident İlham ƏLİYEV:** Bura isə kurortdur. Buranın havası, suyu, təbiəti çox gözəldir.

**Sakin:** Sizin sayənizdə.

**Prezident İlham ƏLİYEV:** Hələ səhər açılanda adam baxanda göz oxşayır.

**Sakin:** Meyvələr var, Allaha şükür, gilas ağacları var.

**Prezident İlham ƏLİYEV:** Gilas, alma.

**Sakin:** Hər bir şey var.

**Prezident İlham ƏLİYEV:** Bura sizindir?

**Sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Gəl buraya, gəl, hara qaçdın? Hara qaçdın, ay qız?

**Sakin:** Baba ilə şəkil çəkdir.

**Prezident İlham ƏLİYEV:** Adı nədir?

**Sakin:** Gülər.

**Prezident İlham ƏLİYEV:** Gülər, maşallah.

**Qadın sakin:** Maşallah günün olsun, qadanı alım.

**Oğlan:** Cənab Prezident, şəkil çəkdirmək olar Sizinlə?

**Prezident İlham ƏLİYEV:** Gəlin çəkdirək. Bu, heyva ağacıdır?

**Sakin:** Bəli, heyva ağacıdır, armud ağacıdır.

**Prezident İlham ƏLİYEV:** Siz də gəlin, hamı birlikdə. Burada nə ilə məşğul olacaqsınız?

**Sakin:** Artıq mən burada işləyirəm.

**Qadın sakin:** Babanı öp, sən də babanı öp. Çox sağ olun.

**Nümayəndə:** Əsəd, nə ilə məşğul olacaqsan?

**Sakin:** Hazırda işləyirəm, polad yolda işləyirəm. İnşallah, gələcəkdə əgər icazə olsa, burada özüm üçün bir az heyvan da saxlayaram.

**Prezident İlham ƏLİYEV:** İcazə nədir? Məsləhətdir.

**Sakin:** Məsləhətdir.

**Prezident İlham ƏLİYEV:** Mütləq.

**Nümayəndə:** Biz ferma təsərrüfatları üçün yerli camaata şərait yaratdıq, burada da həmçinin.

**Sakin:** Bəli, bəli.

**Prezident İlham ƏLİYEV:** Qoyun, quzu, keçi. İndi burada bu qədər yem var mal-qara üçün. Heyvan saxlayın, quş saxlayın. Yəni bu torpaqdan istifadə edin. Su da var.

**Sakin:** Bostan əkəcəyəm. Cənab Prezident, bu şəraiti bizə yaratdığınız üçün çox sağ olun. Allah Sizdən həmişə razı olsun, həmişə var olasınız.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Sakin:** Minnətdaram.

**Prezident İlham ƏLİYEV:** Xoşbəxt olun.

**Sakinlər:** Siz sağ olun, sağ olun. Allah köməyiniz olsun, Allah balalarınızı saxlasın. Amin, sağ olun.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev kəndə qayıdan sakinlərlə görüşdü.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Sakinlər:** Salam cənab Prezident, xoş gəlmisiniz.

**Yaşlı qadın:** Səni verənin başına dönüm. Sənin bu qollarına qurban olum. Ermənini yumruqladın, rədd elədin. Bu yaşımda məni Vətənə gətirmisən.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, Allah cansağlığı versin, əyləşin.

**Yaşlı qadın:** 101 yaş istəyirəm səndən.

**Prezident İlham ƏLİYEV:** 101? Burada bu hava, bu su ki var, inşallah, olacaq. Qohum-əqrəba yanınızdadır. Əsas odur ki, doğma torpağınızdasınız.

**Yaşlı qadın:** Başına dönüm, sağ ol.

**Prezident İlham ƏLİYEV:** Necə yaşayırsınız burada?

**Yaşlı qadın:** Qəşəng.

**Prezident İlham ƏLİYEV:** Hava özü dərmandır burada, elə deyilmi?

**Yaşlı qadın:** Elədir. Bu, mənim nəvəmdir.

**Prezident İlham ƏLİYEV:** Çox gözəl. İnstitutda oxuyursan?

**Oğlan:** Bakı Mühəndislik Universitetində.

**Prezident İlham ƏLİYEV:** Yaxşı. Neçə yaşı var qadının?

**Qadın sakin:** 86.

**Prezident İlham ƏLİYEV:** 101-ə nə qalıb ki, cəmi 15 il.

**Yaşlı qadın:** 102 il yaşayacağam.

**Prezident İlham ƏLİYEV:** 100 olanda gəlib qeyd edəcəyik.

**Yaşlı qadın:** Allah Səni saxlasın ki, bu camaatı çox rahatlaşdırdın, çox, çox.

**Prezident İlham ƏLİYEV:** Bəs işğal dövründə harada yaşayırdınız?

**Kişi sakin:** Beyləqanda.

**Prezident İlham ƏLİYEV:** Beyləqanda yaşayırdınız.

**Yaşlı qadın:** Yox, Beyləqanın böyründə.

**Qadın sakin:** Baharabad kəndində.

**Prezident İlham ƏLİYEV:** Orada necə idi şərait?

**Yaşlı qadın:** Şükür, yaxşı idi. İki oğlum döyüşçü olub o vaxtı, Bakıda olurlar.

**Prezident İlham ƏLİYEV:** İndi bura cənnət kimi bir yerdir, elə deyilmi?

**Qadın sakin:** Əlbəttə.

**Prezident İlham ƏLİYEV:** 100 yaşa da 14 il qalıb.

**Yaşlı qadın:** Sənə qurban olum. Sənin adına qurban olum.

**Prezident İlham ƏLİYEV:** İnşallah, birlikdə qeyd edəcəyik. Sizi təbrik edirəm doğma Qarabağ torpağına qayıtmağınız münasibətilə. Sizə cansağlığı arzulayıram, uzun illər siz Vətən həsrəti ilə yaşamısınız müxtəlif yerlərdə. Artıq köçkün həyatı keçmişdə qaldı, indi doğma Qarabağ torpağında qürurla, fəxarətlə yaşayacaqsınız, quracaqsınız, böyüklərə, ağsaqqallara, ağbirçəklərə yaxşı baxacaqsınız. Uşaqlara yaxşı baxacaqsınız.

**Yaşlı qadın:** Beyləqanın böyrü Baharabad kəndi.

**Prezident İlham ƏLİYEV:** Baharabad da getdi artıq, qaldı keçmişdə. Keçmişdə qaldı, indi Qaladərəsi kəndi. Qaladərəsi.

**Yaşlı qadın:** İndi köçmüşəm buraya. Amma o vaxtı burada idim.

**Prezident İlham ƏLİYEV:** Hə, bilirəm, bilirəm. Burada idiniz, sonra getdiniz. İndi qayıtdınız.

**Kişi sakin:** Cənab möhtərəm Prezidentimiz, Allah Sizə cansağlığı versin. Allah Sizi qorusun, Allah övladlarınızı qorusun, Allah Ordumuzu qorusun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Kişi sakin:** Şəhidlərimizə Allah rəhmət eləsin.

**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin.

**Kişi sakin:** Qazilərimizə Allah şəfa versin. Çox sağ olun, sayənizdə, Ordumuzun sayəsində cənnətdəyik. Gətirdiniz bizi cənnətə. Allah Sizi qorusun.

**Qadın sakin:** Allah cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Doğma torpaqdır, iki həftə bundan əvvəl Silahlı Qüvvələr Gününü biz qeyd etmişik. Şanlı Ordumuz həm İkinci Qarabağ müharibəsində, həm antiterror əməliyyatında böyük qəhrəmanlıq göstərmişdir, Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Kişi sakin:** Amin, cənab Prezidentimiz.

**Prezident İlham ƏLİYEV:** Qaladərəsi kəndi 3 il bundan əvvəl - 2023-cü ilin sentyabr ayında azad edildi. İkinci Qarabağ müharibəsindən antiterror əməliyyatına qədər olan dövr ərzində əminəm ki, o vaxt hələ işğal altında qalmış ərazilərdə yaşamış insanlar da ümid edirdilər ki, gün gələcək, biz bu torpaqlara qayıdacağıq.

**Kişi sakin:** Sizi gözləyirdik, televizorda Sizi gözləyirdik. Sizdən başqa kimimiz var?!

**Qadın sakin:** Ümumiyyətlə, Sizin kimi dahi şəxsiyyətlə eyni əsrdə yaşamaq böyük qürurdur.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, qızım, çox sağ olun. Təbrik edirəm sizi. Burada xoşbəxt yaşayın, təbrik edirəm.

**Digər qadın sakin:** Şadam ki, bu gün Sizinlə görüşürəm. Çox arzusunda olmuşam.

**Prezident İlham ƏLİYEV:** Siz harada yaşamısınız, işğal dövründə harada məskunlaşmışdınız?

**Digər qadın sakin:** Xırdalanda. Şükür, Allah Sizə dəyməsin, Allah Ordumuzu qorusun, Allah şəhidlərimizə rəhmət eləsin.

**Qadın sakin:** Mən buradan çıxanda yaşyarımlıq idim, indi 37 yaşım var, öz Vətənimdəyəm və şadam ki, öz Şuşamdayam. İnşallah, burada davam edəcəyik, Sizi də burada görməyimizə çox şadıq.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, indi Azərbaycanın hər bir tərəfi hər birimiz üçün Vətəndir. Amma doğma Vətən ayrı bir şeydir.

**Kişi sakin:** Çox sağ olun, Mehriban xanıma da salamlarımızı çatdırın.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, mütləq çatdıraram. Onun da sizə salamları var.

**Kişi sakin:** Allah övladlarınızı qorusun.

**Prezident İlham ƏLİYEV:** Hər zaman bilməliyik ki, gec-tez ədalət öz yerini tutacaq. Sadəcə olaraq, iradə lazımdır, güc lazımdır, birlik lazımdır. Xalqımız bütün bu ülvi xüsusiyyətlərini nümayiş etdirdi.

**Digər qadın sakin:** Yumruq da ləzzət edirdi.

**Prezident İlham ƏLİYEV:** Yumruq da lazımdır.

**Digər qadın sakin:** Qadan alaram.

**Prezident İlham ƏLİYEV:** Ümid edirəm ki, yumruq dövrü daha olmayacaq.

**Digər qadın sakin:** Sağ olun. Bütün Azərbaycan Sizin arxanızdadır.

**Prezident İlham ƏLİYEV:** Amma əgər kimsə Azərbaycana xor gözlə baxsa, yenə də yumruq yerində olacaq.

**Kişi sakin:** Allah Heydər Əliyevə rəhmət eləsin. Allah canınızı sağ eləsin.

**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin.

**Digər qadın sakin:** Allah şəhidlərimizə rəhmət eləsin, onların sayəsində buradayıq. Anaları haqlarını halal eləsin. Amin. Qarşılarında baş əyirik şəhid analarımızın, Allah səbir versin.

**Prezident İlham ƏLİYEV:** Bəli, amin.

**Kişi sakin:** Dünyalar qədər Sizə təşəkkürümüz var. Sözlə çatdıra bilmirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Siz indi Xırdalandan, - hər halda böyük şəhərdir, - gəlmisiniz, burada darıxmırsınız ki?

**Sakinlər:** Yox, hər şey gözəldir.

**Kişi sakin:** Cənab Prezident, biz bu 35 ildə həsrətlə yaşamışıq, indi doğma yurdumuzdayıq, çox sağ olun. Sizin bugünkü gəlişiniz də tamam başqa bir hədiyyə oldu bizə. Çox sağ olun.

**Qadın sakin:** Cavan idim, komsomolçu idim, atanız tez-tez Şuşaya gələrdi. Onu görəndə hamımız həvəslə qarşısına qaçardıq. Elə bu saniyə onu xatırladım. Allah rəhmət eləsin. Onun da davamçısı Sizsiniz, həmişə Sizin arxanızdayıq. Çox sağ olun. Heydər baba bizim də babamızdır.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, Allah rəhmət eləsin. Bəli, o da rəhmətə gedəndə bilirsiniz, vəsiyyət etmişdi, onun vəsiyyətini yerinə yetirdik, ədaləti bərpa etdik.

**Digər qadın sakin:** Onun vəsiyyətini yerinə yetirdiniz, çox sağ olun. Allah Sizə ömür versin.

**Prezident İlham ƏLİYEV:** Görürsən, Gülər qızımız da əl çalır.

**Kişi sakin:** Heydər Əliyev tapşırıq verib, komandan kimi tapşırıq verib, tapşırıq da yerinə yetirilib. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Elədir.

**Kişi sakin:** Sizin yanınızdayıq, "Dəmir yumruğ"un yanındayıq həmişə.

**Prezident İlham ƏLİYEV:** Xalqımız kimi birlik nümayiş etdirən ikinci xalq olmayıb yaxın keçmişdə. Qələbəmizin əsas səbəbi də budur. Yumruq həm də birliyin, gücün rəmzidir. Hər ikisini də biz nümayiş etdirdik.

**Kişi sakin:** Sərkərdə yerindədir, cənab Prezident, o yumruq da yerindədir, sağ olun, Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Gəlin, birlikdə şəkil çəkdirək.

❖ ❖ ❖

Sonda xatirə şəkilləri çəkdirildi.

◆ **Prezident İlham Əliyevin Laçın, Şuşa, Xankəndi və Xocavəndə səfəri**

# DÖVLƏTİMİZ GÜCLÜDÜR, ORDUMUZ GÜCLÜDÜR, İRADƏMİZ YERİNDƏDİR

## Şuşada "Sadıqcanın evi"nin bərpadan sonra açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Şuşada tarix-memarlıq abidəsi olan "Sadıqcanın evi"nin bərpadan sonra açılışında iştirak edib.**













AZƏRTAC xəbər verir ki, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşa şəhərinin işğalı dövründə bina uzun müddət baxımsız qalıb, nəticədə dam örtüyündə, döşəmələrdə və daş hörgülərdə ciddi aşınma və dağıntılar baş verib. Tikilinin memarlıq elementlərinin bir hissəsi zədələnib, mühəndis-kommunikasiya sistemləri tamamilə yararsız vəziyyətə düşüb.

Azərbaycan Prezidentinin 2022-ci ildə imzaladığı sərəncama əsasən, Şuşa şəhərində Azərbaycan musiqiçisi, tarzən, bəstəkar və tarı təkmilləşdirən sənətkar Mirzə Əsəd oğlu Sadıqın - Sadıqcanın yaşadığı evin layihələndirilməsi və bərpası məqsədilə vəsait ayrılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci ildə Şuşa şəhərində Sadıqcanın yaşadığı evə baxıblar. Bir il sonra dövlətimizin başçısı burada icra ediləcək işlərin layihə konsepsiyası ilə tanış olub və 2024-cü ildə bu tarix-memarlıq abidəsində bərpa işlərinə başlanılıb.

Sadıqcanın zirzəmi və iki mərtəbədən ibarət ev-muzeyi Şuşa şəhərinin Sadıqcan küçəsində yerləşir. Sivri tağlı pəncərələr və giriş qapısının nisbətən iri daşlarla işlənməsi memarlıq baxımından binaya xüsusi gözəllik verir.

Sadıqcanın ev-muzeyi ölkə əhəmiyyətli tarix-memarlıq abidələri siyahısındadır.

Ev-muzeydə Sadıqcanın həyat və yaradıcılığına, Azərbaycan milli musiqi irsinə və Şuşanın zəngin ədəbi-bədii mühitinə həsr olunmuş ekspozisiya sahələri, konsert zalı, muğam ekspozisiya otağı, həmçinin kafe, suvenir mağazası, qeydiyyat bölməsi və musiqi alətləri emalatxanası yaradılıb.

Dövlətimizin başçısına "Əbədiyyətin səsi" əsəri barədə məlumat verildi.

Bildirildi ki, bu heykəltaraşlıq əsəri Azərbaycanın milli musiqi aləti olan tarın rəmzi - bədii interpretasiyasıdır. Kompozisiyada tarın simlərindən doğan ağac obrazı musiqinin torpaqdan qaynaqlandığını, milli yaddaşdan güc aldığını və yenidən həyata çevrildiyini ifadə edir. Ağac forması kök, davamlılıq və dirçəliş ideyasını simvolizə edir.

Əsər Azərbaycanın musiqi beşiyi sayılan Şuşanın zəngin mədəni irsinə ithaf olunub.

Burada musiqi yalnız səs deyil, həm də milli kimliyin, ruhun və tarixi yaddaşın daşıyıcısı kimi təqdim edilir.

Abidənin müəllifi Əməkdar rəssam Rəşad Mehdiyevdir.

## Şuşanın Qarabağ küçəsində dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilmiş işlərlə tanışlıq









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Şuşanın Qarabağ küçəsində dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilmiş işlərlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Şuşanın Qarabağ küçəsində dövlət-özəl tərəfdaşlığı çərçivəsində yerli investorlar tərəfindən ümumilikdə müxtəlif təyinatlı 10 bina inşa edilib. Onların arasında mehmanxana, apart hotellər, ofislər, iaşə obyektləri var. Tikinti işlərinin aparılması zamanı keyfiyyətlə yanaşı, binaların Şuşanın ümumi görünüşünə uyğun olmasına da xüsusi diqqət yetirilib. Bu layihənin icrası ilk növbədə tarixi şəhərimiz və mədəniyyət paytaxtımız olan Şuşanın inkişafı istiqamətində atılan addımların bir hissəsidir. Binaların inşası şəhərin gözəlliyinə əlavə rəng qatır, burada aparılan bərpa-yenidənqurma işlərinin həcmini göstərir. Bu, eyni zamanda Şuşanın iqtisadi həyatının canlanmasına, şəhərin sakinlərinin və qonaqlarının rahatlığının təmin olunmasına da töhfə verir.

Qeyd edək ki, layihə həm də Azərbaycanda dövlət-özəl tərəfdaşlığının yüksək səviyyədə qurulduğunu aydın şəkildə nümayiş etdirir.

## Prezident İlham Əliyev Şuşada "Yasəmən" hotelinin yeni korpusları ilə tanış olub











**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilmiş "Yasəmən" hotelinin yeni korpusları ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Qeyd edək ki, "Yasəmən" hotelinin açılışı 2023-cü ildə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə olub.

Orijinal görkəminə uyğun üslubda bərpa edilən "Yasəmən" hotelinin eksteryer və interyeri Şuşanın Orta əsr üslubuna uyğun layihələndirilib. XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbi tərzində inşa edilmiş bina işğal zamanı dağıdılmışdı. Heydər Əliyev Fondu həmin binada layihələndirmə işləri aparıb və 2023-cü ildən - bərpa işlərindən sonra binada fəaliyyət göstərən hotelin iki korpusu artıq qonaqları qəbul edir. Hazırda isə "Yasəmən" hotelinin yeni korpusları olan daha 4 binada Heydər Əliyev Fondu tərəfindən bərpa və tikinti işləri görülüb.

Bərpa layihəsində qədim Şuşa evlərinin memarlıq xüsusiyyətləri əsas götürülərək yeni konsepsiya əsasında planlaşdırma aparılıb. Butik konseptli yeni korpuslarda həmçinin aynabənd və terras zonalar yaradılıb.

Bərpadanəvvəlki arxiv fotoşəkillərinə əsasən qapı və pəncərələr orijinal memarlıq üslubuna uyğun olaraq yenidən hazırlanıb. Həyətyanı sahədə yaşıllaşdırma və abadlaşdırma işləri aparılıb.

◆ **Prezident İlham Əliyevin Laçın, Şuşa, Xankəndi və Xocavəndə səfəri**

# DÖVLƏTİMİZ GÜCLÜDÜR, ORDUMUZ GÜCLÜDÜR, İRADƏMİZ YERİNDƏDİR

## Prezident İlham Əliyev Xocavənd rayonunun Quzeyxırman kəndində olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Xocavənd rayonunun Quzeyxırman kəndində olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına burada Quzeyxırman və Güneyxırman kəndlərində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlər barədə məlumat verilib.

Sonra Prezident İlham Əliyev hər iki kəndə qayıdan sakinlərlə görüşüb.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına Quzeyxırman və Güneyxırman kəndlərində sosial infrastrukturla bağlı görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Güneyxırman Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsində yerləşir. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 2023-cü ildə keçirilən antiterror əməliyyatı nəticəsində kəndin işğalına son qoyulub. İşğaldan əvvəl sakinlər əsasən heyvandarlıq, üzümçülük və əkinçiliklə məşğul olublar. Burada 2 məktəb, uşaq bağçası, xəstəxana, mədəniyyət evi, klub, kitabxana, idman kompleksi, çörək istehsalı müəssisəsi və rabitə şöbəsi fəaliyyət göstərib.

Kənddə ümumilikdə 549 fərdi ev var. Onlardan da 170-i yararsız, 379-u qismən yararlıdır. Artıq 50 ev istismara hazırdır, 147 evdə isə təmir işləri davam edir. Digər 182 evin isə təmir-bərpası ilə bağlı hazırlıq işləri gedir.

Bir neçə gün əvvəl kəndə 18 ailə (72 nəfər) qayıdıb.

Kənddə sosial infrastruktur sahəsində bir sıra işlər görülüb, yeni qaz xətti çəkilib, mövcud xətdə isə bərpa işləri aparılıb, subartezian quyularında nasos avadanlıqları quraşdırılıb, nasos stansiyasının tikintisi davam etdirilir. Kənddaxili su şəbəkəsi yenidən qurulub, fiber-optik kabel çəkilib.

❖ ❖ ❖

Quzeyxırman Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxildir. 1992-ci ildə işğal olunan kənd Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib. İşğaldan əvvəl kənd sakinləri üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olublar. Burada orta məktəb, uşaq bağçaları, klub, kitabxana fəaliyyət göstərib.

Quzeyxırman kəndində 447 fərdi ev var. Onlardan da 65-i yararsız, 382-si qismən yararlıdır. 244 evdə təmir-bərpa işləri aparılır və bunlardan da 100-ü artıq istismara hazırdır. Digər 144 evdə görülən işlər növbəti aylarda yekunlaşacaq. Qalan 138 evdə isə təmir-bərpa işlərinə hazırlıq görülür.

Bir neçə gün əvvəl kəndə ilkin mərhələdə 21 ailə (87 nəfər) qayıdıb.

Kənddə sosial infrastrukturun yaradılması istiqamətində bir sıra işlər görülüb. Belə ki, yeni qaz xətləri çəkilib, mövcud xətt bərpa edilib, subartezian quyuları nasos avadanlıqları ilə təchiz olunub, su şəbəkəsi və nasos stansiyası yenidən qurulub. Mövcud transformator məntəqələri, elektrik hava xətləri və kənddaxili elektrik şəbəkəsi bərpa olunub, fiber-optik kabel xətti çəkilib. Bundan başqa, 460 şagird yerlik Quzeyxırman kənd tam orta ümumtəhsil məktəbinin və 40 yerlik körpələr evi-uşaq bağçasının binaları təmir olunub. Kənddə ictimai-iaşə obyektləri istifadəyə verilib.

❖ ❖ ❖

Sonra dövlətimizin başçısı kəndə köçən İsa Gözəlovun evində oldu.










**Sakin:** Salam, cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Salam, xoş gördük.

**Sakin:** Xoş gəlmisiniz, cənab Prezident. Sağ olun, xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm. Salam, salam.

**Sakin:** Cənab Prezident, biz çox sevindik. Bu gün bizim üçün tarixdə qalan bir gündür ki, öz dədə-baba yurdumuza - Qarabağa qayıtmışıq.

**Prezident İlham ƏLİYEV:** Xoş gəlmisiniz.

**Digər sakin:** Sağ olun, Allah ömrünüzü uzun eləsin.

**Prezident İlham ƏLİYEV:** Burada - doğma Qarabağ torpağında rahat yaşayacaqsınız.

**Sakin:** Bəli, çox sağ olun. Çox gözəl bir gündür ki, övladım, üzr istəyirəm, əsgərliyə buradan yola düşəcək, inşallah.

**Prezident İlham ƏLİYEV:** Nə vaxt?

**Sakin:** İnşallah, həftənin birinci günü.

**Prezident İlham ƏLİYEV:** Çox gözəl, çox yaxşı qulluq elə.

**Oğlan:** İnşallah, çox sağ olun.

**Sakin:** Siz də xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Necədir ev şəraitiniz?

**Sakin:** Yaxşıdır, hər şey yaxşıdır, qaydasındadır. Keçin.

**Prezident İlham ƏLİYEV:** Bağçanızdır?

**Sakin:** Bəli, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Kifayət qədər böyükdür. Neçə sotdur?

**Sakin:** 20 sotdur.

**Qadın sakin:** İnşallah, bostan əkəcəyik.

**Prezident İlham ƏLİYEV:** Meyvə ağacları da var.

**Sakin:** Bəli, hər cür meyvə ağacları var.

Evə daxil olurlar.

**Prezident İlham ƏLİYEV:** Çox genişdir.

**Sakin:** Evdə hər şey əladır.

**Prezident İlham ƏLİYEV:** Neçə gündür köçmüsünüz?

**Sakin:** Biz dörd gündür buradayıq. Dörd gündür ki, özümüzü çox yaxşı hiss edirik. Hər şey əladır.

**Prezident İlham ƏLİYEV:** Çox gözəl.

**Sakin:** Bəli, çox gözəl, əla. Allah Sizi qorusun. Biz Sizinlə fəxr edirik.

**Prezident İlham ƏLİYEV:** Cansağlığı arzulayıram, xoşbəxt yaşayın burada. Siz buna layiqsiniz.

**Sakin:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Uzun illər köçkün həyatı yaşamaq çətin şeydir.

**Sakin:** Çətin idi. Mən özüm də 44 günlük Vətən müharibəsinin iştirakçısıyam. Biz Sizinlə fəxr edirik. Siz bütün dünyada nümunəvi ölkə başçısısınız. Hər bir vətəndaşın yanına belə səmimi, belə rahat gəlirsiniz, hər bir vətəndaşa bir dövlət başçısı kimi xeyir-dua verirsiniz. Bu bizim üçün tarixdə qalan bir gündür ki, bu gün biz yeni evimizdə cənab Prezidentimizin xeyir-duasını alırıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Sizə təşəkkür edirəm, Vətənin qorunmasında fəal iştirak etmisiniz. 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir, qürur mənbəyimizdir.

**Sakin:** Bəli, Allah Sizi qorusun, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Hansı istiqamətlərdə iştirak etmisiniz?

**Sakin:** Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı.

**Yaşlı sakin:** Çox sağ olun ki, gəlmisiniz. Biz özümüz Xocavənd rayonunun Kuropatkino kəndindənik. Siz camaatı, köçkünlərin hamısını yerbəyer elədiniz, torpaqlarımızı azad etdiniz. İndi hamı öz torpağında, öz yerində, öz yurdundadır. Çox sağ olun, Allah canınızı sağ eləsin, Allah Sizə dəyməsin. Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Allah uzun ömür versin ki, doğma Qarabağ torpağında bundan sonra gözəl, firavan həyat yaşayasınız.

**Sakin:** Çox sağ olun. Allah Ulu Öndərimizə də rəhmət eləsin.

**Prezident İlham ƏLİYEV:** Uşaqlar da maşallah, böyüyəcək.

**Sakin:** Allah Ulu Öndərimizə rəhmət eləsin. Onun Sizin kimi çox gözəl bir övladı var ki, Ulu Öndərimizin də arzusunu yerinə yetirib. Ulu Öndərimiz həmişə deyərdi ki, qarabağlılar hamısı öz yerinə qayıdıb öz yerində, öz yurdunda yaşayacaq. Allah Ulu Öndərimizə rəhmət eləsin.

**Prezident İlham ƏLİYEV:** Qayıdırlar.

**Yaşlı sakin:** Özü görmədi, amma Siz qaytardınız.

**Prezident İlham Əliyev:** "Böyük qayıdış" proqramı da uğurla icra edilir. Demək olar ki, hər həftə olmasa da, hər ay bir qrup keçmiş köçkün öz doğma torpağına qayıdır, yerləşir, dövlət tərəfindən belə gözəl evlərlə təmin edilir.

**Sakin:** Çox gözəldir, həqiqətən, çox gözəldir.

**Prezident İlham ƏLİYEV:** Burada iş şəraiti gözəldir, yaşamaq üçün gözəl şərait var. Gözəl mənzərəli yerlərdir, səfalı yerlərdir. Suyu var, təmiz havası var. Torpağı da münbitdir. Siz qarabağlılar da yaxşı bilirsiniz ki, buranın çox gözəl torpağı var. Əkib-becərmək, maldarlıqla məşğul olmaq, yəni ölkəmizi gücləndirmək, Qarabağı çiçəkləndirmək - hamımızın işidir.

**Sakin:** Bəli, biz daim Sizin yanınızdayıq, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** İşğal dövründə siz harada yerləşmişdiniz?

**Sakin:** Beyləqanda.

**Prezident İlham ƏLİYEV:** Dövlət tərəfindən salınan Xocavənd qəsəbəsində?

**Yaşlı sakin:** Bəli, Xocavənd qəsəbəsində.

**Prezident İlham ƏLİYEV:** İndi burada şərait çox gözəldir. Əsas odur ki, doğma Vətəndir, doğma torpaqdır və havası da kurort havasıdır.

**Sakin:** Bəli, çox gözəldir, kurort havasıdır. Sizinlə bir xatirə şəkli çəkdirək?

**Prezident İlham ƏLİYEV:** Hə, gəlin çəkdirək, istəyirsiniz çöldə çəkdirək.

**Sakin:** Bəli, çöldə, həyətdə. Necə istəyirsiniz, elə çəkdirək.

**Prezident İlham ƏLİYEV:** Gəlin, gəlin, gəlin.

Həyətdə xatirə şəkilləri çəkdirildi.

**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirəm sizi, sağ olun uşaqlar. Sağ olun.

**Sakin:** Allah Sizi qorusun. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖ ❖ ❖

**Sakin:** Biz Sizinlə fəxr edirik.

**Prezident İlham ƏLİYEV:** Mən də fəxr edirəm ki, xalqımız əzab-əziyyətə ləyaqətlə dözdü və düşməni də torpaqlarımızdan qovdu - sənin kimi insanlar.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev hər iki kəndə qayıdan sakinlərlə görüşdü.

**Prezident İlham ƏLİYEV:** Salam, xoş gördük.

**Sakinlər:** Çox sağ olun. Allah razı olsun. Allah Sizə ömür versin, cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Bu həyatı bizə bəxş etdiyiniz üçün Sizə minnətdarıq.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Sakin:** Allah Sizə uzun ömür versin, cansağlığı versin. Bizi arzumuza çatdırdınız, möhtərəm cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm, yenidən doğma Qarabağa xoş gəlmisiniz.

**Qadın sakin:** Allah köməyiniz olsun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, çox sağ olun.

**Sakin:** Allah canınızı sağ eləsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Necə yerləşdiniz burada?

**Sakinlər:** Əla, çox sağ olun. Çox gözəl. Allah canınızı sağ eləsin, sağ olun.

**Kişi sakin:** Cənab Prezident, Allah Sizdən çox razı olsun. Ulu Öndərimizin siyasətini davam etdirdiniz. Yağı düşmənlərdən torpağımızı azad etdiniz. Allah Sizə cansağlığı versin, ailənizi qorusun, Sizi bizim üzərimizdən əskik etməsin.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Kişi sakin:** O vaxt Ulu Öndərlə bizim şəklimiz var. Bu, mənəm. Bu da Əliyev. 1994-cü ilin aprel ayında bizimlə birbaşa səngərdə görüşdü, tövsiyələrini verdi. Bütün əsgərlərdə, şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratdı.

**Prezident İlham ƏLİYEV:** Bəli, bəli. Bu Beyləqan istiqamətidir?

**Sakin:** Ağdam istiqamətidir.

**Prezident İlham ƏLİYEV:** 1994-cü il.

**Sakin:** Ulu Öndərimiz gəlib-qayıdandan sonra biz bir neçə kilometr irəlilədik.

**Prezident İlham ƏLİYEV:** Tarixi şəkildir.

**Sakin:** Bəli, bəli. İcazə verin, qolunuza girim, Sizi məndən heç kim almasın.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Qadın sakin:** Qədəmləriniz mübarək. Xoş gəlmisiniz, qalib xalqın qalib oğlu. Çox xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Qadın sakin:** Mehriban xanıma bizim salamlarımızı çatdırın.

**Prezident İlham ƏLİYEV:** Mütləq. Onun da sizə salamları var.

**Qadın sakin:** Allah köməyiniz olsun, Allah Sizi qorusun. Heç vaxt başımızın üstündən əskik olmayasınız. "Dəmir yumruq" yerindədir.

**Prezident İlham ƏLİYEV:** Həmişə. Xalq da mənim arxamdadır.

**Kişi sakin:** Çox sağ olun, cənab Prezident. Allah Sizi başımızın üstündən əskik etməsin.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Qadın sakin:** Çox sağ olun, Allah köməyiniz olsun. Sizin bir əmrinizlə cavanlarımız bu torpağı azad elədi. Çox sağ olun, Allah Sizi var eləsin.

**Prezident İlham ƏLİYEV:** Elədir, fəxr edirik cavanlarımızla.

**Şəhid anası:** Allah Səni qorusun, Allah balalarını qorusun. Bizə bu günü yaşatdığına görə çox sağ ol. Biz şəhid analarına göstərdiyin qayğıya görə çox sağ ol.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Allah şəhidlərimizə rəhmət eləsin.

**Sakinlər:** Amin.

*Ardı 6-cı səh.*

◆ Prezident İlham Əliyevin
Laçın, Şuşa, Xankəndi və Xocavəndə səfəri

# DÖVLƏTİMİZ GÜCLÜDÜR, ORDUMUZ GÜCLÜDÜR, İRADƏMİZ YERİNDƏDİR

## Prezident İlham Əliyev Xocavənd rayonunun Quzeyxırman kəndində olub






*Əvvəli 5-ci səh.*

**Prezident İlham ƏLİYEV:** Bu Zəfər günlərinə görə onlara borcluyuq. Onların qanı bahasına bu torpaqlara qayıtdıq.

**Qadın sakin:** Sağ olun, Allah Səni saxlasın.

**Prezident İlham ƏLİYEV:** Sən sağ ol.

**Kişi sakin:** Çox sağ olun, Allah Sizi var eləsin. Xoş gəlmisiniz.

**Sakin:** Necəsiniz?

**Prezident İlham ƏLİYEV:** Sağ ol, sən necəsən?

**Sakin:** Allah Sizi var eləsin.

**Prezident İlham ƏLİYEV:** Medal hansıdır?

**Sakin:** Suqovuşan.

**Prezident İlham ƏLİYEV:** Çətin yer idi, çox təhlükəli.

**Sakin:** Düzdür, sağ olun, Allah köməyiniz olsun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Mən gəldim sizi təbrik edim. Bilirəm ki, bir neçə gündür doğma Qarabağ torpağına qayıtmısınız uzun fasilədən sonra. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

**Sakinlər:** Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Hər dəfə keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdanda hamımız üçün bayramdır, bütün Azərbaycan xalqı üçün bayramdır. İndi elə ay olmur ki, qrup-qrup şəklində keçmiş köçkünlər öz doğma torpaqlarına qayıtmasın. Elə olur ki, hər həftə, hər ay, hər gün. Bundan sonra bu proses daha geniş vüsət alacaq. Çünki bildiyiniz kimi, İkinci Qarabağ müharibəsindən sonra birinci mərhələdə gərək o torpaqları bu minalardan təmizləyəydik, bu işlər hələ davam edir. Erməni millətçiləri, işğalçılar bütün torpaqlarımızı viran qoymuşdur, heç nə yox idi, daş daş üstündə qalmamışdı. Gərək lazım olan şəraiti yaradaydıq - elektrik olsun, su, qaz, yollar. Ondan sonra evlərin tikintisi, evlərin bərpası.

Bir halda ki, əsas bu yol, nəqliyyat, körpü, qaz, işıq məsələləri öz həllini tapır, keçmiş köçkünlərin qayıdışı da sürətlə gedəcək. Əlbəttə ki, bu ərazilər, Xocavənd rayonunun böyük hissəsi İkinci Qarabağ müharibəsindən sonra hələ də işğal altında idi, o cümlədən bu kəndlər. Ancaq bilirəm siz də bilirdiniz, biz də bilirdik ki, bu, belə qalmayacaq və hər qarış torpaq Azərbaycana qayıdacaq, onları biz qaytaracağıq və qaytardıq da.

Son 5-6 il ərzində xalqımız qürur hissi ilə yaşayır, haqlı olaraq. Biz bütün dünyaya göstərdik ki, böyük xalqıq, öz dədə-baba ənənələrimizə sadiqik. Baxmayaraq ki, uzun illər torpaqlarımız işğal altında idi, insanlarımızın böyük hissəsi qaçqın-köçkün şəraitində yaşayırdı, ancaq bizim iradəmiz sınmadı. İnanırdıq və nəinki inanırdıq, bilirdik ki, gün gələcək və biz bu torpaqlara torpaqların sahibləri kimi qayıdacağıq. Buna nail olmaq üçün, əlbəttə ki, bütün xalq birləşməli idi və birləşdi də. İkinci Qarabağ müharibəsi bunu əyani şəkildə bütün dünyaya göstərdi.

Əlbəttə, bu birlik uzun illər ölkəmizi gücləndirirdi və addım-addım, hər gün biz bu şanlı Qələbəyə doğru irəliləyirdik. Hərə öz yerində - kimi təsərrüfat işləri ilə məşğul idi, kimi ordu quruculuğu ilə, kimi uşaqları vətənpərvərlik ruhunda böyüdürdü. Hərə öz yerində bu tarixi günü yaxınlaşdırırdı. Şəhidlərimizin ruhu qarşısında bu gün biz yenə də özümüzə və xalqımıza, dövlətimizə and içməliyik ki, istənilən halda biz öz milli ləyaqətimizi qoruyacağıq. Bundan sonra heç kim heç vaxt bizim xalqımıza zərər vurmayacaq. Dövlətimiz güclüdür, ordumuz güclüdür, iradəmiz yerindədir. İkinci Qarabağ müharibəsi və ondan 3 il sonra antiterror əməliyyatı, bir daha deyirəm, bütün dünyaya xalqımızın nəyə qadir olduğunu göstərdi.

Son 80 il ərzində Azərbaycan dövləti və xalqı qədər heç bir dövlət, heç bir xalq buna oxşar Qələbə



qazanmamışdır, özü də cəmi 44 gün ərzində. İndi dünyada gedən hadisələri hamımız izləyirik. Əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində münaqişələr, müharibələr alovlanır, dayanmır, davam edir. Bu müharibələrin gedişatına da baxdıqda hər şey göz qabağındadır və hər şey müqayisə ilə ölçülür. Müqayisə edəndə bir daha görürük ki, 44 gün ərzində belə çətin relyefi nəzərə alaraq, düşmənin 7 müdafiə xəttini nəzərə alaraq, - nəzərə alsaq ki, Ermənistanın arxasında böyük dövlətlər dayanmışdı və bu 44 gün ərzində bizə təzyiqlər, hədələr, təhdidlərlə dolu siqnallar göndərilmişdir, - bütün bunlara rəğmən, bunlara baxmayaraq, biz istədiyimizə nail olduq. Çünki haqq-ədalət bizim tərəfimizdə idi, güclü iradə bizdə idi və Azərbaycan xalqı birləşmişdi. Bax, 44 gün ərzində bir nəfər belə olsun döyüş meydanını tərk etmədi. Amma ermənilər özləri etiraf edirlər, özü də yüksək səviyyədə ki, onların 11-12 min fərarisi olmuşdur. Xalqımızın böyüklüyü budur. Bizim gənclər o müdafiə xətlərini yarmaq üçün sinələrini qabağa verirdilər. Heç düşünmürdülər ki, sağ qalacaqlar, qalmayacaqlar. Bir daha deyirəm, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onları irəliyə aparan milli ruh idi, ləyaqət idi. Qarabağı işğalçılardan azad edənlərin mütləq əksəriyyəti bu torpaqları heç vaxt görməmişdi. Dünyaya gözlərini açanda artıq bu torpaqlar işğal altında idi. Ancaq cəmiyyətdə və xalqımızda Qarabağ ağrısı o qədər ağır idi, bu yaramız o qədər bizi incidirdi ki, hər bir vətənpərvər insan bir amalla yaşayırdı, bizim Qələbəmizə öz töhfəsini versin.

Bu gün artıq şanlı Zəfərimizdən təxminən 6 il keçir, biz bu torpaqları, bu əraziləri bərpa edirik. Ermənistan dövləti bizim torpaqlarımızı talan edib, viran qoyub. Biz isə qurub-yaradırıq, şəhərlər, kəndlər dirçəlir. Hər dəfə Qarabağda, Şərqi Zəngəzurda olanda və bu gözəl inkişafı görəndə, əlbəttə ki, ürəyim sevinir. Bir daha əmin oluram ki, biz nə qədər böyük xalqıq, qurub-yaradan xalqıq. Bu torpaqların sahibləri bizik, bütün dünya bunu artıq nəinki bilir, hətta qəbul edir. Bəziləri istəməsələr belə bunu qəbul etməyə məcburdurlar, çünki biz öz həqiqətlərimizi onlara qəbul etdirmişik.

Bu gün azad edilmiş torpaqlarda 90 mindən çox insan yaşayır, çalışır, təhsil alır və hər ay onların sayı artır və artacaq. Sizin üçün də dövlət gözəl evlər tikib, bərpa edib. Burada bütün şərait var. Təbiəti gözəl, havası təmiz, suyu bol, torpağı münbit. Sadəcə, sizə cansağlığı arzulayıram ki, xoşbəxt yaşayasınız. Dərd-bəla olmasın bundan sonra, uşaqları yaxşı böyüdəsiniz, vətənpərvərlik ruhunda. Azərbaycan xalqına, dövlətinə ürəklərində sevgi ilə böyüsünlər. Lazım olanda, - inanıram ki, daha lazım olmayacaq, - amma lazım olanda hamı bilməlidir ki, "Dəmir yumruq" yerindədir və yerində olacaq.

Gəlin, şəkil çəkdirək.

❖ ❖ ❖

Sonra xatirə şəkilləri çəkdirilir.

# Prezident İlham Əliyev "Xankəndi" hotelinin açılışında iştirak edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də "Xankəndi" hotelinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına "Xankəndi" Mehmanxana Kompleksinə aid "Xankəndi" hotelində yaradılmış şərait haqqında məlumat verdi.

Bildirildi ki, dördmərtəbəli hotel binasında qonaqların rahat qalması üçün hərtərəfli şərait yaradılıb. Burada ümumilikdə 101 otaq var. Otaqlardan 92-si "deluxe", 4-ü "superior", 3-ü "deluxe suite" və 2-si isə "executive suite" kateqoriyalarına aiddir. Hoteldə eyni vaxtda 236 qonaq qala bilər. Burada bir sıra ictimai iaşə obyektləri, o cümlədən kafe, restoranlar və idman zalı fəaliyyət göstərəcək.

Hoteldə 45 nəfər işlə təmin ediləcək. Onlardan 20-si işğal-



dan azad edilmiş şəhər və rayonlardan olan sakinlərdir.

Qeyd edək ki, işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Xankəndidə də turizm infrastrukturunun inkişafına xüsusi önəm verilir. Qədim tarixə malik Xankəndi şəhərində müasir hotellərin, istirahət mərkəzlərinin və iaşə obyektlərinin yaradılması bu gün prioritet istiqamətlərdən biridir. Bu, qonaqlar üçün yüksək standartlara uyğun rahat mühit yaratmaqla yanaşı, Xankəndinin bərpasındakı sürətli dinamikanı və görülən işlərin real miqyasını birbaşa nümayiş etdirir.

4TH SHUSHA GLOBAL MEDIA FORUM

## IV Şuşa Qlobal Media Forumu

# İlham Əliyevin dünyaya sülh çağırışı: “Sülh nail olunmalı olan ən ali məqsəddir”

### Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib




**İyulun 13-də Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib, forum iştirakçılarının suallarını cavablandırıb.

**Moderator: Zati-aliləri, hörmətli qonaqlar, mətbuat nümayəndələri, IV Şuşa Qlobal Media Forumunda sizi çox səmimiyyətlə salamlayırıq. Əvvəlcə, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev, ayırdığınız vaxta, bu gün buradakı himayənizə və əlbəttə ki, beynəlxalq media ilə açıq və səmimi dialoq imkanına görə Sizə təşəkkürümü bildirirəm.**

**Bir sözlə, bu gün forumda 53 ölkədən 160 qonaq, o cümlədən 30 xəbər agentliyinin nümayəndələri, 60-dan artıq media qurumu, bu sahədə fəaliyyət göstərən 10 beynəlxalq təşkilat və təsisat iştirak edir. Son dörd il ərzində forum 81 ölkənin 600-ə yaxın media nümayəndəsini bir araya gətirmişdir.**

**Cənab Prezident, forumun artıq dördüncü ildir ki, keçirilməsini necə görürsünüz?**

**Prezident İlham Əliyev:** Əvvəlcə, burada, Azərbaycanda, Qarabağda, Şuşada bu cür mötəbər auditoriyanı qəbul etmək böyük şərəfdir. Forumun ideyası maraq doğuran məsələləri, qarşılıqlı surətdə narahatlıq doğuran sualları müzakirə etmək, həmçinin Qarabağ və Şuşa ilə tanış olmaq məqsədilə dünyanın müxtəlif guşələrindən media nümayəndələri üçün mühit yaratmaqdan ibarətdir. Əminəm ki, vaxt keçdikcə dövri olaraq buraya gələn qonaqlarımızın bir çoxu Qarabağın inkişafını, yenidənqurmanı görürlər. Onlar ilk dəfə gəldikləri zaman, bəlkə də yalnız dağıntıları gördülər, lakin indi şəhərləri görürlər. Onlar yeni mənzillərdə və evlərdə yaşayan insanları görürlər. Bir sözlə, bu, müxtəlif meyarların kombinasiyasıdır. Birincisi, hər dəfə, hər il forumun mövzusu, sadəcə, cari çağırışları əks etdirir. İkincisi, mühit çox mehriban, çox müsbətdir və müxtəlif mediadan olan bir çox insanlar, əminəm ki, Şuşada görüşlərdən sonra yaxın dostlara çevrilirlər. Əlbəttə ki, bizim üçün mühüm meyar qərarların qəbul edilməsi prosesinə təsir göstərən, öz ölkələrində və onun hüdudlarından kənarda ictimai rəyi formalaşdıran insanlardan ibarət böyük qrupu toplamaqdır və Qarabağın öz köklərinə qayıtmasını, bu torpaqların yiyələrinin qayıtmasını, real inkişafı göstərməkdir.

**Moderator: Çox sağ olun. Son dörd il ərzində forumun necə inkişaf etdiyini görmək böyük təəssürat bağışlayır. Bir daha çox sağ olun. İndi isə müvafiq şəraiti Sizin üçün yaratmaq məqsədilə bildirim ki, informasiya heç zaman görünmədiyi qədər tez yayılır. Bununla belə, etimadı qazanmaq get-gedə daha da çətinləşir. Bu gün jurnalistlər və siyasətçilər yalan məlumatın, parçalanmanın, süni intellektin, sürətlə formalaşan rəqəmsal platformaların təsir göstərdiyi dövrdə yaşayırlar. Bu səbəbdən belə söhbətlərin və forumların əhəmiyyəti get-gedə artır. Jurnalistlərin ictimaiyyəti məlumatlandırmaq kimi rolundan başqa, onların anlaşmanı qurmaq, dialoqu həvəsləndirmək və yekun nəticədə sülhə töhfə vermək kimi imkanları var. Bu səbəbdən "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" builki forumun mövzusu seçilmişdir.**

**Qısaca özümü təqdim edim: Mənim adım Laura Bakveldir və mən "Euronews"un yayım jurnalistiyəm. Təsəvvür edə bilərsiniz ki, növbəti bir neçə gün ərzində bizim gündəliyimiz zəngindir və biz zati-aliləri cənab Prezidentlə açıq dialoqa başlayırıq. Növbəti bir neçə saat ərzində suallarınız üçün sözü sizlərə verəcəyik. Məndə adlardan ibarət uzun siyahı var və onlara cavab vermək üçün bizim xeyli vaxtımız olacaq. Adını çəkdiyim zaman xahiş edirəm suallarınızı qısa edin və mahiyyətə uyğun olsun ki, digərləri də vaxtdan yararlansınlar. Sosial şəbəkə kanalınızda bölüşmək istəsəniz, xahiş edirəm, bu istinaddan istifadə edin.**

**Beləliklə, biz ilk media nümayəndəmiz ilə başlayırıq. Mən məmnunluqla Hudson İnstitutunun baş araşdırmaçısı cənab Ken Moriyasuya söz verirəm. O buradadır. Ümid edirəm, mikrofon hazırdır.**

**Ken Moriyasu: Sağ olun, cənab Prezident. Mənim adım Ken Moriyasudur. Mən Hudson İnstitutunu təmsil edirəm.**

**Azərbaycan Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropanı birləşdirən nadir coğrafi mövqeyə malikdir. Lakin Qırmızı dənizdə və Hörmüz boğazında son pozulmalar dünyaya dəniz ticarətinin zəifliyini xatırlatdı. Sizcə, quru dəhlizlərin dəniz marşrutları qədər strateji əhəmiyyətə malik olacağı dövrə qədəm qoyuruqmu? Əgər belədirsə, Siz Azərbaycanın növbəti onillikdə rolunu necə görürsünüz? Çox sağ olun.**

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz kifayət qədər uzun müddət ərzində bağlantılar üzərində işləmişik. Biz bəlkə də 10 ildən artıqdır çalışdıq, coğrafi mövqeyimizin üstünlüklərindən istifadə edərək, onları çoxtərəfli əməkdaşlıq üçün real platformaya çevirək. Müxtəlif meyarlar var idi ki, bizə beynəlxalq daşımalar məkanına çevrilmək imkanını yaradırdı və ya buna mane olurdular. İlk olaraq, bu, çatışmayan fiziki infrastrukturla bağlı idi və biz onu yaratmalı idik və yaratdıq. İkincisi, qonşularla qarşılıqlı əlaqələr olmadan, siz heç zaman tranzit ölkəyə çevrilməyəcəksiniz. Əgər qonşularınızla münasibətləriniz pisdirsə, bu o deməkdir ki, heç nə alınmayacaq. Avrasiyanın böyük coğrafi məkanında, Azərbaycandan Şərq və Qərb, Şimal və Cənub istiqamətlərdə geniş beynəlxalq əməkdaşlığı qurmaq, prosesi apardığımız kimi inkişaf etdirmək, məsələn, Azərbaycanın təşəbbüskar olduğu, əsas maliyyə töhfəsini verən tərəf olduğu və çoxtərəfli əməkdaşlığı təşkil edən tərəf kimi enerji layihələrimizin həyata keçirilməsi həmin meyarlar sırasındadır. Bu isə bu gün, enerji təhlükəsizliyi məsələlərinin həllində, həmçinin bir çox ölkələrə kömək edir.

Beləliklə, eyni yanaşmanı bağlantılara da tətbiq edirik. Söylədiyim kimi, fiziki infrastruktur qurulub. İndi isə biz yalnız onun genişləndirilməsi yolları üzərində çalışırıq, çünki biz gözləmirdik ki, coğrafiyamız son vaxtlar bu qədər lazımlı olacaq. Şərq və Qərbdəki qonşularla - istər Mərkəzi Asiya ölkələri, istərsə də Gürcüstan, Türkiyə və Avropa kimi yaxın qonşularımızla qarşılıqlı fəaliyyət çox yaxşıdır. Əlbəttə, bütün bunları bir araya gətirmək üçün bizə dəhlizi səmərəli edə biləcək bir çox addımları atmaq vacib idi.

Bəli, hazırda Orta Şərqdəki vəziyyət bu dəhlizi daha cəlbedici edir və əgər siz mübarizənin qaynar dövründə təkcə uçuşların xəritəsinə nəzər salsanız, görərsiniz ki, Azərbaycandan çox dar dəhliz keçir. Eyni vəziyyəti Xəzər dənizi ilə və quru ərazi ilə daşımalara da aid etmək olar. Bir sözlə, bütün həmin meyarlar Azərbaycanın əhəmiyyətini birmənalı şəkildə artırır. Xoşbəxtlikdən, biz yüklərin artan həcminin daşınmasını təmin etməyə hazır idik. Hazırda biz öz imkanlarımızı artırırıq. Dəniz ticarət limanımıza gəldikdə, hazırda o, 15 milyon ton imkanı ilə Xəzərdə ən iri limandır və onun həcmi 25 milyon tonu təmin etmək üçün artırılacaq.

Hazırda biz Avropaya və geriyə yükləri daşımaq üçün öz gəmiqayırma zavodumuzda 10 gəmini tikirik. Mərkəzi Asiya ölkələri və Avropa Komissiyası ilə sıx münasibətlərimiz hər iki istiqamətin mərkəzində dayanır və bu, həqiqətən böyük üstünlük yaradır. Əlbəttə, Azərbaycanın hər zaman əməkdaşlığa, qonşularımızı narahat edən məsələlərin həllinə yönələn siyasəti narahatlıqlarımızı aradan qaldırmağa və mühit yaratmağa imkan verir. Burada, Şuşada, Media Forumda bəhs etdiyim mühiti bir çox beynəlxalq iştirakçılar arasında yaratmağa çalışırıq və ümid edirəm ki, yaratmağa nail olmuşuq.

**Moderator: Çox sağ olun. Dialoqumuzu başlamaq üçün əla sualdır. Cənab Ken Moriyasu, bir daha çox sağ olun. İndi isə keçirik cənab Yusuf Özhana. O, "Anadolu" Agentliyinin vitse-prezidenti və baş redaktorudur. Bəli, mikrofonu təqdim edin. O, burada ikinci cərgədə əyləşib. Başlayaq.**

**Yusuf Özhan: Cənab Prezident, bu gün burada bizi qəbul etdiyinizə görə çox sağ olun. Bilmirəm, ingilis dilində bu cür kəlam var yoxsa yox, lakin türk dilində, biz bir almanın iki hissəsiyik. Beləliklə, Türkiyə və Azərbaycan dövlətləri bir almanın iki hissəsidir. Sizin Türkiyə xalqına mesajınız nə olardı? Çox sağ olun.**

**Prezident İlham Əliyev:** Bilirsiniz, Türkiyə və Azərbaycan kimi iki ölkəyə mesaj yalnız dostluq və qardaşlıqdır. Düşünürəm və əminəm ki, Türkiyə və Azərbaycanda da insanlar sizinlə həmfikirdir. Onlar dünyanın bütün ölkələrini götürsək belə, ən yaxın ölkələrdir. Əgər siz əməkdaşlıq, siyasi, iqtisadi, enerji, bağlantılar, insanlar arasında təmaslar səviyyəsinə baxsanız, bəlkə də dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən və dost olan Türkiyə və Azərbaycandan başqa digər iki dövlət tapmazsınız.

Bu, xalqlarımız, ölkələrimiz üçün böyük zənginlikdir. Biz bir yerdə olanda daha güclüyük. Bu, həmçinin regional sabitliyin və əməkdaşlığın, o cümlədən indicə qeyd etdiyim bağlantılar məsələsinin mühüm meyarıdır. Bu, təhlükəsizliyin mühüm meyarıdır, çünki burada - Şuşada, beş il əvvəl Türkiyə Prezidenti ilə mən Şuşa Bəyannaməsini imzaladıq və beləliklə, münasibətlərimiz müttəfiqlik səviyyəsinə qalxdı.

Bir sözlə, biz təkcə qardaş və dost deyilik, biz müttəfiqik. Əgər bizlərdən kiməsə xoşagəlməz və ya pis hadisə üz verərsə, digəri bütün potensialı, o cümlədən hərbi gücü ilə qardaşımızın müdafiəsinə qalxacaq. Həqiqətən real haldır və biz görürük etnik köklər, ortaq mədəniyyət və ümumi tarix ölkələrimiz üçün siyasi baxımdan bu qədər yaxın olmağa bir platforma yaradır. Əminəm ki, bilirsiniz, çox sayda hallar var ki, oxşar, kifayət qədər oxşar köklər və eyni dil, necə deyim, söz ehtiyatı elə bir platforma yaratmır. Əksinə, demək olar ki, eyni dildə danışan insanlar bəzən bir-biri ilə vuruşurlar. Eyni regionda olan insanlar bir-birini məhv edirlər. Beləliklə, Türkiyə və Azərbaycan nümunəsi qonşular tərəfindən baxılmalı və tətbiq edilməli nümunədir. Qonşular dəqiqliklə Türkiyə və Azərbaycan kimi davranmalıdırlar.

**Moderator: Çox sağ olun. Çox gözəl sual idi və Prezidentin təəssürat bağışlayan bəyanatı oldu. Çox sağ olun. Davam edək. Növbəti nümayəndə cənab Kristian Auqustin Nikolesku Taqalisdir. O senatordur, hüquqşünasdır və Ruminiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvüdür.**

**Kristian Auqustin Nikolesku Taqalis: Zati-aliləri, mən etiraf etmək istərdim ki, Azərbaycana üçüncü dəfədir səfər edirəm və ötən il eyni vaxtda mənə gözəl ölkənizin ən yüksək və ən gözəl dağ zirvəsinə - Heydər Zirvəsinə qalxmaq nəsib oldu. Nəinki Azərbaycanın təbii gözəlliyi, həmçinin ölkənizin innovasiya, rəqəmsal idarəçilik və bərpaolunan enerji kimi bir çox sahələrdə əldə etdiyi gözəl tərəqqi mənə xoş təəssürat bağışlayır.**

*Ardı 8-ci səh.*

4TH SHUSHA GLOBAL MEDIA FORUM

## IV Şuşa Qlobal Media Forumu

# İlham Əliyevin dünyaya sülh çağırışı: "Sülh nail olunmalı olan ən ali məqsəddir"

## Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib



*Əvvəli 7-ci səh.*

Son illər ərzində Azərbaycan regional və beynəlxalq səviyyədə öz strateji mövqeyini inkişaf etdirmək, onu gücləndirmək kimi maraqlı prosesdən keçdi. Bununla belə, Avropa İttifaqı ilə münasibətlər enerji təhlükəsizliyinə, regional bağlantılara və ticarətə yönələn olduqca praqmatik xarakter daşıyır.

Özünün işğal olunmuş ərazilərini azad etməklə Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa etdi. Cənab Prezident, bu cür nailiyyət Sizin bu məsələnin həllində göstərdiyiniz liderlik keyfiyyətlərinizə əsaslanır. Siz, həmçinin Azərbaycanı əsas regional iştirakçılardan birinə çevirdiniz. Beynəlxalq səhnədə nüfuzlu üzv kimi ölkəniz fəal iştirakı, əməkdaşlığa verdiyi töhfəsi ilə dialoqu təşviq edir və regionlar arasında körpülər salır. Eyni zamanda, Azərbaycan parlamentinin üzv olduğum Avropa Şurasının Parlament Assambleyası (AŞPA) ilə münasibətləri məsələsinə yenidən baxmaq zəruridir. Nəzərə alsaq ki, müxtəlif səbəblərə görə onlar dalana dirənib və əfsuslar ki, nəticədə Azərbaycanın nümayəndə heyəti Avropa Şurasının Parlament Assambleyasından çıxıb.

Ümidvar olduğumu bildirmək istərdim ki, iki tərəf arasında fərqlər aradan qalxacaq və Azərbaycanın nümayəndə heyəti AŞPA-da öz yerinə qayıdacaq. Cənab Prezident, Sizdən soruşmaq istərdim: nəzərə alsaq ki, ikitərəfli fayda var, həmin münasibətlərin yaxşılaşmasını necə görürsünüz? Fikrinizcə, Avropa təsisatı ilə daha sıx əməkdaşlıq üçün hansı addımlar atılmalıdır? Sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Əvvəlcə, Azərbaycan haqqında söylədiyiniz xoş sözlərinizə görə çox sağ olun və ölkələrimiz arasında dostluğa verdiyiniz şəxsi töhfəyə görə minnətdaram. Siz Avropa təsisatları, o cümlədən Avropa Komissiyası və Avropa Şurasının Parlament Assambleyası ilə münasibətlərimizdə bir sıra vacib məqamları qeyd etdiniz. Bildiyiniz kimi, onlarla münasibətlərdə böyük fərq var. Avropa Komissiyası ilə əvvəlki Komissiya zamanı, xüsusən də Avropa diplomatiyasının əvvəlki rəhbəri cənab Borrelin dağıdıcı rolu səbəbindən asan vaxtlarımız olmayıb. O, əslində, Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətləri demək olar ki, dağıtdı. İndi isə səbəbi məlumdur, çünki o, korrupsiyaya uğramış bəzi şəxslərlə, o cümlədən Beynəlxalq Məhkəmənin keçmiş hakimi cənab Okampo ilə qəti şəkildə əlbir olmuşdur. Okampo öz şərhlərində açıq şəkildə etiraf etmişdir ki, cənab Borrel ondan məvacib alırdı. Bununla belə, cənab Okampoya pul hazırda Ermənistanda ev dustaqlığında olan rus-erməni oliqarxından gəlirdi.

Bir sözlə, bu, Avropa Komissiyasında mövcud olmuş anti-Azərbaycan qrupunun uzun zənciridir. Yaxşı haldır ki, cənab Borrel hazırda siyasətdə deyil. Ümid edirik, əbədi gedib. Yeni Komissiya ilə münasibətlərimiz yaxşılaşmağa başladı. Bu, xüsusən də əlaqələrin yenidən baxılması üçün qarşılıqlı böyük marağı gördüyümüzdən sonra baş verdi və biz bunları dəstəklədik. Sizə sadəcə deyə bilərəm ki, bu ilin bir neçə ayı ərzində Brüsseldən bir sıra mühüm səfər oldu. Martda Avropa İttifaqı Şurasının prezidenti cənab Koşta, mayda Avropa diplomatiyasının rəhbəri xanım Kallas və iyulda Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayen Azərbaycana gəldilər.

Onların və mənim ictimaiyyətə açıqlamalarımızda hər kəs iki tərəfin əməkdaşlıq səviyyəsindən razı qaldıqlarını görə bilər. Təsvir etdiyiniz tərəfdaşlıq sahələri, əlbəttə, nəinki ikitərəfli, o cümlədən daha geniş çərçivə üçün vacibdir. Avropa Şurasının Parlament Assambleyasına gəldikdə isə əfsuslar ki, biz tamamilə başqa mənzərəni görürük və mən şəxsən təəssüf edirəm. Çünki mən 2001-ci ildə Parlament üzvü olanda Azərbaycan nümayəndə heyətinin ilk rəhbəri olmuşam və iki il orada işləmişəm. Bildiyiniz kimi, il ərzində orada dörd sessiya olur.

Bir sözlə, yaranmış vəziyyət mənim üçün xoşagələn deyil, lakin onun baş verməsinin səbəbi sualınıza cavab vermək üçün çox vacibdir. Dalandan çıxmaq üçün nə edilməlidir? 2023-cü ilin sentyabrında ərazimiz separatçı və Ermənistanın işğalçı qüvvələrindən 100 faiz azad edilənə qədər Azərbaycan AŞPA-da heç vaxt sanksiya altında olmamışdır. 2023-cü ilin sentyabrında özünümüdafiə üçün legitim hüququmuzdan istifadə edərək, ərazimizi separatçıların qalıqlarından təmizlədik. 2024-cü ilin yanvarında onlar Azərbaycan nümayəndə heyətinin akkreditasiyasını sual altına qoydular, həmçinin o, səsvermə hüququndan məhrum edildi. Bu, bir növ insan hüquqları məsələsi ilə əlaqəli deyildi. Əgər onunla bağlı olsaydı, bunu xeyli əvvəl edərdilər. Bu, sadəcə, suverenliyimizi bərpa etmək üçün gördüyümüz işlərə görə bizi cəzalandırmaq idi. Ondan sonra Azərbaycanın nümayəndə heyəti çox müdrik qərar qəbul etdi və iclaslarda iştirakını dayandırdı. Çünki əgər bizim səsvermə hüququmuz olmayacaqsa, onda nəyə görə orada olmalıyıq?

Yeri gəlmişkən, biz Avropa İnsan Hüquqları Məhkəməsinin hakimlərinə səs verməmişik və bu səbəbdən Azərbaycan məhkəmə qərarlarını tanımır, çünki biz bilmirik o insanlar kimlərdir. Biz buna səs verməmişik. İki ildən artıqdır ki, ayrı-seçkiliyə məruz qalırıq. Sizə açıq deyə bilərəm ki, biz hökumətimizdə AŞPA-da üzvlüyümüzün nəinki dondurulmasını, həmin təsisatdan tam çıxmağı da ciddi şəkildə nəzərdən keçiririk. Yəni bütövlükdə Avropa Şurasından çıxmağımızı nəzərdə tuturuq.

Lakin Avropa Şurasının baş katibi cənab Alen Berse mənə yaxınlaşaraq bunu etməməyi xahiş etdi ki, vəziyyətin yaxşılaşdırılması üçün çıxış yolu tapılsın və mən bunu hələlik dayandırdım. Lakin əfsuslar ki, həmin vaxtdan etibarən heç nə baş vermir. AŞPA-dan Azərbaycana qarşı çox müəmmalı və ultimatum formasında bəzi tələblər var ki, onlar tamamilə qəbuledilməzdir. Əlaqələri biz pozmamışıq, onlar pozublar. Onlar bizi hər hansı legitim əsas olmadan səsvermə hüququndan məhrum etdilər. Belə olan halda nə edilməlidir? Onlar Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnu bərpa etməlidirlər və ondan sonra Azərbaycanın nümayəndə heyəti qayıdacaq. Bu, dəqiqliklə dediyim kimi olmalıdır, əksinə olmalı deyil!

Biz onlara qarşı heç bir səhv addım atmamışıq. Həmin ədalətsiz hərəkəti onlar ediblər və buna görə onlar da cəsarət tapıb geriyə çəkilməlidirlər, böyük səhvə yol verdiklərini etiraf etməlidirlər. Bilirsiniz, mən məsələ ilə bağlı öz fikrimi dəfələrlə bildirmişəm. Əgər Azərbaycan Avropa Şurasını tam tərk edərsə, ölkədə bunu hətta heç kəs hiss etməyəcək. Yəni orada olmaq və ya olmamaq çox şeyi dəyişmir.

Bilmirəm, orada olmaq bəlkə də daha yaxşı olardı. Biz toqquşma axtarmırıq və xüsusən də bir vaxtda ki, nəinki Avropa Şurası Parlament Assambleyası, o cümlədən Avropa Parlamenti dövri olaraq bizə yenə də hər hansı əsas olmadan hücum çəkir. Düşünürəm ki, onların Azərbaycana bir növ qərəzi var. Beş il ərzində onlar Azərbaycanı hədəfləyən 13 qətnamə qəbul ediblər və onlardan heç biri bizim üçün vacib deyil, onlardan heç biri burada hər hansı məsələyə təsir etmir. Beləliklə, əlbəttə, həmin təsisatlarla toqquşma deyil, normal münasibətlərin olması daha yaxşıdır. Amma bir daha deyirəm ki, bu, bizim seçimimiz olmayıb. Biz Avropa Şurasına 2001-ci ildə könüllü şəkildə qoşulmuşuq.

O vaxtlar həmin təşkilat fərqli idi və ümumiyyətlə, Avropa başqa idi. Biz Avropaya o istəklə və ümidlə daxil olurduq ki, üzvlük bizə əsas məsələnin - Qarabağ münaqişəsinin həllində, suverenliyimizin bərpasında kömək edəcək. Bir daha hesab edirəm ki, həmin məsələ ilə bağlı auditoriyanın çox vaxtını almaq istəmirəm.

Bununla belə, əhatəli sualınızı nəzərə alaraq, sizi və auditoriyanı nəyin baş verdiyi və nəyin görülməli olduğu haqqında məlumatlandırmaq istədim. Biz normallaşmaya hazırıq və ilk addımı onlar atmalıdırlar. Sağ olun.

**Moderator: Bu cür təfərrüatlı suala və bu cür təfərrüatlı cavaba görə çox sağ olun. Beləliklə, indi keçirik Xəzər Universitetində siyasi elmlər üzrə professor, cənab Ramiz Yunusa.**

**Prezident İlham Əliyev:** O, Birləşmiş Ştatları təmsil edir.

**Moderator: Bəli, Birləşmiş Ştatlardandır.**

**Prezident İlham Əliyev:** Bəli, bəli. O, uzun illər orada yaşayıb.

**Ramiz Yunus: Hörmətli cənab Prezident, Sizi Azərbaycanın Qarabağ regionunda yenidən görmək böyük şərəfdir. Bu cür mühüm beynəlxalq tədbirə dəvətinizə görə çox sağ olun. Mənim iki sualım var. İlk sualım Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlərə aiddir. Cənab Prezident, 907-ci düzəliş 30 ildən artıq müddətdə ABŞ Konqresi tərəfindən qəbul olunmuşdur. Bu gün həmin düzəlişi necə dəyərləndirirsiniz və onun hazırkı Prezident Trampın administrasiyası dövründə tam ləğvi üçün real imkan görürsünüzmü? İkinci sualım. Bu gün Azərbaycan orta güc və Cənubi Qafqazın lideri kimi geniş şəkildə tanınır. Fikrinizcə, cənab Prezident, kiçik dövlət və orta güc arasında bugünkü dünyada əsas fərq nədədir? Bir daha çox sağ olun, cənab Prezident.**

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun. Birincisi 907-ci düzəliş haqqında deyim. Siz onu çox yaxşı bilirsiniz. Bəlkə də hər kəs onunla tanış deyil. Bu, 1992-ci ildə ABŞ Konqresinin Azərbaycana münasibətdə çox ədalətsiz addımı idi. O vaxt, Sovet İttifaqının süqutundan sonra yeni yaranan ölkələrə maliyyə yardımı formasında dəstəyin verilməsi üçün ABŞ Konqresi Azadlığa Dəstək Aktını qəbul etdi və 907-ci düzəliş ermənipərəst senatorlar tərəfindən irəli sürülmüşdür. Yeri gəlmişkən, Prezident Bayden onlardan biri idi. Həmin vaxt o, senator idi və ola bilsin, bu göstərir ki, nəyə görə bizim Bayden administrasiyası ilə bu qədər çox çətinliklərimiz oldu.

Buna səbəb təsvir edildiyi kimi, Azərbaycanın Ermənistana qarşı blokadası idi. İlk olaraq bu, düz deyil. Biz Ermənistanı blokadaya almamışıq. Ermənistan ərazimizi işğal edib və işğal olunmuş ərazilər məhz Ermənistan ilə Azərbaycan arasında yerləşir. Beləliklə, işğal olmasaydı, blokada, həmçinin olmazdı.

İkincisi, bunu həmin vaxt görmək bizim üçün, əlbəttə, ağrılı idi, çünki ölkə çox yoxsul idi. Biz yeganə keçmiş sovet respublikası idik ki, ABŞ Konqresinin ayrı-seçkiliyinə məruz qaldıq. Bu gün həmin düzəliş tamamilə köhnəlib. Birincisi, Azərbaycan ilə Ermənistan arasında Prezident Trampın iştirakı ilə Ağ Evdə sülh sazişi paraflandı.

İkincisi, Azərbaycan birtərəfli olaraq Ermənistana bütün tranzit məhdudiyyətlərini aradan qaldırdı və hazırda biz bunu etməklə 40 min tondan artıq müxtəlif yüklər Rusiya, Qazaxıstan və digər yerlərdən Ermənistana daşındı. Bundan əlavə, Azərbaycan özü Ermənistana neft məhsullarını təchiz etməyə başlayıb və bildiyimə görə artıq 10 min tondan çoxdur. Bu, xüsusən də indi - bir çox ölkələrin yanacağa çıxışdan əziyyət çəkdiyi dövrdə baş verir və Ermənistan Azərbaycanı etibarlı mənbə kimi görür. Əgər belə olmasaydı, ola bilsin, bu gün onlar bütün dünyada benzin və dizel yanacağı axtarmalı olacaqdılar.

Bir sözlə, bütün bunlar göstərir ki, həmin düzəliş tamamilə köhnəlib və tam ləğv edilməlidir. Prezident Trampın qəti mövqeyinə baxmayaraq, əfsuslar ki, vəziyyət olduğu kimi qalır. Yeri gəlmişkən, ötən ilin avqustunda Vaşinqtona səfərim zamanı Ağ Evdə Prezident Tramp mənim iştirakımla həmin düzəlişin qüvvəsinin növbəti bir il üçün dayandırılması ilə bağlı sənədi imzaladı və o, hazırda işləmir, lakin onun rəmzi mənası, siyasi mənası hələ də qalır.

Düşünürəm ki, həmin düzəliş Konqres tərəfindən nə qədər tez tam ləğv edilərsə, hamımız üçün, Azərbaycan üçün bir o qədər yaxşı olar. Çünki biz artıq ayrı-seçkiliyə məruz qalmayacağıq və ABŞ Konqresi isə məsuliyyəti, səhvləri etiraf etmək bacarığını, cari geosiyasi vəziyyətə uyğun hərəkət etdiyini göstərə biləcək. Ümid edirik, bunlar baş verəcək. Amma yenə də sizə deyə bilərəm ki, bu günün Administrasiyası ilə həmin 907-ci düzəliş hər hansı mənfi təsirə malik deyil.

Siz Birləşmiş Ştatlar ilə Azərbaycan arasında münasibətlər haqqında soruşdunuz. Deyərdim ki, həmin münasibətlər Tramp Administrasiyası ilə Azərbaycan arasında əladır və biz çox şadıq ki, o əlaqələr həqiqətən strateji tərəfdaşlıq səviyyəsinə qalxıb. Ötən ilin avqust ayında Vaşinqtonda Prezident Trampla tarixi görüşüm və sonradan bu ilin yanvarında Davosdakı görüşümüz, Prezident Trampın təşəbbüskarı olduğu Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət olunması, vitse-prezident Cey. Di. Vensin səfəri, Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatı vitse-prezidentlə Bakıda imzalamağımız və bir çox digər meyarlar göstərir ki, hazırda münasibətlər heç zaman görmədiyimiz zirvə səviyyəsindədir. Bu gün biz strateji tərəfdaşlıq haqqında Bəyanatın bütün müddəalarının icrası üzərində fəal şəkildə işləyirik.

Xüsusən də yaratdığımız həmin işçi qruplar ticarət və sərmayələr, rəqəmsal transformasiya və süni intellekt, enerji təhlükəsizliyi və bağlantılar, müdafiə və hərbi məhsulların satışı üzərində çox fəal şəkildə çalışırlar. Birləşmiş Ştatlar Azərbaycana silah təchizatına dair bütün embarqonu aradan qaldırıb və bundan dərhal sonra eyni addımları Birləşmiş Krallıq və Avropa İttifaqının digər üzvləri atıblar. Düşünürəm ki, bunlar ikitərəfli münasibətlərimizin mahiyyətini, formasını və gələcək üçün potensialını çox yaxşı xarakterizə edir.

*Ardı 9-cu səh.*

4TH SHUSHA GLOBAL MEDIA FORUM

# IV Şuşa Qlobal Media Forumu

# İlham Əliyevin dünyaya sülh çağırışı: “Sülh nail olunmalı olan ən ali məqsəddir”

## Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib

*Əvvəli 8-ci səh.*

Orta güclə bağlı ikinci sualınıza gəldikdə, bəli, mən bəzi analitik yazıları oxuyuram və həmçinin Azərbaycanın artıq orta gücə çevrilməsi ilə əlaqədar ekspertlərin müəyyən rəyi ilə tanışam. Bununla belə, düşünürəm ki, bu cür toplantı ölkənin orta güc olmasına dair hansı meyarların dəqiq müəyyənləşdirilməsinə kömək edə bilər. Burada müxtəlif meyarlar ola bilər, çünki vahid bir meyar hələ ki, müəyyən edilməyib. Mənim fikrimcə, bu terminologiya ölkənin potensialının, böyük güclərin necə düşündüyü və ya etdiyindən asılı olmayaraq, onun öz milli maraqlarını müdafiə etmək bacarığının, əgər kimsə sizə zərər vurmaq istəyirsə, bütün potensialınızla müqavimət göstərmək qabiliyyətinin etiraf olunmasını nəzərdə tutur.

Müdafiə qabiliyyəti, özü də təkcə hərbi paradda deyil, döyüş meydanında göstərilmiş həmin qabiliyyət vacibdir. Əlbəttə, fikrimcə, mühüm meyarlardan biri hüdudlarınızdan kənarda baş verən hadisələrə təkcə bir sözünüzlə və ya bəyanatınızla təsir göstərmək qabiliyyəti də olmalıdır. Azərbaycan bunu dəfələrlə nümayiş etdirib. Eyni zamanda, bu terminologiyaya aid edilə biləcək meyarlardan biri də məsuliyyətdir. Ölkənizin daxilində və müəyyən dərəcədə bütöv regionda baş verənlərə görə olan məsuliyyətdir. Fikrimcə, sonradan heyət də bu meyara əlavələr edə biləcək. Lakin düşünürəm ki, bütün bu dediklərimi Azərbaycana aid etmək olar. Ola bilsin bu səbəbdən bir sıra ekspertlər bizi orta güc adlandırır və səmimi desəm, mən buna etiraz etmirəm.

**Moderator: Çox gözəl sual idi və cavabda da mühüm məqamlar var. Buna görə Sizə çox təşəkkür edirəm.**

**İndi isə növbəti sualımıza keçirik. Söz İordaniyanın Kommunikasiya Nazirliyinin Baş katibi Zeyd əl-Nəvaysehə verilir.**

**Zeyd əl-Nəvayseh: Cənab Prezident, bu dördüncü mühüm Qlobal Forumun işində iştirak etmək üçün bizə yaradılan fürsətə görə təşəkkür edirəm. Mən öz ölkəm İordaniyaya qayıdanda böyük sürətlə inkişaf edən bu gözəl ölkə və onun hər zaman təbəssümlü, xeyirxah, qonaqpərvər xalqı haqqında ən xoş təəssüratları özümlə aparacağam. Eyni zamanda, Zatialilərinizin və Əlahəzrət Kral II Abdullahın himayəsi altında olan ölkələrimiz arasındakı münasibətlərdən qürur duyur və bu əlaqələrin hər zaman davamlı olaraq inkişaf etməsini arzulayırıq.**

**Cənab Prezident, ölkəniz islam həmrəyliyinin möhkəmləndirilməsi və gücləndirilməsi istiqamətində göstərdiyi daimi səylər çərçivəsində gələn il İslam Əməkdaşlığı Təşkilatının (İƏT) Dövlət və Hökumət Başçılarının 16-cı Zirvə Görüşünə, həmçinin İƏT İnformasiya Nazirlərinin Konfransına ev sahibliyi edəcək. Sualım belədir: Sizcə, Azərbaycanın mütəmadi olaraq ev sahibliyi etdiyi bu mötəbər tədbirlər xüsusilə dünyanın və konkret olaraq regionun yaşadıqları hazırkı gərgin atmosfer fonunda, İslam həmrəyliyinin gücləndirilməsinə necə töhfə verəcək? Təşəkkür edirəm, cənab Prezident.**

**Prezident İlham Əliyev:** Siz də qeyd etdiyiniz kimi, bizim Əlahəzrət Kral ilə qardaşlıq münasibətlərimiz var və ölkələrimiz arasında əlaqələr də çox sıxdır. Yəqin bilirsiniz ki, bir neçə gün öncə mən İordaniyanın Baş nazirinin müavini, xarici işlər nazirini qəbul etdim. O, öz həmkarı ilə ətraflı danışıqlar apardı, daha sonra isə mənimlə görüşdə əlaqələrimizin gələcək inkişafı, regional təhlükəsizlik və regional çağırışlarla bağlı fikir mübadiləmiz oldu. Əminəm ki, Azərbaycanla İordaniya arasında əlaqələrin inkişafı uğurla davam edəcək, çünki artıq böyük iş həcmi görülüb.

Tamamilə haqlısınız ki, biz gələn il İslam Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısına evsahibliyi edəcəyik. Xüsusilə indiki təlatümlü dövrdə bu, bizim üçün böyük məsuliyyətdir. Azərbaycan hər zaman müsəlman ölkələri arasında həmrəyliyi güclü təşviq edib. Azərbaycanda keçirilən çoxsaylı tədbirlər və irəli sürdüyümüz təşəbbüslər həmrəylik, qarşılıqlı anlaşma və birliyə xidmət edib. Zirvə Toplantısınadək hadisələrin necə cərəyan edəcəyinə baxacağıq. Təəssüf ki, bu gün biz bir o qədər həmrəyliyin şahidi olmuruq. Əksinə, biz gərginliyin artdığını, qarşılıqlı ittihamları, təkcə Körfəzdə və Yaxın Şərqdə deyil, dünyanın müxtəlif bölgələrində müharibələrin şahidi oluruq. Bu isə olduqca məyusedicidir. Çünki İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həmrəylik təhlükəsizliyin və sabitliyin əsas amilidir. Daha çox həmrəylik və qarşılıqlı anlaşma olduğu təqdirdə, çətin dönəmlərin də sayı azalacaq.

Azərbaycanın rolu hər zaman yüksək qiymətləndirilib. Biz müxtəlif dövrlərdə müxtəlif aktorların iştirakı ilə vacib rol oynamışıq. Bizim rolumuz hər zaman konstruktiv və nəticəyönümlü olmuş, gərginliyin azaldılmasına hesablanmışdır. Yeri gəlmişkən, biz bu imkanlarımızı Qoşulmama Hərəkatına sədrliyimiz dövründə nümayiş etdirdik. Bildiyiniz kimi, İslam Əməkdaşlıq Təşkilatının üzvləri həm də Qoşulmama Hərəkatının üzvləridir. 120 ölkəni birləşdirən Hərəkat Azərbaycanın sədrliyini tam dəstəklədi. Biz bütün üzv dövlətlərin yekdil qərarı ilə sədr seçildik. Üstəlik, sədrliyimizin müddəti də bütün ölkələrin yekdil qərarı ilə daha bir il uzadıldı. Bu, bir-birindən uzaq mövqelərdə dayanan tərəfləri yaxınlaşdırmaq istiqamətində oynadığımız müsbət rolun yüksək qiymətləndirilməsinin bariz nümunəsi idi. Məhz bu potensial COP29-a sədrliyimiz dövründə mühüm qərarların razılaşdırılmasında da bizə böyük dəstək oldu. Bu, daha mürəkkəb bir proses idi. Çünki tamamilə fərqli baxışlar, ziddiyyətli mövqelər və ciddi fikir ayrılıqları mövcud idi. Lakin buna baxmayaraq, biz buna nail olduq. Bu gün COP29-un irsi gələcək bütün COP konfransları və qlobal yaşıl gündəlik üçün mühüm əhəmiyyət kəsb edir. Sammitədək olan dövrdə və sammit zamanı malik olduğumuz bütün imkanları və potensialı bu məqsədlərə nail olmaq üçün səfərbər edəcəyik. Biz həmrəylik nümayiş etdirmək üçün əlimizdən gələni edəcəyik. Nə qədər uğurlu olacağımızı demək çətindir. Həm də gələn ilin yayına dünyada və regionumuzda vəziyyət necə olacaq? Bunu söyləmək də çətindir. Lakin ümid edirəm ki, İordaniya, Azərbaycan və sülhü, sabitliyi, təhlükəsizliyi öz gündəliyinin əsas prioriteti hesab edən həmfikir ölkələr səylərini birləşdirərək müsbət nəticələrə nail olacaqlar.



**Moderator: Çox sağ olun. İndi isə sözü Bostondakı həmkarım Ceyn Vizerspun, "Euronews" telekanalının Yaxın Şərq, Mərkəzi Asiya və Cənubi Qafqaz üzrə idarəedici redaktoruna veririk. Buyurun, Ceyn.**

**Ceyn Vizerspun: Təşəkkür edirəm, Laura. Cənab Prezident, Sizinlə yenidən Şuşada görüşməkdən məmnunam. Bizi bir daha bu möhtəşəm tədbirə dəvət etdiyiniz üçün Sizə təşəkkür edirəm. Siz bir qədər əvvəl Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin və əlbəttə ki, Antonio Koştanın Azərbaycana son səfərlərindən bəhs etdiniz. Qaz ixracına gəlincə, görürük ki, Azərbaycan artıq 16 ölkəyə qaz tədarük edir. Onlardan 14-ü Avropa ölkəsidir və bu il Avstriya ilə Almaniya da həmin ölkələr sırasına qoşulub. Bu iki ölkə sizin üçün nə baxımdan xüsusi əhəmiyyət kəsb edir? İkinci sualım isə Avropa İttifaqı ilə münasibətlərə aiddir. Bu münasibətlərin gələcək inkişafını necə görürsünüz? Siz qeyd etdiniz ki, belə əlaqələr hər iki tərəf üçün qarşılıqlı fayda gətirir.**

**Prezident İlham Əliyev:** Çox sağ olun. Sizi yenidən görməyimə çox şadam. Bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirəm. Bəli, bu ildən etibarən Almaniya və Avstriyaya qaz ixracına başlamışıq. Bu, qlobal, xüsusilə də Avropa qaz bazarında mövqeyimizi genişləndirməyə yönəlmiş ümumi strategiyamızın tərkib hissəsidir. Avropa bazarı yüksək qiymətlərin formalaşdığı, bizim üçün premium hesab edilən bazardır. Buna görə də ixrac imkanlarımızı daha da genişləndirməkdə olduqca maraqlıyıq. Bəli, hazırda biz boru kəmərləri vasitəsilə 16 ölkəyə qaz tədarük edirik və boru kəməri ilə qaz ixracının coğrafi əhatəsinə görə dünyada birinci yerdəyik.

Bu, son deyil, qarşıda əlavə imkanlar var. Hazırda Avropa İttifaqının bəzi üzv dövlətləri ilə həm yeni qaz tədarükünə başlamaq, həm də mövcud tədarük həcmlərinin artırılması istiqamətində danışıqlar aparırıq. Beləliklə, bizə hər iki istiqamətdə müraciətlər var. Bugünkü enerji bazarında etibarlı, proqnozlaşdırılabilən və alternativ mənbə olan Azərbaycanın qazı, yəqin ki, on il əvvəlkindən daha böyük əhəmiyyət kəsb edir. Bizim hasilatı və ixracı artırmaq üçün kifayət qədər potensialımız var. Cəmi bir neçə ay əvvəl AÇG-nin dərin qaz yatağından - bizim "ACG Deep Gas" adlandırdığımız layihə çərçivəsində hasilata başladıq. Eyni zamanda, təsdiq edilmiş iş proqramı və investisiya portfeli əsasında mövcud yataqlarda da hasilat artacaq.

Bununla yanaşı, bərpaolunan enerji sahəsində genişmiqyaslı işlər həyata keçirilir. Bərpaolunan enerji mənbələri artıq bizə xeyli həcmdə qaza qənaət etməyə imkan verir və gələcəkdə bu göstərici daha da artacaq. Çünki 2032-ci ilədək bərpaolunan enerji mənbələri üzrə 8 giqavat generasiya gücünə çatmağı planlaşdırırıq. Bu isə hazırda elektrik enerjisinin istehsalında istifadə etdiyimiz bir neçə milyard kubmetr qaza qənaət etməyə imkan verəcək. Beləliklə, həmin qaz həcmləri də istehlakçılar üçün əlçatan olacaq. Yəni biz iki mühüm amilə malikik: artan qaz hasilatı və ixrac potensialı, həmçinin bu qaz üçün mövcud bazar. Buna görə də aradakı boşluğu aradan qaldırmalı, xüsusilə də nəqliyyat infrastrukturunu genişləndirib modernləşdirməliyik.

Qaz nəqli infrastrukturumuz 2022-ci ildə başlayan Rusiya-Ukrayna müharibəsindən əvvəl mövcud olan şərait nəzərə alınmaqla layihələndirilmiş və inşa edilmişdi. Boru kəmərlərinin ötürmə qabiliyyəti hasilat proqnozlarımıza və qaz yataqlarının işlənməsi sürəti üzrə strategiyamıza uyğun müəyyən edilmişdi. Çünki qaz ehtiyatlarını istər 10 il, istərsə də 100 il ərzində hasil etmək mümkündür. Burada əsas məsələ ondan ibarətdir ki, bizim üçün hansı yanaşma daha məqsədəuyğundur: hasilatı onilliklər ərzində sabit səviyyədə saxlamaq, yoxsa daha böyük sərmayələr yataraq hasilatı qısa müddətdə əhəmiyyətli dərəcədə artırmaq.

Lakin Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Azərbaycan qazına tələbat kəskin şəkildə artdı. Avropa Komissiyası bizə müraciət edərək hasilatı mümkün qədər tez artırmaq üçün əlimizdən gələni etməyimizi xahiş etdi və biz bunu etdik. Yeri gəlmişkən, Avropa Komissiyasının prezidentinin Azərbaycana son səfəri zamanı da qeyd olundu ki, 2022-ci ildən bəri Avropa İttifaqına qaz tədarükümüzü 65 faiz artırmışıq və bu göstərici gələcəkdə də artacaq.

Buna görə də mövcud qaz nəqli infrastrukturunun genişləndirilməsi zəruridir. Lakin bu istiqamətdə əsas maneə Avropa İttifaqının yaşıl gündəliyidir. Avropa maliyyə institutları faydalı qazıntı yanacaq layihələrinin maliyyələşdirilməsində maraqlı deyillər.

Bu baxımdan əsas sual ondan ibarətdir ki, boru kəmərlərinin ötürmə qabiliyyətinin artırılması üçün zəruri maliyyə vəsaiti haradan cəlb edilməlidir. Digər, bəlkə də daha mühüm məsələ isə uzunmüddətli müqavilələrdir. Bu barədə biz xanım Ursula Fon der Lyayenlə də ətraflı fikir mübadiləsi apardıq ki, bizim uzunmüddətli müqavilələrə ehtiyacımız var. Çünki hasilatı əhəmiyyətli dərəcədə artırmaq üçün iri həcmli investisiyalar tələb olunur. Əgər müəyyən vaxtdan sonra bizə "təşəkkür edirik, artıq qazınıza ehtiyacımız yoxdur" deyilərsə, onda biz nə edəcəyik?

Bunlarla yanaşı, bazarların şaxələndirilməsi də mühüm əhəmiyyət daşıyır. Əvvəllər heç nəzərdə tutmadığımız bir bazara - Suriyaya qaz ixracına başlamışıq və buradan yüksək tələbatın mövcud olduğu qonşu bazarlara çıxış imkanlarımız da var. Ona görə də Avropadakı tərəfdaşlarımızla münasibətlərdə bizim üçün iki məsələ xüsusi əhəmiyyət kəsb edir: uzunmüddətli müqavilələrin bağlanması və mövcud qaz nəqli sisteminin genişləndirilməsi istiqamətində birgə fəaliyyət.

Avropa Komissiyası ilə münasibətlərə gəldikdə isə bu barədə fikirlərimi artıq bölüşmüşəm. Biz bu münasibətlərin mövcud səviyyəsindən çox məmnunuq. Hesab edirəm ki, Avropa İttifaqının yüksəksəviyyəli nümayəndələrinin və Avropa Komissiyası rəhbərliyinin Azərbaycana səfərlərinin intensivliyi də misli görünməmiş xarakter daşıyır. Çünki bu ilin mart ayından iyul ayınadək ölkəmizə Avropa İttifaqı Şurasının Prezidenti, Avropa Komissiyasının Prezidenti və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi səfər ediblər. Bütün bu səfərlər son dərəcə uğurlu keçdi, çox müsbət nəticələr oldu və həm ikitərəfli münasibətlərimiz, həm də qlobal gündəlikdə duran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı. Yenidən Qarabağa xoş gəlmisiniz, Ceyn.

**Moderator: Sual üçün söz verilir "BreitBar Nyus"dan Coşua Klayna.**

**Coşua Klayn: Cənab Prezident, burada olduğunuz üçün təşəkkür edirəm.**

**Prezident Tramp dəfələrlə bəyan edib ki, ABŞ-nin gücü və diplomatiyası Cənubi Qafqazda vəziyyətin dəyişməsində mühüm rol oynayıb. Sizcə, Prezident Tramp əvvəlki ABŞ administrasiyalarından fərqli olaraq sülhün mümkün olmasına hansı töhfələri verdi? Həmçinin qarşıdakı illərdə ABŞ-Azərbaycan münasibətlərinin inkişafını necə görürsünüz? Təşəkkür edirəm.**

**Prezident İlham Əliyev:** Bəli, Prezident Trampın bu günə qədər və bugünkü yanaşması ilə ondan əvvəlki administrasiyaların siyasəti arasında çox ciddi fərq var idi və bu fərq bu gün də özünü göstərir. Təəssüf ki, təxminən 30 il davam etmiş işğal dövründə ABŞ administrasiyaları, ATƏT-in ozamankı Minsk qrupunun digər həmsədrləri ilə birlikdə, BMT Təhlükəsizlik Şurasının özlərinin də qəbul etdiyi qətnamələr əsasında Azərbaycan torpaqlarının işğaldan azad edilməsinə nail olmaq əvəzinə, münaqişənin dondurulması siyasətini yürüdürdülər. Onların əsas məqsədi münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq və bundan həm Azərbaycana, həm də müəyyən dərəcədə Ermənistana təsir vasitəsi kimi istifadə etmək idi. Onlar tam sinxron şəkildə fəaliyyət göstərirdi və ATƏT-in Minsk qrupunun bütün fəaliyyəti münaqişənin həllinə deyil, işğalın sonsuz olmasına xidmət edirdi.

Prezident Trampın yanaşması isə tamamilə fərqli idi. O, sülhsevər, dünyanın müxtəlif bölgələrində sülhün bərqərar olunmasına çalışan bir liderdir. Özünün də qeyd etdiyi kimi, o, səkkiz münaqişənin həllinə töhfə verib. Bu, onun xarakterini, baxışlarını və siyasətini əks etdirir.

Bizim məsələdə Prezident Trampın rolu Azərbaycan ilə Ermənistan arasında sülh sazişi üzrə danışıqların yekun mərhələsində xüsusilə mühüm oldu. Prezident Tramp və onun komandası bu prosesə qoşularaq elə bir çərçivə formalaşdırdılar ki, nəticədə sülh mümkün oldu.

Onlar sülhlə bağlı narahatlıqlarımızı tam şəkildə anlayırdılar. Onlar Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin zəruriliyini aydın şəkildə dərk edirdilər və Ermənistanı da bu sülhün vacibliyinə inandırmaq istiqamətində olduqca səmərəli fəaliyyət göstərdilər. Nəticədə, Ağ Evdə Ermənistanın Baş naziri, Prezident Tramp və mənim iştirakımla keçirilən tarixi görüş zamanı birgə Bəyannamə imzalandı. Həmçinin Prezident Trampın iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri sülh sazişini parafladılar. Qeyd etdiyim kimi, Prezident Tramp mənim iştirakımla məhdudiyyətlərin və sanksiyaların tətbiqini müvəqqəti dayandıran sənədi imzaladı. Eyni zamanda, altı ay ərzində Strateji Tərəfdaşlıq Sazişinin hazırlanması məqsədilə Birgə İşçi qrupunun yaradılmasını nəzərdə tutan sənədi də imzaladıq.

Məhz altı ay ərzində bu iş başa çatdırıldı. Mənim təcrübəmdə ilk dəfə idi ki, ABŞ rəsmiləri verdikləri sözə bu qədər dəqiqliklə əməl edirdilər. Beləliklə, avqust ayından fevral ayınadək bütün proses uğurla tamamlandı və daha sonra Vitse-prezident Vens Bakıya səfər etdi. Həmin səfər zamanı biz Strateji Tərəfdaşlıq Bəyannaməsini imzaladıq.

Bu, həqiqətən də heyrətamiz idi. Buna inanmaq çətin idi. Bu, uzun illər yalnız arzulaya biləcəyimiz bir hadisə idi. Biz hər zaman Amerika Birləşmiş Ştatları ilə yaxşı münasibətlər qurmaq istəmişik. Lakin erməni lobbisinin təsiri, mövcud stereotiplər, Azərbaycan barədə yanlış təsəvvürlər və ölkəmizin imkanlarının lazımi səviyyədə qiymətləndirilməməsi buna mane olurdu.

Qeyd etdiyim kimi, Prezident Bayden senator olduğu dövrdə Azərbaycana qarşı sanksiyaların tətbiqi təşəbbüsünün müəlliflərindən biri idi və onun regiona baxışı da məhz belə idi. Onun yanaşmasına görə, region parçalanmış, münaqişələr və qarşıdurmalar şəraitində qalmalı idi. Belə vəziyyətdə məqsədlərinə nail olmaq daha asan olurdu. Prezident Tramp isə tamamilə fərqli şəxsdir və fərqli baxışlara malikdir. O, sülhü arzulayır və sülhü yeni imkanlar yaradan bir amil kimi görür. Bu gün isə Azərbaycan ilə Ermənistan arasında sülhün təmin olunması yeni imkanlar açır. Hazırda Prezident Tramp Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək dəhlizə öz adını verib - TRIPP. Bizdə olan məlumata görə, layihə çərçivəsində praktiki işlərə, ümid edirik ki, artıq bu il başlanılacaq. Bu layihə regionun nəqliyyat bağlılığı xəritəsini tamamilə dəyişəcək, Cənubi Qafqazda təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcək. Bizim buna böyük ehtiyacımız var. Eyni zamanda, bu, Cənubi Qafqazda qarşılıqlı etimad və konstruktiv əməkdaşlıq mühitinin formalaşmasına töhfə verəcək. Şəxsən Prezident Trampa və onun komandasına dərin minnətdarlığımızı bildiririk. Xüsusilə Stiv Uitkoffun və Arye Laytstounun adlarını qeyd etmək istərdim. Onlar Prezident Tramp ilə birlikdə Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmasında həlledici rol oynayıblar.

**Moderator: Sualınıza görə çox təşəkkür edirik. İndi isə sözü bu gün bizimlə birlikdə olan "LinkedIn" şirkətinin Avropa, Yaxın Şərq və Afrika (EMEA), həmçinin Latın Amerikası regionları üzrə dövlət sektoru və NFP satışlarının rəhbəri cənab Şeymus Klensiyə veririk.**

*Ardı 10-cu səh.*

4TH SHUSHA GLOBAL MEDIA FORUM

# IV Şuşa Qlobal Media Forumu

# İlham Əliyevin dünyaya sülh çağırışı: "Sülh nail olunmalı olan ən ali məqsəddir"

## Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib

*Əvvəli 9-cu səh.*

**Şeymus Klensi: Təşəkkür edirəm. Sabahınız xeyir, cənab Prezident. Mən "LinkedIn"də dövlət sektoru ilə əməkdaşlığa rəhbərlik edirəm. Bu yaxınlarda biz Mərkəzi Asiya üzrə fəaliyyətimizi yerli tərəfdaşımız olan "HR Institute" vasitəsilə Azərbaycanda mərkəzləşdirdik.**

**Son iki il ərzində Azərbaycan Hökuməti, AZCON, UBOK və ABB Bank ilə əməkdaşlıq edirəm və bu müddətdə ölkənin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atdığı addımların ilhamverici olduğunu müşahidə etmişəm. Bu baxımdan bir sual vermək istərdim. Sizin fikrinizcə, ölkə əmək bazarı və insan kapitalı baxımından, ilk növbədə, hansı istiqamətə diqqət yetirməlidir? "LinkedIn" kimi bir tərəfdaş bu inkişaf yolunda Azərbaycana necə dəstək verə bilər?**

**Prezident İlham Əliyev:** Hansı tərəfdaş şirkətdənsiniz?

**Şeymus Klensi: "LinkedIn".**

**Prezident İlham Əliyev:** Gündəliyimizdə kifayət qədər geniş məsələlər var. Onlardan hər hansı birini birinci, ikinci, üçüncü və dördüncü sıraya yerləşdirmək çətindir. Qlobal gündəliyimizdə dayanan əsas məsələlərdən biri davamlı inkişafın təmin edilməsi, Qarabağın bərpası və yenidən qurulmasının başa çatdırılması, eləcə də yeni nəqliyyat marşrutlarının və bağlantı imkanlarının formalaşmasına xidmət edəcək bütün layihələrimizin uğurla tamamlanmasıdır. Gündəliyimizin əsas istiqamətlərindən biri də rəqəmsal transformasiyanın və süni intellektin inkişafıdır. Bu yaxınlarda mən həmin məsələlərin əlaqələndirilməsi məqsədilə xüsusi Sərəncam imzaladım və bununla da bu sahə üzrə müvafiq komissiya, birgə işçi qrup, yəni vahid şura yaradıldı. Şübhəsiz ki, enerji təhlükəsizliyi bundan sonra da qlobal gündəliyin əsas mövzularından biri olaraq qalacaq.

Ölkəmizdə bu sahədə artıq böyük işlər görülüb və işlər yekunlaşıb. Lakin qeyd etdiyim kimi, həm ənənəvi enerji resurslarımıza, həm də bərpaolunan enerji mənbələrinə tələbat artmaqda davam edəcək. Bizim bərpaolunan enerji sahəsində çox böyük potensialımız var. Təkcə Qarabağda ümumi gücü 340 meqavat olan su elektrik stansiyaları artıq istifadəyə verilib. Bundan əlavə, növbəti bir il ərzində 340 meqavat gücündə Günəş elektrik stansiyalarının tikintisi də başa çatdırılacaq. Buna görə, elektrik enerjisinin Avropa bazarına ixracı gündəliyimizin əsas istiqamətlərindən biridir. Çünki Avropa bazarının əlavə enerji resurslarına ehtiyacı var və bizim əlavə imkanlarımız var.

Əlbəttə, gündəlik fəaliyyətimizin mühüm istiqamətlərindən biri də ölkəmizin beynəlxalq səviyyədə tanıdılmasıdır. Bu işi fasiləsiz şəkildə davam etdirməli, qazandığımız nailiyyətləri, qarşımızda duran çağırışları və həyata keçirdiyimiz işləri dünya ictimaiyyətinə təqdim etməliyik.

Mövcud şəraitdə isə yəqin ki, bir nömrəli prioritet təhlükəsizlik və müdafiə qabiliyyətinin daha da gücləndirilməsidir. Çünki təhlükəsizlik məsələləri və təhdidlər bizim region üçün kitablardan oxuduğumuz anlayışlar deyil - biz bu reallıqla hər gün üz-üzəyik.



Beləliklə, gündəliyimiz kifayət qədər genişdir. Bunu bir cümlə ilə ifadə etməli olsam, deyərdim ki, əsas məqsədimiz müdafiə potensialımızı gücləndirmək, milli maraqlarımızı qorumaq və mümkün qədər çox ölkə ilə praktik və səmərəli əməkdaşlıq münasibətləri qurmaqdır. Təşəkkür edirəm.

**Moderator: İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı çox maraqlı sual idi.**

**İndi isə sözü "Əl-Ərəbiyə" telekanalının aparıcısı xanım Leal Al Kateerə veririk.**

**Leal Al Kateer: Sabahınız xeyir. Təşəkkür edirəm, cənab Prezident. Sizi yenidən görmək çox xoşdur. Mən ötən il həm Bakıda, həm də Şuşada olmuşdum və bu müddət ərzində Şuşada görülən böyük inkişafın şahidi oldum. İlk növbədə, bu münasibətlə Sizi təbrik edirəm. Hazırda Yaxın Şərqdə görünməmiş dərəcədə mürəkkəb vəziyyət yaranıb və Azərbaycan İranla həmsərhəd ölkədir. Birinci sualım belədir: Sizcə, İranla uzunmüddətli sülhə nail olmaq mümkündürmü? İkinci sualım isə bundan ibarətdir ki, regionda gərginliyin daha da genişlənməsi fonunda, İran və Amerika Birləşmiş Ştatları arasında baş verən qarşıdurmanın təsirlərindən sərhədlərinizi qorumaq üçün gələcək planlarınız nədən ibarətdir? Çünki burada söhbət yalnız Yaxın Şərqdən getmir, sanki bütün dünya ABŞ-İran müharibəsində iştirak edir.**

**Prezident İlham Əliyev:** Çox sağ olun. Sizi yenidən görməyə çox şadam. Gəldiyiniz üçün təşəkkür edirəm. Həqiqətən də biz hazırda müharibələrin əhatəsində yerləşən bir bölgədəyik. Şimalımızda müharibə vəziyyətində olan bir qonşumuz, cənubumuzda isə müharibə aparan digər qonşumuz var. Biz isə onların arasında yerləşirik. Əlbəttə ki, belə bir şəraitdə ölkəmizi qorumaq və eyni zamanda, imkan daxilində, münaqişənin sülh yolu ilə həllinə töhfə vermək bizim üçün böyük əhəmiyyət kəsb edir. Bəli, biz sülhün mümkün olduğuna inanırıq. Hesab edirəm ki, bunu təkcə biz deyil, həm də bu qarşıdurmanı və qan tökülməsini dayandırmaq üçün əllərindən gələni edən vasitəçi ölkələr də düşünürlər. Xüsusilə Pakistanı, əziz dostum Baş nazir Şahbaz Şərifi və Feldmarşal Asim Muniri qeyd etmək istərdim. Onlar Amerika Birləşmiş Ştatları ilə İran arasında vasitəçilik səylərində həqiqətən böyük iş gördülər və mühüm uğur qazandılar.

Təəssüf ki, bu, uzun sürmədi. Lakin ümid edirəm ki, hazırkı münaqişənin alovlanması da uzun sürməyəcək. Ona görə də mən əminəm ki, sülh mümkündür. Əks təqdirdə, buna inanmadan yaşamaq çox çətin olar.

Düşünürəm ki, əsas məsələ sülh əldə edildikdən sonra regionun necə görünəcəyi olacaq. Bu baxımdan müxtəlif ssenarilər və müxtəlif variantlar mövcuddur. Təbii ki, bir çox ölkələr öz strateji baxışlarına uyğun siyasət yürüdürlər. Azərbaycana gəldikdə isə, bizim yeganə istəyimiz sərhədlərimiz boyu sülhün hökm sürməsidir. Çünki ölkə daxilində sülh şəraitində yaşadığınız halda sərhədləriniz boyunca döyüşlər gedirsə, siz heç vaxt özünüzü təhlükəsiz hiss etmirsiniz.

Azərbaycanda cəmi bir ildən az müddətdir ki, sülh şəraitində yaşayırıq. Biz 30 il müharibə şəraitində yaşamışıq. Əvvəl Birinci Qarabağ müharibəsi oldu, sonra atəşkəs dövründə müxtəlif qarşıdurmalar yaşandı, ardınca müxtəlif gərginliklər baş verdi və nəhayət, İkinci Qarabağ müharibəsi oldu. Beləliklə, biz müharibəsiz həyatı təsəvvür belə edə bilmirdik. Cəmi bir ildən azdır ki, sülh şəraitində yaşayırıq və bunun inkişaf, investisiyalar, insanların psixoloji durumu və cəmiyyətdə hökm sürən ab-hava baxımından verdiyi faydaları görürük. Bunun çoxsaylı müsbət təsirləri var. Əlbəttə, biz istərdik ki, cənubumuzda da, şimalımızda da mümkün qədər tez sülh bərqərar olsun. Lakin bu sülh ədalətli olmalı, beynəlxalq hüquqa əsaslanmalı, hər hansı bir tərəfin ambisiyaları və ya gündəliyi üzərində qurulmamalıdır. Beynəlxalq hüquq istənilən sülh üçün universal platformadır. Ermənistanla müharibəmizə nəzər salsaq, biz hər zaman beynəlxalq hüququn tərəfində olmuşuq. Biz özümüzü müdafiə edirdik.1990-cı illərin əvvəllərində torpaqlarımız işğal olundu və bundan sonra biz münaqişəni sülh yolu ilə həll etməyə çalışdıq. Lakin bu, mümkün olmadı.

Sonra biz suverenliyimizi bərpa etmək üçün gücdən istifadə etdik. Biz buna nail olduq və daha irəli getmədik. Biz dayandıq və bu, çox vacib idi. Düşünürəm ki, silahlı qarşıdurmanın ən qızğın mərhələsi başa çatdıqdan sonra ən vacib məqamlardan biri məhz vaxtında dayanmağı bacarmaqdır. Bu, asan deyil və biz bunu yaxşı anlayırıq. Biz 30 il qəlbimizdə bu yara ilə yaşamışıq. Lakin dayanmalı olduğumuz anda dayandıq.

Biz müharibəni sonsuz etməmək üçün dayandıq. Başqa seçimlərimiz də ola bilərdi. Lakin məsuliyyət və müdriklik tələb edirdi ki, biz dayanaq. Çünki dayanmasaydıq, Ermənistanla müharibə davam edəcəkdi. Bəlkə də aşağı intensivliklə davam edən bir müharibəyə çevriləcəkdi. Müəyyən vaxtdan sonra yenidən alovlanacaq, sonra yenidən səngiyəcəkdi və insanlar həlak olacaqdılar.

Ona görə də Yaxın Şərqdə də silahlı qarşıdurmanın ən qızğın mərhələsi başa çatdıqdan sonra Körfəz Əməkdaşlıq Şurasına üzv dövlətlər və İran dayanmalıdırlar. Əlbəttə, biz ermənilərin xalqımıza qarşı törətdiklərini heç vaxt unutmayacağıq. Onların şəhərlərimizi necə dağıtdıqlarını, günahsız qadınları və uşaqları necə qətlə yetirdiklərini, Xocalıda soyqırımı törətdiklərini heç vaxt unutmayacağıq. Biz bunu heç vaxt unutmayacağıq.

Lakin eyni zamanda başa düşürük ki, sülh nail olunmalı olan ən ali məqsəddir. Buna görə də hesab edirəm ki, burada çoxlu psixoloji və emosional amillər, cavab vermək, qisas almaq istəyi olacaq. Mənim qonşularımıza mesajım məsuliyyətli olmaq, mümkün qədər tez dayanmaq, münasibətləri normallaşdırmağa çalışmaq və bu prosesi qlobal münaqişəyə çevriləcək səviyyəyədək eskalasiya etdirməməkdir. Bu, çox böyük təhlükədir və mən hər kəsi məsuliyyətli olmağa çağırıram. Ümid edirəm ki, dostlarımızın, bir daha qeyd edirəm, Pakistanın vasitəçilik səyləri qarşıdurmanın dayandırılması ilə nəticələnəcək.

**Moderator: Beləliklə, Avropadan ABŞ-yə, oradan isə Yaxın Şərqə keçdik. İndi isə Afrikaya üz tuturuq. Növbəti sualı vermək üçün bu gün bizimlə birlikdə olan "Voice of Congo" media qurumunun baş direktoru cənab Sedrik Monzye Ayunduya söz veririk.**

**Sedrik Monzye Ayundu: Cənab Prezident, mən Konqo jurnalistiyəm. Azərbaycana və Bakı Təşəbbüs Qrupuna səsləri təcrid olunan, fikirləri bilərəkdən səhv verilən və ya qlobal media gündəliyindən məhrum edilən xalqlar və icmalara beynəlxalq platformanı yaratdıqlarına görə dərin təşəkkürümü bildirmək istəyirəm. Fransa uzun müddət özünü demokratiya, insan hüquqları və ifadə azadlığının carçısı kimi təqdim edib. Lakin onun dəniz ərazilərində və bir çox digər regionlarda müstəmləkə qalıqları hələ də hiss olunur və yerli icmalar reallığı təşviq edəndə ciddi çətinliklərlə üzləşir. Onların ləyaqət, mədəni özünəməxsusluğu, siyasi hüquqları və öz müqəddəratını təyin etmək hüququ tez-tez hökmranlıq edən təfsirlərlə süzgəcdən keçirilir, müstəqil səslər kənara sıxışdırılır. Bundan əlavə, həmin icmalara dəstək verməyə, Bakı Təşəbbüs Qrupu kimi təşkilatlarla əməkdaşlıq etməyə çalışanlara ədalətsiz olaraq hibrid döyüşçülər adı verilir, yalnız ona görə ki, onlar artıq qəliblənmiş müstəmləkə söhbətlərini sual altına çəkir və rahat olmayan həqiqəti beynəlxalq ictimaiyyətə çatdırır.**

**Bu gün dünyada informasiya üzərində nəzarət siyasi və ya iqtisadi nəzarət kimi güclü ola bilər. Cənab Prezident, Sizin fikrinizcə, müstəqil media nümayəndələri sadəcə reaksiya deyil, sözün əsl mənasında, müstəmləkə və neomüstəmləkə hekayətlərini necə dəyişə bilər və hüquqları, tarixi, istəkləri uzun müddət səhv verilmiş yaxud susdurulmuş xalqlar üçün daha güclü, daha inandırıcı beynəlxalq mövqeni necə qura bilər?**

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz Avropa Şurasına qəbul olunarkən mən Azərbaycan nümayəndə heyətinin ilk rəhbəri idim və Strasburqa gəlmişdim. Nümayəndə heyətimizin Avropa Şurası rəhbərliyindən eşitdiyi ilk fikirlərdən biri bu idi ki, insan hüquqları heç bir ölkənin daxili işi hesab edilə bilməz. Biz yaxşı tələbələr idik və bunu öyrəndik. İndi isə Bakı Təşəbbüs Qrupu müstəmləkəçilik, müstəmləkə əsarəti və müstəmləkəçilikdən irəli gələn bərabərsizlik məsələlərini qaldıranda, onlar ittiham olunurlar. Təkcə onlar deyil, hətta Azərbaycan Hökuməti də Fransanın daxili işlərinə qarışmaqda ittiham olunur. Halbuki biz belə etmirik.

Çünki insan hüquqları ilə bağlı məsələlər ümumbəşəri məsələlərdir. Bakı Təşəbbüs Qrupu isə bu mövzunu qlobal gündəliyə çıxaran, bəlkə də ilk və ən səmərəli qeyri-hökumət təşkilatıdır. Uzun illər ərzində Fransanın qondarma dənizaşırı əraziləri, əslində isə faktiki müstəmləkələri təzyiqlərə məruz qalıblar. Orada müxtəlif qanunsuz əməllər törədilib, o cümlədən nüvə sınaqları keçirilib. Polineziyada nə qədər nüvə sınağı keçirilib? Bəlkə 100, bəlkə 200, bəlkə də daha çox. Bunun nəticəsində çox sayda insan zərər çəkib. Çox sayda insan həyatını itirib, sağlamlığına ciddi zərər dəyib. Bakı Təşəbbüs Qrupu isə bu məsələni gündəmə gətirdiyinə görə, təəssüf ki, əsassız olaraq hansısa hibrid müharibə aparmaqda ittiham edilir. Bu, tamamilə ədalətsizdir. Hesab edirəm ki, müstəqil medianın rolu çox böyük əhəmiyyət daşıyır.

Siz çox mühüm bir məsələyə toxundunuz. Uzun illər ərzində Yeni Kaledoniya, Polineziya, Martinika və digər ərazilərdə mövcud problemlərlə bağlı eşidilən o çox zəif səslər koordinasiyalı şəkildə aparılan hücum qruplarının təzyiqi nəticəsində susdurulurdu. Onlara qarşı təzyiqlər göstərilir, hədələr edilirdi. Hətta mənə verilən məlumata görə, Bakı Təşəbbüs Qrupunun təşkil etdiyi beynəlxalq tədbirlərdə iştirak edən bəzi şəxslər saxlanılıblar. Yeri gəlmişkən, onlar təkcə Fransada deyil, İsveçrədə də saxlanılıblar. Onlardan bəziləri hətta həbs olunublar. Bütün bunlar isə insan hüquqlarından danışan, dünyaya demokratiyanın nə olduğunu öyrətməyə çalışan şəxslərin gözü qarşısında baş verir. Bilirsiniz, bumeranq çox təsirli silahdır. Bunu nəzərə almaq lazımdır. Demək istədiyim odur ki, Azərbaycana hücum etmək istəyənlər bizi lazımınca qiymətləndirmədilər.

Lakin bir daha qeyd etmək istəyirəm ki, bu məsələ Bakı Təşəbbüs Qrupunun fəaliyyət çərçivəsindən qat-qat genişdir. Hesab edirəm ki, medianın rolu olduqca mühümdür. Siz də qeyd etdiyiniz kimi, buna görə sizə bir daha təşəkkür edirəm. Media, mən deyərdim ki, bu müstəmləkəçiliyə qarşı çıxmaq üçün kifayət qədər cəsarət nümayiş etdirməlidir. Çünki söhbət bizim Fransa ilə münasibətlərimizdən getmir.

Bilirsiniz, Fransa ilə münasibətlərimizə gəlincə, bəli, Fransanın ölkəmizin suverenliyinə münasibəti və qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınması ilə bağlı Fransada qəbul edilmiş qərarlar münasibətlərimizə müəyyən dərəcədə mənfi təsir göstərib. Hətta bu gün də Fransada mövcud olmayan qondarma "Dağlıq Qarabağ"ın qondarma səfirliyi fəaliyyət göstərir. Lakin bunlar nisbətən kiçik məsələlərdir. Söhbət Fransa ilə münasibətlərimizdən getmir. Söhbət beynəlxalq davranışın fundamental prinsiplərindən gedir.

*Ardı 11-ci səh.*

IV Şuşa Qlobal Media Forumu

# İlham Əliyevin dünyaya sülh çağırışı: "Sülh nail olunmalı olan ən ali məqsəddir"

## Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib

*Əvvəli 10-cu səh.*

XXI əsrdə sizdən 10 min kilometr uzaqlıqda yerləşən müstəmləkəyə sahib ola bilməzsiniz, xüsusilə də həmin ərazidə yaşayan insanlar sizi istəmirlərsə. İnsanlar öz həyatlarını özləri qurmaq istəyirlər. Yeni Kaledoniyadan və ya digər ərazilərdən daha kiçik olan, lakin dövlətçiliyə malik, Birləşmiş Millətlər Təşkilatında səsini ucalda bilən və öz bayrağı olan çox sayda ölkə var. Nə üçün onlar da bu hüquqa malik olmasınlar?

Hesab edirəm ki, bu məsələ həm dövlətlərin, həm də vətəndaş cəmiyyətinin mövqeyini müəyyən edən mühüm bir sınaqdır. Düşünürəm ki, əgər dünyanın müxtəlif bölgələrində Bakı Təşəbbüs Qrupu kimi daha çox təşkilat fəaliyyət göstərsə, onlar belə qeyri-hökumət təşkilatlarının bir növ koalisiyasını yarada bilərlər. Həmin koalisiya isə bu problemlərin daha yüksək səslə gündəmə gətirilməsi və bu təzyiqə son qoyulması istiqamətində daha təsirli fəaliyyət göstərə bilər.

Söhbət təkcə Yeni Kaledoniyadan getmir. Belə ərazilərin bir çoxu hətta Avropanın özündə də mövcuddur. Korsikaya baxın, o, Avropanın lap mərkəzində yerləşir. Orada yaşayan insanlar öz həyatlarını özləri qurmaq istəyirlər. Öz dillərini qorumaq istəyirlər. Öz kimliklərinə hörmətlə yanaşılmasını istəyirlər. Onlar Fransa ərazisini işğal etmək niyyətində deyillər. Sadəcə olaraq əcdadlarının torpaqlarında ləyaqətlə, kənardan idarə olunmadan və xarici hökmranlıq olmadan yaşamaq istəyirlər.

Bilirsiniz, bu məsələlərə bu qədər həssas yanaşmağımızın səbəblərindən biri də odur ki, biz özümüz müstəmləkə şəraitində yaşamışıq. Biz XIX əsrdə müstəmləkəyə çevrildik və müstəmləkə kimi yaşadıq. Daha sonra Sovet İttifaqı yaradıldıqda isə biz müstəqil deyildik, Sovet İttifaqının tərkibində idik. Respublika idik? Bəli, amma heç bir real hüquqa malik olmayan bir respublika. Müstəmləkə kimi yaşamağın nə demək olduğunu da, azad olmağın nə demək olduğunu da tarixi yaddaşımızdan yaxşı bilirik.

Məsələn, XIX və XX əsrlərdə müstəmləkəçilik dövründəki Azərbaycanla bugünkü Azərbaycanı müqayisə etsəniz, aradakı fərqin gecə ilə gündüz qədər olduğunu görərsiniz. Onlar bizim yalnız sərvətlərimizi talayırdılar. Azərbaycandan milyardla barel deyil, milyard tonlarla neft hasil olunmuşdu. Sovet İttifaqı dağıldıqda isə biz təbii qazsız və elektrik enerjisiz qalmışdıq.

Bu gün də Bakının ətrafındakı çirklənmiş ərazilərin təmizlənməsi ilə məşğuluq. Sərvətlərimizi istismar edənlərin təbiətimizə vurduğu zərərin aradan qaldırılması üçün milyardlarla vəsait xərcləyirik. Ötən otuz ildən çox müddətdə isə Azərbaycan, artıq qeyd olunduğu kimi, orta gücə malik dövlətə çevrilib. Məhz müstəqilliyin bəhrəsi budur. Sovet İttifaqı dağılanda xatırlayıram ki, Rusiyada bir çox analitiklər deyirdilər: "Bu respublikalar məhv olacaq. Onlar mərkəz olmadan yaşaya bilməyəcəklər".

Bəs nə baş verdi? Onların hamısı normal həyat yaşayır. Bəziləri daha firavan, bəziləri isə nisbətən az firavan yaşayır, amma onların heç biri məhv olmadı. Müstəqilliyin üstünlüyü də məhz budur. Məhz buna görə biz Yeni Kaledoniyanın, Polineziyanın, Martinikanın və Sen-Martenin müstəqilliyini, azadlığını dəstəkləyirik. Bir daha qeyd etmək istəyirəm ki, bunun Fransa ilə münasibətlərimizə heç bir aidiyyəti yoxdur.

Bu məsələ yanlış şərh olunur və bəzən bizə qarşı istifadə edilir. Ümidvaram ki, mənim mesajlarım düzgün qəbul ediləcək və Parisdə də lazımi şəkildə dəyərləndiriləcək. Çünki hazırda biz münasibətlərimizin normallaşdırılması prosesindəyik.

Onlar bizi tənqid edirlər, biz də onları tənqid edirik. Bu, normaldır. Bu, hər hansı hücum deyil. Bu, iki suveren dövlət arasında işgüzar münasibətlərin təzahürüdür. Hər iki dövlət bərabərhüquqludur. Heç biri digərindən üstün deyil və heç kəs digərinə nə etməli olduğunu diktə edə bilməz. Lakin öz mövqeyini ifadə etmək, narahatlığını bildirmək və tənqid etmək tamamilə normaldır. Sizə uğurlar arzulayıram. Çox sağ olun.

**Moderator: İnformasiyaya nəzarətin təsiri ilə bağlı çox maraqlı sual idi. Qarşıdakı iki gün ərzində müzakirə edəcəyimiz mövzu ilə də tam səsləşir.**

**İndi isə sözü "Media Gordon Ukraine"ın təsisçisi və jurnalisti Dmitri Qordona veririk. Dmitri ön sırada əyləşib.**

**Dmitri Qordon: Hörmətli cənab Prezident, icazə verin, əvvəlcə, milyonlarla ukraynalının adından Rusiyanın günahı ucbatından gözəl Ukraynanın məruz qaldığı qorxulu faciəyə göstərdiyiniz şəfqət və sırf insani münasibətə görə dost Azərbaycan xalqına və şəxsən Sizə minnətdarlığımı bildirim. Düz bir il əvvəl bu salonda Sizdən soruşdum: Ukraynaya nə məsləhət görərdiniz? Siz isə cavab verdiniz: İşğalı heç vaxt qəbul etməyin. Bir il keçdi və çox şey dəyişdi. Bu gün bütün dünya Krımın faktiki olaraq quru, dəniz və havadan mühasirəyə alındığını görür. Bu gün bütün dünya kilometrlərlə uzunluğunda benzin növbələri ilə ən zəngin neft istehsal edən ölkələrdən birini görür. Cəbhə xəttinin mahiyyətcə dəyişmədiyini, dəyişməz qaldığını görürük. Ukrayna dronlarının və raketlərinin Moskva və Sankt-Peterburqdan Sibirə qədər geniş ərazini vurduğunu görürük. Belə bir yeni vəziyyətdə bu gün Ukraynaya hansı məsləhəti verərdiniz? Bəlkə belə bir sual da verim: Mənim fikrimcə, artıq heç bir yaxşı çıxış yolu olmayan Putinə bu gün hansı məsləhəti verərdiniz?**

**Prezident İlham Əliyev:** Sağ olun. Sizi yenidən görməyimə şadam. Dəvətimizi qəbul edərək Qarabağa yenidən səfər etdiyinizə görə sağ olun. Azərbaycan xalqının ukraynalılara, Ukraynaya münasibəti barədə söylədiyiniz xoş sözlərə görə də sağ olun. Bütün bunlar təmiz ürəkdən gəlir. Sizin ötənilki sualınıza və mənim tövsiyəmə gəldikdə, zənnimcə, nə Ukrayna xalqı, nə də Ukrayna hökumətinin mənim məsləhətimə ehtiyacı yox idi, amma mən onu bu gün də təkrar edəcəyəm: Heç vaxt işğalla barışmamaq. Ukrayna bunu edir. O, işğalla barışmır. Bu il ərzində çətin məqamlar olsa da, biz gördük, bilirik və eşitdik ki, müəyyən dairələr mahiyyətcə işğalın qanuniləşdirilməsi, döyüş əməliyyatlarının dayandırılması şərti ilə təzyiq göstərirdi. Amma Ukrayna xalqı və onun rəhbərliyi bunu qəbul etmədi.



Qarşı tərəfə məsləhətlərə gəldikdə, əgər onlar məndən soruşsalar, əlbəttə ki, məsləhət verərəm. Amma indi, zənnimcə, sizin sualınız çərçivəsində bu məsləhətləri vermək o qədər də düzgün olmazdı. Amma vəziyyətə və davam edən hərbi əməliyyatların perspektivlərinə dair qiymətləndirməmə gəldikdə, düşünmürəm ki, bu, sizinkindən çox da fərqlənmir. Fikrimcə, bu müharibəni dayandırmağın və həm də dərhal dayandırmağın lazım olduğu çoxdan başa düşülməli idi. Bu, Azərbaycanın mövqeyidir və mənim də sırf insani mövqeyimdir. Bu, işğal altında olan ərazilərini azad edən bir ölkəyə rəhbərlik edən və rəhbərlik etməkdə davam edən bir insanın mövqeyidir. Düşünürəm ki, bu təcrübə tarixdə olduqca nadirdir, çünki həm işğal, həm də kobud desək, Qarabağı təhvil verməyə məcbur etmək cəhdləri ilə bağlı təcrübəmiz var. Mən bunu dəfələrlə demişəm: ABŞ, Fransa və Rusiyanın rəhbərlik etdiyi bu Minsk qrupu yalnız Qarabağı, yəni təkcə Qarabağı deyil, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərini deyil, həm də Laçın və Kəlbəcər rayonlarının bütün ərazisini əlimizdən alıb Ermənistana vermək istəyirdi ki, biz buna razı olaq. Bunun müqabilində bizə olduğumuz yerdən şərqə doğru beş rayonun qaytarılması vəd edilirdi. Amma nə mən, nə də Azərbaycanda heç kim buna razı olmazdı. Lakin bu, üç aparıcı ölkənin konsolidasiya olunmuş mövqeyi idi, ən azından onların Təhlükəsizlik Şurasının daimi üzvləri, mən bu termindən istifadə edirəm - dünyanın aparıcı dövlətləri olduqlarını nəzərə alsaq, bu mövqeyə müqavimət göstərmək olduqca çətin idi. İkinci Qarabağ müharibəsi başlayanda onların hamısı dərhal dayanmağı tələb edirdi. Bəziləri çox, digərləri az bezdirici şəkildə qorxudur, təhdid edir, zəng edirdilər. Amma hamısı istəyirdi ki, biz dayanaq, hər şeyi olduğu kimi saxlayaq. Bir məqamda bəziləri təklif edirdi: "Yaxşı, Füzuli azad edilib, amma dayanın". Müxtəlif diplomatik mexanizmlərdən istifadə etməli olduq. Xarici işlər nazirimizi Moskvada, Vaşinqtonda və Avropada çoxsaylı görüşlərə göndərdim. Belə bir məqsəd var idi - Azərbaycanın öz ərazisini bərpa etməsinə imkan verməmək. Lakin bu məqsədə nail olunmadı, çünki xalqın iradəsini qırmaq mümkün deyil. Müstəqillik uğrunda mübarizə aparan, kimliyini qoruyan bir xalqı məğlub etmək, onları məhv etmək, başqalarının iradəsini zorla qəbul etdirmək mümkün deyil. Bu anlayış hələ də hərbi əməliyyatların davam etdirilməsi uğrunda çıxış edənlərə agah olmalıdır.

Prezident Zelenskinin mövqeyi mənə məlumdur. O, bu barədə ictimaiyyətə açıq danışıb. Aprel ayında bizi ziyarət edəndə, bu mövzu barədə - təmas xətti boyunca hərbi əməliyyatların dərhal dayandırılmasına dair ətraflı müzakirə aparmışıq. Bu təklifin hələ də nə dərəcədə aktual olduğunu bilmirəm, bunu demək mənim üçün çətindir, amma hər halda, o, bunu açıq şəkildə geri götürməyib.

Buna görə də düşünürəm ki, istənilən halda, Azərbaycanın mövqeyinə gəldikdə, o, dəyişməz olaraq qalır. Biz həmişə Ukraynanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını dəstəkləmişik, dəstəkləyirik və dəstəkləməyə davam edəcəyik. Heç bir dövlətin sərhədləri zorla və ya həmin ölkə xalqının razılığı olmadan dəyişdirilə bilməz. Burada, təbii ki, bizim mövqeyimiz olduqca ardıcıl və qətidir. Biz həmişə Ukrayna xalqına, necə deyərlər, əlimizdən gələn köməyi etməyə hazırıq. Bu mövzuda çox danışmaq istəmirəm. Biz bunu sadəcə danışmaq üçün etmirik. Bu, sadəcə, ürəkdən gəlir. Bu, dövlətlərə və yeri gəlmişkən, təkcə onlara deyil, adi insanlara, kommersiya şirkətlərinə də aiddir. Yəni bu, ağır vəziyyətdə olanlara, əziyyət çəkənlərə, ərazi bütövlüyü pozulanlara yardım etmək və əlimizdən gələn hər cür köməyi göstərmək üçün vahid səydir.

Gəldiyiniz üçün bir daha təşəkkür edirəm.

**Moderator: İndi isə növbəti qonağımıza - qlobal kommunikasiya şirkəti "Yurovich Communications"ın baş icraçı direktoru, eyni zamanda Soxnut - Yəhudi Agentliyinin Azərbaycandakı fəxri səfiri cənab Roman Yuroviçə söz veririk.**

**Roman Yuroviç: Sabahınız xeyir. Cənab Prezident, bu yüksəksəviyyəli və çox mötəbər forumun işində iştirak etmək imkanına görə çox sağ olun. Buraya hər bir gəlişim mənim üçün çox təsiredici və həyəcanvericidir.**

**Mən bunu soruşmaq istəyirdim. Son illərdə Bakı getdikcə daha vacib beynəlxalq təsir mərkəzinə, konstruktiv diplomatiya mərkəzinə çevrilib və bu, bütün dünyada qəbul edilir. Bu, təkcə iqtisadiyyata aid deyil, çünki Orta Yol həm dəniz, həm də quru yolu ilə Azərbaycandan keçir və bu, inkişaf edir. Bu, siyasətə də aiddir. Bir-biri ilə danışa bilməyən tamamilə fərqli ölkələrin liderləri, necə deyərlər, hansısa nəticəyə nail olmaq üçün onlara kömək xahişi ilə Bakıya müraciət edirlər. Amerika Birləşmiş Ştatları, İran, İsrail, Türkiyə, Suriya kimi ölkələr, Azərbaycanın onlara kömək edə, prinsipial məsələlərin həllinə təsir göstərə biləcəyini qəbul edirlər.**

**Mənim sualım bundan ibarətdir: Azərbaycanın torpağında, siyasi mədəniyyətində və rəhbərliyində mövcud olan nədir ki, o, ölkəyə ən mürəkkəb məsələlərin - bir-birinə etibar etməyən, lakin nədənsə Azərbaycana etibar edən ölkələrə təsir edən məsələlərin həlli üçün tanınmış beynəlxalq mərkəzə çevrilmək gücü verir? Sağ olun.**

**Prezident İlham Əliyev:** İfadə etdiyiniz fikirlərə görə sağ olun, sualda da sizin bizim rolumuza verdiyiniz qiymət səsləndi. Amma burada, yəqin ki, sualın cavabı çox uzun olacaq. Amillər çoxdur.

Amma düşünürəm ki, etimadı birinci yerə qoyardım. Həm də Azərbaycanın səmimiyyətinə etimadı. Çünki qeyd etdiyiniz bütün hallarda və onların bir çoxunda normallaşdırma səylərində iştirak üçün bizə müraciət edən hər kəs inanırdı və başa düşürdü ki, bizim heç bir gizli niyyətimiz yoxdur. Bu, həqiqətən də belədir, heç vaxt olmayıb. Biz həmişə bacardığımız yerdə səmimiyyətlə kömək etmək istəmişik.

Bu, bir növ dövlətimizin davranış xəttidir və kifayət qədər dayanıqlı olub. Kömək etmək imkanı varsa, etməliyik. Əgər yoxdursa, yox deməliyik. Bir vaxtlar kömək etmək imkanımız yox idi, amma indi var - həm maddi, həm siyasi və həm də digər formalarda.

Buna görə də düşünürəm ki, etibar birinci yerdədir, məxfi məlumatların sızmayacağı və heç bir yerə sızmadığı - hər halda, sızsa belə, bunun bizdən olmayacağı fikridir.

İkincisi, öz aralarında ortaq dil tapa bilməyənlərin hamısı ilə dürüst olacağımıza səmimi bir inamdır. Bu cür hallar həm keçmişdə, həm də yaxın tarixdə çox olub.

Əlbəttə ki, bu, çox sevindiricidir. Bu göstərir, o dərəcədə etibarlı münasibətlər qurmuşuq ki, bu münasibətlər sadəcə vacib məsələləri müzakirə etməklə və gərginliyi azaltmaqla bəzi ölkələr üçün faydalı olmağımıza imkan verir. Həm də bu, regional siyasət amilinə çevrilir. Buna görə də bu gün Azərbaycanın regional məsələlərdə, minimum regional məsələlərdə rolu təbii olaraq artır. Bu rol müsbətdir, konstruktivdir və mümkün olan yerlərdə kömək göstərmək üçün imkan daxilində yardımlara davam edəcəyik.

Həm də düşünürəm ki, həmçinin mühüm olan digər vacib amil də artıq bir az bəhs etdiyim məsələdir. Qoşulmama Hərəkatı 120 ölkəni əhatə edir və onların bir çoxu bir-birini o qədər də çox sevmir, bəziləri hətta müharibə vəziyyətindədir. Amma biz seçiləndə və üç il sonra da hamısı yekdilliklə Azərbaycana səs verdi. Çünki seçiləndə, demək olar ki, biz kampaniya apardıq, özümüz barədə yaxşı şeylərdən danışdıq, amma üç il ərzində dediklərimizin hamısını etdik. Üç ildən sonra yeni sədr seçməkdə çətinliklər yarananda bizə müraciət etdilər: "Gəlin səlahiyyət müddətini uzadaq". Yenə də hamı yekdilliklə səs verdi. Eyni şey bu regional formatda da baş verir, insanlar bizə dürüstlüyümüzə və necə deyərlər, bizdə belə bir söz var - "ağzıbütöv" olmağımıza görə etibar edirlər - elədir? Bunu rus dilinə necə tərcümə edəcəyimi bilmirəm, elə deyilmi? Ağzına qıfıl vurmaq - eləmi? Düşünürəm ki, buna görə də bizə belə münasibət var.

**Moderator: Çox sağ olun. Daha bir maraqlı sual idi. İndi isə növbəti qonağımız, siyasi elmlər və beynəlxalq münasibətlər üzrə magistr, Rusiya Beynəlxalq Əlaqələr Şurasının aparıcı eksperti cənab Aleksey Naumova söz veririk.**

**Aleksey Naumov: Cənab Prezident, burada olmaq imkanı yaratdığınıza görə çox sağ olun. Bu, mənim üçün doğma olan yurda, Azərbaycana onuncu və Qarabağa ikinci səfərimdir. Cəmi bir neçə ildə baş verən transformasiyanı görmək heyrətamizdir. Bu, həqiqətən də ilhamvericidir. Çox sağ olun.**

**Sualım belədir: Cənab Prezident, dəfələrlə qeyd etmisiniz ki, Azərbaycanla Rusiya arasında münasibətlər qarşılıqlı dəstəyə, anlaşmaya və dostluğa əsaslanır. Prezident Putin də bildirib ki, hazırda Azərbaycanla münasibətlər yaxşıdır və mövcud olan obyektiv çətinliklərə baxmayaraq, xalqlarımızın xoşbəxtliyidən, onların aradan qaldırılmasına inanmaq üçün əsas var. Cənab Prezident, xahiş edirəm deyəsiniz, bu gün Rusiya ilə Azərbaycan arasında münasibətləri və hazırda öz inkişafının ən vacib mərhələlərindən birini yaşayan yeni Cənubi Qafqazda Rusiyanı necə görürsünüz? Çox sağ olun.**

**Prezident İlham Əliyev:** Sağ olun. Bir daha demək istəyirəm ki, biz Rusiya ilə münasibətlərimizə dəyər veririk və Prezident Putin də daxil olmaqla, Rusiya Federasiyası rəsmilərinin ölkələrimiz arasında münasibətlərin çox müsbət dinamikaya malik olması barədə bəyanatlarını da gördük. Siz çətinlikləri qeyd etdiniz, bəli, biz hamımız onları bilirik. Amma mühüm olan odur ki, bu proses artıq geridə qalıb. Həm də deyərdim ki, münasibətlər tam normallaşıb, müxtəlif səviyyələrdə təmaslar baş tutub: hökumət səviyyəsində, hökumət üzvləri, hökumətlərarası komissiyaların həmsədrləri, Xarici İşlər nazirlikləri və Prezident administrasiyaları arasında. Beləliklə, düşünürəm ki, bu istiqamətdə hər şey yaxşı gedir və biz buna şadıq.

Rusiya ilə Azərbaycan arasındakı münasibətlər həm ikitərəfli formatda, həm də daha geniş coğrafiyada əhəmiyyətlidir. Onlar həm ənənəvi qarşılıqlı fəaliyyət sahələrini, həm də yarana biləcək yeniləri əhatə edir. Əlbəttə, burada nəqliyyat, ticarət və humanitar əməkdaşlıq mühüm rol oynayır.

Rusiyanın Cənubi Qafqazdakı roluna gəldikdə, bu barədə danışmaq mənim üçün çətindir, çünki bu konsepsiya, əgər Rusiya tərəfindən hələ hazırlanmayıbsa, yəqin ki, işlənib hazırlanmalıdır. Cənubi Qafqaz dəyişib, həm də əsaslı surətdə. Bu halda, bəlkə də demək olar ki, həmin məsələdə təkanverici rol oynayan İkinci Qarabağ müharibəsi olub. Bu müharibə artıq mövcud və ətalətli hesab edilən bir çox layı yerindən tərpədib.

Cənubi Qafqazda Azərbaycanın suverenliyinin tam bərpası, Ermənistanın Avropaya doğru səyləri və bu proseslə bağlı hər şeylə əlaqədar sonrakı inkişaflar - şübhəsiz ki, fikrimcə, bütün bunların bütövlükdə regiondakı analitiklər və hökumət rəsmiləri tərəfindən yenidən düşünülməsini zəruri edir. Əlaqələr olmadan, sanki nəbzi duymadan bunu etmək çox çətin olacaq. Çünki Cənubi Qafqazı qavramaq və anlamaq üçün köhnə metodologiyalar tamamilə köhnəlib. Başqa sözlə, bu, yeni mərkəzləri və bir daha fərqli istiqamətlərdə səyləri olan beş il əvvəlkindən tamamilə fərqli bir regiondur.

Ola bilər ki, onlar indi əvvəlkindən daha aydın görünür, amma bu regionla məşğul olanlar şübhəsiz ki, həmin tendensiyaları görüblər. Buna görə də istənilən xarici oyunçu üçün Cənubi Qafqazla bütövlükdə münasibətlər qurmaq çox çətin bir işdir, çünki bu region konsolidasiya olunmayıb. O, siyasi, iqtisadi və ya nəqliyyat baxımından inteqrasiya olunmayıb. Biz belə bir başlanğıc mərhələdəyik.

*Ardı 12-ci səh.*

4TH SHUSHA GLOBAL MEDIA FORUM

## IV Şuşa Qlobal Media Forumu

# İlham Əliyevin dünyaya sülh çağırışı: "Sülh nail olunmalı olan ən ali məqsəddir"

## Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib

*Əvvəli 11-ci səh.*

Həm də biz Qərb birliyi tərəfindən Ermənistana açıq meyletməni görəndə, həmin mesajları mən avropalı həmkarların da diqqətinə çatdırdım. Bu, bizim üçün suallar doğurdu, çünki biz coğrafiya, iqtisadi potensial və hər şey haqqında məlumatlıyıq və öz dəyərimizi də bilirik. Amma, belə deyək, Ermənistan praktik olaraq regionun əsas nəqliyyat mərkəzi kimi təqdim edildikdə, əlbəttə ki, böyük suallar yarandı, elə deyilmi? Tranzit ölkə kimi heç bir təcrübəsi olmayan bir ölkə, sən demə, birdən-birə əsas haba çevrilir. Sadəcə, oradan nəyin keçdiyi bəlli deyil.

Bu, təhrifdir, başa düşürsünüz? Bu təhrif, təbii ki, siyasi hərəkətlərdən, öz tərəfinə cəlbetmə cəhdlərindən yaranıb. Bu, hər kəsin uzaqlaşmalı və Cənubi Qafqaza geosiyasi mübarizə meydanı kimi baxmamalı olduğu bir cəhətdir.

Hər halda, biz Azərbaycanda buna nail olmuşuq. Biz geosiyasi intriqalara cəlb olunmağa, heç bir xarici oyunçunun bizi öz məqsədləri üçün, istər başqasına, istərsə də bilmirəm, kimə qarşı istifadə etməsinə icazə verməmişik. İndi isə, inanıram ki, qonşularımız da sözdə deyil, əməldə eyni şeyi etməlidirlər. Bu regionda marağı olan, bölgədə sülhün və əməkdaşlığın olmasına maraq göstərən hər kəs Cənubi Qafqazın bütün ölkələri ilə fərdi əməkdaşlıq formatlarını inkişaf etdirməlidir.

Ermənistanla münasibətlərin normallaşması prosesi başa çatdıqda, Azərbaycanla Ermənistan arasında birbaşa nəqliyyat əlaqələri başladıqda, - indiki kimi deyil, birbaşa, Zəngəzur dəhlizi və ya digər dəhlizlər vasitəsilə, - Cənubi Qafqaz siyasi cəhətdən hansısa üçtərəfli format yaratmağa hazır olduqda, onda vəziyyət fərqli olacaq. Düşünürəm ki, o vaxta qədər düzgün seçim edilməsi və sonradan məyusluq olmaması, yenə lazım olanı seçmədik deməyə ehtiyac yaranmaması üçün hər bir ölkənin potensialının, onun iqtisadi, siyasi, hərbi, demoqrafik və digər imkanlarının ayıq şəkildə qiymətləndirilməsi vacibdir. Ən əsası, əməkdaşlıq etmək istəyən hər kəs, ilk növbədə, bu regionun sülh, qarşılıqlı fəaliyyət və geosiyasi rəqabətdən tam azad bir bölgə olması lazım olduğu mövqeyindən çıxış etməlidir. Hər hansı bir regionun ondan azad ola biləcəyi qədər.

Aleksey Naumov: "3+3" formatı davam edir?

**Prezident İlham Əliyev:** Yox, yox, biz onu, necə deyərlər, lap əvvəldən başlatdıq və regionun işlərinin region ölkələri tərəfindən həll edilməli olduğu mövqeyindən çıxış etdik. Yeri gəlmişkən, düşünmürəm ki, kimsə bu mövzuya uzun müddətdir qayıdıb. Bəli, yaxşı ki, siz bu barədə xatırladınız.

Biz bunu münaqişədən sonrakı vəziyyət kimi, tam həll yoluna və suverenliyimizin tam bərpasına nail olmaq üçün başlatdıq. Biz təşəbbüs göstərdiyimiz zaman Qarabağın bir hissəsi hələ də işğal altında idi.

Hadisələrin necə inkişaf etməsi və Cənubi Qafqaz ölkələri ilə alyansların dəyişməsi nəzərə alındıqda, bu əməkdaşlığın formatına dair qiymətləndirməmiz təbii olaraq dəyişdi. Yəni düşünürəm ki, bu mərhələdə bunun tamhüquqlu altıtərəfli və ya beştərəfli əməkdaşlıq, - bilirik ki, Gürcüstan qoşulmayıb, - çox aydın gündəliyi olan beştərəfli əməkdaşlıq olması vacibdir. Bilirsiniz, bu, Azərbaycan və Ermənistan üçün



çətir rolunu oynayacaq başqa bir Minsk qrupuna çevrilməsin. Xeyr. Biz bütün regionun - Rusiya, İran, Türkiyə, Ermənistan və Azərbaycan - hamısının məsələləri ilə bərabər hüquqda məşğul olmalıyıq. Bax, bu konsepsiya hazırda bizim tərəfimizdən əsas hesab olunur. Əgər eyni qavrayış digər paytaxtlarda da qəbul edilərsə, düşünürəm ki, ən azı xarici işlər nazirləri səviyyəsində beştərəfli görüşə tələbat yaranacaq.

**Moderator: Rusiya-Azərbaycan münasibətlərinə dair daha bir maraqlı sual idi. Təşəkkür edirik. İndi isə sözü Gürcüstanın "Fortuna Radio Holding" şirkətini təmsil edən Tamara Giqoqidzeyə veririk.**

**Tamara Giqoqidze: Salam. Cənab Prezident, bizi dəvət etdiyiniz üçün çox sağ olun.**

**Bura gözəl ölkədir. Mən burada ikinci dəfə oluram. Təxminən 15 il əvvəl də gəlmişdim və bu müddət ərzində burada böyük tərəqqinin şahidi olmuşam. Buna görə Sizi təbrik edirəm.**

**İlk sualım radio sənayesi ilə bağlıdır. Bu gün dünyanın ən etibarlı və dayanıqlı media vasitələrindən biri olan radio yeni çağırışlarla üz-üzədir.**

**Avtomobil texnologiyalarının sürətlə inkişaf etməsi həm radio yayımçıları, həm də dinləyicilər üçün ciddi narahatlıq doğurur. Diqqətinizi ona yönəltmək istərdim ki, idxal olunan yeni elektromobillərin sayı artır və onların bir çoxunda FM radio ümumiyyətlə yoxdur və ya avtomobilin ekranında onu tapmaq xeyli çətindir.**

**Avropada bir çox yayımçı və tənzimləyici orqanlar yeni elektromobillərdə FM radiosunun əlçatan və asanlıqla tapılan olmasını təmin etmək üçün siyasət və qanunvericilik işləyib hazırlayırlar. Azərbaycan Hökuməti bütün yeni avtomobillərdə cəmiyyətin maraqları naminə və təcili rabitə üçün FM radiosunun əlçatanlığını təmin etmək məqsədilə hökumət, tənzimləyicilər, yayımçılar və avtomobil sənayesi arasında əməkdaşlığı dəstəkləyəcəkmi? Çox sağ olun.**

**Prezident İlham Əliyev:** Çox sağ olun. Mən bunu tam dəstəkləyirəm. Yeri gəlmişkən, bilmirdim ki, elektrik avtomobillərdə FM radio yoxdur. Açığını desəm, mən radionu yalnız maşında olanda dinləyirəm. Maşında isə çox tez-tez oluram, çünki ölkənin müxtəlif yerlərinə, əsasən, maşınla səfər edirəm. Hər dəfə getdiyim zaman, radionu dinləyirəm və əsasən, musiqiyə qulaq asıram. Tam səmimi desəm, çünki digər mənbələrdən mənə verilən xəbərlər kifayətdir. Bir sözlə, avtomobili radiosuz təsəvvür edə bilmirəm. O cür maşınla heç bir yerə getmərəm.

Beləliklə, əgər hər hansı elə təşəbbüs olarsa, nə lazım olarsa, qoşularıq. Sadəcə bizə xəbər edin və biz tam bunu dəstəkləyərik. Ölkəmizlə bağlı xoş sözlərə görə də minnətdaram və qonşu üçün düşünürəm 15 il müddət çoxdur. Ümid edirəm, Azərbaycana tez-tez gələcəksiniz, xüsusən də indi artıq qatarımız var. Sağ olun.

**Moderator: Bunu eşitmək çox, çox xoşdur. Bəli, əla sual oldu. Əlbəttə, məsələni mediaya çatdırdığınıza görə minnətdaram. İndi isə keçirik Yoşiki Kişidaya. Ümid edirəm ki, düz dedim. O, "JiJi Press" informasiya agentliyinin beynəlxalq məsələlər üzrə icraçı direktorudur.**

**Yoşiki Kişida: Cənab Prezident, bu fürsətə görə təşəkkür edirəm. Mən hərbi münaqişə zamanı yapon vətəndaşların İrandan təxliyə olunmasında Azərbaycanın yardımına görə birbaşa təşəkkürümü bildirirəm. Yaponiya, həmçinin xam neftin Yaponiyaya təchiz edilməsində Azərbaycanın dəstəyini yüksək dəyərləndirir. Gələcəyə nəzər saldıqda, Yaponiyaya Azərbaycanın xam neftinin artırılması potensialını necə görürsünüz? Enerji sektorundan başqa, yaxın gələcəkdə iqtisadi əməkdaşlığımızın hansı sahədə genişləndirilməsini və yapon şirkətlərindən yardımın göstərilməsini necə görürsünüz? Sağ olun.**

**Prezident İlham Əliyev:** Bəli, düşünürəm ki, hazırda xam neftin Yaponiyaya təchiz olunması əvvəlki vaxtlardan daha əhəmiyyətlidir, çünki ənənəvi təchizat marşrutların pozulması ilə Azərbaycan nefti getgedə daha mühüm rol oynayır.

Yardımla bağlı sualınıza gəldikdə, hazırda, biz məhsuldar əməkdaşlığın tərəfdarıyıq və düşünürəm ki, hər iki ölkənin yaxşı tərəfdaşlıq tarixçəsi var. Bəzən, o, daha dinamik olub, bəzən az. Bununla belə, bizim müxtəlif sahələrdə yaxşı əməkdaşlıq təcrübəmiz var. Bir çox yapon şirkəti Azərbaycanda iri sənaye sahələrdə podratçı kimi işləyib.

Mən yapon şirkətlərinin podratçı qismində tikdiyi bəzi böyük enerji stansiyaların açılışında şəxsən iştirak etmişəm. Yaponiyadan bizə daha çox sərmayələr yatırılmır, lakin ola bilsin, bu, baş verəcək. Düşünürəm ki, biz kifayət qədər bir çox məsələlərdə - enerji, texnologiya, ekologiya sahələrində əməkdaşlıq edə bilərik. Potensial qaydada, müdafiə sənayesi sahəsində əməkdaşlıq edə bilərik, çünki bilirəm ki, Yaponiya öz müdafiə sənayesini inkişaf etdirir. Biz də bunu edirik və təcrübə mübadiləsini həyata keçirə və ola bilsin, bir sıra birgə istehsal sahələrini yarada bilərik.

Bir daha deyim ki, bizim ticari münasibətlərdə əvvəlki illərdə yaxşı təcrübəmiz olub. Bildirim ki, hazırda aramızda daha az layihə var. Ola bilsin, son beş-altı il ərzində, biz İkinci Qarabağ müharibəsindən sonra aramızda o qədər də böyük diplomatik fəaliyyəti görmürük. Lakin düşünürəm ki, orada potensial var və əməkdaşlığın digər əlavə üstünlüklərini görmək üçün hökumət rəsmiləri, işgüzar dairələr, şirkətlər arasında daha çox görüşlər lazımdır. Çox sağ olun.

**Moderator: Çox sağ olun. Əlbəttə, gələcəyə hər zaman ümid var. Davam edək. İndi isə keçək növbəti suala. Çinin Sinxua informasiya agentliyinin Bakı nümayəndəliyinin müxbiri cənab Lyu Şuçın bizimlədir.**

**Lyu Şuçın: Hörmətli cənab Prezident, salam. Əvvəlcə, forumda iştirak etmək imkanı yaratdığınıza görə Sizə təşəkkürümü bildirirəm.**

**İki sualım var. Birincisi, keçən il Çin və Azərbaycan arasında münasibətlər hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə çatdı. Hazırkı beynəlxalq mühitdə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün hansı sahələri prioritet hesab edirsiniz?**

**İkincisi, Çin və Azərbaycan arasında regional əlaqənin gücləndirilməsi və Orta Dəhlizin inkişafı sahəsində gələcək əməkdaşlıq üçün hansı yeni imkanlar görürsünüz? Çox sağ olun.**

**Prezident İlham Əliyev:** Mənim keçən il Çin Xalq Respublikasına dövlət səfərimdən və hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanmasından sonra bütün sahələrin, - siyasi, iqtisadi, nəqliyyat, - hamısında qarşılıqlı fəaliyyətin əhəmiyyətli dərəcədə fəallaşması müşahidə olunub. Biz buna çox şadıq və böyük əhəmiyyət veririk. Bu gün Azərbaycanda daha çox Çin şirkəti var. Onlardan bəziləri artıq böyük investisiyalar qoyur, digərləri isə müxtəlif infrastruktur layihələrində iştirak edir.

Dövlət səfərim zamanı Çinin bir çox aparıcı şirkətinin rəhbərliyi ilə görüşdüm və məmnunam ki, onların Azərbaycandakı fəaliyyətləri artıq öz nəticələrini verir, həm də çox səmərəli, sürətli və çox yüksək keyfiyyətlə işləyir.

Biz, həmçinin qarşılıqlı fəaliyyətin yeni bir fəslini - müdafiə sahəsində əməkdaşlığı açdıq. Azərbaycan artıq müəyyən hərbi məhsullar əldə edib, onlardan bəziləri Qələbəmizin beşinci ildönümünə həsr olunmuş paradda nümayiş etdirilib, bəziləri hələ yoldadır, digərləri isə hələ də müzakirə mərhələsindədir. Buna görə də biz hərbi-texniki təminat sahəsində əməkdaşlığı inkişaf etdirməkdə çox maraqlıyıq.

Orta dəhlizə gəldikdə, Çindən Azərbaycan vasitəsilə və Azərbaycana daşınan yüklərin həcmi artır. Artıq qeyd etmişəm ki, biz ticarət limanımızın gücünü demək olar ki, ikiqat artırırıq və əsasən, Çindən, həmçinin Mərkəzi Asiya ölkələrindən gələn yeni yükdaşımaların həcmlərinə güvənirik. Buna görə də burada qarşılıqlı münasibətlərin çox yaxşı tarixi, həmçinin bu dəhliz boyunca yerləşən bir çox ölkə ilə çoxtərəfli əməkdaşlıq mövcuddur.

Onu da qeyd etməliyəm ki, Azərbaycanda Günəş enerjisinin inkişafı üzrə çoxsaylı layihələr həyata keçirilir. Çin şirkətləri bu sektora yalnız bu yaxınlarda investisiya qoymağa başlasalar da, Çindən kənar şirkətlərlə müqavilələr çərçivəsində Azərbaycanda quraşdırılan bütün Günəş panelləri Çin mənşəlidir. Bu o deməkdir ki, investordan asılı olmayaraq, Azərbaycanda gördüyünüz istənilən Günəş paneli Çində istehsal olunur. Belə olan halda, heç bir başqa ölkə qiymət və keyfiyyət baxımından Çin istehsalçıları ilə rəqabət apara bilməz. Yəqin təsadüfi deyil ki, hazırda Çin şirkəti tərəfindən Azərbaycanda işləyəcək və ixrac ediləcək Günəş paneli zavodunun tikintisi üçün böyük bir investisiya layihəsi həyata keçirilir.

İkitərəfli əməkdaşlığın ən son mühüm hadisələrindən biri kimi, hazırda şəhərdə gördüyümüz BYD elektrik avtobuslarının birgə istehsalını da qeyd edərdim. Bizdə avtobuslar üçün iki rəng var: elektrik avtobusları üçün yaşıl, ənənəvi avtobuslar üçün isə qırmızı. Nə qədər çox yaşıl avtobusumuz olsa, bir o qədər yaxşıdır.

Beləliklə, çoxlu sayda layihə var. Münasibətlərimizin inkişaf istiqamətindən çox məmnunuq və həmçinin idarəetmə səviyyəsində siyasi qərarların qəbul edilməsindən tutmuş konkret layihələrin həyata keçirilməsinə qədər olan vaxtın çox qısa olmasına sevinirik. Belə olan halda, bu, Çin şirkətlərini bir çox digərlərindən fərqləndirir, bəziləri ilə aylarla, bəlkə də illərlə danışıqlar aparmalı oluruq və nəticədə istehsalın qurulması prosesi uzanır. Bu halda hər şey tam olaraq cədvələ uyğun gedir, ona görə də həm mən, həm də Çin şirkətləri ilə əməkdaşlıq edən bütün xidmətlər çox məmnunuq. Buna görə də sizə təşəkkür edirəm.

**Moderator: Çox sağ olun. Digər əla sual verildi. Rusiyadan Gürcüstana, Yaponiyadan Çinə keçdik, indi isə gəldik Argentinaya. Sözü veririk Sesiliya Deqel İnnosentiyə. O, Argentinanın "Perfil" mətbu orqanının xarici müxbiridir.**

**Sesiliya Deqel İnnosenti: Cənab Prezident, Sizi görməyimə şadam və məni dəvət etdiyinizə görə minnətdaram. İlk dəfədir Azərbaycandayam. Azərbaycan münaqişə bitdikdən sonra ərazi bütövlüyü prinsipinin qəti müdafiəçisidir. Bununla belə, Argentina, həmçinin Birləşmiş Krallıqla Malvinas adalarının suverenliyi ilə bağlı mübahisəyə eyni prinsiplə yanaşır. Əlbəttə, bu, tərəfləri danışıqlarını davam etdirməyə çağıran BMT-nin qətnamələrinə uyğun edir. Cənab Prezident, Argentina xalqına bu məsələ ilə bağlı hansı mesajı verərdiniz? Sağ olun.**

**Prezident İlham Əliyev:** Çox sağ olun. Məsələnin nə dərəcədə həssas olduğunu bilirəm. Hətta hələ tələbə olarkən və diplom işim üzərində çalışarkən mövzu İngiltərə-Argentina münaqişəsinə aid idi, çünki həmin vaxt baş vermişdi. Məncə, hadisə 1981-ci ildə baş verib, mən isə 1982-ci ildə təhsilimi bitirirdim. Hadisə yenicə baş vermişdi. Baş verən hadisələrin təhlilini 30 səhifədə yazdım. Düşünürəm, məsələnin yaxşı tərəfi odur ki, həmin vəziyyətə baxmayaraq, iki ölkə, yəni Birləşmiş Krallıq və Argentina yaxşı münasibətləri saxladılar. Bəlkə də bircə məsələdən başqa. Yaxın günlərdə onları yarımfinalda mübarizə gözləyir. Lakin o, həmçinin ilk deyil. Yadımdadır, əvvəllər də qarşılaşma olub və düşünürəm ki, həmin məsələni yaxşı məramla, danışıqlar yolu ilə həll etmək yaxşıdır. Əlbəttə ki, hər hansı ölkənin ərazi bütövlüyü kimi fundamental məsələnin həlli beynəlxalq hüququn normaları, BMT Təhlükəsizlik Şurasının və ya Baş Assambleyasının müvafiq qətnamələri əsasında olmalıdır.

Sizin qeyd etdiyiniz kimi, Azərbaycan həmin prinsipin qəti müdafiəçisidir. O, birmənalı olaraq bir faktla bağlıdır ki, bizim ərazi bütövlüyümüz pozulmuşdu. Amma hətta biz ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdikdən sonra belə həmin mövqedən geri çəkilmədik. Biz həmin məsələyə heç zaman siyasi üstünlüklər və ya ölkələrlə münasibətlər prizmasından baxmamışıq. Biz həmin məsələyə ədalət və beynəlxalq hüquq nöqteyi-nəzərindən yanaşırıq. Mesajıma gəldikdə, bilirsiniz, o, hüquqları müdafiə etməyi, suverenliyi qorumağı ehtiva edir. Eyni mesajı Ukraynadakı dostlarımıza ötən il verdik. Uzun yol qət edib gəldiyinizə görə bir daha çox minnətdaram. Qarşıdakı günlərdə komandanıza uğurlar arzu edirəm.

**Moderator: Aydındır. İndi isə Argentinadan Pakistana keçirik. Bu gün burada Pakistan Televiziyasının rəhbəri Adil Şahzaib bizimlədir.**

**Adil Şahzaib: Zati-aliləri, çox sağ olun. Hazırda biz Pakistanda belə deyirik ki, Azərbaycanda əgər kimin üzündə təbəssüm yoxdursa, deməli, o, Pakistandandır. Onların üzündə böyük təbəssüm görürsünüz. Adi münasibətlərdən qardaşlığa keçdik, bir-birimizi dəstəklədik və hər zaman belə də olacaq. Hazırda xalqlar arasında əlaqələr çox inkişaf edib. Buna görə Sizə və heyətinizə təşəkkür düşür. Sualım sülh ilə bağlıdır. Zati-aliləri, Siz haqlı olaraq qeyd etdiniz ki, Baş nazir Şahbaz Şərif və feldmarşal Asim Munir yorulmadan çalışdılar və dövlət yayım şirkətinin rəhbəri kimi, ilk prosesi İslamabadda birbaşa izləyə bildim. İnanın mənə, nümayəndələrimiz demək olar, 24 saat yatmadılar. Pakistan olmasaydı, düşünmürəm ki, həmin atəşkəsi görə bilərdik. Bizim üçün dayanmadan iş oldu. Zati-alinizin Baş nazir Şahbaz Şərifə və feldmarşal Asim Munirə ünvanlanan mesajı hansı olardı? Xüsusi olaraq, regionda uzunmüddətli sülh üçün daha nə edilə bilər? Sağ olun.**

**Prezident İlham Əliyev:** Mesajlar ən xoş arzulardan ibarətdir və əlbəttə, istəyim onların böyük səylərinin davam etməsidir. Mən əziz qardaşım Baş nazir Şahbaz Şərifə zəng etdim və əsasən, Pakistanın vasitəçi səyləri sayəsində əldə olunmuş həmin razılaşma münasibətilə təbrik etdim. Bu, bir daha ölkənizə olan böyük beynəlxalq nüfuzu göstərdi. Siz yeganə ölkə oldunuz ki, həmin məsuliyyəti öz üzərinizə götürdünüz və vasitəçiliyə müvəffəq oldunuz.

*Ardı 13-cü səh.*

# İlham Əliyevin dünyaya sülh çağırışı: "Sülh nail olunmalı olan ən ali məqsəddir"

## Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib

*Əvvəli 12-ci səh.*



Biz, həmçinin hadisələri izlədik. Baş nazir və feldmarşalın, onların heyətlərinin həmin məsələyə özlərini tam ithaf etdiklərini gördük. Əminəm ki, son hadisələri və yeni gərginliyi nəzərə alaraq, onlar qarşıdurmanın dayandırılması üçün əllərindən gələni edəcəklər. Düşünürəm ki, Pakistandan başqa heç kəs onu edə bilməyəcək. Bu, ölkənizin bacarığının, liderlərinizin qabiliyyətinin, nəinki bu məsələyə görə, bütövlükdə qazandığınız böyük beynəlxalq hörmətin daha bir təzahürüdür.

**Adil Şahzaib: Məndən soruşurlar, siz həqiqətən səyahətin çətinləşdiyinə görə Pakistana qayıda biləcəksiniz?**

**Prezident İlham Əliyev:** Ölkəmizə xoş gəlmisiniz. Nə qədər lazımdırsa, burada qala bilərsiniz.

**Moderator: Sağ olun, cənab Prezident. Siz bizə vaxtınızın iki saatını nəzakətlə ayırdınız. Bilirəm vaxt bitir. Əgər Sizin üçün məqbuldursa, bizim bir neçə digər sualımız da var. Hazırda keçək cənab Johongir Olimova. O, Sevimli TV kanalının müxbiridir. Ümid edirəm düz tələffüz etdim. Sevimli TV kanalı. Buyurun.**

**Johongir Olimov: Salaməleyküm, möhtərəm Prezident. Sualımı Azərbaycan dilində verməyə çalışacağam. Möhtərəm Prezident, mən Qarabağda bundan dörd il əvvəl olmuşdum. O vaxt bu bölgənin yenidən qurulması işləri sürətlə aparılırdı. Bu gün Qarabağa, bütün Azərbaycanın və Qafqazın mədəniyyət mərkəzi olan Şuşa şəhərinə yenidən gələrək böyük dəyişikliklərə şahid oldum. Sizin siyasi iradəniz və böyük Azərbaycan xalqının zəhməti ilə bu gözəl şəhər, bu gözəl Qarabağ yenidən öz tarixi mövqeyini bərpa edir. Bu münasibətlə icazə verin, Sizi təbrik edim.**

**İndi isə sualıma keçim. Son illər ərzində Özbəkistan ilə Azərbaycan arasındakı münasibətlər çox yüksək səviyyəyə çatmışdır. Bu isə bütün Mərkəzi Asiya ilə Qafqaz arasındakı münasibətlərə güclü dinamika vermişdir. Sözlərimin parlaq təsdiqi Azərbaycanın Mərkəzi Asiya liderlərinin Məşvərət görüşləri formatına qoşulmasıdır. Bu gün hətta beynəlxalq siyasi ekspertlər "Mərkəzi Asiya+Azərbaycan" formatını Böyük Mərkəzi Asiya adlandırırlar. Siz regionlarımızın bu yaxınlaşmasını necə qiymətləndirirsiniz və Özbəkistan Prezidentinin bu prosesdəki rolunu necə görürsünüz? Təşəkkür edirəm.**

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Özbəkistan-Azərbaycan əlaqələrinin təməlində bizim dostluq, qardaşlıq münasibətlərimiz dayanır. Hörmətli Prezident Şavkat Miromonoviçlə bizim şəxsi dostluğumuz bu münasibətləri daha yüksək səviyyəyə qaldırıb. Onu bildirməliyəm ki, Qarabağın bərpasında bizə birinci yardım edən məhz Özbəkistan Prezidenti olmuşdur. Füzuli şəhərində Mirzə Uluqbəy adına gözəl, böyük məktəb inşa edilmişdir və Şavkat Miromonoviçlə birlikdə biz o məktəbin açılışını qeyd etmişik. Yəni ondan sonra digər qardaş dövlətlər də bizə hədiyyələr etmişlər - Qazaxıstan, Qırğızıstan, Türkmənistan. Amma birinci yardım məhz Özbəkistandan gəlib.

Hər dəfə Özbəkistanda olanda bir daha əmin oluram ki, bizim xalqlarımız nə qədər bir-birinə yaxındır, bir-birinə bağlıdır. Yazılı sözləri görəndə heç bir tərcüməyə ehtiyac yoxdur. Dillərimiz də bir-birinə çox bənzəyir. Təbii ki, tələffüzdə bir qədər fərq var, amma prinsipcə hər şey anlaşılır. Bizi çox böyük tarixi əlaqələrimiz birləşdirir və Özbəkistanla münasibətlərin inkişafı bizim üçün prioritet məsələlərdən biridir. Onu da bildirməliyəm ki, Özbəkistan öz qardaşlıq missiyasını təkcə məktəblə yekunlaşdırmayıb. Xankəndi şəhərində birinci böyük sənaye müəssisəsi - tikiş fabriki yenə də Özbəkistan sərmayəsi hesabına açıldı və yenə də hörmətli Prezident Mirziyoyevlə birlikdə biz o fabriki ziyarət etmişik.

Bir çox iqtisadi-sənaye layihələri icra edilir. Həm Azərbaycan investisiyaları, həm Özbəkistan investisiyaları qoyulur. Biz 500 milyon dollar dəyərində birgə sərmayə fondu yaratdıq. Bu sərmayə fondu həm Özbəkistanda, həm Azərbaycanda müxtəlif layihələrin icrası ilə məşğuldur. Bu gün Azərbaycanın neft şirkəti SOCAR Özbəkistanda çox önəmli bir kəşfiyyat yatağına sərmayə qoyur və ümid edirəm ki, yaxın gələcəkdə bizə bir müjdə, xoş xəbər verəcəklər. Çünki bu gün enerji təhlükəsizliyi məsələləri, xüsusilə qaz təchizatı bir çox ölkələr üçün önəmlidir və ümid edirəm ki, "Üstyurt" yatağındakı kəşfiyyat işləri yaxşı nəticə ilə başa çatacaq.

O ki qaldı, Azərbaycan-Mərkəzi Asiya formatına, burada da Prezident Mirziyoyevin müstəsna xidmətləri, xüsusi rolu var. Azərbaycan artıq tamhüquqlu üzv kimi bu Məşvərət Şurasına qoşuldu. Mən fəxri qonaq qismində iki dəfə Zirvə görüşlərinə dəvət edilmişdim, son dəfə isə artıq Azərbaycan-Mərkəzi Asiya vahid bir Məşvərət Şurası yaradılmışdır. Bu, bizi çox qürurlandırır, çox sevindirir. Bu, deyə bilərəm ki, nadir bir hadisədir. Çünki biz coğrafi nöqteyi-nəzərdən, təbii ki, Cənubi Qafqazda yerləşirik. Amma mədəni, tarixi, etnik əlaqələr o qədər güclüdür və siyasi əlaqələr o qədər çoxşaxəlidir ki, dost Mərkəzi Asiya ölkələri bizi qəbul etməyə qərar verdilər.

Bu gün bu, geosiyasi və geoiqtisadi əlaqələrə də müsbət təsir göstərəcək. Çünki beləliklə, Mərkəzi Asiya Azərbaycanla vahid bir iqtisadi və siyasi məkanda birləşir. Eyni zamanda, bağlantılar, nəqliyyat, logistika layihələrinin icrası istiqamətində bunun çox böyük mənası var. Əlbəttə, deyə bilərəm ki, Prezident Şavkat Mirziyoyevin uzaqgörənliyi və strateji baxışları burada çox önəmli rol oynamışdır. Fürsətdən istifadə edərək, özbək qardaşlarımızı əldə edilmiş bütün uğurlar münasibətilə təbrik etmək istəyirəm. Mən tez-tez Özbəkistanda oluram, yəqin ki, bu il də olacağam. Hər dəfə orada yenilikləri görəndə çox sevinirəm. Bilirəm ki, qardaş özbək xalqı və dövləti Prezident Mirziyoyevin rəhbərliyi ilə uğurla, inamla irəliləyir. Sizə də "Xoş gəlmisiniz!" deyirəm.

**Moderator: Sözü Dünya İnformasiya Agentlikləri İttifaqının sədri, TASS informasiya agentliyinin sabiq direktor müavini Mixail Qusmana verirəm.**

**Mixail Qusman: Hörmətli İlham Heydər oğlu, hörmətli Prezident, vəd edirəm ki, sualım keçənilki kimi toksik olmayacaq. Əminəm ki, bu, baş verməyəcək.**

**Bilirsiniz, mən dördüncü forumun iştirakçısıyam və bütün forumlarda Sizə suallar vermək şərəfinə nail olmuşam. Çox vacib bir detalı sizinlə bölüşmək istərdim. 2024-cü ildə Respublikaçılar Partiyasının qurultayından qayıdarkən Sizə sual verərkən, ABŞ-nin gələcək prezidenti ilə bağlı proqnozlarınız barədə soruşanda, Siz prezidenti səhvsiz müəyyən etdiniz və eyni zamanda, Azərbaycan-Amerika münasibətlərinin inkişafını düzgün proqnozlaşdırdınız.**

**Keçən il bu sualı xatırladım və təbii ki, cavabınızı da buna görə yadıma saldım. Xarici siyasətinizin ən vacib keyfiyyətlərindən - dürüstlük və açıqlıqdan danışdınız. Əslində, bütün söhbətiniz boyu bunu təsdiqlədiniz.**

**Sualıma keçməzdən əvvəl, İlham Heydər oğlu, icazə verin, Sizə məruzə edim, bəlkə də xəbəriniz yoxdur. 1986-cı ildə, məni Moskvaya Gənclər Təşkilatları Komitəsində işə göndərəndə respublikanın partiya rəhbəri dedi: "Nəzərə alın ki, sizi ezamiyyəyə göndəririk". Sizə bildirmək istəyirəm ki, 39 illik ezamiyyə müddətim başa çatdı, Vətənimə qayıtdım. Vətənimdə olduğum üçün xoşbəxtəm və burada işləmək, yəqin ki, müəyyən anlayışım olan bir sahədə ona fayda gətirmək imkanı əldə etməkdən məmnun olacağam.**

**Sualıma gəldikdə bu, mənə, xüsusən də bu günə təsadüf etdiyi üçün olduqca vacibdir. Bu gün biz - Siz də ABŞ ilə münasibətlərin nə qədər uğurlu və parlaq şəkildə inkişaf etdiyindən danışdınız. Rusiya ilə münasibətlərin 2022-ci ildə imzaladığımız müqavilənin ruhuna necə qayıtması barədə danışdıq. Avropa, Çinlə münasibətlər.**

**Eyni zamanda "Gələn yay nə baş verəcəyini kim bilə bilər? Şimalda müharibə var, yaxınlıqda mərmilər düşür" kimi bir fraza səsləndirdiniz. Beləliklə, Sizin fikrinizcə, təhlükə nədən ibarətdir, strateji təhlükə? Orta və ya uzunmüddətli perspektivdə Azərbaycanın strateji sabitliyinə təhdiddir? Çünki görünürdü ki, bir az nəfəs ala bilərik və hər şey yaxşı olacaq. Amma hər halda, Azərbaycan üçün strateji potensial təhdidlər nələrdir? Sağ olun.**

**Prezident İlham Əliyev:** Sağ olun. Sualınıza cavab verməzdən əvvəl ola bilər ki, Mixail Qusmanı tanımayanlar üçün qeyd edərdim: o, Azərbaycan xalqının layiqli oğludur. Özü də dediyi kimi, təxminən 40 il Rusiyada ezamiyyədə olub, amma Azərbaycanla əlaqəni heç vaxt kəsməyib, həmişə bizimlə birlikdə olub, daim uğurlarımıza sevinib və çətinliklərə şərik olub.

O, İkinci Qarabağ müharibəsi zamanı praktik olaraq burada yaşayıb və cəbhə xəttindən reportajlar hazırlayıb ki, bu da onun xarakterini, xalqına, ölkəsinə münasibətini nümayiş etdirib, həm də bizə çox kömək edib... Zəhmət olmasa, əyləşin. Bizə informasiya blokadasını yarmağa kömək ediblər.

Hazırkı vəziyyətdə o, burada zərərçəkənlər adından danışır. Bilməyənlər üçün deyim ki, keçən il məhz bu forumda mənə verilən bir suala görə, - düşünürəm ki, o, eyni yerdə oturmuşdu, - bəli, onilliklərini həsr etdiyi, əslində rəhbərlik etdiyi və TASS-ın beynəlxalq xəbər agentliyi kimi inkişafı üçün çox iş gördüyü təşkilatdakı vəzifəsindən uzaqlaşdırıldı.

Keçən il Rusiyadan başqa zərərçəkənlərimiz də oldu, amma bu gün onu görmədim. Ola bilər ki, artıq həbs ediblər? Allah qorusun, əlbəttə ki, Allah ona cansağlığı qismət eləsin. Amma birini sadəcə Azərbaycan Prezidentinə müsbət sual verdiyinə görə vəzifəsindən azad ediblər, digəri isə sadəcə Azərbaycan haqqında müsbət fikirlər söylədiyi üçün xarici agent elan olunub. Ona görə də, Aleksey, ehtiyatlı ol. Amma bu, sanki bir müqəddimədir.

Potensial risklərə gəldikdə, dəfələrlə bildirmişəm ki, xoşbəxtlikdən, bizim daxili risklərimiz yoxdur - hətta potensial risklərimiz belə yoxdur. Bütün risklər sərhədlərimizdən kənarda yaranır.

Siyasi xarakterli risklərə gəldikdə isə onlar əhəmiyyətsiz dərəcədə azdır. Biz, həmçinin ideoloji diversiya ilə bağlı risklər gözləmirik, çünki bu günə qədər onlar çox olub, lakin heç biri uğurla nəticələnməyib. Azərbaycan hökuməti və cəmiyyəti Konstitusiyamızda təsbit olunmuş prinsiplərə qətiyyətlə sadiqdir.

Fiziki risklər - bəli, onlar mövcuddur. Bu gün heç kim onlardan sığortalana bilməz. Müasir reallıqlar və döyüş əməliyyatlarının aparılması üzrə müasir növlər nəzərə alınmaqla, bəlkə də nadir istisnalarla, heç bir ölkə özünü tam təhlükəsiz hiss edə bilməz. Buna görə də əsas risk, əlbəttə ki, müharibə edən iki ölkə arasında yerləşən ölkə üçündür və hər iki dövlət üçün gözlənilməz nəticələri olduqda, həm müharibələrin aparıldığı çərçivədə, həm də müharibədənsonrakı dövrdə.

Çünki müharibə özlüyündə böyük faciədir, lakin uzunsürən müharibə hərbi əməliyyatın özündən heç də az olmayan risklər daşıyır. Müharibədənsonrakı dövr, - ölkələrin bundan necə çıxması, nəticələri və fəsadları ilə necə mübarizə aparması, - əlbəttə ki, proqnozlaşdırılması və cavabı çətin olan sualdır.

Buna görə də bu gün bizim üçün yeganə risk Azərbaycanı hansısa avantüraya cəlb etmək cəhdləridir. Keçmişdə də belə cəhdlər olub, lakin onlar daha çox siyasi xarakter daşıyırdı. Biz onları həmişə uğurla dəf etmişik və praktik olaraq dayandırılıb. Bu gün onlar daha ciddi və daha təhlükəli xarakter alıb.

Ona görə də, necə deyərlər, özümüzü müdafiə etmək bizə yad deyil, konsolidasiya olunmuş birlik ilə mübarizə aparmaq da. Təhlükəsizliyimizi, sərhədlərimizi, təhdidlərə qarşı mübarizə sistemlərimizi gücləndirmək - hər halda, 2003-cü ildən bəri məşğul olduğumuz bundan ibarətdir. Görünür, gücüm imkan verdiyi qədər bununla məşğul olmağa davam edəcəyəm.

Bu proses heç vaxt bitməyəcək, bax, siz qeyd etdiniz, bir il əvvəl danışdığımızı. Bəli, bir az nəfəs ala bilərdik, amma bu şansımız olmayacaq. Hətta 2020-ci ildə, İkinci Qarabağ müharibəsində Qələbədən sonra bir saniyə belə nəfəsimizi dərmədik. Düzünü desək, bayram etmək üçün nə vaxt, nə də istək var idi. Çünki o qədər çox bayram etmək olar ki, hər şeyi gözdən qaçıra bilərsiniz.

Biz dərhal sonrakı hazırlıqlara başladıq. 2023-cü ildən sonra, bu cür açıq təhdidlər və Azərbaycana qarşı sanksiya cəhdləri başlayanda, demək olar ki, bu günə qədər müqavimət göstərdik. İndiyə qədər. Həm də müxtəlif cəbhələrdə.

Beləliklə, orta güc meyarlarından danışarkən, o zaman bunu nəzərdən qaçırdım. Bəlkə də başqa bir meyar birdən çox cəbhədə müqavimət göstərmək bacarığıdır. Çünki münaqişəmizi hansısa biri ilə müqayisə etmək istəmirəm, amma bəzi hallarda səni dəstəkləyən bir qrup ölkə və sənə hücum edən bir və ya bir qrup ölkə var. Bizim vəziyyətimizdə isə hər şey tamamilə fərqli idi. Həm fiziki, həm də siyasi cəhətdən bütün cəbhələrdə müqavimət göstərməli olurduq və bu, indiyədək baş verir.

Bu səbəbdən sakit həyat olmayacaq. Qoy, heç kim buna ümid etməsin, o cümlədən siz də. Zərərçəkən kimi, sizin əlbəttə, reabilitasiyaya ehtiyacınız var. Baxın, Şuşa kurort şəhəridir, ona görə də sizə burada daha çox vaxt keçirməyi, forumdan sonra da qalmağı arzulayıram. Sizi sağlam vəziyyətdə görməyimə də şadam. Bir dəfə Ramiz Yunusa demişdim: Vətənə xoş gəldiniz. Qayıtmağınız münasibətilə Sizə də deyirəm: Xoş gəldiniz.

**Moderator: Təəssüf ki, vaxtımız azalır və istərdim, son iki sualımızı verək. Sözü "Qazkontent" şirkətinin Müşahidə Şurasının sədri Adil Sayfullinə verirəm.**

**Adil Sayfullin: Əssalamu-əleykum, cənab Prezident, möhtərəm İlham Heydər oğlu.**

**Əvvəlcə, qonaqpərvərliyə və forumun yüksək səviyyədə təşkilinə görə Sizə minnətdarlığımı bildirmək istərdim.**

**Bu gün Qazaxıstan və Azərbaycan ikitərəfli əməkdaşlığın ən yüksək səviyyəsindədir, həmçinin ölkələrimiz - orta güclər adlanan dövlətlər müstəqil şəkildə yeni logistika və iqtisadi marşrutları inkişaf etdirə biləcəklərinə dair nümunə göstərirlər. Artıq Xəzər dənizindən keçən, Asiya ilə Avropa arasında mühüm bir əlaqəyə çevrilən Orta dəhliz buna misaldır.**

**Sualım belədir: Bu prosesdə Qazaxıstanla strateji tərəfdaşlığı və Prezident Tokayev ilə şəxsi qarşılıqlı fəaliyyəti necə qiymətləndirirsiniz? Sağ olun.**

**Prezident İlham Əliyev:** Qarabağın bərpasında göstərilən köməyə görə Prezident Tokayevə çox minnətdaram. Füzulidə Uşaq Yaradıcılıq Mərkəzi qazax xalqının böyük oğlu Kurmanqazının adını daşıyır. Kasım-Jomart Kemeleviç və mən bu mərkəzi birlikdə açdıq və azad edilmiş ərazilərin bərpasında qardaş xalqımızın dəstəyinə görə çox minnətdarıq.

Əlbəttə, Prezident Tokayev ilə şəxsi münasibətlərimiz ikitərəfli formatda və regional əməkdaşlıqda mühüm amildir. Bizim çox geniş gündəliyimiz var. Xəzər dənizinin hər iki sahilində yerləşən ölkələr olaraq sıx qarşılıqlı fəaliyyət göstəririk. Mahiyyət etibarilə, Qazaxıstan ilə Azərbaycan arasında fəal əməkdaşlıq olmadan regionumuzda, Xəzər bölgəsində hər hansı nəqliyyat layihəsi sadəcə mümkün deyil.

Sevinirik ki, infrastrukturun yaradılması və genişləndirilməsi üzrə paralel işlər aparılır. Artıq Azərbaycandan bəhs etmişəm. Bilirəm ki, Qazaxıstan da liman infrastrukturunun genişləndirilməsi üçün çox iş görür.

Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında birgə əməkdaşlıq formatı artıq mövcuddur. Tarif siyasəti, rəqəmsallaşdırma, gömrük administrasiyası prosedurlarının sadələşdirilməsi və bir çox digər mühüm məsələlər müzakirə edilir və həll olunur.

2024-cü ildə Qazaxıstan və Özbəkistan prezidentləri ilə Xəzər dənizinin dibi ilə enerji kabelinin çəkilməsinə dair Bakıda müqavilə imzaladıq.

*Ardı 14-cü səh.*

# IV Şuşa Qlobal Media Forumu

# İlham Əliyevin dünyaya sülh çağırışı: "Sülh nail olunmalı olan ən ali məqsəddir"

## Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib



*Əvvəli 13-cü səh.*

Artıq texniki-iqtisadi əsaslandırma hazırlanır. Bununla yanaşı, Qazaxıstanla Azərbaycanı, həmçinin geniş coğrafi ərazini birləşdirəcək və rəqəmsallaşma, süni intellekt, verilənlər bazaları və sairə ilə bağlı proseslərin inkişafında mühüm rol oynayacaq fiber-optik kabelin tikintisi üzərində ikitərəfli əməkdaşlıq edirik.

Qazaxıstandan müəyyən həcmdə neft Azərbaycan ərazisindən nəql olunmağa başlayıb. Beləliklə, iki ölkə bu regionda sıx əməkdaşlıq edir. Əlbəttə ki, biz Prezidentin rəhbərliyi ilə Qazaxıstanın sürətli inkişafından məmnunuq.

Bu yaxınlarda tarixi Türküstan şəhərinə səfər etdim və onun tarixi irsinin nə qədər diqqətlə qorunub saxlanması və ulu əcdadlarının xatirəsinin ehtiramla yad edilməsi məndə dərin təəssürat yaratdı. Beləliklə, münasibətlərimizin necə inkişaf etməsindən çox şadam və qardaş Qazaxıstan xalqına yeni uğurlar arzulayıram. Sizə "Xoş gəlmisiniz" deyirəm.

**Moderator: Bəli, qeyd olunduğu kimi, vaxtımız artıq başa çatmaq üzrədir. Cəmi iki sualımız qalıb. İndi yenidən Afrikaya üz tuturuq, daha sonra isə son sualla yerli iştirakçıya söz verəcəyik.**

**Beləliklə, "K254 Media Africa" media qurumunun direktoru cənab Muhoro Piusa söz veririk. Xoş gəlmisiniz.**

**Muhoro Pius: Zati-aliləri cənab İlham Əliyev, ilk növbədə, Afrikanın Azərbaycanın təşəbbüslərində fəal iştirakını yüksək qiymətləndirmək istərdim. Buraya COP29, birincidən dördüncüyədək Şuşa Qlobal Media Forumları, eləcə də bu yaxınlarda başa çatmış Ümumdünya Şəhərsalma Forumu daxildir.**

**Sualım Afrika ilə bağlıdır. Afrika 54-dən çox dövləti birləşdirən qitədir və onların heç biri Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının daimi üzvü deyil. Afrikanın təhlükəsizlik məsələləri ilə bağlı beynəlxalq səviyyədə kimin çıxış etdiyi bəlli deyil. Afrika qitəsi Sudan, Sahel bölgəsi, Konqo Demokratik Respublikasının şərq hissəsi və digər ərazilər də daxil olmaqla sülh və təhlükəsizlik sahəsində ciddi problemlərlə üzləşir. Bu baxımdan Afrikada sülh, əməkdaşlıq və vasitəçilik istiqamətində gələcəkdə nə gözləyə bilərik? Təşəkkür edirəm.**

**Prezident İlham Əliyev:** Bildiyiniz kimi, islahatlarla bağlı bu məsələ Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında vaxtaşırı müzakirə olunur. Lakin indiyədək hər hansı nəzərəçarpacaq irəliləyiş əldə edilməyib. Azərbaycanın bu məsələ ilə bağlı öz mövqeyi var və olub. Qoşulmama Hərəkatına sədrliyimiz dövründə biz Təhlükəsizlik Şurasında islahatlarla bağlı öz təklifimizi irəli sürmüşük. Çünki hesab edirik ki, bu islahat inklüziv və təmsilçilik prinsipinə əsaslanmalıdır.

Bizim təklifimiz bundan ibarət idi ki, rotasiya prinsipi əsasında daimi yerlərdən biri Qoşulmama Hərəkatına verilsin və məsələn, Hərəkata hazırda sədrlik edən ölkə veto hüququna malik daimi üzv kimi Təhlükəsizlik Şurasında təmsil olunsun. Eyni qaydada bir yer İslam Əməkdaşlıq Təşkilatına verilməlidir. Çünki müsəlman ölkələri də Təhlükəsizlik Şurasında təmsil olunmayıblar. Bu yer də rotasiya prinsipi əsasında müəyyənləşdirilməlidir. Həmçinin bir yer Afrika İttifaqına verilməli və hazırda Afrika İttifaqına sədrlik edən ölkə həmin yeri tutmalıdır. Hesab edirəm ki, bu, Təhlükəsizlik Şurasında daha ədalətli tarazlıq yaradardı.

Biz bilirik ki, bəzi ölkələr Təhlükəsizlik Şurasına üzv olmaq istəyirlər. Lakin əgər nə vaxtsa islahat həyata keçirilərsə, onda nə üçün digərinin deyil, məhz bu ölkənin üzv seçilməli olduğunu müəyyən edən meyarların tapılması olduqca çətin olacaq. Nə əhalinin sayı, nə də iqtisadi potensial belə meyar ola bilməz. Ona görə də bizim təklifimiz, ilk növbədə, inklüzivlik prinsipinə əsaslanır. Bu, rotasiya prinsipi ilə həyata keçirilə bilər. Necə ki, hazırda Təhlükəsizlik Şurasının üzvlərinin əksəriyyəti rotasiya prinsipi əsasında seçilir. Lakin bu halda həmin yer veto hüququna malik olmalıdır.

Bu, mütləq baş verməlidir. Əks təqdirdə, Birləşmiş Millətlər Təşkilatı öz nüfuzunu, potensialını və təsir imkanlarını itirməkdə davam edəcək, münaqişələrin həlli və beynəlxalq münasibətlərin tənzimlənməsi sahəsində digər güc mərkəzlərinin kölgəsində qalacaq.

Sualınızın ikinci hissəsinə gəlincə, əlbəttə, hamımız sülh istəyirik. Afrikada sülhün bərqərar olması dünyanın hər hansı digər bölgəsində olduğu kimi, mühüm əhəmiyyət kəsb edir. Hesab edirəm ki, bu gün də bəzi qaynar nöqtələrin mövcud olmasının əsas səbəblərindən biri kənar müdaxilələrdir. Əgər xarici müdaxilələr aradan qalxarsa, sülh çox tezliklə bərqərar ola bilər. Əlbəttə, burada həmin proseslərdə iştirak edən əsas tərəflərin məsuliyyəti də həlledici rol oynayacaq.

Yeri gəlmişkən, Afrika İttifaqına üzv ölkələrlə münasibətlərimiz də getdikcə inkişaf edir. Biz Qoşulmama Hərəkatına sədrlik etdiyimiz dövrdə, xüsusilə COVID-19 pandemiyası zamanı 80 ölkəyə humanitar yardım göstərmişik. Həmin ölkələrin böyük əksəriyyəti Afrika qitəsini təmsil edirdi.

Forumda bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür edirəm. Dostlarınıza da bizim salamlarımızı çatdırın.

**Moderator: Yaxşı sual idi. Bugünkü sessiyamızın son sualını yerli kanala veririk. Söz verilir "Real TV"dən Mirşahin Ağayevə.**

**Mirşahin Ağayev: Təşəkkür edirəm. Cənab Prezident, Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır, bunu hamımız bilirik. Artıq dörd ildir ki, Şuşa həm də dünyanın media və düşünən beyinlərinin paytaxtıdır. Bu, heç də təsadüfi deyil. Bir neçə hadisəni sadəcə statistik olaraq xatırladacağam. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunub, Azərbaycan Respublikasının dövlət suverenliyi təmin olunub, ATƏT-in Minsk qrupu ləğv olunub, Azərbaycan Respublikası Prezidentinin Amerika Birləşmiş Ştatlarının Prezidenti ilə birlikdə, Nikol Paşinyanla sənəd imzalaması tarixi hadisəsi baş verib. Onun ardınca BMT Baş Assambleyasında Azərbaycan liderinin dünyaya sülh müraciəti olub. Bunların hamısı sadəcə olaraq bir insanı yox, bir xalqı yox, bütün bəşəriyyəti xoşbəxt edə biləcək qədər böyük hadisələrdir.**

**Sizi dünyanın bütün liderlərindən fərqləndirən bir xüsusiyyət var. Bu xüsusiyyətin adı odur ki, Siz XXI əsrdə yeganə lidersiniz, Azərbaycan Respublikası yeganə respublikadır ki, qələbə qazanıb. Bu isə Sizə müəyyən bəşəri hüquqlar və haqlar tanıyır.**

**Mənim indi verəcəyim sual belə olacaq: Azərbaycan Respublikasının, yeganə qalib respublika olan Azərbaycanın, Prezident İlham Əliyevin, yeganə qalib Prezident İlham Əliyevin Şuşada, bax bugünkü Forumda bəşəriyyətə yeni tarixi dönəm üçün müraciəti və səslənişi. Böyük məmnuniyyət və məsuliyyətlə bu səslənişə, bu müraciətə qulaq asacağam və burada iştirak edən bütün həmkarlarımdan, qonaqlarımızdan da xahiş edəcəyəm ki, bu müraciətin yayılmasında ən yaxından iştirak etsinlər. Təşəkkür edirəm.**

**Prezident İlham Əliyev:** Sözün düzü, bəşəriyyətə müraciət etmək bir qədər təkəbbürlü olar mənim tərəfimdən. Bildiyiniz kimi, mən həmişə çalışmışam ki, təvazökarlığımı itirməyim, baxmayaraq ki, artıq 23 ilə yaxındır bu kürsüdəyəm. Bu illər ərzində Azərbaycan haradan-haraya gəlib, indi xalqımız da yaxşı bilir, siz də bəlkə də hamıdan yaxşı bilirsiniz. Çünki siz müasir Azərbaycan tarixini bəlkə də ən dərindən və yaxından bilən şəxslərdən birisiniz.

Ta 1990-cı illərin əvvəllərindən, bəlkə də ondan da qabaq, bizim bütün ağrılı dövrlərimiz sizin gözünüzün önündən keçib. Birinci Qarabağ müharibəsini işıqlandırmısınız, İkinci Qarabağ müharibəsini işıqlandırmısınız. Ona görə bu tarixi, yenə də deyirəm, Azərbaycanda sizin qədər bilən və Azərbaycan ictimaiyyətinə və dünyaya çatdıran bəlkə də ikinci şəxs çətin ki, tapılsın.

Mənimsə müraciətim ancaq Azərbaycan xalqına ola bilər. Azərbaycan xalqına bir çox müraciətlərim olub müxtəlif dövrlərdə. Həm işğal dövründə, həm müharibə dövründə, müharibədən sonra. Əlbəttə ki, bu müraciətlər də məzmunca fərqlənib, çünki fərqli bir situasiyada idik.

İşğal dövründə müraciətim keçmiş köçkünlərlə çoxsaylı görüşlər əsnasında ondan ibarət idi ki, onlar ümidlərini itirməsinlər. Onlar iradələrini möhkəm tutsunlar və mənə inansınlar ki, biz bu torpaqlara qayıdacağıq. Bu barədə bir neçə dəfə danışmışam, yenə də fürsət düşmüşkən deyə bilərəm ki, illər keçdikcə görürdüm onların ümidləri yavaş-yavaş tükənir. İnsanların gözlərindəki o nisgil, o ümidsizlik daha çox sezilir. Mən isə onlara deyə bilmirdim ki, nə vaxt nə olacaq. Deyirdim ki, inanın və onlar da inanırdılar. 17 il, - bu, az müddət deyil, - 17 il gözləyirdilər, mənim sözlərimə inanırdılar və ümumiyyətlə, aparılan işlərə də həmişə dəstək olurdular.

Müharibə dövründəki müraciətlərim də yaxın tarixin hadisələridir, bunu təkrarlamaq istəmirəm. Müharibədənsonrakı dövr, bu, çox yəni çətin dövr idi. Müharibə qədər olmasa da, çox çətin idi. Çünki müharibənin nəticələri dünya birliyi tərəfindən qəbul edilməli idi. Onu qəbul etmək istəməyən kifayət qədər qüvvətli dövlətlər, dairələr, ayrı-ayrı şəxslər var idi. Bizim ya qələbəmizi əlimizdən almaq, ya onu yarımçıq etmək, ya da ki, yenə Azərbaycanı asılı vəziyyətdə saxlamaq, yəni Azərbaycan ədalətin tam bərpasına nail olmasın deyə müxtəlif fitnələr təşkil etmək. Bütün bunları biz yaxşı xatırlayırıq.

Mənim də müraciətlərim ondan ibarət idi ki, - mən bu barədə artıq dedim, - biz bu müharibədəki Qələbəni gəlin, indi qeyd eləməyək, gəlin, necə deyərlər, daha fəal olaq, çünki hələ görüləsi işlər çoxdur. Bir qrup keçmiş köçkün də bax bu sözlərə yenə də inanıb gözləyirdi ki, o gün gələcək, onlar da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar. Srağagün mən onların bir qrupu ilə görüşmüşdüm. Həm Qaladərəsi kəndində, həm də Güneyxırman və Quzeyxırman kəndlərində. Demişdim ki, 2020-ci ildə müharibə bitəndə, biz zəfər çalanda bu torpaqlar hələ işğal altında idi. Amma siz inanırdınız ki, gün gələcək, biz bu torpaqlara da qayıdacağıq və o gün gəldi, lazım olan vaxtda.

Müraciətlərim məzmunca fərqli olsa da, deyə bilərəm, onların ana xətti dəyişməz olaraq qalır ki, biz ancaq özümüzə güvənə bilərik. Bu gün mən artıq bu barədə dedim. Baxmayaraq ki, Azərbaycanın çox böyük təbii sərvətləri olub, daha uzun illərdən bəri onlardan heç biri, yəni sözün əsl mənasında, Azərbaycan xalqının inkişafında, o vaxt müstəqil olmayan Azərbaycan Respublikasının inkişafında heç bir rol oynamayıb. Biz ümumittifaq büdcəsinə daha çox verirdik, nəinki alırdıq. Cəmi iki respublika var idi. Biz verirdik, heç nə almırdıq. Bizdən neft aparılırdı. Sumqayıt şəhəri ekoloji fəlakətə çevrilmişdi. Nəticədə Sovet İttifaqı dağılanda hər şey viran qalmışdı, torpaqlarımız da əldən getmişdi.

Ancaq özümüzə güvənməliyik və dövlətə güvənməliyik. Birlik heç vaxt sarsılmamalıdır. Nə üçün mən bunu deyirəm? Bəlkə də bu gün bunu demək o qədər də məntiqli səslənməz. Çünki bu gün Azərbaycan cəmiyyətində olan birliyə oxşar mənzərə tapmaq da çətindir. Çünki bu, ürəkdən gələn, insanların zehnindən gələn bir birlikdir. Elə bil ki, iki çay birləşir bir yerə. Bax, odur bu birlik - həm qəlbən, həm də necə deyərlər, fikir olaraq.

Amma biz gələcəyə baxmalıyıq. Dünya dəyişir və bu barədə də danışmışıq. Yeni təhdidlər, yeni təxribatlar ortaya çıxır. Əgər kimsə fikirləşir ki, bizi istəməyən qüvvələr bizdən əl çəkəcək, olmayacaq, heç vaxt olmayacaq. Bu mübarizə daimi olmalıdır - mübarizə öz hüquqlarımızı qorumaq üçün, mübarizə öz milli kimliyimizi qorumaq üçün, öz müstəqilliyimizi öz əlimizdə saxlamaq üçün.

Bir çox misallar var ki, bəzi ölkələr, onların rəhbərləri kiminsə qanadının altına sığınırlar və hesab edirlər ki, bu, onları qoruyacaq. Amma nəticə etibarilə olurlar qurban. Böyük oyunların qurbanları. Bizim xalqımız həm işğal görüb, həm dağıntılar görüb, həm Zəfər görüb, həm də bu gün bu bərpa və dirçəliş dövrünü həm görür, həm də bunun iştirakçısıdır. Ona görə bu sözlərim gələcək nəsillərə, gənc nəslədir ki, Azərbaycan xalqı əbədi, yəni qürurlu xalq kimi, qalib xalq kimi yaşasın, milli kimlik hər şeydən üstün olmalıdır, milli ləyaqət hər şeydən üstün olmalıdır. Məğlub ola bilərsən, - indi olur belə hadisələr, - amma gərək heç vaxt əyilməyəsən, sınmayasan. Heç vaxt işğalçı ilə razılaşmayasan, işğalçının diktəsi ilə oturub-durmamalısan. Lazım olsa, ölsən də belə, gərək ləyaqətlə yaşayasan və öz övladlarına, nəvələrinə, nəticələrinə bunu aşılayasan. Ona görə bizim gələcək inkişafımız gənc nəslə bağlı olacaq, təqribən 20 il, 30 il, 50 il sonra. Onlar da bizim kimi Vətənə bağlı, mətin, iradəli, güclü olmalıdırlar ki, Azərbaycan daim yüksəklərdə olsun.

**Moderator: Cənab Prezident, qeyd etdiyiniz kimi, hər şey növbəti nəslin gələcəyi naminədir.**

**Bizə vaxt ayırdığınıza görə Sizə nə qədər təşəkkür etsək, yenə də azdır. Çox məzmunlu və səmərəli iki saat yarımlıq müzakirə oldu. Şəxsən mənim üçün bu vaxt çox sürətlə keçdi. Bizə ayırdığınız vaxta görə Sizə bir daha dərin təşəkkürümüzü bildiririk. Bu gün beynəlxalq media nümayəndələrinin iştirakı ilə, sözün əsl mənasında, dünyanın bütün bölgələrini əhatə edən mövzulara toxunduq.**

**Xanımlar və cənablar, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevi alqışlayaq.**

**Çox sağ olun.**

# Monqolustanın Prezidenti zati-aliləri cənab Uxnaaqiyn Xurelsuxa

Hörmətli cənab Prezident!

11 İyul - Monqolustanın milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Qarşılıqlı hörmətə və etimada əsaslanan Azərbaycan-Monqolustan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Biz xoş ənənələr üzərində qurulmuş bu əlaqələrin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk.

İnanıram ki, xalqlarımızın mənafeləri naminə ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımızın genişləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Monqolustan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2026-cı il*

# Monteneqronun Prezidenti zati-aliləri cənab Yakov Milatoviçə

Hörmətli cənab Prezident!

13 İyul - Dövlətçilik Günü münasibətilə Sizi və Monteneqro xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Xoş ənənələr üzərində qurulan Azərbaycan-Monteneqro dövlətlərarası əlaqələrinin, qarşılıqlı anlaşmaya və hörmətə əsaslanan tərəfdaşlığımızın möhkəmlənməsi məmnunluq doğurur. Siyasi əlaqələrimizin yüksək səviyyəsi bütün sahələrdə, xüsusilə də iqtisadi-ticari, enerji, sərmayə qoyuluşu, turizm və digər istiqamətlər üzrə əməkdaşlığımızı daha da genişləndirmək üçün yaxşı zəmin yaradır.

İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Monteneqro arasında əlaqələrin möhkəmləndirilməsi, qarşılıqlı fəaliyyətimizin genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2026-cı il*

# Qətər Dövlətinin Əmiri əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə

Əlahəzrət!

Atanız - görkəmli dövlət xadimi, Ata Əmir Əlahəzrət Şeyx Həməd bin Xəlifə Al Taninin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Şeyx Həməd bin Xəlifə Al Tani Qətər Dövlətinin tarixində silinməz iz qoymuş, bütün həyat və fəaliyyəti ilə Vətəninə hədsiz sədaqət nümunəsi göstərmiş və onun rifahı naminə fədakarcasına çalışmış xalqının böyük lideri idi.

Azərbaycan Respublikası ilə Qətər Dövləti arasında dostluq və əməkdaşlıq münasibətlərinin təşəkkülündə və inkişafında onun müstəsna xidmətləri olmuşdur. Azərbaycana səfərlərini və onunla görüşlərimi ən xoş təəssüratlarla xatırlayıram. Ata Əmir Əlahəzrət Şeyx Həməd bin Xəlifə Al Taninin əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə, Qətər Dövlətinin qardaş xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2026-cı il*

# Baş nazir Əli Əsədov Ümumdünya Gömrük Təşkilatının baş katibi ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 13-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Yan Sanders ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında uzunmüddətli və səmərəli tərəfdaşlığın inkişafından məmnunluq ifadə olunub.

Azərbaycanın gömrük sistemində həyata keçirilən ardıcıl islahatlar barədə bəhs olunub, bu baxımdan beynəlxalq standartların tətbiqi istiqamətində ÜGT ilə əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Beynəlxalq ticarətin asanlaşdırılması, gömrük prosedurlarının modernləşdirilməsi və qlobal təchizat zəncirlərinin dayanıqlılığının təmin olunması ilə bağlı həyata keçirilən layihələr ətrafında fikir mübadiləsi aparılıb.

Həmçinin regional və beynəlxalq nəqliyyat dəhlizləri çərçivəsində gömrük əməkdaşlığının genişləndirilməsi, xüsusilə də Orta dəhlizin inkişafı və tranzit potensialının gücləndirilməsi məsələlərinə toxunulub.

Görüş zamanı Azərbaycan ilə ÜGT arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov görüşdə iştirak edib.

# Baş nazir Əli Əsədov Rusiyanın səhiyyə naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 13-də Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının növbəti məzun buraxılışının əhəmiyyəti vurğulanıb.

Yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasında mühüm rol oynayan filial Azərbaycan-Rusiya əməkdaşlığının uğurlu nümunələrindən biri kimi dəyərləndirilib.

Görüş zamanı Azərbaycan ilə Rusiya arasında səhiyyə, tibb təhsili və tibb elmi sahələrində qarşılıqlı faydalı əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçko və universitetin Bakı filialının rektoru Əziz Əliyev görüşdə iştirak ediblər.

# Ümumdünya Gömrük Təşkilatının baş katibi Azərbaycanda səfərdədir









**İyulun 13-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Yan Sanders Azərbaycana səfərə gəlib.**

İlk olaraq ÜGT baş katibi Yan Sanders Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi anılıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Dövlət Gömrük Komitəsində Yan Sanderslə keçirilən görüşdə ÜGT ilə Azərbaycan gömrük xidməti arasında uzunmüddətli səmərəli əməkdaşlıqdan məmnunluqla bəhs edilib, əlaqələrin daha da genişləndirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb. Baş katibə son dövrlərdə gömrük xidmətində həyata keçirilən rəqəmsal transformasiya, süni intellekt əsaslı həllər, innovativ layihələr və müasir idarəetmə yanaşmaları ilə bağlı xüsusi təqdimatlar əsasında ətraflı məlumat verilib.

Görüşdən sonra Dövlət Gömrük Komitəsində Hədəf Mərkəzinin fəaliyyəti ilə tanış olan Ümumdünya Gömrük Təşkilatının baş katibi Yan Sandersə virtual monitorinq mərkəzi, sərnişin risk sistemi, həmçinin mal və nəqliyyat vasitələrinə elektron nəzarət sistemləri barədə xüsusi təqdimatlar əsasında məlumat verilib.

Baş katib Yan Sanders Dövlət Gömrük Komtəsində gömrük əməkdaşları ilə də görüşüb, onlar qarşısında çıxış edərək gömrük işinin inkişafı istiqamətində tətbiq edilən yeni yanaşmalar, müasir çağırışlardan danışıb.

Ölkəmizə səfərinin əhəmiyyətini vurğulayan baş katib Azərbaycan gömrük xidmətinin beynəlxalq əməkdaşlığın gücləndirilməsi, Ümumdünya Gömrük Təşkilatı ilə səmərəli və işgüzar münasibətlərin qurulması, qabaqcıl ideyaların, müasir yanaşmaların tətbiqi istiqamətindəki fəaliyyətindən məmnunluqla bəhs edib.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov Azərbaycan gömrük xidməti ilə Ümumdünya Gömrük Təşkilatı arasında qarşılıqlı etimada, strateji baxışların uzlaşmasına və ortaq məqsədlərə əsaslanan möhkəm tərəfdaşlıq münasibətlərinin formalaşdığını vurğulayıb. Qeyd olunub ki, bu əməkdaşlıq yeni istiqamətlərin müəyyənləşdirilməsinə, rəqəmsal transformasiyanın, dayanıqlı ticarətin və beynəlxalq standartların təşviqinə töhfə verir.

Sonda ÜGT baş katibi Yan Sanders Gömrük Tarixi Muzeyini ziyarət edib.

***DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

# Parlamentlərarası əlaqələrin inkişafı Azərbaycan - Böyük Britaniya münasibətlərinin mühüm istiqamətlərindən biridir

**Milli Məclisin Sədri Sahibə Qafarova iyulun 13-də Britaniya Parlamentinin üzvü, Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmən ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə parlamentlərarası əlaqələrin ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərin mühüm hissələrindən biri olduğu vurğulanaraq, qanunverici orqanlarımız arasında sıx əlaqələrin qurulmasından və qarşılıqlı təmasların genişləndirilməsindən razılıq bildirilib. Spiker Sahibə Qafarova özünün Birləşmiş Krallığa səfərlərini və Birləşmiş Krallıq Parlamentinin İcmalar Palatasının Sədri Ser Lindsi Hoyl ilə görüşlərini, həmçinin, parlamentarilər arasında qarşılıqlı səfərləri xatırlaraq qeyd edib ki, bu təmaslar parlamentlərimiz arasında mövcud olan əlaqələrin daha da inkişafına xidmət edir.

Tərəflər həmçinin dostluq qrupları arasında müsbət dialoq və görüşlərin, həmçinin beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın da önəmini vurğulayıblar.

Böyük Britaniya Parlamentinin üzvü Bob Bləkmən Azərbaycana növbəti səfəri, ölkəmizdə və paytaxt Bakıda gördükləri haqqında müsbət təəssüratlarını bölüşüb. O, Birləşmiş Krallığın Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini vurğulayaraq, bu istiqamətdə parlamentlərin rolunu qeyd edib.

Görüşdə həmçinin, hazırda regionda mövcud olan vəziyyət, Azərbaycan və Ermənistan arasında sülh prosesi haqqında da danışılıb. Spiker Sahibə Qafarova qonağa işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən nəhəng yenidənqurma və bərpa işləri haqqında məlumat verib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova ilə Pan-Afrika Parlamentinin prezidenti arasında videokonfrans formatında görüş keçirilib

**İyulun 13-də Milli Məclisin Sədri Sahibə Qafarova ilə Pan-Afrika Parlamentinin prezidenti Fatih Boutbiq arasında videokonfrans formatında görüş keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, eləcə də Azərbaycan Milli Məclisi ilə Pan-Afrika Parlamenti arasında əlaqələrin inkişafı məsələləri nəzərdən keçirilib. Söhbət zamanı bu cür təmasların parlament diplomatiyasının möhkəmləndirilməsinə və tərəflər arasında əməkdaşlığın daha da inkişafına mühüm töhfə verdiyi vurğulanıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Pan-Afrika Parlamentinin fəaliyyətinə toxunaraq, Azərbaycan Parlamentinin bu təşkilatla münasibətləri daha da inkişaf etdirmək niyyətini ifadə edib. Görüşdə həmçinin Pan-Afrika Parlamenti ilə Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi arasında əməkdaşlığın perspektivləri nəzərdən keçirilib.

*"Azərbaycan"*

# Slovakiya Prezidenti Peter Pelleqrini Azərbaycana rəsmi səfərə gəlib



**Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini iyulun 13-də Azərbaycana rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Slovakiya Prezidenti Peter Pelleqrinini Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və digər rəsmi şəxslər qarşıladılar.

# Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlıq genişlənir

**İyulun 13-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ümumdünya Gömrük Təşkilatının (ÜGT) baş katibi Yan Sanders ilə görüş keçirib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Görüş zamanı, Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlığın cari vəziyyəti və perspektivləri, beynəlxalq ticarətin asanlaşdırılması, sərhəd təhlükəsizliyi, gömrük sistemlərinin rəqəmsallaşdırılması, qanunsuz ticarətə qarşı mübarizə, təchizat zəncirlərinin dayanıqlılığının gücləndirilməsi və gömrük sahəsində potensialın artırılması məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın ÜGT ilə səmərəli əməkdaşlığa xüsusi önəm verdiyini vurğulayaraq, ölkəmizdə gömrük sahəsində həyata keçirilən islahatlar, tranzit imkanlarının genişləndirilməsi və beynəlxalq ticarətin asanlaşdırılması istiqamətində görülən işlər barədə məlumat verib. Azərbaycanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafına verdiyi töhfənin regional və qlobal ticarət əlaqələrinin möhkəmləndirilməsində mühüm rol oynadığı qeyd edilib.

Ceyhun Bayramov qarşı tərəfə yeni regional reallıqlar, sülh prosesi, işğaldan azad edilmiş ərazilərimizdə görülən quruculuq işləri və infrastruktur layihələri barədə ətraflı məlumat verib.

Nazir ölkəmizin Avrasiyanın mühüm nəqliyyat və logistika qovşağı kimi mövqeyinin daha da gücləndirilməsi istiqamətində həyata keçirilən irimiqyaslı layihələrdən bəhs edib. Bu çərçivədə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin artırılması, Orta dəhlizin inkişafı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsi və Ələt Azad İqtisadi Zonasının fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq təchizat zəncirlərində artan rolunun gömrük prosedurlarının səmərəliliyinin yüksəldilməsi və ticarətin asanlaşdırılması baxımından yeni imkanlar yaratdığı qeyd olunub.

Tərəflər beynəlxalq gömrük əməkdaşlığının gücləndirilməsinin, innovativ texnologiyaların tətbiqinin, məlumat mübadiləsinin və institusional əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Milli Məclisin iclasında

# İnnovativ iqtisadiyyat inkişaf etdikcə, onu tənzimləyən qanunvericilik bazası da təkmilləşdiriləcək

**İyulun 13-də Milli Məclisin növbədənkənar sessiyasının iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova iclasın gündəliyinin təsdiqindən sonra ilk məsələnin "Azərbaycan Respublikası Hökuməti ilə Sudan Respublikası Hökuməti arasında diplomatik pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi olduğunu bildirib.**

Layihə barədə məlumat verən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanın Afrika qitəsindəki aktivliyinin strateji əhəmiyyətindən söz açıb, ölkəmizin vizasız rejim coğrafiyasının genişləndiyini xüsusi vurğulayıb. Bildirib ki, vətəndaşlarımız artıq diplomatik və xidməti pasportlarla 87 ölkəyə, ümumvətəndaş pasportları ilə 22 ölkəyə tam sərbəst gedə bilərlər. 19 may 2026-cı il tarixində Bakı şəhərində imzalanan bu sənəd iki ölkə arasındakı münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldırmaqla, müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsinə əlavə töhfə verəcək.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

"Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Parlamentin Sədri gündəliyin qalan 17 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu deyib. Bildirilib ki, növbəti beş məsələ ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və onların dördü mahiyyətcə bir-birinə yaxındır. Bu dörd məsələ və 10-cu məsələ ilə bağlı iclasda rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov, İnnovasiyalar və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədri Fərid Osmanov və agentliyin Hüquq departamentinin müdiri Kaul Məmmədov dəvət olunublar.

Gündəliyin 6-cı məsələsi olan "Kraudfandinq haqqında", 7-ci məsələsi olan Mülki Məcəllədə, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lisenziyalar və icazələr haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, 8-ci məsələsi olan Əmək Məcəlləsində, Mülki Məcəllədə, "Valyuta tənzimi haqqında", "Banklar haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə və 9-cu məsələsi olan Vergi Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Dövlət satınalmaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə ikinci oxunuşda olan qanun layihələrinin təqdimatları və müzakirələri birgə, səsvermələri ayrı-ayrı keçirilib. Onların birgə təqdimatını İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov edib.

Komitə sədri bildirib ki, kraudfandinq, vençur kapitalı fondu və innovasiya ekosisteminin hüquqi əsaslarının yaradılmasına yönəlmiş dörd qanun layihəsi rəqəmsal iqtisadiyyatın inkişafı baxımından mühüm əhəmiyyət daşıyır və onlar haqqında birinci oxunuşda konseptual şəkildə geniş məlumat verilib. O, müzakirələrdə innovativ qanunvericilik paketinin deputatlar tərəfindən ümumilikdə dəstəkləndiyini bildirib. Komitə sədri qeyd edib ki, hazırkı mərhələdə prioritet məsələ innovasiya ekosistemi üçün zəruri hüquqi əsasların formalaşdırılmasıdır.

Azər Əmiraslanov birinci oxunuşda deputatların qaldırdıqları məsələlərlə bağlı qanunvericilik təşəbbüskarı subyekti ilə aparılan işlərin nəticələrini diqqətə çatdırıb. Qeyd olunub ki, innovativ iqtisadiyyat inkişaf etdikcə, onu tənzimləyən qanunvericilik bazası da yeni reallıqlar və təcrübə nəzərə alınmaqla təkmilləşdiriləcək.

Kraudfandinq, vençur kapitalı fondu kimi maliyyə alətləri ölkəmizdə ilk dəfə tətbiq olunduğu üçün ilkin mərhələdə ehtiyatlı yanaşma sərgilənir. Layihələrdə əsas prinsip investorların, o cümlədən vətəndaşların hüquqlarının qorunması və maliyyə bazarlarında şəffaflığın təmin edilməsidir.

Ümumilikdə, layihələrin qəbulu ilə kraudfandinq üzrə normativ-hüquqi bazanın formalaşdırılması, innovativ layihələrin və startapların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, investorların hüquqlarının müdafiəsi təmin olunmaqla alternativ maliyyələşmə mexanizmlərinin inkişaf etdirilməsi nəzərdə tutulur. Bu isə ölkədə innovasiya fəaliyyətinin təşviqinə, kapital bazarının rəqəmsal alətlərlə genişlənməsinə, özəl investisiyaların innovasiya ekosisteminə yönəldilməsinə və Azərbaycanın rəqəmsal iqtisadiyyat və investisiya mühiti baxımından cəlbediciliyinin artırılmasına xidmət edəcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli 7-ci, 8-ci və 9-cu məsələlərə dair, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev 8-ci və 9-cu məsələlərə dair komitələrinin rəylərini təqdim ediblər.

Müzakirədə deputatlar Nigar Arpadarai, Hikmət Məmmədov, Aydın Mirzəzadə, Nizami Səfərov çıxış edərək, layihələrlə bağlı fikirlərini və qeydlərini bildiriblər.

Komitə sədri Azər Əmiraslanov və rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov səslənən fikirlərə münasibət bildirəndən sonra qanun layihələrinin dördü də ayrı-ayrı səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O vurğulayıb ki, qanun layihəsi informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsi, informasiya infrastrukturunun kibertəhdidlərdən qorunması, bu sahədə institusional mexanizmlərin yaradılması və rəqəmsal inkişaf proseslərinin hüquqi əsaslarının müəyyənləşdirilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Spiker Sahibə Qafarova bildirib ki, növbəti iki məsələ Azərbaycan Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub. O qeyd edib ki, bu məsələlərlə əlaqədar iclasda kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli və digər şəxslər iştirak edirlər.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Toxumçuluq haqqında" Azərbaycan Respublikası qanununun layihəsini (ikinci oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, təqdim edilən qanun layihəsi 6 fəsil, 27 maddədən ibarətdir. Sənəd Azərbaycan Respublikasında toxumun istehsalı, emalı, tədarükü, saxlanması, daşınması, ticarət dövriyyəsi, o cümlədən idxalı və ixracı, sertifikatlaşdırılması və keyfiyyətinə nəzarətlə bağlı yaranan münasibətləri tənzimləyir, bu sahədə fəaliyyət göstərən subyektlərin və dövlət orqanlarının fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

Bildirilib ki, yeni layihədə anlayışlar sistemi təkmilləşdirilib. Sənədin müvafiq maddələrində toxumçuluq sahəsində dövlət tənzimlənməsi və nəzarəti, toxumçuluğun elmi təminatı, toxumçuluq subyektlərinin mənafelərinin qorunması, toxumçuluğun maliyyələşdirilməsi, toxum müfəttişlərinin hüquq və vəzifələri ilə bağlı məsələlər öz əksini tapıb. Bununla yanaşı, layihədə toxum əməliyyatçılarının qeydiyyata alınması, onların vəzifə və hüquqları, toxum ehtiyatı fondlarının yaradılması, saxlanması və istifadəsi məsələləri ehtiva olunur. Həmçinin toxum əməliyyatçılarının qeydiyyatdan keçməsi, toxumun istehsalı, saxlanılması və satışı, Elektron Hökumət İnformasiya Sistemi ilə sənədlərin toplanması məsələlərinə aydınlıq gətirilir. Layihədə toxumların sortluq və səpin keyfiyyətlərinin müəyyən edilməsi, laboratoriya müayinəsi və ekspertizası, superelit və elit toxum sortlarının əldə edilməsi ilə bağlı vəzifələr də təsbit edilir.






Qeyd olunub ki, qanun qəbul ediləndən sonra aqrar sektorun dayanıqlı inkişafına əhəmiyyətli təsir göstərərək, toxumların keyfiyyət göstəricilərinin yüksəldilməsinə, vahid toxum sisteminin formalaşdırılması və tənzimlənməsinə nəzarət tədbirlərinin asanlaşdırılmasına, yerli toxumçuluğun inkişaf etdirilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına, ixracın artırılmasına xidmət edəcək.

Növbəti məsələ - "Seleksiya nailiyyətləri haqqında", "Dövlət rüsumu haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı (ikinci oxunuş) məlumata əsasən, sənəd "Toxumçuluq haqqında" yeni qanunun tələblərindən irəli gələrək hazırlanıb və müvafiq dəyişiklikləri özündə ehtiva edir.

Bu məsələ barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov təmsil etdiyi komitənin rəyini açıqlayıb. O bildirib ki, layihədə seleksiya və toxumçuluq sahəsində vahid informasiya ehtiyatının hüquqi əsasları müəyyən edilir. Toxum əməliyyatçılarının qeydiyyatı və toxum sertifikatlaşdırılması üzrə dövlət rüsumları təsbit olunur. Toxum əməliyyatçılarının qeydiyyatına dair çıxarış sahibkarlıq fəaliyyəti üçün tələb olunan icazələr siyahısına daxil edilir.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq, ikinci oxunuşda qəbul edilib.

Gündəliyin növbəti iki məsələsinin də Azərbaycan Prezidentinin bir məktubu ilə Milli Məclisə təqdim edildiyi və mahiyyətcə bir-birinə yaxın olduğu bildirilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirilib ki, qanun layihəsi ölkəmizdə balıqçılığın, o cümlədən balıq və digər su bioresurslarının ovunun və akvakulturanın təşkilinin, idarə edilməsinin, balıq və digər su bioresurslarının artırılmasının, istifadəsinin və mühafizəsinin hüquqi əsaslarını müəyyən edir.

8 fəsil, 30 maddədən ibarət layihədə yeni anlayışlar təsbit edilir, balıqçılıq sahəsində dövlət siyasətinin əsas prinsipləri, bu sahədə dövlətin vəzifələri və dövlət nəzarəti tədbirlərinə aydınlıq gətirilir. Balıqçılıq sahəsində məhsuldarlığın artırılması və ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə istehsal metodlarının və innovativ texnologiyaların təşviqi məsələləri, habelə daxili bazar tələbatının ödənilməsi və ixrac potensialının artırılması, balıqçılıq və akvakultura sahəsində idarəetmənin təkmilləşdirilməsi və rəqəmsallaşdırılması ilə bağlı vəzifələr dövlət siyasətinin əsas prinsipləri kimi müəyyən edilir. Balıqçılıq sahəsində dövlət proqramlarının, milli fəaliyyət konsepsiyalarının və digər sənədlərin hazırlanması və həyata keçirilməsi, dövlət nəzarətinin gücləndirilməsi, dövlət dəstək tədbirlərinin göstərilməsi əsas vəzifələr kimi qarşıya qoyulur.

Bununla yanaşı, sənəddə balıq ovu, akvakulturası və ticarət dövriyyəsi, balıqçılıq subyektlərinin hüquq və vəzifələri, balıqartırma, balıq və digər su bioresurslarının məskunlaşdığı mühitin mühafizəsi, balıqçılığın iqtisadi tənzimlənməsi, balıq və digər su bioresurslarının artırılması, istifadəsi və mühafizəsi ilə bağlı beynəlxalq əməkdaşlıq və digər məsələlər öz əksini tapıb.

Məsələ barədə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov rəhbəri olduğu komitənin rəyini təqdim edib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (ikinci oxunuş) məlumat verib. Bildirilib ki, sənəddə "Balıqçılıq haqqında" yeni qanun layihəsindən irəli gələrək bir sıra uyğunlaşdırma xarakterli dəyişikliklər nəzərdə tutulur. Dəyişikliklərdə akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinin verilməsinə görə dövlət rüsumu müəyyən edilir. Bununla yanaşı, sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısına akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsi əlavə olunur.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bu sənəd barədə təmsil etdiyi komitənin müsbət rəy verdiyini açıqlayıb.

Məsələlərin müzakirəsi zamanı deputat Məlahət İbrahimqızı bəzi fikirlərini səsləndirib. "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxsin direktoru Ceyhun Əliyev qaldırılan məsələyə münasibət bildirib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq, ikinci oxunuşda qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Torpaq Məcəlləsində, Mülki Məcəllədə və "Qiymətləndirmə fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsindən (ikinci oxunuş) söhbət açıb. Qeyd edilib ki, layihədə təklif olunan dəyişikliklər əmlakdan və torpaq sahələrindən daha səmərəli istifadə edilməsini, dövlət və vətəndaş arasında qarşılıqlı razılıq əsasında əmlak mübadiləsinin aparılmasını nəzərdə tutur.

Layihəyə əsasən, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunla müəyyən edilmiş torpağın dövlət ehtiyacları üçün alınmasına əsas verən hallar, habelə qanunla özəlləşdirilməsi qadağan olunan dövlət əmlakı və dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələri istisna olmaqla, dövlət mülkiyyətində olan əmlak, o cümlədən torpaq sahəsi qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan əmlakla və ya torpaq sahəsi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın qərarı ilə dəyişdirilir. Dəyişdirilən əmlakların, o cümlədən torpaq sahələrinin qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" qanuna uyğun olaraq qiymətləndirici tərəfindən həyata keçirilir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov bu komitələrin məsələ barədə rəylərini təqdim ediblər.

Parlamentin komitə sədri Zahid Oruc məsələyə dair fikirlərini səsləndirdikdən sonra, qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Daha sonra Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Nəzərə çatdırılıb ki, qanun layihəsi torpaq ehtiyatlarından səmərəli və dayanıqlı istifadənin təmin edilməsi, torpaqların konsolidasiyası üçün hüquqi zəminin formalaşdırılması məqsədilə hazırlanıb. Sənəddə kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası - kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadə məqsədilə torpaq mülkiyyətçilərinin razılığı və ekvivalent bazar dəyəri əsasında torpaq sahələrinin birləşdirilməsi, bölünməsi, sərhədlərinin yenidən müəyyən edilməsi, torpaq sahələrinin və ya onların hissələrinin dəyişdirilməsi nəticəsində torpaq sahələri üzərində mülkiyyət və digər əşya hüquqlarının yenidən rəsmiləşdirilməsi, bu məqsədlərə nail olunması üçün ehtiyacdan asılı olaraq suvarma, meliorasiya, yol, enerji, işıqlandırma və digər mühəndis-kommunikasiya infrastrukturu ilə bağlı dəyişikliklərin həyata keçirilməsi prosesi olaraq müəyyən edilir.

Bildirilib ki, qanun layihəsinin qəbulu kənd təsərrüfatında məhsuldarlığın artırılması, torpaq resurslarından səmərəli istifadənin təmin edilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və kənd yerlərinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Məsələ barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov bu komitələrin müsbət rəylərini diqqətə çatdırıblar.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Komitə sədri Tahir Rzayev Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli və "Aqrar sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirilib ki, qanun layihəsi daşınmaz əmlakın kadastrı və reyestri sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsini nəzərdə tutur. Qeyd edilib ki, qanun layihəsində daşınmaz əmlakın dövlət reyestri və kadastrının vahid informasiya sistemində birləşdirilməsi, məlumatların əldə edilməsi və saxlanılması ilə bağlı dəyişikliklər təklif olunur.

Nəzərə çatdırılıb ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunun qüvvədə olan redaksiyasında hüquqların qeydiyyatı üçün 10 iş günü nəzərdə tutulmuşdur, dəyişikliklə təkrar qeydiyyatın icra müddəti azaldılaraq 1 iş günü olaraq təyin olunur. Dəyişiklik daşınmaz əmlak bazarında çevikliyə və xərclərin azaldılmasına xidmət edir.

Layihə ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov təmsil etdikləri komitələrin rəylərini səsləndiriblər. Qeyd edilib ki, dəyişikliklər daşınmaz əmlakın qeydiyyatı sahəsində şəffaflığın artırılmasına, elektron xidmətlərin genişləndirilməsinə, vətəndaşlar üçün daha çevik prosedurların yaradılmasına xidmət edəcək.

Məsələ barədə komitə sədri Zahid Oruc bəzi fikirlərini açıqladıqdan sonra, qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Məsələyə dair birinci oxunuş zamanı ətraflı məlumat verildiyini deyən komitə sədri, İnzibati Xətalar Məcəlləsində təklif olunan dəyişikliklərin bu gün müzakirə olunan bir sıra qanunların tətbiqi, habelə Cinayət Məcəlləsinə edilən sonuncu dəyişikliklərlə bağlı olduğunu qeyd edib.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirilib ki, qanun layihəsində təklif olunan dəyişikliklər istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığortanın təkmilləşdirilməsinə və beynəlxalq normalara uyğunlaşdırılmasına yönəlib.

Dəyişikliklər könüllülərin, tələbə və şagirdlərin, eləcə də əlilliyi olan şəxslərin icbari tibbi sığortası zamanı onlara münasibətdə sığortanın təkmilləşdirillməsini nəzərdə tutur. Layihədə, eyni zamanda sığorta hadisəsi zamanı birdəfəlik sığorta ödənişinin maksimum məbləği müəyyən edilir.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Komitə sədri qanun layihəsi ilə bağlı əlavə rəy və təklifin daxil olmadığını deyib. Layihədə icbari tibbi sığorta fondu anlayışının əlavə olunması, icbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların elektron qaydada həyata keçirilməsinin hüquqi əsaslarının müəyyən edilməsi, habelə sığortaolunanlara ambulator şəraitdə istifadə olunan dərman vasitələrinin aptek təşkilatları tərəfindən elektron resept əsasında buraxılması, icbari tibbi sığorta şəhadətnaməsinin elektron formada yaradılması nəzərdə tutulur.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qanun layihəsi barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb.

Deputat Vüqar Bayramov məsələ ilə bağlı bəzi fikir və təkliflərini səsləndirdikdən sonra, qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Miqrasiya Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsindən (ikinci oxunuş) bəhs edib. Bildirilib ki, qanun layihəsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması ilə bağlı inzibati prosedurların elektronlaşdırılması və normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə müvafiq dəyişikliklər təklif olunur. Sənəd dövlət xidmətlərinin rəqəmsallaşdırılmasına, sənəd dövriyyəsinin sadələşdirilməsinə, müraciətlərin elektron qaydada icrasının genişləndirilməsinə, inzibati prosedurların operativliyinin artırılmasına və qanunvericiliyin elektron idarəetmə prinsiplərinə uyğunlaşdırılmasına xidmət edir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məsələ barədə bu komitənin müsbət rəy verdiyini bildirib.

Deputat Sahib Alıyev məsələ ilə bağlı bəzi qeydlərini söylədikdən sonra, qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Bədəl Bədəlov "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (ikinci oxunuş) məlumat verib, məsələ ilə bağlı əlavə heç bir qeyd və təklifin olmadığını deyib. Sənəddə təklif olunan dəyişikliklər enerji səmərəliliyi sahəsində həyata keçirilən maarifləndirmə tədbirlərinin dayanıqlı və uzunmüddətli icrası üçün sabit maliyyə mexanizminin yaradılmasına, bununla da enerjidən səmərəli istifadə üzrə davranışların təşviqinə, əhalinin məlumatlılıq səviyyəsinin genişləndirilməsinə, yeni kommunikasiya alətlərinin tətbiqinə və enerjiyə qənaət mədəniyyətinin formalaşmasına yönəldilib.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# IV Şuşa Qlobal Media Forumu

## Azərbaycan ilə Özbəkistan mediaları arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev IV Şuşa Qlobal Media Forumu çərçivəsində iyulun 13-də Özbəkistan Respublikası Prezidenti Administrasiyası yanında Kütləvi İnformasiya Vasitələri üçün Kontent İstehsalı Mərkəzinin direktoru Kobuljon Akhmedov, Özbəkistan Respublikası Prezidenti Administrasiyasının Kommunikasiyalar şöbəsinin müdirinin birinci müavini Akramjon Fozilov, Özbəkistan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Dilşod Saidjanov və Özbəkistan Respublikası Prezidenti Administrasiyası yanında Kütləvi İnformasiya Vasitələri üçün Kontent İstehsalı Mərkəzinin şöbə müdiri Tokhir Umarov ilə görüşüb.**




AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı vurğulanıb. Bu xüsusda iki ölkənin prezidentləri arasında mövcud olan səmimi və etimada əsaslanan münasibətlərin əlaqələrin inkişafında mühüm rol oynadığı qeyd edilib.

Tərəflər informasiya və media sahələrində Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluqlarını ifadə ediblər. Bildirilib ki, hər iki ölkədə media forumlarının, eləcə də qeyri-hökumət təşkilatlarının forumlarının keçirilməsi qarşılıqlı əlaqələrin daha da genişlənməsinə töhfə verir. Həmçinin Azərbaycan və Özbəkistanın qeyri-hökumət təşkilatları üçün birgə qrant layihələrinin həyata keçirilməsi məmnunluqla vurğulanıb.

Görüşdə birgə media kontentinin hazırlanması və mübadiləsi, Azərbaycan ilə Özbəkistan mediaları arasında əməkdaşlığın genişləndirilməsi, həmçinin bloqçular arasında birbaşa əlaqələrin qurulması məsələləri müzakirə edilib. Bununla yanaşı, ortaq tariximizin, mədəniyyətimizin, ənənələrimizin və mənəvi dəyərlərimizin beynəlxalq aləmdə təbliğinə xidmət edəcək birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti qeyd olunub.

Özbəkistan nümayəndə heyəti IV Şuşa Qlobal Media Forumunun əhəmiyyətini yüksək qiymətləndirərək, tədbirin uğurlu təşkili münasibətilə təbriklərini çatdırıb. Qonaqlar Prezident İlham Əliyevin forum çərçivəsində jurnalistlərlə birbaşa dialoq qurmasını və media nümayəndələrinin çoxsaylı suallarını açıq şəkildə cavablandırmasını xüsusi məmnunluqla qeyd ediblər. Onlar dövlətimizin başçısının Özbəkistan-Azərbaycan münasibətlərinin inkişafına dair mühüm mesajlar səsləndirdiyini vurğulayıblar.

## Qazaxıstanda Azərbaycan telekanallarının, ölkəmizdə isə Qazaxıstan telekanallarının yayımı ilə bağlı fikir mübadiləsi aparılıb

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev IV Şuşa Qlobal Media Forumu çərçivəsində iyulun 13-də Qazaxıstan Respublikasının mədəniyyət və informasiya nazirinin birinci müavini Kanat İskakov, eləcə də Qazaxıstan Mədəniyyət və İnformasiya Nazirliyinin İnformasiya Komitəsinin Televiziya və Radio Kanalları üçün İnformasiya Fəaliyyəti Departamentinin baş eksperti Nurlan Bertısov ilə görüşüb.**




AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin müttəfiqlik xarakteri daşıdığı vurğulanıb. Tərəflər Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın inkişafı, həmçinin informasiya və media sahəsində qarşılıqlı fəaliyyət məsələlərini müzakirə ediblər.

Söhbət zamanı Hikmət Hacıyev sosial media platformaları ilə bağlı məsələlərdə Türk Dövlətləri Təşkilatı çərçivəsində əlaqələndirmənin gücləndirilməsi, birgə informasiya kontentlərinin hazırlanması, dezinformasiyaya qarşı birgə mübarizənin təşkilinin vacibliyini bildirib. Eləcə də Qazaxıstanda Azərbaycan televiziya kanallarının, ölkəmizdə isə Qazaxıstan telekanallarının yayımı ilə bağlı fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyevin forum çərçivəsində media nümayəndələri ilə görüşünü, çoxsaylı sualları ətraflı və açıq şəkildə cavablandırmasını xüsusi məmnunluqla qeyd edən Kanat İskakov və Nurlan Bertısov IV Şuşa Qlobal Media Forumunun uğurla təşkil olunması münasibətilə təbriklərini çatdırıblar.

## Prezidentin köməkçisi Hikmət Hacıyev Şuşada Suriyanın informasiya naziri ilə görüşüb

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev IV Şuşa Qlobal Media Forumu çərçivəsində iyulun 13-də Suriya Ərəb Respublikasının informasiya naziri Xalid Favaz Zaarur və nazirin rəqəmsal media işləri üzrə müavini Məhəmməd Tafran ilə görüşüb.**




AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Suriya arasında ikitərəfli əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. Ölkələrimizin əlaqələrinin inkişafında iki ölkənin liderlərinin görüşlərinin və Suriya Prezidentinin Azərbaycana səfərinin mühüm rol oynadığı xüsusi vurğulanıb. Həmçinin ölkələrimizin informasiya və media sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Hikmət Hacıyev Suriyanın informasiya nazirinə Şuşa Qlobal Media Forumunda iştirak etdiyinə görə təşəkkürünü bildirib. O deyib ki, gələn il Azərbaycan İslam Əməkdaşlıq Təşkilatına sədrliyi öz üzərinə götürəcək və təşkilatın Zirvə görüşünə evsahibliyi edəcək. Prezidentin köməkçisi həmçinin bu çərçivədə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin informasiya nazirlərinin toplantısının da Azərbaycanda keçiriləcəyini bildirərək, suriyalı naziri həmin tədbirdə iştiraka dəvət edib. Söhbət zamanı, eyni zamanda Azərbaycanla Suriya arasında mədəni-humanitar və təhsil sahələrində əməkdaşlıq məsələlərinə toxunulub, ICESCO çərçivəsində Azərbaycanın Suriyada məktəblərin təmiri və bərpasına göstərdiyi dəstək layihəsi də yüksək qiymətləndirilib. Bunun ölkələrimiz arasında dostluğun nümunəsi olduğu bildirilib.

Görüşdə Azərbaycanın Suriyanın siyasi birliyinə, ərazi bütövlüyünə və suverenliyinə daim göstərdiyi dəstək yüksək qiymətləndirilib.

## Şuşa Qlobal Media Forumu çərçivəsində D-8 Media Mükəmməllik Mərkəzinin strategiyasının təqdimatı olub

**İyulun 13-də IV Şuşa Qlobal Media Forumu çərçivəsində D-8 Media Mükəmməllik Mərkəzinin strategiyasının təqdimatı olub.**



AZƏRTAC xəbər verir ki, təqdimatdan əvvəl çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycanın D-8 ailəsinin tamhüquqlu üzvü olduğunu bildirib.

"Bu platforma qlobal iqtisadi əməkdaşlıq baxımından böyük əhəmiyyət daşıyır və biz təşkilatın fəaliyyətinə xüsusi önəm veririk. Prezident İlham Əliyev D-8 çərçivəsində Media Mükəmməllik Mərkəzinin, eləcə də Nəqliyyat və Enerji Mükəmməllik Mərkəzlərinin Azərbaycanda yaradılması təşəbbüsünü müsbət qarşılayıb. Bu gün artıq həmin təşəbbüsün ilk nəticələrini görürük", - deyə Hikmət Hacıyev diqqətə çatdırıb.

Prezidentin köməkçisi vurğulayıb ki, D-8 Media Mükəmməllik Mərkəzi üzv ölkələr arasında media sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından mühüm platformadır.

D-8 Təşkilatının baş katibi Sohail Mahmud bu təşəbbüsün formalaşmasına verdikləri töhfələrə görə bütün D-8 üzv ölkələrinə təşəkkürünü bildirib. O, D-8-in 1997-ci ildə yaradıldığı dövrlə müqayisədə dünyanın əsaslı şəkildə dəyişdiyini deyib: "Təkqütblülük artıq keçmişdə qalıb. Biz çoxqütblülüyə doğru güclü meylin şahidi oluruq. Belə bir şəraitdə iqtisadi əməkdaşlıq təşkilatı kimi D-8-in missiyası yeni əhəmiyyət qazanıb. Eyni zamanda üzv dövlətlərin imkanları olduqca artıb".

"Media Mükəmməllik Şəbəkəsi"nin baş direktoru Fuad Mərdiyev D-8 Media Mükəmməllik Mərkəzinin strategiyası ilə bağlı ətraflı məlumat verib. O diqqətə çatdırıb ki, D-8 Media Mükəmməllik Mərkəzinin əsas məqsədi üzv ölkələr arasında media sahəsində əməkdaşlığı gücləndirmək, peşəkar potensialın inkişafını, tədqiqat və innovasiyaları təşviq etmək, həmçinin media sahəsində vahid əməkdaşlıq platforması formalaşdırmaqdır.

Təqdimat zamanı mərkəzin institusional inkişafı, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, üzv dövlətlər arasında koordinasiya mexanizmlərinin yaradılması, təcrübə mübadiləsi, media tədqiqatlarının aparılması və dezinformasiyaya qarşı mübarizə istiqamətində həyata keçirilməsi planlaşdırılan fəaliyyətlər barədə məlumatlar təqdim olunub.

Qeyd olunub ki, fəaliyyətin növbəti mərhələsində D-8 üzv dövlətlərinin media qurumlarını bir araya gətirən əməkdaşlıq şəbəkəsinin yaradılması, birgə layihələrin icrası, beynəlxalq təşkilatlarla tərəfdaşlığın genişləndirilməsi, habelə media sahəsində qabaqcıl təcrübələrin paylaşılması nəzərdə tutulur.

Tədbir siyasi şərhçi Ülviyyə Zülfiqarın moderatorluğu ilə keçirilib.

## Rəqəmsal platformalarda təhlükəsiz informasiya mühiti: Müasir çağırışlar və vacib həllər

**İyulun 13-də IV Şuşa Qlobal Media Forumu çərçivəsində "Rəqəmsal platformalarda təhlükəsiz informasiya mühiti: Müasir çağırışlar və vacib həllər" mövzusunda panel müzakirəsi keçirilib.**




AZƏRTAC xəbər verir ki, paneldə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, müxtəlif ölkələrdən media rəhbərləri, rəqəmsal platformalar üzrə ekspertlər, yerli və xarici media nümayəndələri iştirak ediblər.

Milli Kibertəhlükəsizlik Agentliyinin İdarə Heyətinin sədri Fərid Zeynalov bildirib ki, indiki dövrdə artıq informasiya təhlükəsizliyi yalnız texniki məsələ deyil, bu eyni zamanda dövlətlərin milli təhlükəsizlik komponenti, ictimai sabitliyin və inkişafın ayrılmaz hissəsinə çevrilib.

"Bu gün bütün dünyada olduğu kimi, Azərbaycanda da uşaqların sosial şəbəkələrdə təhlükələrdən qorunması üçün tədbirlər görülür. "Media haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi" və "Uşaqların zərərli informasiyadan qorunması" haqqında qanunlarda bir sıra dəyişiklik edilir. Proses artıq son mərhələdədir. Qanunvericiliyin məqsədi məhdudlaşdırma tədbirləri keçirmək deyil, uşaqlar üçün daha şəffaf və təhlükəsiz rəqəmsal mühit yaratmaqdır", - deyə F.Zeynalov diqqətə çatdırıb.

O bildirib ki, bu qanunvericiliyin dəyişiklik mərhələsində bir sıra mexanizmlər nəzərdə tutulub. Belə ki, 16 yaşına çatmamış uşaqların ümumiyyətlə rəqəmsal platformalarda hesab yaratmaları qadağan edilir. 16-18 yaşarası yeniyetmələrin qeydiyyatdan keçməsi ilə bağlı onların valideynlərinin razılığı tələb olunur.



Sosial media üzrə təlimçi və tədqiqatçı Karen Sazerlend bildirib ki, süni intellekt texnologiyalarının sürətli inkişafı informasiya mühitinə yeni imkanlarla yanaşı, ciddi risklər də gətirib. Onun sözlərinə görə, "deepfake" texnologiyalarının geniş yayılması informasiyanın doğruluğunun yoxlanılmasını daha da vacib edir. Bu baxımdan media savadlılığının gücləndirilməsi və etibarlı mənbələrdən istifadənin təşviqi müasir dövrün əsas çağırışlarından biridir.

"TikTok"un Şərqi Avropa üzrə ictimai siyasət və dövlət qurumları ilə əlaqələr direktoru Diana Ryan platformanın istifadəçilər üçün təhlükəsiz rəqəmsal mühitin yaradılmasını əsas prioritetlərdən biri hesab etdiyini bildirib. O qeyd edib ki, zərərli məzmunun aşkarlanması və silinməsi istiqamətində həm süni intellekt texnologiyalarından, həm də peşəkar moderatorlardan istifadə olunur. Diana Ryan Azərbaycanın aidiyyəti dövlət qurumları ilə əməkdaşlığın uğurla davam etdiyini də vurğulayıb.

"LinkedIn" şirkətinin ictimai sektor, səhiyyə sahəsi və qeyri-kommersiya satışı üzrə rəhbəri Şeymus Klensi isə bildirib ki, peşəkar sosial şəbəkələrdə etibarlı informasiya mühitinin qorunması şəffaflıq, məsuliyyət və istifadəçi etimadı üzərində qurulur. Onun sözlərinə görə, "LinkedIn" hökumətlər, təhsil müəssisələri və biznes strukturları arasında peşəkar əməkdaşlığın genişlənməsinə, etibarlı informasiya mübadiləsinə və insan kapitalının inkişafına töhfə verir.

"Platformada qaydaların pozulmasına qarşı operativ nəzarət mexanizmləri tətbiq olunur. Bu məqsədlə fəaliyyət göstərən xüsusi etibar və təhlükəsizlik komandamız zərərli məzmunu operativ şəkildə aşkarlayır, qiymətləndirir və platformadan kənarlaşdırır. Beləliklə, istifadəçilər üçün daha təhlükəsiz rəqəmsal mühitin formalaşdırılması təmin edilir", - deyə o vurğulayıb.

Panel müzakirəsində, həmçinin rəqəmsal platformalarda təhlükəsiz informasiya mühitinin formalaşdırılması, süni intellekt dövründə dezinformasiyaya qarşı mübarizə, uşaqların onlayn təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və rəqəmsal platformaların məsuliyyətinin artırılması istiqamətində fikir mübadiləsi aparılıb. İştirakçılar bu sahədə hüquqi mexanizmlərin təkmilləşdirilməsi ilə yanaşı, texnoloji yeniliklərin və media savadlılığının da mühüm rol oynadığını bildiriblər.

4TH SHUSHA GLOBAL MEDIA FORUM

# IV Şuşa Qlobal Media Forumu




## Şuşadan ünvanlanan mesajlar

### IV Qlobal Media Forumu Azərbaycanın beynəlxalq siyasi nüfuzunu və strateji gücünü nümayiş etdirir

**Azərbaycan növbəti dəfə qlobal əhəmiyyətli beynəlxalq tədbirə yüksək səviyyədə evsahibliyi edir. Ölkəmizin mədəniyyət paytaxtı, tarixi və strateji əhəmiyyəti ilə seçilən Şuşa şəhəri növbəti dəfə möhtəşəm forum iştirakçılarına qapılarını açıb.**

Artıq ənənə halını alan və dünya ictimaiyyətinin diqqətini Azərbaycana, Qarabağa yönəldən IV Şuşa Qlobal Media Forumu iyulun 13-də öz işinə başlayıb. Bu il "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunan forum miqyasına və iştirakçı sayına görə diqqət çəkir. Dünyanın 54 ölkəsindən 160-a yaxın media nümayəndəsini, 30-a yaxın beynəlxalq informasiya agentliyini, 60-dan çox aparıcı media qurumunu bir araya toplayan forum qlobal informasiya məkanında sülh quruculuğu, dezinformasiya ilə mübarizə və rəqəmsal təhlükəsizlik kimi aktual çağırışların müzakirə olunduğu önəmli platformadır.

Azərbaycan qlobal dialoqların mühüm təşkilatçılarından biri olduğunu çoxdan sübut edib. Prezident İlham Əliyevin uzaqgörən rəhbərliyi ilə yürüdülən strateji kurs ölkəmizi mühüm beynəlxalq toplantıların keçirildiyi etibarlı və nüfuzlu məkana çevirib. Bu kontekstdə, Şuşa Qlobal Media Forumu da respublikamızın beynəlxalq informasiya müstəvisində güclənən mövqeyinin və uğurlu diplomatiyasının növbəti bariz nümunəsidir. Bu forum, sadəcə, media platforması deyil, rəsmi Bakının beynəlxalq münasibətlər sistemində formalaşdırdığı yeni siyasi dialoq formatıdır.

2022-ci ildə ilk dəfə keçirilən və sonrakı illərdə Şuşa Qlobal Media Forumu formatında davam etdirilən bu beynəlxalq təşəbbüs qısa müddətdə qlobal medianın nəbzini tutmağı bacarıb. Forumun ildən-ilə daha geniş iştirakçı coğrafiyasını əhatə etməsi, dünyanın müxtəlif ölkələrindən media rəhbərlərini, ekspertləri və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirməsi onun beynəlxalq nüfuzunun davamlı şəkildə artdığını göstərir.

Belə platformaların aktuallığı həm də qlobal təhlükəsizlik amili ilə birbaşa bağlıdır. İndiki dövrdə informasiya təhlükəsizliyinin təmin olunması hər bir dövlətin milli təhlükəsizlik sisteminin əsas dayaqlarından biridir. Sürətlə yayılan dezinformasiya dalğaları, saxta xəbərlər, kibertəhdidlər müasir dünyada tamamilə yeni idarəetmə çağırışları yaradır. Şuşa Forumu məhz bu zərurətdən irəli gələrək qlobal miqyasda tamamilə yeni bir tərəfdaşlıq modeli təklif edir.

Bu mühüm dialoqun Şuşada təşkil edilməsinin həm rəmzi, həm də siyasi və mənəvi mənası var. Azərbaycan xalqının tarixində və dövlətçilik salnaməsində xüsusi yeri olan mədəniyyət paytaxtımızın bu miqyasda qlobal tədbirlərə evsahibliyi etməsi Qarabağın inkişafını nümayiş etdirməklə yanaşı, Şuşanı dünyanın mühüm siyasi, geosiyasi və humanitar dialoq mərkəzlərindən birinə çevirdiyini nümayiş etdirir.

Forumun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev ənənəvi olaraq xarici media təmsilçilərinin dünyada və regionda baş verən proseslərə, mövcud vəziyyətə və gələcəyə dair suallarını cavablandırıb. Dövlətimizin başçısı qlobal aləmdə cərəyan edən geosiyasi prosesləri dolğun təhlil edərək Azərbaycanın bu məsələlərə prinsipial mövqeyini növbəti dəfə dünyaya bəyan edib. Prezident İlham Əliyev çıxışında Cənubi Qafqazda dayanıqlı sülhün təmin olunması, regional əməkdaşlıq perspektivləri, nəqliyyat dəhlizlərinin inkişafı, enerji təhlükəsizliyi, beynəlxalq hüququn aliliyi, informasiya təhlükəsizliyi, dezinformasiyaya qarşı mübarizə, Azərbaycanın Avropa İttifaqı və ABŞ ilə münasibətləri kimi bir çox mühüm məsələyə toxunub.

Prezident İlham Əliyevin bir sıra məsələlərə dair suallara ətraflı aydınlıq gətirməsi informasiya manipulyasiyalarının qarşısının alınması və Azərbaycan həqiqətlərinin beynəlxalq auditoriyaya obyektiv şəkildə çatdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısının səsləndirdiyi fikirlər bir daha nümayiş etdirir ki, Azərbaycan regionda yaranmış yeni siyasi reallıqların müəllifi olmaqla yanaşı, onların gələcək inkişaf istiqamətlərini və təhlükəsizlik balansını müəyyənləşdirən əsas siyasi aktorlardan biridir.

Azərbaycan Prezidenti ölkəmizin xarici siyasət prioritetlərindən bəhs edərkən, ilk növbədə, regional dialoqun və qarşılıqlı etimad mühitinin yaradılmasının vacibliyini önə çəkib. Vurğulanıb ki, rəsmi Bakının yürütdüyü xarici siyasi kurs hər zaman həm qonşu dövlətləri, həm də Azərbaycanı narahat edən problemlərin qarşılıqlı dialoq müstəvisində və əməkdaşlıq çərçivəsində həllinə hesablanıb. Bu strateji yanaşma Azərbaycanın təkcə öz təhlükəsizliyini düşünmədiyini, eyni zamanda regional problemlərin həllində məsuliyyətli və konstruktiv tərəfdaş kimi çıxış etdiyini təsdiqləyir. Məhz Şuşada formalaşan dialoq mühiti rəsmi Bakının beynəlxalq münasibətlərdə dayanıqlı tərəfdaşlıq qurmaq əzminin növbəti əyani göstəricisidir.

Ölkəmiz regional sülh gündəliyini həm də konkret əməli addımlarla dəstəkləyir. Azərbaycanın Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırması sayəsində Rusiyadan, Qazaxıstandan və digər ölkələrdən Ermənistana 40 min tondan çox müxtəlif təyinatlı yükün Azərbaycan ərazisindən tamamilə maneəsiz və təhlükəsiz şəkildə daşınması təmin edilib. Bu addım regionun gələcək inteqrasiyası üçün atılmış böyük geosiyasi jestdir və ölkəmizin regionda iqtisadi əlaqələrin inkişafına verdiyi real töhfənin əyani göstəricisidir. Bu məqam da dövlətimizin başçısı tərəfindən Şuşa Forumunda önəmli mesaj kimi diqqətə çatdırılıb.

Digər tərəfdən, Prezident İlham Əliyev ölkəmizin Qərb və Şərq istiqamətindəki bütün qonşuları, eləcə də Mərkəzi Asiya, Gürcüstan, Türkiyə və Avropa ilə qurduğu yüksəksəviyyəli əlaqələrin geostrateji əhəmiyyətini önə çəkib. Qeyd olunub ki, nəqliyyat dəhlizlərinin tam səmərəli və faydalı fəaliyyət göstərməsi üçün respublikamız ardıcıl infrastruktur layihələri həyata keçirir. Xüsusilə regional nəqliyyat şəbəkəsinin mühüm qolu olan Orta dəhlizin inkişafı və bu marşrut boyunca yerləşən dövlətlərlə çoxtərəfli əməkdaşlıq əlaqələrinin qurulması Azərbaycanın qlobal logistika xəritəsində mərkəzi siyasi mövqeyini təmin edir. Hazırda Çindən və Mərkəzi Asiya ölkələrindən Azərbaycan vasitəsilə daşınan yüklərin həcmi sürətlə artır ki, bu da rəsmi Bakını dəniz limanının imkanlarını iki dəfə genişləndirməyə və öz geosiyasi çəkisini artırmağa sövq edir.

Prezident İlham Əliyev həmçinin Azərbaycanın enerji siyasəti və Avropanın enerji təhlükəsizliyində artan rolu ilə bağlı mühüm siyasi mesajlar verib. Ölkəmizin artıq 16 ölkəyə birbaşa boru kəmərləri ilə mavi yanacaq nəql etdiyi və bu göstərici ilə qlobal miqyasda lider mövqedə dayandığı vurğulanıb. Avropa İttifaqı ölkələrinə təbii qaz tədarükünün genişləndirilməsi istiqamətində aktiv danışıqların getdiyi diqqətə çatdırılıb. Bu gün Azərbaycanın qitənin enerji təhlükəsizliyində oynadığı həlledici rol ölkəmizə Avropa ilə münasibətlərdə güclü diplomatik və siyasi üstünlük qazandırır. Azərbaycanın beynəlxalq arenada tamamilə etibarlı, proqnozlaşdırıla bilən və məsuliyyətli tərəfdaş kimi qəbul edilməsi ölkəmizin son onillikdə qlobal geosiyasi statusunu fundamental şəkildə dəyişib.

Nəqliyyat-logistika sahəsində qazanılan uğurlar və enerji diplomatiyasındakı strateji nailiyyətlər Azərbaycanın beynəlxalq müstəvidəki geosiyasi çəkisini tamamilə yeni pilləyə qaldırıb. Ölkəmizin qlobal güc balansındakı yeni mövqeyinə toxunan Prezident İlham Əliyev suallara cavabında Azərbaycanı beynəlxalq münasibətlər sistemində öz milli maraqlarını qətiyyətlə müdafiə etmək bacarığına və böyük potensiala malik ortasəviyyəli güc kimi xarakterizə edib. Bu status Azərbaycanın regionda gedən siyasi proseslərdə müstəqil qərarverici qüvvə olduğunu göstərir. Bununla yanaşı, Qoşulmama Hərəkatına üzv olan 120 ölkənin Azərbaycana yekdil şəkildə səs verməsi də ölkəmizin qlobal səviyyədə qazandığı böyük siyasi etimadın ən yüksək təzahürü kimi qiymətləndirilib.

Nəticə etibarı ilə IV Şuşa Qlobal Media Forumu bir daha təsdiqlədi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yalnız regional deyil, həm də qlobal əhəmiyyət daşıyan məsələlərin müzakirəsində fəal iştirak edən, dialoqu təşviq edən və etibarlı tərəfdaş kimi qəbul olunan dövlətdir. Şuşa Forumu rəsmi Bakının regional sülhün və əməkdaşlığın şərtlərini diktə edən aparıcı qüvvə olduğunu beynəlxalq siyasi müstəvidə bir daha bəyan etdi.

Dövlətimizin başçısının forum çərçivəsində səsləndirdiyi fikirlər Azərbaycanın sülhə, əməkdaşlığa və qarşılıqlı etimada əsaslanan siyasətinin ardıcıl şəkildə davam etdirildiyini göstərdi. Şuşadan dünyaya ünvanlanan mühüm siyasi mesajlar ölkəmizin beynəlxalq nüfuzunun daha da möhkəmlənməsinə, Azərbaycan həqiqətlərinin qlobal informasiya məkanına çatdırılmasına, eyni zamanda beynəlxalq ictimaiyyətlə etimad münasibətlərinin dərinləşməsinə mühüm töhfə verir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## Prezident İlham Əliyevin IV Qlobal Media Forumunda çıxışı dünya mətbuatının diqqət mərkəzindədir




**Azərbaycan Prezidenti İlham Əliyevin Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunda çıxışı, jurnalistlərin suallarına cavabları dünya mətbuatının diqqət mərkəzindədir.**

AZƏRTAC xəbər verir ki, Türkiyənin **"Anadolu" Agentliyi** Şuşa Forumuna dair yaydığı xəbərdə Prezident İlham Əliyevin Türkiyə-Azərbaycan münasibətləri ilə bağlı mühüm fikirlərinə geniş yer ayırıb. Agentlik dövlətimizin başçısının Türkiyə və Azərbaycanın dünyada bir-birinə ən yaxın iki ölkə olduğuna dair fikirlərini qeyd edib. Bildirilib ki, Prezident İlham Əliyev Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin regional sabitlik və əməkdaşlıq baxımından da mühüm element olduğunu söyləyib. Agentlik dövlətimizin başçısının bu sözlərini sitat gətirir: "Bu, həm də təhlükəsizlik baxımından vacib amildir. Çünki burada, beş il əvvəl Şuşada Türkiyə Prezidenti ilə birlikdə Şuşa Bəyannaməsini imzaladıq. Bu sənəd münasibətlərimizi faktiki olaraq müttəfiqlik səviyyəsinə qaldırdı. Buna görə də biz yalnız qardaş və dost deyilik, həm də müttəfiqik. Birimizin başına bədbəxt bir şey gələrsə, digərimiz onu müdafiə etmək üçün hərbi potensialı da daxil olmaqla, əlindəki bütün vasitələrlə qardaşının yanında olacaq".

"Anadolu" Agentliyi ilə yanaşı, Türkiyənin **"TRT Avaz", "Milliyet", "Saray Medya", "Haber365", "Akşam", "Hürriyet", "Haber1", "Yeni Akit", "İhlas Haber Ajansı", "Manşet Haber", "Birlik"** və **"Haber Global"** kimi digər aparıcı xəbər saytları və media platformaları da Şuşa Qlobal Media Forumunu və Prezident İlham Əliyevin çıxışını diqqət mərkəzində saxlayaraq geniş materiallar yayımlayıblar.

Rusiyanın **TASS** İnformasiya Agentliyinin dərc etdiyi xəbərdə Prezident İlham Əliyevin Azərbaycan ilə Rusiya arasındakı münasibətlərin çətin dövrünün geridə qaldığını və əlaqələrin tamamilə normallaşdığını bildirdiyi vurğulanıb. Agentlik həmçinin Azərbaycan liderinin iki ölkə arasındakı münasibətlərin həm ikitərəfli formatda, həm də regional kontekstdə daha geniş coğrafiya üçün mühüm əhəmiyyət daşıdığına dair fikirlərini önə çıxarıb.

Rusiyanın **"İzvestiya", "Kommersant", "Rossiyskaya qazeta", "Vedomosti", "Arqumentı i faktı", "Vzqlyad", "Moskovskiy komsomolets", eyni zamanda, "RİA Novosti", "İnterfaks", RBC, "Lenta.ru", "Parlamentskaya Gazeta", "Novıye İzvestiya", "Mejdunarodnaya Jizn", "Veçernyaya Moskva"** və **"Vesti"** kimi aparıcı media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa IV Qlobal Media Forumundakı bəyanatlarını geniş işıqlandırıb. Bu mövzu rusdilli mətbuatda günün əsas beynəlxalq xəbərlərindən birinə çevrilib. Nəşrlər dövlətimizin başçısının çıxışından xüsusilə regional təhlükəsizlik, Bakı-Moskva əlaqələri və beynəlxalq təşkilatlarla münasibətlərə dair bəyanatlarını önə çıxarıblar. Xəbərlərdə Bakı və Moskva arasında əlaqələrin tam normallaşması, "3+3" regional platformasının Cənubi Qafqaz üçün əhəmiyyəti, həmçinin Azərbaycana qarşı qərəzli yanaşmalar davam edəcəyi təqdirdə ölkənin Avropa Şurasından tamamilə çıxa biləcəyi barədə xəbərdarlığı yer alıb.

Ukraynanın dövlət informasiya agentliyi olan **"Ukrinform"da, "Gordon", "Tsenzor", "Korrespondent", "24tv.ua", "Apastrof"** və digər xəbər portallarında da dövlətimizin başçısının jurnalistlərin suallarını cavablandırarkən söylədiyi fikirlərə dair xəbərlər dərc edilib. Həmin xəbərlərdə Prezident İlham Əliyevə istinadla qeyd olunur ki, Rusiya və Ukrayna arasında müharibə zamanı Avropa İttifaqına Azərbaycan təbii qazının tədarükü 65 faiz artıb və Azərbaycan hasilatı daha da artırmağa hazırdır. Hazırda mövcud nəqliyyat infrastrukturunun genişləndirilməsi zəruridir. Hasilatın əhəmiyyətli dərəcədə artırılması əhəmiyyətli investisiya tələb edir. Azərbaycan da enerji ixracatını şaxələndirmək üçün çalışır və artıq Suriyaya qaz tədarükünə başlayıb və Suriya vasitəsilə Yaxın Şərq bazarlarına çıxış imkanlarını nəzərdən keçirir.

Ukrayna mediasında Prezident İlham Əliyevin Rusiya-Ukrayna müharibəsinə dair fikirlərinə dair xəbərlər də dərc edilib.

İranın **İSNA, "Fararu", "Mardom Salari", "Akharin Khabar"** və **"Vista"** kimi tanınmış media qurumları da Azərbaycan Prezidenti İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışını və regional məsələlərlə bağlı bəyanatlarını geniş işıqlandırıb.

Gürcüstanın **"İnterpressnews", "Ambebi", "Newshub Georgia", "1tv.ge", "imedinews.ge", "news.ge", "resonance-daily.com", "for.ge", "mcm.ge", "aktual.ge","interpress.ge", "qafqazturk.com", "24news.ge"** kimi mətbuat orqanlarında dərc olunan materiallarda Prezident İlham Əliyevin Azərbaycanın Avropa Şurası və Avropa İttifaqı ilə münasibətləri barədə fikirlərinə yer ayrılıb. Qeyd edilib ki, Prezident İlham Əliyev Azərbaycanın qarşıdurma axtarmadığını və normal münasibətlərə üstünlük verdiyini bildirib.

Eyni zamanda İordaniyanın **"Ammon News Agency", "Hala News"** və **"Jordan Zad"** mətbuat orqanları Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa Media Forumundakı çıxışından mühüm məqamları işıqlandırıb. Həmin media qurumları dövlətimizin başçısının Azərbaycanın əməkdaşlığı gücləndirməyə və qarşılıqlı maraq doğuran məsələləri həll etməyə yönəlmiş xarici siyasət xəttini xüsusi qeyd ediblər. Xəbərlərdə həmçinin Prezidentin Şuşa Forumunun yaratdığı müsbət beynəlxalq atmosferin möhkəmləndirilməsi, eləcə də ölkənin son dövrlərdə əhəmiyyəti kəskin artan coğrafi mövqeyinə uyğun olaraq regional əlaqələndirici infrastrukturun genişləndirilməsi barədə bəyanatlarına geniş yer ayrılıb.

Prezident İlham Əliyevin IV Qlobal Media Forumundakı çıxışından əsas məqamlar, həmçinin Qazaxıstanın **"Ulysmedia", "Kursiv Media Kazakhstan", "İnterfaks Qazaxıstan", "Lada.kz"** kimi xəbər agentliklərinin və saytlarının diqqət mərkəzində olub.

**"Dispatch News Desk"** xəbər agentliyində Prezident İlham Əliyevin Pakistanın Yaxın Şərqdə gərginliyin azaldılması və sülhün təmin olunmasında vasitəçilik rolunu yüksək qiymətləndirməsi, regionda təhlükəsizlik, milli maraqların qorunması və IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi mesajlar işıqlandırılıb.

**"Day.kg"** xəbər portalında IV Şuşa Qlobal Media Forumunun açılışı, Şuşada aparılan bərpa-quruculuq işləri, forum çərçivəsində dezinformasiyaya qarşı mübarizə, media savadlılığı və süni intellekt mövzularında keçirilən müzakirələr, həmçinin Prezident İlham Əliyevin çıxışından əsas məqamlar oxucuların diqqətinə çatdırılıb.

**"Nabd", "Al Saudi News", "Al Qubbah News", "Rum Online", "Ammaniyat"** və **"Al Mamlaka TV"** media orqanlarında Prezident İlham Əliyevin İordaniya Kralı II Abdullahın Yaxın Şərqdə sülh təşəbbüslərinə verdiyi dəstəyi yüksək qiymətləndirməsi, Azərbaycan-İordaniya münasibətlərinin inkişafı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq, eləcə də regional təhlükəsizlik və Şuşa Qlobal Media Forumunda səsləndirdiyi mesajlar geniş əksini tapıb.

Rumıniyanın **"Mediafax"** xəbər agentliyi və **"İnformat.ro"** xəbər portalı dövlətimizin başçısının Azərbaycanın Avropa Şurası ilə münasibətləri, regional proseslər və ölkənin xarici siyasət prioritetləri ilə bağlı fikirlərinə xüsusi diqqət ayırıb. Xəbərlərdə vurğulanıb ki, Prezident İlham Əliyev çıxışında Azərbaycanın Avropa Şurası ilə gələcək əməkdaşlıq perspektivlərinə toxunaraq, təşkilatın ölkəyə münasibətilə bağlı yaranmış vəziyyətin Bakıda ciddi narahatlıq doğurduğunu bildirib. Dövlətimizin başçısına istinadla qeyd edilib ki, mövcud şəraitdə Azərbaycan Avropa Şurasında gələcək iştirakını müxtəlif aspektlərdən nəzərdən keçirir.

Misirin **"Dar Al-Hilal"** nəşrində Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunun qlobal medianın üzləşdiyi çağırışları əks etdirdiyini vurğulaması, medianın sülhün təşviqi, dezinformasiya ilə mübarizə və süni intellekt dövründə rolu ilə bağlı fikirləri, Azərbaycanın beynəlxalq əlaqələri, enerji siyasəti, "yaşıl keçid", eləcə də Yaxın Şərqdə davamlı sülhə çağırışları geniş auditoriyaya təqdim olunub.

Çilinin **"Radio Insular FM"** və Kubanın **"Prensa Latina"** media orqanlarında Prezident İlham Əliyevin Azərbaycan-Rusiya münasibətlərinin normallaşması və əməkdaşlığın inkişafı, Azərbaycan-ABŞ əlaqələri, Azərbaycanın Avropa Şurasından çıxma ehtimalı, AŞPA-nın Azərbaycana münasibəti və Avropa təsisatları ilə əlaqələrin normallaşdırılması ilə bağlı fikirləri ön plana çıxarılıb.

Belarusun **"BelTA"** Dövlət İnformasiya Agentliyində Prezident İlham Əliyevin Azərbaycanın Avropa Şurasından tamamilə çıxması ehtimalı və Avropa təsisatlarının Azərbaycana münasibətilə bağlı bəyanatlarına yer verilib.

Latviyanın **"Inbox News" və "Delfi Latvia", Serbiyanın "Tanjug", "Politika", "B92", "Beta", "N1 Serbia", RTV, "Srpski Kompas"** və **"Nova Srpska Politieka Misao"**, eləcə də Bolqarıstanın **"Eurocom TV"** media orqanlarında Prezident İlham Əliyevin AŞPA-da Azərbaycanın səsvermə hüququnun bərpası ilə bağlı mövqeyi, Avropa qurumları ilə münasibətlər, Avropa İttifaqına qaz ixracının artırılması, Azərbaycan-Çin əməkdaşlığı, BMT Təhlükəsizlik Şurasında islahatlarla bağlı təklifləri və Yaxın Şərqdə sülhə dair çağırışları geniş şəkildə işıqlandırılıb.

Vyetnamın **"Vietnam.vn"** və **"Bao Quoc Te"** media orqanlarında Prezident İlham Əliyevin Azərbaycan-Rusiya münasibətlərinin tam normallaşması, Avropa Şurası və AŞPA ilə fikir ayrılıqları, eləcə də Avropa qurumları ilə münasibətlərin normallaşdırılması üçün Bakının irəli sürdüyü şərtlərlə bağlı bəyanatları oxuculara təqdim olunub.

Transmilli və qlobal media qurumlarından **"Yahoo News", "Euronews"** platformasında isə Prezident İlham Əliyevin Avropa qurumları ilə münasibətlər, Yaxın Şərqdəki vəziyyətə dair fikirləri, eləcə də Şuşa Qlobal Media Forumunda sülhün təşviqində medianın rolu, dezinformasiyaya qarşı mübarizə və süni intellekt mövzularında səsləndirdiyi mesajlar geniş auditoriyaya çatdırılıb.




# Etibarlı tərəfdaş, məsuliyyətli dövlət və mühüm geosiyasi aktor

## Prezident İlham Əliyevin xarici siyasəti sayəsində Azərbaycan bu gün beynəlxalq münasibətlər sistemində məhz belə tanınır

**Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin nüfuzu onların iqtisadi və hərbi potensialı qədər həm də həyata keçirdikləri xarici siyasətin səmərəliliyi, etibarlı tərəfdaş kimi qazandıqları inam və qlobal proseslərə verdikləri töhfələrlə müəyyən edilir. Bu baxımdan Azərbaycan son illərdə beynəlxalq əməkdaşlıq sahəsində həyata keçirdiyi ardıcıl və praqmatik siyasət nəticəsində Cənubi Qafqazın aparıcı dövləti olmaqla yanaşı, Avropa ilə Asiyanı birləşdirən mühüm geosiyasi, geoiqtisadi və enerji mərkəzinə çevrilmişdir.**

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin əsas prinsiplərini milli maraqların qorunması, qarşılıqlı hörmət, bərabərhüquqlu əməkdaşlıq, daxili işlərə qarışmamaq və çoxtərəfli tərəfdaşlığın inkişafı təşkil edir. Məhz bu siyasət sayəsində Azərbaycan müxtəlif siyasi bloklar arasında etibarlı dialoq platforması formalaşdırmış, həm Şərq, həm Qərb, həm də Şimal və Cənub istiqamətlərində balanslaşdırılmış münasibətlər qurmağa nail olmuşdur.

Məlumdur ki, Azərbaycanın beynəlxalq əməkdaşlıq modeli təkcə ikitərəfli əlaqələrin inkişafına deyil, həm də regional sabitliyin möhkəmləndirilməsinə, enerji təhlükəsizliyinin təmin edilməsinə, nəqliyyat-kommunikasiya layihələrinin genişləndirilməsinə, "yaşıl enerji" keçidinə və rəqəmsal bağlantının gücləndirilməsinə xidmət edir. Son illər baş verən qlobal geosiyasi dəyişikliklər ölkəmizin strateji əhəmiyyətini daha da artırmışdır. Xüsusilə Avropada enerji təhlükəsizliyi məsələlərinin aktuallaşması fonunda dövlətimiz özünü etibarlı qaz təchizatçısı kimi təsdiqləmişdir. "Cənub qaz dəhlizi" artıq enerji layihəsi hüdudlarından çıxaraq Avropa ilə Azərbaycan arasında strateji tərəfdaşlığın əsas sütunlarından birinə çevrilmişdir. Eyni zamanda Bakı-Tbilisi-Qars dəmir yolu, Orta dəhliz, Xəzər dənizi üzərindən yükdaşımaların genişləndirilməsi, rəqəmsal kabel layihələri və "yaşıl enerji" ixracı istiqamətində həyata keçirilən təşəbbüslər Azərbaycanın beynəlxalq əməkdaşlıq siyasətinin iqtisadi əsaslarını daha da möhkəmləndirmişdir.

Azərbaycan bu gün BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq qurumların işində fəal iştirak etməklə qlobal problemlərin həllinə öz layiqli töhfələrini verir.

### Avropa İttifaqı ilə tərəfdaşlıq gündəliyində yeni səhifə

Ölkəmizin xarici siyasətində mühüm tərəfdaş kimi Avropa İttifaqı ilə münasibətlər də xüsusi yer tutur. Tərəflər arasında enerji, nəqliyyat, ticarət, rəqəmsal inkişaf, "yaşıl enerji", təhlükəsizlik və regional əməkdaşlıq sahələrində uzunmüddətli münasibətlər formalaşıb. Rusiya-Ukrayna müharibəsindən sonra Avropanın enerji təhlükəsizliyi məsələsi yeni məzmun qazandıqca ölkəmizin strateji əhəmiyyəti daha da artmışdır. Avropa İttifaqı Azərbaycanı etibarlı enerji tərəfdaşı olaraq yüksək qiymətləndirir və bu əməkdaşlığın yalnız təbii qazla məhdudlaşmadığını, bərpaolunan enerji, elektrik ötürülməsi, hidrogen, rəqəmsal bağlantı və logistika sahələrini də əhatə etdiyini bildirir. Bu münasibətlər qarşılıqlı maraqlar əsasında inkişaf yolundadır. Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verir, Avropa İttifaqı isə regionda iqtisadi əməkdaşlığın və bağlantının genişləndirilməsində maraqlı tərəf kimi çıxış edir.

Bu ilin iyulunda Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfəri Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişafında mühüm hadisələrdən biri oldu. Səfər zamanı Prezident İlham Əliyevlə keçirilən görüşlərdə enerji təhlükəsizliyi, regional sülh, nəqliyyat dəhlizləri, rəqəmsal bağlantı, "yaşıl enerji" layihələri və s. məsələlər əsas müzakirə mövzuları oldu.

Xanım Ursula fon der Lyayen çıxışında Azərbaycanın Avropa üçün etibarlı tərəfdaş olduğunu bir daha vurğulayaraq enerji əməkdaşlığının uğurla inkişaf etdiyini bildirdi. O, həmçinin Cənubi Qafqazda dayanıqlı sülhün formalaşmasının bütün region üçün yeni iqtisadi imkanlar yaradacağını qeyd etdi.

Səfər çərçivəsində Avropa İttifaqı regionda nəqliyyat, enerji və rəqəmsal infrastrukturun inkişafına dəstək məqsədilə "Sülh naminə Bağlantı Paketi" çərçivəsində 200 milyon avroya qədər qrant ayıracağını açıqladı. Bu təşəbbüsün məqsədi region ölkələri arasında iqtisadi əlaqələrin genişləndirilməsi və sülh prosesinin praktiki nəticələrlə möhkəmləndirilməsidir. Bu səfər bir daha göstərdi ki, Azərbaycan artıq yalnız enerji ixracatçısı deyil, həm də Avropa ilə Asiya arasında strateji bağlantını təmin edən mühüm geosiyasi tərəfdaş kimi qəbul olunur.

Azərbaycanın beynəlxalq əməkdaşlıq siyasətində Avropa dövlətləri ilə ikitərəfli münasibətlər xüsusi yer tutur. Həmin əməkdaşlıq enerji sektoru ilə bərabər, ticarət, investisiya, nəqliyyat, rəqəmsal texnologiyalar, müdafiə sənayesi, kənd təsərrüfatı, elm, təhsil və mədəniyyət kimi çoxsaylı sahələri əhatə edir. Bu, bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin əsas xüsusiyyətlərindən biri  məhz müxtəlif dövlətlərlə milli maraqlara əsaslanan praqmatik tərəfdaşlıq münasibətlərinin qurulmasıdır.

Ölkəmizin bu münasibətlər fonunda İrlandiya ilə əməkdaşlığı xüsusi yer tutur. Son illər iki ölkə arasında siyasi dialoq daha da intensivləşmiş, iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycan və İrlandiya beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edir, qarşılıqlı səfərlər və siyasi məsləhətləşmələr həyata keçirilir. Ticarət əlaqələrinin genişləndirilməsi, informasiya texnologiyaları, təhsil, kənd təsərrüfatı, əczaçılıq və xidmət sektorunda əməkdaşlıq üçün geniş potensial mövcuddur.

İrlandiya şirkətlərinin Azərbaycanın qeyri-neft sektoruna marağı artır. Eyni zamanda respublikamızın Avropaya ixrac imkanlarının genişlənməsi iki ölkə arasında iqtisadi münasibətlərin inkişafına yeni stimul verir. Təhsil sahəsində əməkdaşlıq, akademik mübadilə proqramları və elmi əlaqələrin inkişafı da münasibətlərin mühüm istiqamətlərindən hesab olunur.

Azərbaycanın Avropadakı ən mühüm tərəfdaşlarından biri də İtaliyadır. Uzun illərdir ki, İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycan qazının Avropaya çatdırılmasında Trans-Adriatik Boru Kəmərinin (TAP) xüsusi rolu iki ölkə arasında strateji əməkdaşlığın əsas sütunlarından sayılır. Bununla yanaşı, maşınqayırma, tikinti, sənaye, kənd təsərrüfatı, yüksək texnologiyalar, kosmik sənaye və təhsil sahələrində də əməkdaşlıq ildən-ilə genişlənir. İtaliya şirkətləri Azərbaycanın azad edilmiş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma layihələrində də fəal iştirak edirlər.

Macarıstan da Azərbaycanla münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmiş ilk Avropa dövlətlərindəndir. Rəsmi Budapeşt ölkəmizin enerji siyasətini ardıcıl olaraq dəstəkləyir və Avropanın enerji təhlükəsizliyində rolumuzu yüksək qiymətləndirir. İki ölkə arasında enerji, nəqliyyat, kənd təsərrüfatı, su təsərrüfatı, əczaçılıq və təhsil sahələrində də geniş əməkdaşlıq mövcuddur. Macarıstanın "yaşıl enerji" layihələrində iştirakı və dövlətimizlə birgə həyata keçirilən investisiya təşəbbüsləri tərəfdaşlığın yeni istiqamətlərini formalaşdırır.

Azərbaycanın Rumıniya və Bolqarıstanla münasibətlərinin əsas istiqamətlərindən biri enerji təhlükəsizliyi və elektrik enerjisinin ixracıdır. Xəzər dənizində istehsal olunan "yaşıl enerji"nin Qara dənizin dibi ilə çəkilməsi planlaşdırılan elektrik kabeli vasitəsilə Avropaya nəqli Azərbaycanın beynəlxalq əməkdaşlıq siyasətində yeni strateji mərhələ hesab olunur. Bu layihə enerji təhlükəsizliyi ilə yanaşı, həm də Avropa İttifaqının "yaşıl keçid" strategiyasına mühüm töhfə verir.

Azərbaycan həmçinin Almaniya ilə sənaye, innovasiya, peşə təhsili, "yaşıl texnologiyalar" və iqtisadi əməkdaşlığı inkişaf etdirir. Alman şirkətlərinin Azərbaycanda həyata keçirdiyi layihələr qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verir.

Böyük Britaniya isə ölkəmizin enerji sektorunun ən iri investorlarından biri olaraq qalır. Bununla yanaşı, sözügedən dövlətlə maliyyə, rəqəmsal iqtisadiyyat, təhsil və hüquq sahələrində əməkdaşlıq da inkişaf etməkdədir.

Fransa ilə münasibətlər müəyyən dövrlərdə siyasi fikir ayrılıqları ilə müşayiət olunsa da, Azərbaycan beynəlxalq hüququn prinsiplərinə əsaslanan dialoqun davam etdirilməsinin tərəfdarı olduğunu dəfələrlə bəyan etmişdir. Rəsmi Bakı hesab edir ki, qarşılıqlı hörmət və bərabərlik prinsipləri istənilən əməkdaşlığın əsasını təşkil etməlidir.

### Türk və islam dünyasında Azərbaycan

Azərbaycanın beynəlxalq əməkdaşlıq siyasətində Türk Dövlətləri Təşkilatı xüsusi yer tutur. Prezident İlham Əliyevin təşəbbüsləri nəticəsində təşkilat son illərdə siyasi dialoq platformasından iqtisadi və strateji əməkdaşlıq məkanına çevrilməkdədir. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və digər türk dövlətləri arasında nəqliyyat, logistika, rəqəmsal transformasiya, müdafiə sənayesi, təhsil və humanitar əlaqələr sürətlə inkişaf edir. Vətən müharibəsindəki tarixi zəfərimiz sayəsində ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra türk dünyasının iqtisadi inteqrasiyasında Azərbaycanın rolu daha da artmışdır. Zəngəzur dəhlizi (TRIPP) perspektivi, Orta dəhlizin inkişafı və Xəzər üzərindən daşımaların genişləndirilməsi türk dövlətləri arasında iqtisadi əməkdaşlığı yeni mərhələyə yüksəldir.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də aktiv fəaliyyət göstərir. İslam həmrəyliyinin möhkəmləndirilməsi, mədəniyyətlərarası dialoqun təşviqi, islamofobiya ilə mübarizə və humanitar əməkdaşlıq ölkəmizin xarici siyasətinin mühüm istiqamətlərinə çevrilmişdir. Rəsmi Bakı dəfələrlə islam həmrəyliyinə həsr olunan beynəlxalq tədbirlərə evsahibliyi etmiş, müxtəlif platformalarda müsəlman ölkələri arasında əməkdaşlığın gücləndirilməsinə mühüm töhfələr vermişdir.

Qlobal ticarət marşrutlarının dəyişdiyi bir dövrdə Azərbaycanın yerləşdiyi geostrateji mövqe onun beynəlxalq əməkdaşlıq siyasətinə yeni imkanlar qazandırmaqdadır. Bu baxımdan Orta dəhliz son dərəcə mühüm əhəmiyyət daşıyır. Dəhliz Çin, Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanan ən perspektivli nəqliyyat marşrutlarındandır. Azərbaycan son illərdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsi, dəmir yolu infrastrukturunun modernləşdirilməsi, gömrük prosedurlarının rəqəmsallaşdırılması və logistika imkanlarının artırılması istiqamətində mühüm investisiyalar həyata keçirməkdədir. Bu layihələr sayəsində ölkəmiz tranzit məkanı olmaqla yanaşı, həm də regional logistika mərkəzi kimi çıxış edir.

### "Yaşıl enerji" diplomatiyası

Azərbaycanın beynəlxalq əməkdaşlıq siyasətində son illərin ən mühüm istiqamətlərindən biri "yaşıl enerji" diplomatiyasıdır. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan olunması, Xəzər dənizinin külək enerjisi potensialından istifadə, günəş və külək-elektrik stansiyalarının tikintisi ölkəmizi regionun "yaşıl enerji" mərkəzinə çevirməkdədir.

Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Böyük Britaniya, İtaliya və digər dövlətlərin aparıcı enerji şirkətləri ilə həyata keçirilən layihələr Azərbaycanın enerji siyasətini yeni mərhələyə yüksəldir. "Yaşıl enerji"nin Avropaya ixracı, hidrogen istehsalı perspektivləri və Qara dəniz kabeli layihəsi Azərbaycanın beynəlxalq əməkdaşlığının gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən əsas amillərdəndir.

Bu gün ölkəmiz beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş, məsuliyyətli dövlət və mühüm geosiyasi aktor kimi tanınır. Prezident İlham Əliyevin həyata keçirdiyi milli maraqlara əsaslanan praqmatik və balanslaşdırılmış xarici siyasət nəticəsində ölkəmiz həm regionda sabitliyin təmin olunmasına, həm də qlobal əməkdaşlığın inkişafına mühüm töhfələr verir.

Müasir dövrdə Azərbaycanın xarici siyasəti yalnız mövcud tərəfdaşlıqların qorunmasına deyil, həm də yeni əməkdaşlıq formatlarının yaradılmasına, regional və qlobal təhlükəsizliyin möhkəmləndirilməsinə, iqtisadi inkişafın sürətləndirilməsinə və davamlı sülhün təmin olunmasına xidmət göstərir. Məhz bu strateji kurs ölkəmizin gələcək inkişafının, beynəlxalq nüfuzunun və qlobal siyasətdə rolunun daha da artmasını təmin edən əsas amillərdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Milli və beynəlxalq jurnalistika doktrinasının inkişafında keyfiyyətcə yeni mərhələ

**Müasir beynəlxalq münasibətlər sistemində qlobal informasiya mühitinin sürətli modernləşməsi, rəqəmsallaşma meyillərinin intensivləşməsi və qabaqcıl texnologiyaların media subyektlərinin fəaliyyətinə fundamental nüfuzu fonunda dinamik, lakin eyni dərəcədə hibrid təhdidlərlə xarakterizə olunan yeni bir media konsepti formalaşmaqdadır.**



Bu konsept öz növbəsində informasiya təhlükəsizliyi məsələlərini birbaşa suverenliyin və milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsinə çevirir. Belə bir mürəkkəb geosiyasi və geoiqtisadi şəraitdə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda 4-cü Şuşa Qlobal Media Forumunun keçirilməsi təkcə regional deyil, həm də qlobal miqyasda beynəlxalq hüququn aliliyinin, informasiya təhlükəsizliyinin təmin olunması və etimad mühitinin reabilitasiyası istiqamətində fundamental doktrinal platforma rolunu oynayır. Dünyanın 54 ölkəsindən 160-a yaxın mötəbər media nümayəndəsinin, ekspertin, rəsmi şəxsin, eləcə də 30-a yaxın beynəlxalq informasiya agentliyinin və 60-dan çox aparıcı media qurumunun bu dialoqa cəlb edilməsi Azərbaycanın qlobal informasiya memarlığının formalaşdırılmasında və yeni tendensiyaların müəyyənləşdirilməsində güclənən mütləq mövqeyinin, artan hüquqi-siyasi nüfuzunun bariz göstəricisidir.

**Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, Şuşa Qlobal Media Forumunun mütəmadi olaraq beynəlxalq gündəliyin ən aktual çağırışlarına həsr edilməsi və qlobal intellektual elitanın cəmləşdiyi strateji mərkəzə çevrilməsi Prezident İlham Əliyevin uzaqgörən xarici siyasət kursunun, postmünaqişə dövrünün reallıqlarını və beynəlxalq hüququn fundamental prinsiplərini dünya ictimaiyyətinə çatdırmaq istiqamətindəki qətiyyətli və ardıcıl fəaliyyətinin məntiqi nəticəsidir: "Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən hüquqi və siyasi strategiya Azərbaycanı beynəlxalq arenada, sadəcə, enerji tərəfdaşı və ya hərbi-siyasi güc kimi deyil, həm də qlobal humanitar və informasiya diplomatiyasının əsas aktorlarından, qayda müəyyənedici subyektlərindən biri kimi mövqeləndirib. Ölkəmizin qlobal informasiya siyasətindəki bu mütləq mövqeyi uzun illər məruz qaldığımız transmilli dezinformasiya hücumlarına qarşı dövlət başçısının rəhbərliyi ilə nümayiş etdirilən strateji dayanıqlılığa, milli informasiya məkanının qorunması prinsiplərinə və beynəlxalq hüququn ümumi tanınmış normalarına əsaslanır. Aydındır ki, istənilən dövlətin qazanılmış strateji nailiyyətlərinin fundamental əsaslarını araşdırarkən dövlətin informasiya təhlükəsizliyi və xarici siyasət strategiyasının rəhbər tutduğu doktrinal preventivlik prinsipləri xüsusi elmi-praktik əhəmiyyət kəsb edir. Bu baxımdan Prezident İlham Əliyevin qlobal media müstəvisində formalaşdırdığı institusional və konseptual təcrübə müasir beynəlxalq hüquq və geosiyasi münasibətlər sistemində milli maraqların müdafiəsinin ən mükəmməl presedentlərindən birini yaradıb. Uzun illər ərzində beynəlxalq informasiya məkanında formalaşdırılmış asimmetrik təbliğat təhdidlərinə və destruktiv media manipulyasiyalarına qarşı ölkəmizin qazandığı bu fundamental təcrübə dövlətin informasiya siyasətinin konseptual olaraq reaktiv modeldən proaktiv modelə keçidini təmin edib, milli təhlükəsizliyin informasiya komponentini keyfiyyətcə yeni inkişaf mərhələsinə çatdırıb".

Deputat qeyd edib ki, bu konseptual transformasiyanın praktiki təzahürü olaraq Vətən müharibəsinin davam etdiyi 44 günlük qısa zaman kəsiyində dövlətimizin başçısı tərəfindən xarici media korporasiyalarına və transmilli xəbər agentliklərinə verilmiş ümumilikdə 32 yüksəksəviyyəli müsahibə ölkəmizin informasiya cəbhəsindəki strateji hücum taktikasının nüvəsini təşkil edib. Sözügedən müsahibələr, sadəcə, ictimai məlumatlandırma funksiyası daşımır, beynəlxalq hüququn fundamental prinsiplərinin, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı doktrinalarının qlobal auditoriyaya birbaşa imperativ təqdimatı xarakterini daşıyırdı. CNN International, BBC, "France 24" və "Sky News" kimi subyektiv siyasi təsir alətlərinə çevrilmiş transmilli media subyektlərinin qərəzli, birtərəfli və beynəlxalq hüquq normalarını təhrif etməyə yönəlmiş sualları Prezident İlham Əliyevin hüquqi-məntiqi arqumentasiyası və təkzibedilməz tarixi-hüquqi faktları qarşısında legitimliyini tamamilə itirdi. "Dövlət başçısı elə həmin media resurslarının özünü diplomatik ustalıqla ölkəmiz üçün uğurlu platformaya çevirərək, BMT Təhlükəsizlik Şurasının müvafiq icra olunmamış qətnamələrini və beynəlxalq humanitar hüquq normalarını hüquqi müstəvidə şərh etdi. Bununla da qabaqcadan proqramlaşdırılmış təhrikedici media manipulyasiyalarını dekonstruksiyaya uğradaraq vəziyyəti köklü şəkildə lehimizə dəyişməyi bacardı. Azərbaycanın dövlət idarəçilik sistemində xarici siyasət və milli təhlükəsizlik prioritetlərinin reallaşdırılması üçün fundamental strateji irs rolunu oynayan bu informasiya-diplomatik mübarizə metodologiyası, postmünaqişə dövründə və müasir beynəlxalq münasibətlərin mürəkkəb strukturunda dövlətimizin milli maraqlarının, suveren hüquqlarının və legitim mövqeyinin qlobal miqyasda qorunması, habelə hər hansı xarici qərəzli təzyiq cəhdlərinin hüquqi və informasiya müstəvisində neytrallaşdırılması üçün əvəzedilməz bir doktrinal rəhbərlik funksiyasını yerinə yetirməkdədir", - deyə o əlavə edib.

B.Məhərrəmov vurğulayıb ki, ötən illərin təcrübəsi, xüsusilə Prezidentin beynəlxalq media forumlarındakı konseptual çıxışları və xarici jurnalistlərin suallarına verdiyi dərinməzmunlu cavabları Azərbaycanın beynəlxalq münasibətlərdə subyektlərin hüquq bərabərliyi, dövlətlərin suverenliyi və daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq, saxta narrativlərlə mübarizədə universal hüquqi standartlar müəyyən etdiyini göstərir. Bu kontekstdə 4-cü Şuşa Forumunun gündəliyinə daxil edilmiş mövzuların strukturu Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 1-ci və 2-ci maddələrində təsbit olunmuş beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət olunması prinsipləri ilə tam sinxronluq təşkil edir. Forum çərçivəsində medianın sülh quruculuğundakı rolu sərhədlərarası media dialoqu və ictimai etimadın bərpası kimi məsələlərin müzakirəsi, BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktının 19-cu maddəsində təsbit edilmiş ifadə azadlığının daşıdığı xüsusi vəzifə və məsuliyyət prinsiplərinə, habelə ATƏT-in Helsinki Yekun Aktının prinsiplərinə əsaslanır. Bu isə medianın destruktiv məqsədlər üçün deyil, cəmiyyətlər arasında etimadın yaradılması üçün istifadə olunmasını hüquqi bir zərurət kimi irəli sürür.

Deputat qeyd edib ki, transmilli xarakter daşıyan və dövlətlərin daxili sabitliyini hədəf alan dezinformasiya ilə mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və rəqəmsal platformalarda təhlükəsiz informasiya mühitinin yaradılması çağırışları dövlətlərin suveren bərabərliyi prinsipinin rəqəmsal məkanda da qorunmasının vacibliyini və kiberinformasiya manipulyasiyalarının beynəlxalq hüquqazidd əməllər olduğunu bir daha aktuallaşdırır: "Forumdan gözlənilən ən mühüm nəticələrdən biri də süni intellekt dövründə media etikası və məsuliyyətli jurnalistika üzrə universal normativ-etik çərçivələrin müəyyənləşdirilməsidir ki, bu da UNESCO-nun informasiya və kommunikasiya sahəsindəki qlobal sənədlərinin, o cümlədən İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin müddəalarının rəqəmsal əsrə adaptasiyası baxımından böyük əhəmiyyət kəsb edir. Cəmiyyətlər arasında rəqəmsal həmrəyliyin gücləndirilməsinə və qlobal müstəvidə sülhün təmin olunmasına hədəflənən praktiki addımların atılmasına töhfə verməyi qarşısına məqsəd qoyan 4-cü Şuşa Qlobal Media Forumu Azərbaycanın qlobal miqyasda informasiya siyasətini yönləndirən intellektual əməkdaşlıq mərkəzi kimi statusunu və mütləq mövqeyini daha da möhkəmləndirəcək. Prezident İlham Əliyevin rəhbərliyi ilə Şuşanın qlobal həqiqətlərin elan edildiyi, beynəlxalq hüququn aliliyinin təsdiqləndiyi strateji platformaya çevrilməsi ölkəmizin həm hərbi-siyasi, həm də diplomatik-informasiya müstəvisində qazandığı tarixi zəfərlərin BMT Nizamnaməsi və beynəlxalq hüququn fundamental normaları kontekstində tam legitimliyini növbəti dəfə bütün dünyaya nümayiş etdirir".

B.Məhərrəmov bildirib ki, 1875-ci ildə "Əkinçi" qəzeti ilə Şərqin bir çox ölkəsindən daha öncə milli mətbuatın əsasını qoymuş Azərbaycanın tarixi media ənənələri fonunda Milli Mətbuat Günü ərəfəsində 4-cü Şuşa Qlobal Media Forumunun təşkili eyni zamanda Prezident İlham Əliyevin milli mətbuat üçün böyük töhfəsi olmaqla yanaşı, milli və beynəlxalq jurnalistika doktrinasının inkişafında keyfiyyətcə yeni, strateji bir mərhələni ifadə edir. Bu isə həm də o deməkdir ki, forum ölkəmizin paralel olaraq Vətən müharibəsi dövründə qlobal media məkanında qazandığı zəngin informasiya-diplomatik təcrübəsinin və hücum taktikasının beynəlxalq müstəvidə institusionallaşdırılması prosesinin bariz nümunəsidir. Tədbirin məhz Qarabağda keçirilməsi, işğaldan azad edilmiş ərazilərdə aparılan postmünaqişə quruculuğunun və regional reallıqların qlobal auditoriyaya birbaşa, vasitəsiz ötürülməsi mühüm geosiyasi əhəmiyyət kəsb edir. Görünən odur ki, Şərqdə ilk milli mətbuat yaradan dövlətlərdən biri kimi tarixi varislik hüququnu müasir dünyanın trendləri ilə sintez edən forum çərçivəsində transmilli media subyektlərinin, nüfuzlu analitik mərkəzlərin və qlobal jurnalistika ekspertlərinin bir araya gətirilməsi Azərbaycana qarşı yönələn qərəzli və manipulyativ informasiya təhdidlərinin preventiv şəkildə neytrallaşdırılmasına, regional informasiya təhlükəsizliyinin təminatçısı və beynəlxalq media diskursunun formalaşdırılmasında aktiv, yönləndirici bir subyekt kimi ölkəmizin mövqeyini daha da möhkəmləndirməsinə önəmli amilə çevrilməkdədir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanı zirvələrə aparan siyasət

## Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt Azərbaycanın davamlı inkişafının və etibarlı gələcəyinin möhkəm təməlidir



**Tarixin gedişatını dəyişən, xalqların taleyində silinməz iz qoyan elə şəxsiyyətlər var ki, onların həyatı və fəaliyyəti yaşadıqları dövrün hüdudlarını aşaraq gələcək nəsillər üçün örnəyə çevrilir. Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Ulu Öndər Heydər Əliyev məhz belə müstəsna şəxsiyyət, xilaskar və qurucu dövlət xadimi kimi əbədi yer tutur. Təsadüfi deyil ki, Ulu Öndərin adı ilə bağlı dövlətçilik salnaməmizə həkk olunmuş hər bir əlamətdar tarix xalqımız tərəfindən dərin ehtiram və sonsuz minnətdarlıq hissi ilə qeyd edilir.**

Bu gün Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə ali siyasi rəhbərliyə gəlməsinin 57-ci ildönümüdür. 1969-cu il 14 iyul tarixində Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlaması respublikamızın tarixində yeni inkişaf mərhələsinin başlanğıcı oldu. Məhz həmin gündən etibarən Azərbaycanı intibaha, hərtərəfli inkişafa və milli oyanışa aparan fundamental islahatların əsası qoyuldu, ölkənin sosial-iqtisadi, elmi, mədəni və mənəvi yüksəlişini təmin edən genişmiqyaslı dəyişikliklər həyata keçirilməyə başlandı. 1969-cu il 14 iyul tarixi təkcə Heydər Əliyevin siyasi fəaliyyətinin başlanğıcı deyil, həm də Azərbaycanın müasir inkişaf konsepsiyasının formalaşdığı, milli dövlətçilik təfəkkürünün möhkəmləndiyi və gələcək müstəqilliyimizin siyasi, iqtisadi və ideoloji təməllərinin yaradıldığı dönüş nöqtəsi kimi tariximizə həkk olunub. Bu baxımdan xalqımız həmin tarixin 57-ci ildönümünü böyük ehtiram, qürur və qədirbilənlik hissi ilə qeyd edir.

14 iyul 1969-cu il tarixi Azərbaycanın yüksəlişinə xidmət edən Heydər Əliyev siyasətinin başlandığı gündür. Ulu Öndərin ilk gündən fəaliyyətinin əsas qayələrindən biri Azərbaycanın ittifaq miqyasındakı iqtisadi geriliyinin aradan qaldırılması oldu. Ötən əsrin 60-cı illərində Azərbaycanın iqtisadi göstəriciləri ümumittifaq səviyyəsindən əhəmiyyətli dərəcədə, sənaye istehsalına, milli gəlirin artımına görə Azərbaycan ittifaq respublikaları arasında çox geri qalırdı. Mövcud potensialdan səmərəli istifadə olunmaması, idarəetmədəki nöqsanlar və iqtisadi fəallığın zəifləməsi respublikanın inkişafına ciddi maneələr yaradırdı. Heydər Əliyev dühasının məqsədyönlü iqtisadi siyasəti sayəsində qısa müddətdə respublikamız qabaqcıl sənaye ölkəsinə və elmi-texniki tərəqqinin mərkəzinə çevrildi. Reallaşdırılan tədbirlər nəticəsində respublikamızda tarixi boyu görünməmiş sənaye və iqtisadi sıçrayış baş verdi. 1969-1982-ci illəri əhatə edən dövrdə ümumilikdə 250-dən çox zavod, fabrik və digər istehsal müəssisələri istifadəyə verildi. Sənayedə əmək məhsuldarlığı 2,1 dəfə yüksəldi, milli gəlirin ümumi həcmi isə 2,5 dəfə artdı. İstehsalat sahələrində elmi-texniki tərəqqinin tətbiqi genişləndirildi. 581 adda yeni tipli maşın, avadanlıq və cihaz nümunələri yaradıldı, 1056 adda mühüm sənaye məhsulunun kütləvi istehsalına başlanıldı. Zavod və fabriklərdə mexanikləşdirmə prosesi sürətləndi, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş xətt və avtomatlaşdırılmış məntəqə, istehsal sahəsi istismara verildi. Bunun nəticəsi olaraq Azərbaycan məhsullarının dünya bazarlarına çıxarılması geniş vüsət aldı, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmağa başlandı. 1969-1982-ci illərdə Azərbaycanda milli gəlirin ümumi həcmi 2,5 dəfə, xalq istehlakı mallarının istehsalı 3 dəfə, sənaye istehsalı 2,7 dəfə artmışdı.

Azərbaycanda sovet hakimiyyəti dövründə yol-nəqliyyat infrastrukturunun genişlənməsi də Heydər Əliyevin rəhbərliyi illərinə təsadüf edir. Həmin dövrdə respublikamızda avtomobil yollarının uzunluğu 1,2 dəfə artmış, hərəkət intensivliyi dəfələrlə yüksəlmişdi.

Heydər Əliyevin Azərbaycana birinci dövr rəhbərliyinin əsas mühüm göstəricilərindən biri idarəetməyə azərbaycanlı kadrların irəli çəkilməsidir. Təsadüfi deyil ki, 1969-1982-ci illərdə milli kadr hazırlığı məsələləri daim ön planda olub. Ulu Öndərin təşəbbüsləri ilə təhsil müəssisələrinin zəngin şəbəkəsi yaradıldı və onların maddi-texniki bazası möhkəmləndirildi. Konkret desək, 6 yeni ali məktəb və 12 orta ixtisas məktəbi yaradıldı. Respublikanın ali məktəblərində 100-dən artıq yeni ixtisas açıldı.

Heydər Əliyevin siyasi müdrikliyinin və uzaqgörənliyinin ən parlaq göstəricisi isə azərbaycanlı gənclərin ittifaq miqyasında təhsilə cəlb olunması idi. Ulu Öndərin şəxsi təşəbbüsü ilə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu və aparıcı elm və təhsil ocağına azərbaycanlı tələbələr göndərildi. Bu proqram çərçivəsində ilkin mərhələdə 10 minə yaxın, ümumilikdə isə respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc yüksək ali təhsil alaraq vətənə qayıtdı. Bu addım gələcək dövlət müstəqilliyimiz üçün zəruri intellektual potensial formalaşdırdı.

Heydər Əliyev dühasının bu müstəvidə gələcəyə hesablanmış uzaqgörən strateji gedişlərindən biri milli hərbi kadr hazırlığı idi. Ümummilli Lider bu məqsədlə respublika gənclərinin bilavasitə Bakıda, doğma vətən torpağında peşəkar hərbi təhsil alması üçün o zamanlar SSRİ daxilində qeyri-mümkün görünən bütün addımları atdı. Kremlin hər vəchlə yaratdığı maneələrə, Moskvadan gələn ciddi etirazlara və sovet hərbi elitasının təzyiqlərinə cəsarətlə sinə gərərək, 1971-ci ildə Azərbaycanda Cəmşid Naxçıvanski adına Respublika İxtisaslaşdırılmış İnternat Məktəbinin (indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey) açılmasına nail oldu. Bu, gələcək müstəqil Azərbaycan Ordusunun zabit korpusunun formalaşdırıldığı ilk ali hərbi mərkəz idi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövründə həyata keçirdiyi məqsədyönlü siyasət təkcə respublikanın sosial-iqtisadi inkişafını təmin etmədi, eyni zamanda xalqımızın milli oyanışına və milli özünüdərk prosesinin güclənməsinə mühüm təkan verdi. Sovet ideoloji sisteminin mahiyyətini dərindən bilən, milli-mənəvi dəyərlərimizin müxtəlif vasitələrlə sıxışdırıldığını aydın görən Ulu Öndər böyük cəsarətlə bütün siyasi və ideoloji maneələrə sinə gərdi. Onun həyata keçirdiyi uzaqgörən siyasət milli şüurun möhkəmlənməsinə, ana dilinə, tariximizə, mədəniyyətimizə və milli-mənəvi irsimizə bağlılığın güclənməsinə xidmət etdi. Məhz buna görə də Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsi tariximizə milli özünüdərk və milli oyanış dövrü kimi daxil oldu, sonrakı illərdə dövlət müstəqilliyimizin bərpasını və möhkəmləndirilməsini şərtləndirən siyasi və mənəvi təməlin formalaşmasına zəmin yaratdı.

Ümummilli Lider Heydər Əliyev milli kimliyimizi yaşadan ana dilimizin inkişafını və qorunmasını daim diqqət mərkəzində saxlayırdı. Ulu Öndər 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələndə tarixdə misli görünməmiş cəsarət və siyasi müdriklik nümayiş etdirdi. Bakı Dövlət Universitetinin ( ovaxtkı Azərbaycan Dövlət Universiteti) 50 illiyinə həsr olunan təntənəli toplantıda rəsmi protokoldan kənara çıxaraq Azərbaycan dilində çıxış etdi. Bu tarixi hadisə Ulu Öndərin ana dilimizə, milli dəyərlərimizə sahib çıxacağını açıq şəkildə göstərməklə, xalq arasında Heydər Əliyevə sonsuz bir hörmət və məhəbbət qazandırdı. Bu siyasətin hüquqi zirvəsi olaraq, bütün təzyiqlərə rəğmən Ulu Öndərin cəsarətli mübarizəsi nəticəsində respublikanın yeni Konstitusiyasının 73-cü maddəsinə dövlət dili statusu daxil edildi.

Respublikamızda əldə olunan möhtəşəm nəticələr Heydər Əliyevin SSRİ rəhbərliyində daha yüksək vəzifəyə irəli çəkilməsini şərtləndirdi. 1982-ci ildə onun Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi Ulu Öndərin yüksək idarəçilik bacarığına və qazandığı nüfuza verilən ən böyük qiymət idi. Həmin dövrdə Azərbaycan artıq ittifaqın ən dinamik inkişaf edən qabaqcıl respublikalarından biri kimi tanınırdı. Respublikanın sənaye potensialı əhəmiyyətli dərəcədə güclənmiş, çoxsaylı yeni sənaye müəssisələri istifadəyə verilmiş, neft sənayesinin müxtəlif sahələri müasir tələblərə uyğun yenidən qurulmuş, Azərbaycanın SSRİ-nin iqtisadi həyatındakı rolu və strateji əhəmiyyəti xeyli artmışdı.

1982-1987-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindəki fəaliyyəti də Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin SSRİ miqyasında bir daha təsdiq olunduğu, Azərbaycanın dünya səviyyəsində tanıdıldığı dövr kimi tarixə yazıldı.

Heydər Əliyev həm Azərbaycanın rəhbəri, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışdığı illərdə ölkəmizin və xalqımızın milli mənafelərini uğurla təmin etmiş, Ermənistanın respublikamıza qarşı ərazi iddialarının qarşısını qətiyyətlə almışdı. O illərdə Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı İrəvandan Kremlə göndərilən müraciətlər məhz Heydər Əliyevə görə nəticəsiz qalmış, ermənilər öz məkrli niyyətlərinə çata bilməmişdilər. Ona görə həm ermənilər, həm də onların maraqlarının müdafiəçisi olan M.Qorbaçov Heydər Əliyevi özlərinə qarşı ən böyük maneə kimi görürdülər. Yalnız Heydər Əliyev SSRİ rəhbərliyinin yürütdüyü siyasətə etiraz edərək bütün vəzifələrindən istefa verdikdən sonra ermənilər M.Qorbaçovun havadarlığı ilə Azərbaycana qarşı ərazi iddialarını açıq müstəviyə keçirdilər. Yüzminlərlə azərbaycanlı Ermənistandan deportasiya edildi, Qarabağda erməni separatizmi başladı. Daha sonra Sumqayıt hadisələri, 20 Yanvar faciəsi və digər bu kimi qanlı hadisələr baş verdi. Təəssüflə qeyd edilməlidir ki, bu hadisələrin baş verməsində o dövrdə Azərbaycana rəhbərlik edənlər böyük məsuliyyət daşıyırdılar. Çünki onlar qətiyyətsizlik nümayiş etdirir, ermənilərin Azərbaycana ərazi iddialarına qarşı demək olar ki, susur, Kremldən gələn direktivlərlə hərəkət edirdilər.

Heydər Əliyev o dövrdə heç bir vəzifə tutmasa belə öz xarizması ilə xalqımızın maraqları uğrunda cəsarətlə mübarizə aparırdı. Məsələn, 20 Yanvar faciəsinə ilk olaraq kəskin etirazını bildirən məhz Heydər Əliyev olmuşdu.

Heydər Əliyevin 1990-cı ilin iyulunda Azərbaycana qayıdışı xalqımızın milli azadlıq mübarizəsinə böyük təkan verdi. Bu baxımdan Ulu Öndərin siyasi fəaliyyətinin 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövrü Azərbaycan xalqının müstəqillik mübarizəsi salnaməsinin və müasir dövlətçilik tarixinin mühüm mərhələsini təşkil edir. Naxçıvan Ali Məclisinə sədr seçilən Heydər Əliyevin təşəbbüsləri ilə Naxçıvan Ali Məclisinin qəbul etdiyi qərarlar xalqımızın müstəqillik yolunun ən cəsarətli və ilk siyasi-hüquqi addımları idi.

Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını rəsmi bayraq elan etməsi, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması xalqımızın müstəqillik mübarizəsini daha gücləndirdi. Bu barədə qərarların qəbul edilməsi birbaşa sovet dövlətinə qarşı meydan oxumaq idi. Bunu isə yalnız Heydər Əliyev kimi cəsarətli siyasi lider edə bilərdi.

Bu mühüm qərarların hər biri xalqımızın dövlət müstəqilliyini bərpa etməsi üçün əsas siyasi və ideoloji amillər idi. Heydər Əliyevin cəsarəti həm də müstəqillik mübarizəsinin iştirakçısı olan bütün insanlara böyük ruh və stimul verir, onları bu yolda daha mübariz olmağa sövq edirdi. Məhz Ulu Öndərin təkan verdiyi azadlıq mücadiləsi milli dirçəlişin respublikamızda aparıcı hərəkata çevrilməsinə, müstəqilliyimizin bərpası ilə bağlı qəti və konkret addımların atılmasına gətirib çıxardı.

Heydər Əliyev muxtar respublikanın Ermənistan tərəfindən işğal edilməsinə imkan verməmiş, blokada vəziyyətində olmasına baxmayaraq, Naxçıvanın Ermənistanın təcavüzkarlığı qarşısında qətiyyətlə mübarizə aparmasına nail olmuşdu. Heydər Əliyev təcrübəli siyasətçi olmaqla yanaşı, həm də hərbçi idi. Ona görə Ermənistanın artan təxribatlarının fonunda baş verə biləcək daha böyük hərbi təcavüzü əvvəldən görürdü. Odur ki, Ulu Öndərin Naxçıvan Ali Məclisinin sədri kimi verdiyi ilk qərarlardan biri 1991-ci il sentyabr ayının 7-də muxtar respublikanın Dövlət Milli Müdafiə Komitəsinin yaradılması olmuşdur.

Naxçıvan, sadəcə, Ermənistanın işğalçılığına görə blokada vəziyyətinə düşməmişdi. Naxçıvanı həm də o dövrdəki Azərbaycan hakimiyyəti blokada vəziyyətinə salmışdı. Muxtar respublikadakı iqtisadi və sosial çətinliklərdə mərkəzi hakimiyyət orqanlarının Naxçıvana ögey və laqeyd münasibəti böyük rol oynayırdı. Lakin təcrübəli dövlət xadimi Heydər Əliyevin həmin vaxtlar qardaş Türkiyə və qonşu İranla yaratdığı əlaqələr Naxçıvandakı mövcud sosial-iqtisadi çətinliklərin azaldılmasında mühüm amil olmuşdu. Ulu Öndərin qətiyyətli siyasəti nəticəsində 1992-ci il mayın 28-də Azərbaycanla qardaş Türkiyə arasındakı "Ümid" körpüsünün istifadəyə verilməsi və digər tədbirlər enerji çatışmazlığından, nəqliyyat blokadasından, sosial-iqtisadi böhrandan əziyyət çəkən muxtar respublikanı bütün labüd fəlakətlərdən xilas etmişdi.

1991-ci ilin oktyabrında Ulu Öndərin vaxtilə misilsiz xidmətləri sayəsində müstəqillik qazanmaq kimi tarixi fürsət əldə edən Azərbaycanın müstəqilliyi ozamankı naşı rəhbərliyin səriştəsizliyi və xəyanəti ucbatından qısa zamanda sual altına düşmüşdü. Ölkədə dərin xaos, özbaşınalıq yaranmış, torpaqlarımız düşmən işğalına məruz qalmışdı. Bu səbəbdən xalqımız müstəqilliyimizin ilk illərində hakimiyyəti ələ keçirmiş siyasi dəllalların yaratdıqları dərin problemlərdən çıxış yolunu, müstəqilliyimizin qurtuluşunu, dövlətçiliyimizin xilasını məhz Heydər Əliyevin Bakıya, yəni siyasi hakimiyyətə qayıdışında görürdü. Azərbaycan ziyalılarının, müxtəlif təbəqəni təmsil edən şəxslərin Naxçıvana, Heydər Əliyevə ünvanlanan saysız-hesabsız məktubları, müraciətləri də bu arzudan qaynaqlanırdı. Lakin həmin dövrdə hakimiyyətdə olanlar Ulu Öndərin Naxçıvana rəhbərliyini həzm edə bilmir, onun ölkədəki yüksək siyasi nüfuzundan narahatlıq keçirirdilər.

Bütün təzyiqlərə rəğmən Azərbaycanı fəlakətə sürükləyən AXC-Müsavat hakimiyyəti 1992-ci il noyabr ayının 21-də Naxçıvan şəhərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının qarşısını ala bilmədi. YAP-ın yaradılması Azərbaycanın gələcək taleyində xüsusi yeri olan ümumrespublika səviyyəli sosial-siyasi hadisəyə çevrildi, ölkənin gələcəyini düşünən hər kəsin siyasi istinadgahı oldu.

Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatmış, xaos və anarxiya respublikanı bürümüş, müstəqilliyimizin taleyi sual altına düşmüşdü. Məhz Heydər Əliyevin həmin ağır günlərdə xalqın istək və arzusu ilə Naxçıvandan Bakıya gəlməsi vəziyyəti dəyişdi. 1993-cü il iyunun 9-da Bakıya gələn Heydər Əliyevin bundan 5 gün sonra Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ölkəmizin müasir tarixində yeni mərhələnin başlanğıcı oldu. Heydər Əliyevin qətiyyətli rəhbərliyi sayəsində ölkədə hökm sürən hərbi-siyasi böhran, xaos və özbaşınalıq aradan qaldırıldı, dövlətçiliyimizə qarşı yönəlmiş dağıdıcı cəhdlərin qarşısı qətiyyətlə alındı, müstəqil Azərbaycanın parçalanmasına hesablanmış planlar iflasa uğradıldı. Həmin ilin oktyabrında Azərbaycan Prezidenti seçilən Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən dövlətçilik kursu müstəqilliyimizin dönməzliyini təmin etdi, hüquqi dövlət quruculuğunun möhkəm təməllərini formalaşdırdı və ölkəmizi davamlı inkişaf yoluna çıxardı. Xalqına və dövlətinə misilsiz xidmətləri ilə Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideri kimi tarixdə əbədi yerini tutdu.

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizin təbii sərvətlərindən dövlətin və xalqın mənafeyi naminə səmərəli istifadə edilməsinə başlanılması, 1994-cü ildə tarixi "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, yerli və xarici investisiyaların, müasir texnologiyaların, qabaqcıl idarəetmə təcrübəsinin cəlb edilməsinə rəvac verdi.

İqtisadi dirçəliş prosesi ilə paralel olaraq, ölkədə hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və sistemli islahatlar həyata keçirildi. Dövlət idarəçiliyinin müasir prinsiplər əsasında yenidən formalaşdırılması, qanunun aliliyinin təmin olunması, hakimiyyət bölgüsü prinsipinin təsbit edilməsi bu islahatların əsas istiqamətlərini təşkil edirdi. Həyata keçirilən məqsədyönlü tədbirlərin məntiqi nəticəsi olaraq, 1995-ci il noyabrın 12-də Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycanın ilk Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul olundu. Yeni Konstitusiya Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişafının möhkəm hüquqi əsaslarını müəyyənləşdirdi.

Ümummilli Lider nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin edib, həm də müstəqil, milli dövlətçiliyin fundamental əsasını qoyub, yeni idarəçilik məktəbi formalaşdırıb. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub" deyən Ulu Öndər bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda çalışıb.

Bu gün müstəqil və müasir Azərbaycan Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında daha da inkişaf edir, yeni-yeni tarixi nailiyyətlər qazanır. Azərbaycanın bütün uğurlarında Heydər Əliyevin siyasi kursu, dəst-xəti, müdrikliyi, uzaqgörənliyi aydın görünür. Azərbaycanın nüfuzlu və etibarlı tərəfdaşa çevrilməsinin, beynəlxalq tədbirlərə evsahibliyi etməsinin təməli də Ulu Öndər tərəfindən qoyulan düzgün siyasətə əsaslanır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir uğurumuz göstərir ki, Heydər Əliyevin şah əsəri və əmanəti olan Azərbaycan etibarlı əllərdədir.

Ulu Öndərin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi və tarixi ərazi bütövlüyümüzün bərpası idi. Ümummilli Lider illər öncə böyük uzaqgörənlik və sarsılmaz inamla deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

İlk dəfə 2003-cü ildə Azərbaycan Prezidenti seçilən cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirir, bu siyasəti zamanın çağırışlarından irəli gələrək daha da zənginləşdirir. Prezident İlham Əliyevin qətiyyətli siyasəti və Ümummilli Liderin qoyduğu möhkəm dövlətçilik təməli əsasında Azərbaycan ildən-ilə iqtisadi cəhətdən gücləndi, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirdi, ordusunu ən müasir standartlar əsasında modernləşdirdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi həm də Heydər Əliyev ideyalarının təntənəsinə çevrildi. Bununla Prezident İlham Əliyev Ulu Öndərin ən böyük arzusunun həyata keçməsini təmin etdi.

*Azərbaycanın Vətən müharibəsində qazandığı möhtəşəm Qələbə, Qarabağda erməni separatçılığına son qoyulması və ərazi bütövlüyümüzün bərpa edilməsi regionumuzda yeni reallıqlar yaradıb. Bu reallıqlardan ən önəmlisi odur ki, Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdırlar. Bu gün Azərbaycanın tarixi uğurlarını, işğalçı Ermənistan üzərində qazanılmış şanlı Zəfəri, o cümlədən Qarabağa qayıdışı qürurla qeyd etdikcə bir daha Ulu Öndər Heydər Əliyevi ehtiramla anırıq. Azərbaycan xalqı öz xilaskar oğlu Heydər Əliyevin xatirəsini daim yaşadacaq, Ulu Öndərin müəyyənləşdirdiyi yolla yeni uğurlara doğru inamla addımlayacaq.*

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı***

**Dünya xəritəsində dövlətlərin gücü çox vaxt onların iqtisadi göstəriciləri, hərbi büdcələri və ya texnoloji yenilikləri ilə ölçülür. Lakin tarixin dərin qatlarına enəndə fərqli bir mənzərə ilə qarşılaşırıq. Əsrlərlə mövcud olan, imperiyaların sərt təzyiqlərinə tab gətirən və sivilizasiya meydanında öz sözünü deyən xalqların gizli gücü onların maddi zənginliyindən daha çox mənəvi sütunlarında gizlənir. Bu sütunların ən etibarlısı xalqın tarixi yaddaşı, mədəni irsi və qoruyub saxladığı mənəvi dəyərlər sistemidir. Hüquqi qanunlar dövlətin xarici çərçivəsini və inzibati sistemini idarə edirsə, mədəni yaddaş bu sistemə can verir, onu, sadəcə, bir mexanizm olmaqdan çıxarıb, canlı orqanizmə çevirir. Mədəni təməllər aşınmağa başlayanda ən böyük ordular və ən zəngin xəzinələr belə dövlətin süqutunun qarşısını ala bilmir.**

# Mədəni yaddaşın siyasi zəfəri:

## *1969-cu ildən başlayan yol*

Kollektiv yaddaş, sadəcə, arxiv rəflərində toz basan sənədlərin, yaxud keçmişdə baş vermiş hadisələrin quru xronologiyası deyil. O, cəmiyyətin bu gününü tənzimləyən və gələcəyə hansı addımlarla gedəcəyini müəyyən edən strateji bir kompasdır. Azərbaycanın dövlətçilik tarixi bu baxımdan çox unikal bir təcrübə təqdim edir. Xalqımız əsrlər boyu müxtəlif imperiyaların tərkibində olanda, siyasi müstəqilliyini itirdiyi ən çətin dönəmlərdə belə öz milli kimliyini qorumağı bacarıb. Bu böyük müqavimətin arxasında dayanan əsas qüvvə ana dili, sarsılmaz ailə institutu, zəngin ədəbi irs, fəlsəfi düşüncə və nəsildən-nəslə keçən adət-ənənələr olub. Siyasi idarəçilik formaları dəyişsə də, bu mədəni kodlar xalqın varlığını qoruyan mənəvi qalxan rolunu oynayıb. Buna görə də ölkəmizdə dövlətçilik anlayışı, sadəcə, müəyyən bir dövrün hakimiyyət strukturu ilə məhdudlaşmır. Dövlətçilik xalqın mənəvi bütövlüyünün siyasi müstəvidə təşkilatlanma formasıdır.

Tarixi inkişafın gedişatına diqqət yetirəndə aydın olur ki, dövlətlərin taleyini gündəlik siyasi hadisələrdən daha çox dərin mədəni qatlar idarə edir. Atropatenadan tutmuş Albaniyaya, Şirvanşahlardan Səfəvilərə, xanlıqlardan müasir respublikamıza qədər uzanan böyük bir tarixi zəncir var. Bu zəncirin halqalarını bir-birinə bağlayan əsas bağ məhz bizim ortaq mədəni yaddaşımızdır. Bu yaddaşın ən qədim laylarından biri "Avesta" irsi ilə birbaşa bağlıdır. Bu qədim mətn, sadəcə, dini baxışların toplusu deyil. O, əslində, qədim cəmiyyətin əmək, ədalət, insan hüquqları, təbiətlə harmoniyanı qorumaq və ictimai məsuliyyət haqqında mənəvi təsəvvürlərini bu günə çatdıran ən böyük abidədir. Həmin mənəvi köklər əsrlər boyu bölgənin etik və humanitar düşüncə tərzini formalaşdırıb. Kollektiv kimlik cəmiyyətin öz keçmişini rituallar, simvollar və yazılı irs vasitəsilə qoruyub gələcək nəsillərə ötürməsi ilə yaşayır. Siyasi sistemlər zamanla tarix səhnəsindən silinə bilər, amma mədəniyyətin yaratdığı kodlar yeni tarixi şəraitdə fərqli formalarda özünü yenidən büruzə verir.

Bu tarixi zəncirin ən kritik və müasir Azərbaycanın taleyini həll edən dönüş nöqtəsi 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi oldu. Həmin dövrün sərt geosiyasi şərtlərini göz önünə gətirəndə bu hadisənin əhəmiyyəti daha aydın görünür. Sovet imperiyasının vahid sovet xalqı yaratmaq, milli kimlikləri silmək istədiyi bir vaxtda - 1969-cu ildə Bakıda tamamilə yeni bir milli intibahın əsası qoyuldu. Heydər Əliyev çox uzaqgörən bir strateq kimi dərk edirdi ki, siyasi müstəqilliyə gedən yol cəmiyyətin mənəvi cəhətdən müstəqil olmasından, öz köklərini dərindən tanımasından keçir. Məhz bu səbəbdən 1969-cu ildən başlayaraq mədəniyyət, ədəbiyyat, teatr və kino milli şüurun qorunması və gələcək dövlətçilik ideologiyasının formalaşdırılması üçün əsas platformaya çevrildi. Siyasi mühitdə açıq deyilməsi qadağan olunan milli ideallar sənətin gücü ilə xalqın qəlbinə və beyninə həkk olundu.

Bu strateji xəttin ən böyük və sarsılmaz sütunu ana dili siyasəti oldu. Dil təkcə ünsiyyət vasitəsi deyil, millətin dünyanı qavrama rejimini və tarixi yaddaşını kodlaşdıran mənəvi məkandır. Heydər Əliyevin rəhbərliyi ilə 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barədə bəndin daxil edilməsi sadə bir hüquqi prosedur deyildi. Bu, sovet totalitarizminin ən amansız dövründə milli haqların qorunması yolunda atılmış böyük bir tarixi cəsarət və 1969-cu ildən başlayan böyük hazırlığın məntiqi nəticəsi idi. Müstəqillik qazanıldıqdan sonra 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında bu siyasi xətt daha da möhkəmləndirildi və dövlətin təməl prinsiplərindən birinə çevrildi.

Dil siyasəti təkcə qanunvericilik sənədlərində yazılan bəyanatlarla bitmədi. 2001-ci ilin iyun ayında imzalanan dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında fərman Azərbaycan dilinin dövlət idarəçiliyində, elmi dairələrdə, təhsil sistemində və mətbuatda mövqeyini qəti şəkildə bərqərar etdi. Bunun ardınca eyni ilin avqust ayında verilən digər bir qərarla avqust ayının 1-nin ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü elan edilməsi milli yaddaşın qorunmasına yönəlmiş dövlət siyasətinin nə qədər ardıcıl və sarsılmaz olduğunu göstərdi. Bu idarəçilik modelində ana dili, klassik irs, elm və tarixi həqiqətlər bir-birini tamamlayan bütöv bir ideoloji sistem kimi nəzərdən keçirilirdi.

Millətlərin tarixində elə məqamlar yetişir ki, təkcə rəsmi qaydalar və hüquqi prosedurlar cəmiyyətin böhrandan çıxmasına bəs etmir. Belə taleyüklü dönüş nöqtələrində proseslərin bütün ağırlığı bütöv bir xalqın taleyini çiyinlərində daşıyan güclü şəxsiyyət amilinin üzərinə düşür. Həmin liderlər mövcud şəraitlə, sadəcə, barışan deyil, cəmiyyətin gələcək modelini öz intellektual iradəsi ilə formalaşdıran qüvvəyə çevrilirlər. Gerçək ziyalılar təkcə akademik biliklərin daşıyıcısı olan insanlar deyil. Onlar mənsub olduqları xalqın sosial və mədəni təcrübəsini sistemləşdirən, milli inkişafın və dövlət maraqlarının intellektual sütunlarını quran aparıcı şəxslərdir.

Azərbaycan tarixinə nəzər saldıqda Şah İsmayıl Xətai, Heydər Əliyev kimi tarixi simaların fərqli əsrlərdə və fərqli siyasi şəraitlərdə fəaliyyət göstərdiklərini görürük. Lakin onların hamısını birləşdirən ortaq bir məram var idi. Bu məram milli dövlət ideyasını hər şeydən uca tutmaq və onu daha üstün bir mərhələyə qaldırmaq missiyası idi. Bu yolda Həsən bəy Zərdabi yaratdığı milli mətbuat vasitəsilə ictimai şüuru oyatdı, Mirzə Fətəli Axundzadə dünyəvi dövlət düşüncəsinin təməllərini atdı, Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu milli ideologiyanın fəlsəfi əsaslarını zənginləşdirdilər, Üzeyir bəy Hacıbəyli isə milli musiqini xalqın özünüdərk vizit kartına çevirdi.

Müstəqil dövlətimizdə ziyalılara, elm adamlarına və mədəniyyət xadimlərinə münasibət tamamilə yeni bir müstəviyə keçdi. Heydər Əliyev yaradıcı elitanı və alimləri prosesləri kənardan izləyən müşahidəçilər deyil, dövlət quruculuğunun birbaşa içində olan fəal iştirakçılar kimi görürdü. 1997-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının 50 illik yubileyində çıxış edərkən elmi "milli sərvət" adlandırması və bu qurumun fəaliyyətini dövlətin gələcəyi ilə bağlaması həmin dərin baxışın real təzahürü idi. Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Cəlil Məmmədquluzadə kimi dühaların mənəvi irsi, sadəcə, xüsusi günlərdə xatırlanan tarixlər deyil, yeni nəşrlər və ciddi araşdırmalar vasitəsilə milli düşüncə sistemimizin daimi tərkib hissəsinə çevrildi. Çünki quru bilik təkbaşına şəxsiyyət yetişdirə bilməz. İnsanı formalaşdıran onun nəfəs aldığı mənəvi mühit, simvollar və mənalar dünyasıdır.

Hər hansı bir milli ideologiya, sadəcə, qapalı otaqlarda yazılan quru siyasi tezislərdən ibarət ola bilməz. Onun həqiqi qaynağı xalqın əsrlər boyu süzgəcdən keçirdiyi təmiz mənəviyyatıdır. Müstəqilliyin ilk illərində ölkəmizin qarşısında duran ən böyük problem fərqli siyasi baxışları, sosial qrupları və təbəqələri vahid bir amal ətrafında toplamaq idi. Cəmiyyətin daxili sabitliyi birbaşa olaraq cəmiyyətin ortaq dəyərlərindən, tarixi keçmişindən və ictimai mədəniyyətin gücündən asılıdır.

Heydər Əliyevin böyük uzaqgörənliklə formalaşdırdığı azərbaycançılıq konsepsiyası məhz bu tarixi zərurətdən irəli gəldi. Bu ideologiya heç vaxt dar etnik çərçivələrə sığışmadı. Onun təməlində dövlətə sonsuz sədaqət, ortaq tarixi keçmiş, ana dilinə hörmət, vətəndaşlıq məsuliyyəti və multikulturalizm prinsipləri dayanırdı. Azərbaycançılıq müxtəlif köklərə və inanclara sahib olan insanları eyni vətəndaşlıq müstəvisində birləşdirən bütöv və sarsılmaz bir dövlətçilik fəlsəfəsinə çevrildi.

Mədəniyyət bu böyük ideologiyanın, sadəcə, bir parçası deyil, onun daşıyıcı nüvəsidir. Çünki insanları siyasi şüarlarla bir yerə toplamaq olar, amma onları mənəvi olaraq bir millət halına gətirmək ancaq ortaq mədəniyyətlə mümkündür. Bu strateji yolun ən mühüm praktik addımlarından biri 2001-ci ilin noyabr ayında Bakıda keçirilən Dünya Azərbaycanlılarının Birinci Qurultayı oldu. Bu tarixi toplantıda dahi rəhbər azərbaycançılığı planetin müxtəlif nöqtələrində yaşayan bütün soydaşlarımızı eyni amal uğrunda birləşdirən qüvvə kimi elan etdi. Həmin ideoloji xətt həm də mədəniyyətin dili ilə cəmiyyətə ötürüldü. Muğam sənətinin qorunması, klassik sənətkarlarımızın beynəlxalq miqyasda qeyd edilən yubileyləri ölkəmizin sivilizasiya tarixindəki yerini bütün dünyaya nümayiş etdirmək məqsədi daşıyırdı. Məhz bu cəhətdən bizim tariximiz parçalanmış, bir-biri ilə əlaqəsi olmayan epizodlardan ibarət deyil. Qədim dövlətlərimiz, Orta əsrlərin intibah mədəniyyəti, maarifçilik hərəkatımız, Xalq Cümhuriyyətimiz və müasir respublikamız vahid inkişaf yolunun bir-birini tamamlayan qızıl halqalarıdır.

Milli mədəni irsin hüquqi baxımdan qorunması istiqamətində 2000-ci ilin avqust ayında dövlət başçısının imzaladığı tarix və mədəniyyət abidələrinin mühafizəsinin təkmilləşdirilməsi haqqında fərman da məhz bu ali fəlsəfəyə xidmət edirdi. Tarixi abidələr, sadəcə, qədim daşlar və tikililər deyil. Onlar dövlətin tarixi yaddaşının maddi pasportudur. İçərişəhər, Qobustan, Şəki Xan sarayı kimi bənzərsiz incilərin qorunub gələcək nəsillərə saxlanması keçmişə rəsmi ehtiram göstərməkdən daha çox gələcəyin milli kimliyini inşa etmək mənasına gəlirdi.

Zaman keçdikcə, qlobal çağırışlar dəyişdikcə dövlətçilik məktəbləri də öz fəaliyyətini yeniləməli, dövrün tələblərinə uyğunlaşmalıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni əsrdə mədəniyyət siyasətini, sadəcə, milli irsin qorunması çərçivəsindən çıxardı, bu sahə artıq beynəlxalq nüfuz, qlobal humanitar əməkdaşlıq və milli təhlükəsizlik amilləri ilə sintez olundu. 2014-cü ildə təsdiqlənən mədəniyyət konsepsiyası və teatr sənətinin inkişafına dair dövlət proqramları bu sahənin ölkə idarəçiliyinin əsas hərəkətverici qüvvələrindən birinə çevrilməsini təmin etdi.

Bu mərhələnin ən möhtəşəm və hər birimizin qəlbində böyük qürur hissi doğuran səhifəsi işğaldan azad edilmiş qədim torpaqlarımızda, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləridir. Otuz ilə yaxın müddətdə dağıdılmış məscidlərin, talan olunmuş muzeylərin, tarixi memarlıq abidələrinin yenidən ayağa qaldırılması adi bir tikinti və ya infrastruktur layihəsi deyil. Bu, milli yaddaşın öz doğma coğrafiyasına, mənəvi vətəninə qətiyyətli qayıdışıdır.

Dövlət başçısının 2021-ci ilin yanvar ayında imzaladığı sərəncamla Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi, Vaqif Poeziya Günlərinin, "Xarıbülbül" festivalının illər sonra yenidən doğma məkanda təşkil olunması, Natəvanın, Bülbülün, Üzeyir bəyin vaxtilə güllələnmiş heykəllərinin yenidən öz yerinə qaytarılması və Qarabağ Universitetinin fəaliyyətə başlaması bir daha sübut etdi ki, Şuşanın dirçəlişi bizim milli ruhumuzun dirçəlişidir. Xalqın yaddaşı konkret coğrafi məkanlarla bütövləşəndə nəsildən-nəslə daha saf və canlı şəkildə ötürülür. Şuşa bizim milli yaddaşımızın coğrafi və mənəvi zirvəsidir.

Bu böyük dövlət strategiyasının beynəlxalq aləmdəki ən fəal qolu Birinci vitse-prezident Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun rəhbərliyi ilə həyata keçirilən humanitar diplomatiya xəttidir. Müasir dünyada dövlətlərin uğuru təkcə iqtisadi və ya hərbi güclə deyil, həm də ölkənin mədəni cəlbediciliyi, humanitar siyasəti və formalaşdırdığı bəşəri dəyərlər sayəsində mümkün olur. Azərbaycan muğamının, aşıq sənətinin, xalçaçılıq məktəbinin və kəlağayı ənənələrinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahılarına daxil edilməsi ölkəmizin beynəlxalq humanitar pasportunu bütün dünyaya təqdim etdi. Eyni zamanda fondun dəstəyi ilə Vatikandakı qədim katakombaların, Romadakı Kapitoli Muzeyinin, Fransa, Pakistan və dünyanın digər coğrafiyalarındakı tarixi və mədəni abidələrin bərpası Azərbaycanın multikulturalizm modelini əyani şəkildə nümayiş etdirdi. Bu layihələr sübut etdi ki, mədəniyyət dar çərçivələr deyil, bəşəriyyəti eyni mənəvi müstəvidə birləşdirən ortaq bir dildir.

*Dövlət mədəniyyətin tərəqqisi, sənət adamlarının fəaliyyəti üçün bütün hüquqi, inzibati və maddi imkanları səfərbər edir. Mədəniyyət isə öz növbəsində dövlətin daxili mənəvi dayaqlarını, cəmiyyətdəki vətəndaş həmrəyliyini və tarixi davamlılığı tam sığortalayır. Azərbaycanın keçdiyi bu şərəfli yol bütün dünyaya bəyan edir ki, milli tərəqqinin davamlı olması təkcə maddi göstəricilərdən deyil, həm də mədəni və intellektual potensialın yüksək səviyyəsindən asılıdır. Öz tarixi yaddaşını hər zaman diri saxlayan, mədəniyyəti dövlət siyasətinin mərkəzinə qoyan bir xalq dəyişən qlobal dünyada öz mövqelərini hər zaman ən uca zirvələrdə qoruyub saxlayacaqdır. 1969-cu ilin 14 iyulunda əsası qoyulan bu dahi strateji xətt sübut etdi ki, güclü dövlət modeli mütləq xalqın intellektual potensialına söykənməlidir. Azərbaycan dövlətçiliyinin gələcək qələbələri də məhz bu sarsılmaz mənəvi təməl üzərində ucalmağa davam edəcəkdir.*

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***



# Qüdrətli Azərbaycan dövlətinin qurucusu

**Çoxəsrlik dövlətçilik tarixinə malik olan Azərbaycanda Heydər Əliyev dövrünün müstəsna yeri vardır. 57 il bundan əvvəl, yəni 1969-cu il 14 iyul tarixindən başlanan bu mərhələ müstəqil və qüdrətli Azərbaycan dövlətinin əldə etdiyi bütün uğurların təməl tarixi kimi xatırlanır.**

Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra hər bir azərbaycanlının qəlbində və düşüncəsində yaşamaqda davam edən milli dövlətçilik ideyasını ötən əsrin 70-ci illərinin əvvəllərindən etibarən ardıcıl siyasəti ilə yenidən dirçəltmiş, əsrin sonlarına doğru isə böyük fədakarlıqlar hesabına müstəqil, müasir Azərbaycan dövlətini quraraq onun sarsılmazlığını, demokratik inkişafını, müstəqilliyinin əbədiliyini və dönməzliyini təmin etmişdir.

Heydər Əliyevin fəaliyyətinin əsasında bir amal dayanırdı: Azərbaycan vətəndaşı özünü dərk edə bilsin, tarixini, mədəniyyətini öyrənsin. "Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın". Bəli, bu həm öhdəlik, həm də bir nəsihət idi. Tarixin ayrı-ayrı dövrlərində bizi milli tariximizdən, mədəniyyətimizdən ayırmaq, sahib olduğumuz milli dəyərlərimizi saxtalaşdırmaq istəyiblər. Lakin xalq o zaman öz böyüklüyünü dərk edir ki, öz kökündən ayrı düşmür. Dahi şəxsiyyət bu məsələyə çox həssaslıqla yanaşırdı, həqiqətən də keçmişindən ayrı düşən xalq, millət gələcəyini qura bilməz. Sovet ideologiyasının olmasına baxmayaraq, ölkəmizin tanınmış ziyalılarının ev-muzeylərini yaradır, onlara heykəllər qoyur, yaradıcılıq gecələri keçirir, milli düşüncənin və məfkurənin inkişafına töhfə verən insanları himayə edir, gəncləri həvəsləndirirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik illəri ölkəmizin taleyinin və gələcəyinin təyin olunmasında həmişə həlledici rol oynayıb. Sovetlər dönəmində onun Azərbaycana rəhbərlik etdiyi dövr tariximizə əzəmətli sıçrayış və yeniləşmə illəri kimi daxil olub. Məhz Heydər Əliyevin müdrikliyi, qətiyyəti, təşkilatçılığı sayəsində iqtisadi böhran şəraitində çarpışan respublika ən qısa vaxtda sürətli sosial-iqtisadi yüksəliş mərhələsinə daxil ola bildi. Azərbaycan cəmi bir neçə il ərzində ən geridə qalan respublikadan ən qabaqcıl respublikaya çevrildi, sənayesi inkişaf etdirildi, respublikada güclü aqrar-sənaye kompleksi formalaşdı. Azərbaycanın iqtisadi inkişafı xalqın özünəinamını artırdı, milli özünüdərk hissi gücləndi, mənəvi tərəqqi sürətləndi. Elmin, mədəniyyətin, təhsilin inkişafında böyük nailiyyətlər əldə edildi. Bakının milli siması formalaşdırıldı, bütün sahələrdə, o cümlədən idarəçilikdə, mədəniyyətdə milli kadrlar yetişdirildi, milli ruhun yüksəlişi təmin edildi. Bu, əslində, Azərbaycanın intibah dövrü idi və o zaman yaradılan bünövrə ölkənin gələcək taleyində müstəsna rol oynadı. Heydər Əliyevin misilsiz tarixi missiyası ölkəmizin müstəqilliyinə qovuşduqdan sonrakı dövrdə özünü daha qabarıq şəkildə büruzə verdi.

Azərbaycanın 1991-ci ildə qazandığı müstəqilliyin qorunub saxlanması, onun əbədi və dönməz xarakter alması müstəsna olaraq Heydər Əliyevin xidməti sayılır. 1993-cü ildə Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışı sayəsində Azərbaycan parçalanmaqdan, xaos və anarxiyadan, iqtisadi böhrandan və digər bəlalardan xilas oldu. Ölkədə sabitlik və əmin-amanlıq təmin edildi, islahatlar həyata keçirildi, iqtisadi tənəzzül cilovlandı. Azərbaycanın iqtisadi çiçəklənməsinə və təhlükəsizliyinə təminat verən neft sazişləri imzalandı, iqtisadi, sosial və siyasi islahatlar strategiyası hazırlanaraq ardıcıl surətdə həyata keçirilməyə başlandı. Yeni, müstəqil Azərbaycan dövləti quruldu, dövlətçiliyin ideologiyası və təməl prinsipləri yaradıldı.

Ümummilli Lider hələ hakimiyyətinin birinci dövründə xalqımızın döyüş ruhunun yaşadılmasında və gələcəkdə ordu quruculuğunun inkişaf etdirilməsində mühüm rol oynayan Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmışdı. Bu məktəbin yaradılması gələcəyə hesablanmış bir siyasi addım idi. Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun formalaşmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olmuşlar. I və II Qarabağ döyüşlərində vuruşan Azərbaycan zabitlərinin 70 faizdən çoxu bu liseyin yetirmələridir. Ulu Öndər hər zaman deyirdi ki, sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır. Bu ideyanı cənab İlham Əliyev daha da inkişaf etdirərək ordumuzu modernləşdirdi, döyüş imkanlarının artmasını təmin etdi. Rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsində öz canı, qanı hesabına torpaqlarımızı erməni işğalından azad etdi. Şanlı Qələbə çalaraq Azərbaycanın ərazi bütövlüyünü təmin etdi.

Azərbaycanda qadın və uşaq hüquqlarının müdafiəsi hər zaman prioritet olub. Elə ölkəmizin qoşulduğu ilk beynəlxalq konvensiyalardan biri "Uşaq hüquqları və qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında"dır. Bu sənədlər milli qanunvericilikdə təkmilləşdirmə işinin aparılmasına, yeni mexanizmlərin yaradılmasına və uşaqlara qarşı zorakılıqla mübarizəyə ünvanlanan ümumi prinsiplərin formalaşdırılmasına təkan vermişdir. Ümummilli Lider Heydər Əliyev qadınlarla bağlı siyasətin gücləndirilməsini dövlətin mühüm, prioritet vəzifələrindən biri hesab edir, onların cəmiyyətdə aktiv iştirakına xüsusi önəm verirdi. Ulu Öndərin qadın qurultaylarında etdiyi çıxışlar, səmimi fikirləri, arzuları onları daha da ruhlandırır, fəal olmağa həvəsləndirirdi. Azərbaycan gender bərabərliyi ilə bağlı yeniliklərə ilk imza atan dövlətlərlə bir sıradadır. Bunun nəticəsidir ki, ölkəmizdə qısa müddət ərzində güclü lider qadınlar formalaşmış, qızlarımız üçün təkcə respublikada deyil, həm də xarici ölkələrdə yüksək standartlara uyğun təhsil almaq imkanları yaradılmışdır ki, bu da dövlətimizin inkişafına öz müsbət töhfəsini verir.

İnsan yalnız oxuyub təhsil aldığı məktəbdə, çalışdığı kollektivdə deyil, həmçinin böyüyüb boya-başa çatdığı ailədə formalaşır. Ona görə də bu sosial təsisatın qorunması və müdafiə edilməsi hamımızın vəzifə borcudur. Biz bu vəzifələri yerinə yetirməklə Ulu Öndərin ruhunu da şad etmiş oluruq. Uşaqların sağlamlığı, onların yaxşı təhsil, təlim-tərbiyə alması, Vətən və xalq üçün gərəkli övladlar kimi böyüməsi Ümummilli Liderin daim diqqətində olmuşdur. "Mən həyatımın, bu günümün, gələcəyimin xoşbəxtliyini məhz uşaqlara qayğıda, diqqətdə görürəm" deyən dahi şəxsiyyətin rəhbərliyi ilə müstəqillik illərində ölkəmizdə dövlət uşaq siyasəti yeni forma və məzmun almış, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır.

Dünyanın ən tanınmış siyasətçiləri, dövlət başçıları dəfələrlə görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valeh olduqlarını bildiriblər. Onlar Ulu Öndərin müdrikliyini və qətiyyətini yüksək qiymətləndiriblər. Hansı sahəyə baxsaq, orada Ulu Öndərin atdığı təməli görə bilərik. Ümummilli Liderin formalaşdırdığı əsaslar Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da gücləndirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın möhtəşəm inkişafında bu siyasət həlledici rol oynayıb və oynamaqdadır. Məhz bu siyasətin uğurla həyata keçirilməsi sayəsində Azərbaycanın iqtisadiyyatı inkişaf edir, insanların rifahı əhəmiyyətli dərəcədə yüksəlir, ölkənin hərbi qüdrəti müqayisəedilməz dərəcədə güclənir. Bütün sosial təbəqələrin müdafiəsinin gücləndirilməsi, həyat tərzinin yaxşılaşdırılması üçün həyata keçirilən sosial islahatlar göz önündədir. Azərbaycanın müasirləşməsi, yeniləşməsi baş verib, şəhər və kəndlərin siması kökündən dəyişib. Bu gün Azərbaycan dünyanın ən uğurlu dövlətlərindən biri kimi qəbul olunur, onun parlaq gələcəyinə hamı inanır. Ölkəmizin beynəlxalq nüfuzunun artması, mövqeyinin güclənməsi, dünya reytinqlərində ən mötəbər yerlərdə qərar tutması insanların qürur mənbəyinə çevrilib. Son vaxtlar uğurla həyata keçirilən islahatlar ölkəni inkişafın keyfiyyətcə yeni mərhələsinə aparır. Qarşıda isə yeni hədəflər dayanır.

*Beləliklə, 57 il əvvəl başlayan Heydər Əliyev yolu Azərbaycanı zəfərdən-zəfərə, zirvədən-zirvəyə aparmaqdadır. Biz hər birimiz fəxr edirik ki, bu gün onun yolunu və ideyalarını dünya siyasətçiləri arasında sayılıb-seçilən Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva layiqincə davam etdirirlər. Onların bu fəaliyyəti Heydər Əliyev ənənələrinə, irsinə sədaqəti bir daha təsdiqləyir. Ulu Öndər bütün fəaliyyəti boyu qabaqcıl və mütərəqqi qüvvələrə arxa, dayaq olmuş, xalqı ardınca aparmışdır. Bütün ömrünü Vətəninə, xalqına sədaqətlə xidmət edən Ümummilli Liderin "Vətən birdir və hamı bu vətən uğrunda çalışmalıdır!" fikirləri hər bir Azərbaycan vətəndaşının həyat amalıdır.*

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor***



# Dövlətçiliyin sarsılmaz təməllərini yaradan Lider

**Tarixdə elə şəxsiyyətlər var ki, onların fəaliyyəti yalnız yaşadıqları dövrün deyil, bütöv bir xalqın taleyinin istiqamətini müəyyənləşdirir. Belə şəxsiyyətlərin qəbul etdiyi qərarlar və həyata keçirdikləri siyasət zamanın sınağından çıxaraq dövlətçilik tarixinin ayrılmaz hissəsinə çevrilir. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının çoxəsrlik dövlətçilik salnaməsində məhz belə müstəsna şəxsiyyət kimi əbədi yer tutur. Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanda ali siyasi rəhbərliyə gəlməsi respublikamızın tarixində yeni inkişaf mərhələsinin başlanğıcı oldu.**

1960-cı illərin sonlarında Azərbaycan SSR keçmiş ittifaqın sosial-iqtisadi baxımdan geridə qalan respublikalarından biri idi. İqtisadiyyatın inkişaf tempi zəif idi, kənd təsərrüfatında məhsuldarlıq aşağı səviyyədə qalırdı. Belə bir şəraitdə respublikaya rəhbər seçilən Heydər Əliyev genişmiqyaslı islahatlar həyata keçirməyə başladı. Qısa müddətdə yeni sənaye müəssisələri yaradıldı, maşınqayırma, kimya, elektrotexnika, neft maşınqayırması, energetika və digər strateji sahələrdə mühüm layihələr reallaşdırıldı. Bütün bunların nəticəsində respublikanın iqtisadi göstəriciləri ildən-ilə yüksəldi, Azərbaycan keçmiş ittifaqın ən sürətlə inkişaf edən respublikalarından birinə çevrildi.

Heydər Əliyevin 1969-1982-ci illərdə həyata keçirdiyi siyasətin əhəmiyyəti yalnız iqtisadi göstəricilərlə məhdudlaşmırdı. Elm, təhsil, səhiyyə, mədəniyyət və şəhərsalma sahələrində də mühüm nailiyyətlər əldə olundu. Sovet ideoloji sisteminin sərt tələblərinə baxmayaraq, Heydər Əliyevin həyata keçirdiyi tədbirlər xalqımızın milli özünüdərk hissini də gücləndirdi. Ana dilinin inkişafına, Azərbaycan ədəbiyyatına, incəsənətinə, mədəniyyətinə və tarixinin öyrənilməsinə göstərilən diqqət milli şüurun formalaşmasına mühüm töhfə verdi. Həmin dövrdə yaradılan mədəni mühit xalqımızın milli kimliyinin qorunub saxlanılmasına və gələcək nəsillərə ötürülməsinə xidmət etdi.

Heydər Əliyevin fəaliyyətinin mühüm istiqamətlərindən biri milli kadr potensialının formalaşdırılması idi. O, azərbaycanlıların rəhbər vəzifələrə irəli çəkilməsini, idarəçilikdə milli kadrların rolunun artırılmasını diqqət mərkəzində saxlayırdı. Heydər Əliyevin təşəbbüsü ilə hər il yüzlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrinə göndərilməsi də bu siyasətin göstəricisi idi. Həmin gənclər mühüm ixtisaslar üzrə yüksək səviyyədə təhsil alaraq sonradan respublikamızın inkişafına xidmət etdilər. Müstəqillik illərində dövlət idarəçiliyində, elm və təhsildə, iqtisadiyyatın müxtəlif sahələrində mühüm rol oynayan peşəkar kadrların əhəmiyyətli hissəsi məhz həmin siyasətin nəticəsində formalaşmışdı.

Ulu Öndər milli hərbi kadrların hazırlanmasını da strateji məsələ kimi qiymətləndirirdi. Heydər Əliyevin uzaqgörənliyi ilə 1971-ci ildə yaradılan Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb sonrakı illərdə Azərbaycan Ordusunun zabit korpusunun formalaşmasında mühüm rol oynadı.

Beləliklə, 1969-cu il iyulun 14-dən başlanan inkişaf mərhələsi təkcə iqtisadi yüksəliş dövrü deyil, həm də Azərbaycanın gələcək müstəqilliyi üçün zəruri olan siyasi, iqtisadi, intellektual və mənəvi potensialın formalaşdığı tarixi mərhələ idi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində yaradılan möhkəm təməl sonrakı dövrlərdə xalqımızın müstəqil dövlət quruculuğu yolunda qarşılaşdığı çətin sınaqlardan uğurla çıxmasına mühüm zəmin yaratdı.

Ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlləri Azərbaycan tarixinin ən çətin mərhələlərindən biri kimi yadda qaldı. Bu dövrdə Heydər Əliyev siyasi rəhbərlikdə olmasa belə öz fəaliyyəti ilə xalqının yanında idi. Belə ki, 1990-cı ilin iyul ayında Heydər Əliyevin Azərbaycana qayıtması, daha sonra Naxçıvana getməsi ölkədə güclənməkdə olan milli azadlıq hərəkatına yeni siyasi impuls verdi. Təsadüfi deyil ki, 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsləri ilə Naxçıvan Ali Məclisinin qəbul etdiyi tarixi qərarlar Azərbaycanın müstəqillik salnaməsinin ən mühüm hadisələri kimi tarixə düşdü. 1991-ci ilin martında SSRİ-nin saxlanılması ilə bağlı ümumittifaq referendumunun Naxçıvan ərazisində keçirilməməsi də Heydər Əliyevin cəsarətli siyasi mövqeyinin ifadəsi idi.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Heydər Əliyevin siyasi fəaliyyətinin yeni mərhələsinin başlanğıcı oldu. Blokada şəraitində olmasına baxmayaraq, muxtar respublikada idarəetmənin səmərəli təşkili və əhalinin təhlükəsizliyinin təmin edilməsi Heydər Əliyevin yüksək dövlətçilik təcrübəsini bir daha nümayiş etdirdi.

Müstəqilliymizin ilk illərində hakimiyyətdə olanların kobud səhvləri, bunun nəticəsi olaraq ölkədə separatizmin baş qaldırması və Ermənistanın hərbi təcavüzü Azərbaycanın taleyini təhlükə qarşısında qoydu. Belə bir şəraitdə cəmiyyətdə Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışının zəruriliyi barədə çağırışlar güclənirdi. 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaranması da xalqımızın Heydər Əliyevə inamının təzahürü idi.

1993-cü ilin iyununda Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə Bakıya dəvət olunması ölkədə dərinləşən siyasi böhranın aradan qaldırılması istiqamətində dönüş nöqtəsinə çevrildi. Həmin il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilən Ulu Öndərin həyata keçirdiyi tədbirlər vətəndaş qarşıdurmasının qarşısını aldı, ictimai-siyasi sabitliyin təmin olunmasına xidmət etdi. 1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərində Heydər Əliyevin dövlət başçısı seçilməsi isə Azərbaycan xalqının ona göstərdiyi yüksək etimadın ifadəsi oldu.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanın müasir dövlət quruculuğuna start verildi. Dövlətçiliyin və müstəqilliyin əsasları möhkəmləndirildi, qanunun aliliyinə əsaslanan idarəetmə sistemi formalaşdırıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi hüquqi dövlət quruculuğunda mühüm mərhələ oldu. Hakimiyyət bölgüsü prinsipi əsasında yeni dövlət institutları yaradıldı, demokratik təsisatların inkişafı istiqamətində ardıcıl islahatlara başlanıldı. Bazar iqtisadiyyatına keçid sürətləndirildi, özəlləşdirmə proqramları həyata keçirildi, sahibkarlığın inkişafı üçün hüquqi və institusional baza formalaşdırıldı. Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyası isə müstəqil Azərbaycanın iqtisadi inkişafında dönüş nöqtəsinə çevrildi. 1994-cü il sentyabrın 20-də dünyanın aparıcı enerji şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın geosiyasi mövqeyini gücləndirdi.

Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illər respublikamızda müstəqilliyin möhkəmləndirildiyi, milli dövlətçilik ənənələrinin bərpa olunduğu və inkişafın strateji istiqamətlərinin müəyyənləşdirildiyi dövr kimi tarixə düşdü. Xarici siyasətdə balanslaşdırılmış və milli maraqlara əsaslanan kurs formalaşdırıldı, Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanındı, ölkənin iqtisadi və siyasi nüfuzu əhəmiyyətli dərəcədə yüksəldi. Məhz həmin illərdə yaradılan möhkəm siyasi, hüquqi və iqtisadi təməllər sonrakı inkişaf mərhələsinin əsasını təşkil etdi.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf xətti bu gün Prezident İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun şəkildə davam etdirilir. Ötən dövrdə Azərbaycan olduqca böyük və nümunəyə çevrilən inkişaf yolu keçib, bütün sahələrdə yüksəliş baş verib, vətəndaşların sosial rifahı yüksəlib. Prezident İlham Əliyev tərəfindən Ulu Öndərin enerji siyasətinin uğurla davam etdirilməsinin nəticəsi olaraq, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, "Cənub qaz dəhlizi"nin inşası respublikamızın inkişafına böyük töhfələr verdi. O cümlədən Azərbaycanın regionun nəqliyyat qovşağına çevrilməsi, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin məhz ölkəmizdə kəsişməsi inkişaf yolunun mühüm göstəricilərindən biridir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi ən böyük və tarixi uğurlar isə 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, 2023-cü ilin antiterror tədbirlərindən sonra bütün ərazilərimiz üzərində milli suverenliyimizin təmin olunmasıdır. Hazırda Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır, yollar, yaşayış məntəqələri, məktəblər, xəstəxanalar və digər infrastruktur obyektləri inşa edilir. "Böyük qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurdlarına mərhələli şəkildə dönüşü təmin olunur.

Bu gün Azərbaycan müasir dövlətçilik tarixinin şərəfli və qürurdoğuran dövrünü yaşayır. Azərbaycanın qlobal siyasi və iqtisadi güc mərkəzləri olan Çin, ABŞ və Avropa İttifaqı ilə strateji tərəfdaş olması Prezident İlham Əliyevin siyasi kursunun böyük uğuru, ölkəmizin beynəlxalq nüfuzunun təcəssümüdür.

1969-cu il iyulun 14-dən başlanan Heydər Əliyev siyasəti Azərbaycanın qürurdoğuran dövlətçilik tarixinin formalaşmasına və uğurların möhkəm təməlinin yaradılmasına xidmət etdi. Ulu Öndər Heydər Əliyevin siyasi və dövlətçilik irsi Azərbaycanın inkişaf yolunun mühüm ideya mənbələrindən biridir. Bu irsin müasir dövrün tələblərinə uyğun davam etdirilməsi ölkəmizin qarşıdakı illərdə də davamlı inkişafına, beynəlxalq mövqeyinin daha da möhkəmlənməsinə və yeni uğurlar qazanmasına xidmət edəcək.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

# Xalqın qəlbində əbədi yaşayan dahi şəxsiyyət

**Xalqın və dövlətçiliyimizin tarixi ilə bağlı əlamətdar günlər xalqımız üçün hər zaman əzizdir. 14 iyul da məhz belə tarixlərdən biridir. 1969-cu il iyulun 14-də Ümummilli Lider Heydər Əliyev Azərbaycana ilk dəfə rəhbər seçildi və bununla da respublikamızın tarixində yeni inkişaf mərhələsinin əsası qoyuldu.**

Heydər Əliyev Azərbaycanın keçmiş SSRİ-nin tərkibində olduğu dövrdə müxtəlif məsul vəzifələrdə çalışmış, təhlükəsizlik orqanlarında general-mayor rütbəsinə qədər yüksəlmişdi. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilməsi isə respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatında əsaslı dönüş yaratdı. Həmin dövrdə Azərbaycan iqtisadi və sosial göstəricilərinə görə ittifaq respublikaları arasında çox geri qalırdı. Zəngin təbii sərvətlərə və böyük iqtisadi potensiala malik olmasına baxmayaraq, respublikanın inkişaf tempi qənaətbəxş deyildi.

Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət qısa müddət ərzində Azərbaycanda dinamik inkişafın əsasını qoydu. Onun rəhbərliyi ilə Azərbaycan SSRİ-nin ən qabaqcıl və inkişaf etmiş respublikalarından birinə çevrildi. Sənayenin müxtəlif sahələri sürətlə inkişaf etdirildi, yeni istehsal müəssisələri yaradıldı, əhalinin sosial rifahının və mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı.

Heydər Əliyevin təşəbbüsü ilə Bakı və respublikanın digər şəhərlərində onlarca iri sənaye müəssisəsi istifadəyə verildi. "Ozon" zavodu, Elektron Hesablayıcı Maşınlar zavodu, Məişət Kondisionerləri Zavodu, Sumqayıt Kompressor Zavodu, Üst Trikotaj Fabriki, Bakı Tikiş və Ayaqqabı Fabriki, Gəncə Əlvan Metallar Emalı Zavodu, Naxçıvan Şüşə Qablar Zavodu, Əli-Bayramlı Məişət Cihazları Zavodu və digər istehsal müəssisələri həmin dövrdə yaradılaraq Azərbaycanın sənaye potensialının gücləndirilməsində mühüm rol oynadı.

Ulu Öndər milli-mənəvi dəyərlərin qorunmasına və təbliğinə də xüsusi önəm verirdi. Bu istiqamətdə həyata keçirilən tədbirlər xalqın milli özünüdərkinin güclənməsinə xidmət edirdi. Ötən əsrin 70-ci illərində Nəriman Nərimanovun, İmadəddin Nəsiminin, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Mehdi Hüseynzadənin, Səttar Bəhlulzadənin və digər görkəmli şəxsiyyətlərin abidələri ucaldıldı. 1976-cı ildə Şuşanın sosial-iqtisadi inkişafı haqqında mühüm qərar qəbul edildi, Xurşidbanu Natəvanın abidəsi qoyuldu, Molla Pənah Vaqifin məqbərəsi inşa edildi. Bütün bunlar milli-mənəvi irsə verilən yüksək dəyərin və xalqın tarixi yaddaşına ehtiramın bariz nümunəsi idi.

Heydər Əliyevin bütün fəaliyyəti Azərbaycanın gələcəyinə hesablanmışdı. Onun təşəbbüsü ilə 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında ilk dəfə Azərbaycan dili dövlət dili kimi təsbit olundu. O dövrün mürəkkəb siyasi-ideoloji şəraitində belə bir qərarın qəbul edilməsi böyük siyasi iradənin və milli təəssübkeşliyin təzahürü idi.

Ümummilli Lider xalqın gələcəyini müəyyən edən əsas amillərdən biri kimi hərbi sahənin inkişafına da xüsusi diqqət yetirirdi. Sovet dövründə azərbaycanlı gənclərin hərbi təhsil almasına və peşəkar zabit kimi yetişməsinə müxtəlif maneələr yaradılırdı. Belə bir şəraitdə Heydər Əliyev azərbaycanlı gənclərin keçmiş SSRİ-nin nüfuzlu ali hərbi məktəblərində təhsil almalarına geniş imkanlar yaratdı. Həmin zabitlər sonralar müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin formalaşdırılmasında və Birinci Qarabağ müharibəsində mühüm xidmətlər göstərdilər.

Moskvanın ciddi etirazlarına baxmayaraq, 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması da Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi. Bu məktəbin yetirmələri müstəqillik illərində Azərbaycan Ordusunun peşəkar zabit korpusunun formalaşmasında mühüm rol oynadılar.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycanı ağır böhrandan xilas etdi, ölkədə ictimai-siyasi sabitliyi bərpa etdi, müasir Azərbaycan dövlətinin möhkəm təməlini yaratdı və davamlı inkişaf strategiyasını müəyyənləşdirdi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu uğurla davam etdirir. Məhz bu siyasət nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib, regionun aparıcı dövləti kimi mövqeyini daha da möhkəmləndirib, iqtisadi, siyasi və hərbi gücünü davamlı şəkildə artırıb. Heydər Əliyev ideyaları yaşayır, onun müəyyən etdiyi inkişaf yolu isə Azərbaycan xalqını yeni uğurlara aparır. Buna görə də Ümummilli Liderin əziz xatirəsinə ehtiram xalqımızın qəlbində əbədi yaşayacaq.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

# Suraxanı rayonunda 14 İyul küçəsi və parkda abadlıq işləri aparılıb








**Paytaxt ərazisində aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində Suraxanı Rayon İcra Hakimiyyəti tərəfindən rayonun 14 İyul küçəsində və ərazidəki parkda abadlıq işləri həyata keçirilib. Görülən işlərin nəticəsində həm ərazinin infrastrukturu yenilənib, sakinlər üçün rahat istirahət məkanları yaradılıb.**





Burada Heydər Əliyev bulağı, Yeni Suraxanı parkı, Şəhidlər abidəsi və 14 İyul küçəsindəki abidə yenidən qurulub, yol kənarındakı obyektlərin fasadları üzlənib, hasarlarda suvaq və rəngləmə işləri aparılıb. Küçə boyu asfalt örtüyü təzələnib, tamet döşəmə və bordürlər çəkilib, piyadaların rahat və maneəsiz hərəkəti üçün müvafiq infrastruktur yaradılıb. Yaşıllaşdırma işləri çərçivəsində əraziyə 500 ədəd yeni şam ağacı əkilib və qazon örtüyü çəkilib.

Yeni Suraxanı parkı əsaslı təmir edilib, sakinlərin istirahəti, uşaqların və gənclərin




asudə vaxtlarını səmərəli keçirmələri üçün tam şərait yaradılıb. Bütün yaş qruplarına aid vətəndaşlar nəzərə alınaraq onlar üçün xüsusi guşələr yaradılıb. 2 yeni söhbətgah və parkın ərazisində müasir işıqlandırma sistemləri və 50 ədəd yeni oturacaq quraşdırılıb. Parkın ətrafında təhlükəsizliyi təmin etmək məqsədilə dəmir məhəccərlər qurulub.

Həyata keçirilən yenidənqurma işləri ərazinin həm görünüşünü müasirləşdirib, həm də sakinlərin istirahəti üçün daha rahat və təhlükəsiz mühit yaradıb.

***"Azərbaycan"***

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 335-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 211** **Bakı şəhəri, 10 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 335-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 iyul tarixli 375 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Bakı şəhəri Sabunçu rayonunun Nardaran qəsəbəsində yerləşən tarix-mədəniyyət qoruğu haqqında Əsasnamə"nin 2-ci və 8-ci hissələri aşağıdakı redaksiyada verilsin:

"2. Nardaran tarix-mədəniyyət qoruğunun ərazisində yerləşən elmi, tarixi və bədii əhəmiyyəti olan tarix və mədəniyyət abidələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur.";

"8. Qoruğun ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin korlanması və ya məhv edilməsi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 mart tarixli 74 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 240 (Cild I) ilə təsdiq edilmiş "Abidə qoruqlarının nümunəvi Əsasnaməsi"nin 3.2-ci bəndi və 3.5.1-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.2. Qoruğun ərazisində yerləşən elmi, tarixi, mədəniyyət əhəmiyyəti olan abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur.";

"3.5.1. tarix və mədəniyyət abidələrinin korlanması və ya məhv edilməsi, tabeliyində olduğu qurumla razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması;".

3. "Azərbaycan Respublikasının "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun və "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğunun əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 220 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 867 (Cild I); 2024, № 9, maddə 1095) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun Əsasnaməsi"nin 3.2-ci bəndi və 3.5.1-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.2. Qoruğun ərazisində yerləşən elmi, tarixi, mədəniyyət əhəmiyyəti olan abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur.";

"3.5.1. tarix və mədəniyyət abidələrinin korlanması və ya məhv edilməsi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması;";

3.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğunun Əsasnaməsi"nin 3.2-ci bəndi və 3.5.1-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.2. Qoruğun ərazisində yerləşən elmi, tarixi, mədəniyyət əhəmiyyəti olan abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur.";

"3.5.1. tarix və mədəniyyət abidələrinin korlanması və ya məhv edilməsi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması;".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 sentyabr tarixli 227 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 873 (Cild I) ilə təsdiq edilmiş "Yanar dağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğu haqqında Əsasnamə"nin 3.2-ci bəndi və 3.5.1-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.2. Qoruğun ərazisində yerləşən elmi, tarixi, mədəniyyət əhəmiyyəti olan abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur.";

"3.5.1. tarix və mədəniyyət abidələrinin korlanması və ya məhv edilməsi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması;".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 22 sentyabr tarixli 150 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 860 (Cild I) ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğunun mühafizə (bufer) zonasının xüsusi hüquqi rejimi haqqında Əsasnamə"nin 4.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"4.1. Zonada yerüstü və yeraltı abidələrin korlanması və ya məhv edilməsi, İdarə ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 2 oktyabr tarixli 285 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1206 (Cild I); 2024, № 2, maddə 246) ilə təsdiq edilmiş "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun xüsusi rejimi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.5-ci bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Qoruğun ərazisində yerləşən abidələrin korlanması və ya məhv edilməsi, İdarə ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.";

6.2. 2.12-ci bənd ləğv edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 may tarixli 128 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 614 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət monitorinqinin həyata keçirilməsi Qaydası"nın 5.1.5-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"5.1.5. mədəni sərvətlərə qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələrinin tətbiq edilməsi yolu ilə onların dövlət tərəfindən qorunmasının təmin olunması;".

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 may tarixli 204 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 779 (Cild I); 2024, № 9, maddə 1053) ilə təsdiq edilmiş "Mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.7. Mədəni sərvətlər Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur.";

8.2. aşağıdakı məzmunda 1.9-cu bənd əlavə edilsin:

"1.9. Dövlət tərəfindən qorunan mədəni sərvətlərin korlanması və ya məhv edilməsi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə, Şuşa şəhərinin ərazisində isə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.";

8.3. 2.5-ci bənd ləğv edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 iyul tarixli 266 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 897 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası"nın 3.2-ci bəndinin birinci cümləsində "fəaliyyətinin, tikinti inşaat fəaliyyətinin həyata keçirilməsi (daşınmaz mədəni irs nümunələrinin mühafizəsi məqsədi ilə həyata keçirilən fəaliyyət istisna olmaqla), həmçinin bədii estetik görkəminin dəyişdirilməsi və onlar üçün təhlükə yarada biləcək hər hansı işlərin aparılması qadağandır" sözləri "fəaliyyətinin aparılması, korlanması və ya məhv edilməsi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə, Şuşa şəhərinin ərazisində isə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır" sözləri ilə əvəz edilsin.

10. "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun, "Qədim Şəmkir Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun və "Orta Əsr Ağsu Şəhəri" Dövlət Tarix Mədəniyyət Qoruğunun əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 mart tarixli 78 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 297 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi"nə aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. Qoruğun ərazisində yerləşən abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur. Qoruğun ərazisində yerləşən abidələrin korlanması və ya məhv edilməsi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.";

10.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Qədim Şəmkir Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi"nə aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. Qoruğun ərazisində yerləşən abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur. Qoruğun ərazisində yerləşən abidələrin korlanması və ya məhv edilməsi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.";

10.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Orta əsr Ağsu Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi"nə aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. Qoruğun ərazisində yerləşən abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur. Qoruğun ərazisində yerləşən abidələrin korlanması və ya məhv edilməsi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.".

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 1 iyul tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 856 (Cild I) ilə təsdiq edilmiş "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun Əsasnaməsi"nə aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. Qoruğun ərazisində yerləşən abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur. Qoruğun ərazisində yerləşən abidələrin korlanması və ya məhv edilməsi, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.".

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 iyun tarixli 323 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 742) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisinin xüsusi rejimi"ndə aşağıdakı dəyişikliklər edilsin:

12.1. 2.5-ci bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Qoruğun ərazisində yerləşən abidələrin korlanması və ya məhv edilməsi, Nazirliklə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.";

12.2. 2.9-cu bənd ləğv edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 sentyabr tarixli 431 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1094) ilə təsdiq edilmiş "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun Əsasnaməsi"nin 3.2-ci bəndi və 3.5.1-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.2. Qoruğun ərazisində yerləşən elmi, tarixi, mədəniyyət əhəmiyyəti olan abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur.";

"3.5.1. tarix və mədəniyyət abidələrinin korlanması və ya məhv edilməsi, Agentliklə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması;".

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 sentyabr tarixli 432 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1095) ilə təsdiq edilmiş "Xınalıq və Köç yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğunun Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

14.1. 3.2-ci bəndin ikinci cümləsi ləğv edilsin;

14.2. 3.5.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.5.1. tarix və mədəniyyət abidələrinin korlanması və ya məhv edilməsi, Agentliklə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması;".

15. "Pir Hüseyn Xanəgahı" Tarix-Memarlıq Qoruğunun və Zaqatala Tarix-Mədəniyyət Qoruğunun əsasnamələrinin təsdiq edilməsi və "Zaqatala Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1984-cü il 7 may tarixli 155 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 23 aprel tarixli 128 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 416) aşağıdakı dəyişikliklər edilsin:

15.1. həmin Qərarla təsdiq edilmiş "Pir Hüseyn Xanəgahı" Tarix-Memarlıq Qoruğunun Əsasnaməsi"nin 3.2-ci bəndi və 3.5.1-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.2. Qoruğun ərazisində yerləşən elmi, tarixi, mədəniyyət əhəmiyyəti olan abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur.";

"3.5.1. tarix və mədəniyyət abidələrinin korlanması və ya məhv edilməsi, Nazirliklə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması;";

15.2. həmin Qərarla təsdiq edilmiş "Zaqatala Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi"nin 3.2-ci bəndi və 3.5.1-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.2. Qoruğun ərazisində yerləşən elmi, tarixi, mədəniyyət əhəmiyyəti olan abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur.";

"3.5.1. tarix və mədəniyyət abidələrinin korlanması və ya məhv edilməsi, Nazirliklə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli Qərarı ilə təsdiq edilmiş "İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydaları"nda, 2012-ci il 25 sentyabr tarixli 211 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydası"nda, 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"nda və 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 212** **Bakı şəhəri, 10 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 539 (Cild I); 2024, № 9, maddə 1101; 2025, № 11, maddə 1092, № 12 (II kitab), maddə 1257; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 25 iyun tarixli 200 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə "hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 135-ci" sözləri "təyin edilməsi, hesablanması və ödənilməsi Qaydası"nın 8.2-ci" sözləri ilə əvəz edilsin;

1.2. 9-cu hissənin üçüncü cümləsində "hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 141-ci" sözləri "təyin edilməsi, hesablanması və ödənilməsi Qaydası"nın 8.8-ci" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 sentyabr tarixli 211 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 937 (Cild I); 2025, № 11, maddə 1090) ilə təsdiq edilmiş "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydası"nın 9-cu hissəsinin üçüncü cümləsində "hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 141-ci" sözləri "təyin edilməsi, hesablanması və ödənilməsi Qaydası"nın 8.8-ci" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1530 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddələr 611, 617; 2025, № 9, maddə 870, № 11, maddə 1091) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"nın 4.10-cu bəndinin üçüncü cümləsində "hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 141-ci" sözləri "təyin edilməsi, hesablanması və ödənilməsi Qaydası"nın 8.8-ci" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 929; 2025, № 5, maddə 507, № 9, maddələr 858, 870, № 11, maddə 1093; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 25 iyun tarixli 200 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nın 1.2-ci bəndində "hesablanması və ödənilməsi haqqında Əsasnamə"yə" sözləri "təyin edilməsi, hesablanması və ödənilməsi Qaydası"na" sözləri ilə əvəz edilsin.

5. Bu Qərar 2026-cı il mayın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 213** **Bakı şəhəri, 10 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 238-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1076 (Cild I); 2024, № 7, maddə 904; 2025, № 10, maddə 997) ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 5.1-1-ci bənddə "qrant və ianələr" sözləri "əmlakının pul və ya digər şəkildə formalaşdırılma mənbələri" sözləri ilə, "formalara" sözü "formaya" sözü ilə, "6 və 7 nömrəli formalar" sözləri "8 nömrəli forma" sözləri ilə əvəz edilsin.

2. 5 və 6 nömrəli əlavələr ləğv edilsin.

3. Həmin Qaydaya aşağıdakı məzmunda 7 nömrəli əlavə əlavə edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Ərzaq təminatı xəritəsi" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 214** **Bakı şəhəri, 10 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ərzaq təminatı xəritəsi" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 noyabr tarixli 536 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ərzaq təminatı xəritəsi" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Ərzaq təminatı xəritəsi" informasiya sisteminin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyivə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 4.2-ci bəndində nəzərdə tutulmuş məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə "Ərzaq təminatı xəritəsi" informasiya sisteminə ötürülməsini təmin etmək məqsədilə altı ay müddətində zəruri tədbirlər görsünlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Cəsarəti ilə qəhrəmanlıq düsturu yazdı

**Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlərdə ordumuzun cəsur zabit və əsgərləri erməni qəsbkarlarına sarsıdıcı zərbələr vurdular. Hərbçilərimiz yağılara Aprel döyüşlərindəki, Günnüt əməliyyatlarındakı ağrı-acıları yenidən yaşatdılar. Düşmən təxribatının qarşısı qısa müddət ərzində qətiyyətlə alındı. Dəqiq atəşlə işğalçıların xeyli canlı qüvvəsi və zirehli texnikası, artilleriya qurğuları məhv edildi. Zabit və əsgərlərimizin igidliyi sayəsində yağıların işğalçılıq niyyəti, qəsbkarlıq planları alt-üst oldu. Ermənistan silahlı qüvvələrinin gücsüzlüyü Tovuz döyüşlərinin fonunda bir daha aydın göründü.**



Təəssüflər olsun ki, Tovuz döyüşlərində hərbçilərimizi də itirdik. 2020-ci il iyulun 14-də eşitdiyimiz kədər yüklü xəbər qəlbimizi göyüm-göyüm göynətdi. Torpaq uğrunda şəhid olanların arasında general-mayor Polad Həşimov da var idi. Həmişə özünü Vətənin əsgəri hesab edən general qoynunda dünyaya göz açdığı torpaq uğrunda son nəfəsinədək vuruşdu. Ömrünün son anına qədər silahını yerə qoymadı, barmaqlarını tətikdən çəkmədi. Ölümü ilə həm ölümsüzlüyə, həm də düşmənə meydan oxudu, sonda hər ikisinə qalib gəldi. Cəsarəti və hünəri ilə Vətəni necə sevməyin, onun uğrunda necə vuruşmağın və necə şəhid olmağın düsturunu yaratdı. İgidliyi dildən-dilə düşdü, eldən-elə yayıldı.

Atalarımızın bu dəyərli sözünü tez-tez xatırlayıram: "İnsan var evdən gedir, insan da var eldən". Eldən gedənlərin ölümü daha ağrılı və dözülməz olur. Torpaq uğrunda şəhid olan general Polad Həşimov da eldən gedənlərdən idi. Əsgəri ilə çiyin-çiyinə vuruşan generalın ölümü onu tanıyanların da, tanımayanların da gözlərini nəmləndirdi. Belə cəsur bir hərbçini itirməyimizə hamı təəssüfləndi, hamı kədərləndi, hamı erməniləri lənətlədi. Amma nə qədər təəssüflənsən də, kədərlənsən də, heç nəyi geri qaytarmaq mümkün deyil. İndi generaldan geridə qalan yalnız həmişə yaddaşlarda yaşayacaq acılı-şirinli xatirələrdir. Üstündən illər, əsrlər ötsə də, bu xatirələr həmişə diri və canlı qalacaq. Ölümün əli nə qədər uzun olsa da, o xatirələrə çatmayacaq.

Müharibə, qanlı döyüşlər Polad Həşimov üçün yeni bir şey deyildi. O, ölüm-itimlə dolu olan belə qanlı-qadalı əməliyyatları çox görmüşdü. Hələ kursant olduğu vaxtlarda, Heydər Əliyev adına Hərbi İnstitutda oxuyarkən Birinci Qarabağ müharibəsində iştirak etmiş, düşmənlərlə Ağdam istiqamətində vuruşmuşdu. Qəsbkarlara gücünü, bacarığını göstərmişdi. Daşnakların vəhşiliyini, qəddarlığını yaxından görmüşdü. Yəni müharibənin qana, ölümə boyanmış sifəti ona yaxşı tanış idi.

Çoxlarımız kimi general Polad Həşimov da adi bir ömür yolu keçmişdi. Amma o, bu adi həyatın içində bir qeyri-adilik, bənzərsizlik yarada bilmişdi. Qısa ömründə bunu bacarmışdı, çoxlarının edə bilmədiyini etmişdi. Polad Həşimov soyuq bir qış günündə - 2 yanvar 1975-ci ildə Qəbələ rayonunun Vəndam qəsəbəsində dünyaya göz açmışdı. Orta məktəbi Sumqayıtda oxumuşdu, müəllimlərinin sevimli şagirdlərindən biri olmuşdu. Hələ kiçik yaşlarından hüquqşünas olmağı arzulamışdı. Amma ömrünün sonrakı illərində nədənsə bu fikrindən daşınmışdı.

Gələcəyin generalı yetkinlik yaşına çatanda Qarabağ ətrafında qanlı hadisələr yenicə başlamışdı. Hər gün qapıları ağrı-acılarla yüklənmiş xəbərlər döyürdü. Birinci Qarabağ müharibəsində onun yaşadığı binadan da bir neçə vətənpərvər gənc çağırış vərəqi gözləmədən döyüşə yollanmışdı. Təəssüflər olsun ki, onlardan ikisi - Yaqub İsmayılov və Aslan İsmayılov qanlı döyüşlərdə şəhid olmuşdular. Vətən yolunda canından keçmiş bu oğulların barelyeflərini bir vaxtlar yaşadıqları binaya vurmuşdular. Orta məktəb şagirdi olan Polad hər gün şəhidlərin şəkillərdən boylanan baxışlarına, qəhrəmanlıq yağan gözlərinə baxırdı. Baxdıqca da ürəyində ermənilərə nifrəti yaranır, Vətənə sevgisi artırdı. Kim bilir, bəlkə də onun hərbçi olmaq arzusunun hüquqşünaslığı üstələməyinə bu amil təkan vermişdi.

Ölməzlik zirvəsinə yüksələn generalımızla müxtəlif vaxtlarda olan görüşlərimiz haqqında söz açmaq, onu oxucularla bir az da yaxından tanış etmək istəyirik. Bu cəsur və bacarıqlı zabitlə ilk dəfə görüşüb tanış olanda o, general deyildi, polkovnik-leytenant rütbəsində idi. Ön xətdə yerləşən "N" hərbi hissəsinə komandirlik edirdi. Yaxşı xatırlayırıq ki, tanışlığımızın bəxtinə qarlı, şaxtalı bir gün düşmüşdü.

Polad Həşimovun komandiri olduğu hərbi hissəyə səhər tezdən çatdıq. Növbətçinin müşayiəti ilə onun xidməti otağına daxil olduq. Hərbi salam verib görüşəndən sonra növbətçi otaqdan çıxdı. Polad Həşimovla üz-üzə, göz-gözə qaldıq. Adətən komandirlərin sifəti zəhmli və ciddi olur. Onun sifətindən isə işıq süzülür, nur yağırdı. Qısa tanışlıqdan sonra söhbət yavaş-yavaş ədəbiyyatın, sənətin üstünə gəlib çıxdı. İlk dəfə idi ki, bu qədər ədəbiyyat və sənət vuğunu olan hərbçi görürdük. Polkovnik-leytenant Polad Həşimov dünya və Azərbaycan ədəbiyyatından elə həvəslə, elə maraqla danışırdı ki, sanki hərbi məktəbi deyil, hansısa ali təhsil ocağının filologiya fakültəsini bitirmişdi.

Tanışlığımız zamanı hiss etdik ki, Polad Həşimovun böyük ziyalılıq təfəkkürü, geniş dünyagörüşü var. Hər an hiss olunurdu ki, xidməti işləri nə qədər çox olsa da, mütaliəyə də vaxt tapır, kitabladan ayrılmır. Biliyini artırır, təfəkkürünü zənginləşdirir. Yeniliklə, müasirliklə nəfəs alır. Həyatla ayaqlaşmağa, zamanın ritmini tutmağa çalışır. Polad Həşimov yalnız özü oxumaqla da kifayətlənmirdi. Bunu zabit yoldaşlarına da, əsgərlərinə də tövsiyə edirdi. Deyirdi ki, nə vaxt şəhərə yolu düşürsə, geri dönəndə mütləq yeni kitablar alıb gətirir, oxumaları üçün zabit və əsgərlərə verir. "İstəyirəm ki, onlar savadlı, bilikli olsun. Qoy zabit və əsgərlərimiz həyatı dərindən düşünsünlər, yaşadıqları ömrün qədrini bilsinlər. Həmişə xeyirxah işlər görsünlər, mənalı günlər yaşasınlar, Vətənə layiqli övlad kimi böyüsünlər" deyirdi.

Komandir yalnız hərbçi kimi deyil, ziyalılığı, biliyi, mütaliəsi ilə də şəxsi heyətə canlı nümunə olmağa çalışırdı. Həyat yoldaşının dediyinə görə generalın oxuyub bitirə bilmədiyi sonuncu əsəri romantik şairimiz H.Cavidin "İblis" dramı olub. Bəlkə də general bu əsəri oxumaqla iblislərin - ermənilərin murdar xislətini daha da dərindən öyrənmək istəyirmiş. Təəssüf ki, generalın ömrü kimi arzuları da yarımçıq qaldı. Yeganə təsəllimiz odur ki, bu gün onun şərəfli ömür yolunun davamçıları yüzlərlədir, minlərlədir.

Sabahın generalı ilə ilk tanışlığımız yaddaqalan oldu, xatirələrimizin səhifələrində dərin izlər qoydu. Ordumuzda belə təcrübəli, vətənpərvər zabitlərin xidmət etmələrini görəndə ürəyimiz dağa döndü. Polad Həşimovla ikinci görüşümüz 2016-cı ilin Aprel döyüşlərində ola bilərdi. Amma gərgin əməliyyatlar və yaranmış mövcud şərait buna imkan vermədi. Görüşümüz baş tutmadı. Eyni istiqamətdə, eyni hərbi hissədə olsaq da, o günlərdə onunla görüşə bilmədik. Ön xətdən, qanlı döyüşlərdən geri qayıdan Vüsal adlı zabitdən öyrəndim ki, Polad Həşimov ən qaynar nöqtədəki yüksəklikdə düşmənlə üz-üzədir. Dörd gündür gecə-gündüz istirahətin nə olduğunu bilmədən erməni qəsbkarları ilə vuruşur, döyüşləri idarə edir. Zabit onu da dedi ki, yuxusuzluqdan onun gözləri qıpqırmızıdır. Amma buna baxmayaraq, yurdunun müdafiəsində dayanır, əldə silah vuruşur.

Aprelin 3-də səhər iş elə alındı ki, ön xəttə getməli olduq. Əgər Talış kəndi istiqamətinə getsəydik, mütləq Polad Həşimovla görüşəcək, ondan müsahibə alacaqdıq. Təəssüflər olsun ki, bir az qabağa gedəndən sonra komandanlıqdan zəng vurub geri dönməyimizi əmr etdilər. Hərbi hissəyə qayıdanda məlum oldu ki, erməni snayperlər keçəcəyimiz yola nəzarət edir. İşğalçılar bir az əvvəl həmin istiqamətdə hərəkətdə olan iki maşını atəşə tutmuşdular. Əgər biz də bu təhlükəli sahədən keçsəydik, işğalçıların hədəfinə tuş gələ bilərdik. Yaranmış şərait və vəziyyətə görə Polad Həşimovla görüşmək imkanı əlimizdən çıxdı.

Demə, qismətimizdə yenə də görüşmək var imiş. 2017-ci ilin xoş günlərinin birində qəhrəmanımızla Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində görüşdük. Yüksəkrütbəli zabitlər hansısa zəruri bir toplantıya qatılmışdılar. Artıq onda Polad Həşimov polkovnik idi. Çiyinlərindəki paqonlar, paqonlarındakı ulduzlar ona çox yaraşırdı. Nurlu çöhrəsindəki təbəssüm də yerindəydi. Ovqatı da yaxşı idi. Üzü də, gözləri də gülürdü. Nahar fasiləsi olduğuna görə beş-on dəqiqə söhbət etdik, Aprel döyüşlərindən danışdıq. Həmin gün görüşə bilmədiyimizə görə çox təəssüfləndik. Bir azdan nahar fasiləsi başa çatdı, polkovnik toplantıya getdi. Tələm-tələsik görüşüb ayrıldıq. Bu, Polad Həşimovla son görüşümüz oldu.

Onun Tovuz istiqamətində gedən döyüşlərdə şəhid olduğunu eşidəndə sarsıldıq, təəssüfləndik. Əsəbdən, qəzəbdən özümüzə yer tapa bilmədik. Nə yaşamışdı ki! Cəmi 45 il! General sanki bu 45 ilin içinə səksən, doxsan ili sığışdırmışdı. Bu illər ərzində insan nəyi edə bilərsə, Polad Həşimov ondan artığını etmişdi. Bu anlarda xatırladıq ki, türk generalı Ənvər Paşa da 45 yaşında həlak olmuşdu. Onu 20-ci əsrdə ermənilər öldürmüşdü. Polad Həşimovu da 21-ci əsrdə ermənilər öldürdü. Bir əsr vaxt keçsə də, düşmən həminki idi, ermənilər idi. Zaman heç nəyi dəyişməmişdi. Ənvər Paşanı öldürənlərin nəvələri, nəticələri isti bir yay günündə general Polad Həşimova da güllə atdılar.

...Generalın dəfni izdihamlı keçdi. Xalq Hərbi Memorial Məzarlığa - şərəfli, şanlı ordusunda xidmət edən generalının dəfninə elliklə gəlmişdi. Qürur hissi keçirirdik ki, onu son mənzilə yola salanların sırasındaydıq. Bu, xalqın döyüşçüsünə, əsgərinə, generalına olan sonsuz ehtiramının ifadəsi idi. Generalı tanıyan da, tanımayan da ağlayıb göz yaşları axıdırdı. Hamının gözlərindən qisas və intiqam hissi oxunurdu.

Onun ailəsində üç övladı böyüyür. Övladlarından biri qız, ikisi oğlandır. Onlar ataları ilə fəxr edib öyünürlər. Polad Həşimov kimi vətənpərvər generalların övladları da elə ataları kimi cəsur olacaq, xalqa, dövlətə layiqli vətəndaş kimi böyüyəcəklər. Xalqımız general Polad Həşimov kimi qəhrəman oğullarını heç vaxt unutmayacaq.

Bir payız günündə generalın şəhid olduğu posta getmişdik. Həmin anlarda qəribə hisslər keçirdik. Sanki qulağımıza generalın səsi gəlirdi. Əraziyə kəndir çəkilmişdi, torpağın üstünə gül-çiçək qoyulmuşdu. Generalın qanı tökülmüş torpağa ayağımızı qoymaq istəmədik. Sanki burada zaman donub qalmışdı. Torpağın da, daşın da gözü nəmli idi.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

**"RUH" Mənzil-Tikinti Kooperativi tərəfindən 11.01.2011-ci ildə Bakı şəhəri, B.Nuriyev küçəsi, 2383/87-ci məhəllə ünvanında yerləşən bina 75A, mənzil 162-də yaşayan Cəfərov Cavad Maarif oğlunun adına verilmiş 3 otaqlı, 120,94 kvadratmetrlik ev müqaviləsi itdiyi üçün etibarsız sayılır.**

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən 13.11.2025-ci ildə Amanov Ramal Rəsul oğluna verilmiş 3643 (AA0016820) nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.**


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## BEYNƏLXALQ HƏYAT

# Knesset seçkilərinin tarixi məlum oldu

## İsraillilər oktyabrın 27-də səs verəcəklər

**Knesset Komitəsi 26-cı parlament seçkilərinin tarixini rəsmi olaraq təyin edib: İsraildə seçkilər qanunla icazə verilən sonuncu gün - oktyabrın 27-də keçiriləcək. Hazırkı Knessetin səlahiyyət müddəti iyulun 17-də bitir. Hazırkı parlament bu həftənin sonunda işini başa vuracaq və tətilə çıxacaq.**



Qarşıdan gələn səsvermə İsrail siyasi sistemi üçün bir presedent yaradacaq. 38 ildən sonra ilk dəfə olaraq Knesset seçkiləri qanunla müəyyən edilmiş ilkin tarixdə keçiriləcək. Bundan əlavə, hazırkı kabinet 53 ildən sonra vaxtından əvvəl buraxılmadan səlahiyyət müddətini tam olaraq yerinə yetirən ilk kabinet kimi tarixə düşəcək.

İsrail mediası Netanyahu hökumətinin 17 iyul cümə günündən etibarən rəsmi olaraq keçid hökuməti statusunda fəaliyyət göstərəcəyini bildirir. "Likud" Partiyasının 76 yaşlı lideri Benyamin Netanyahu İsrail tarixində ən uzun müddət xidmət edən Baş nazir olaraq qalır. O, 2009-cu ildən bəri qısa fasilə ilə hakimiyyətdədir və yenidən namizədliyini irəli sürür.

Ötən ay İsrailin Baş naziri "sağçı, solçu deyil, geniş milli hökumət yaratmaq" niyyətini bəyan edib. Onun siyasi spektrin hər iki tərəfindəki rəqiblərinə müraciət etmək cəhdləri geniş şəkildə kampaniyasını milli birliyə yönəltmək cəhdi kimi qəbul olunur.

"The Times of Israel" qəzetinin məlumatına görə, İsrail Demokratiya İnstitutunun iyun ayında keçirdiyi sorğu göstərir ki, israillilərin əksəriyyəti növbəti seçkilərdən sonra Netanyahunu Baş nazir görmək istəmir. Sorğuya görə, respondentlərin 61 faizi hesab edir ki, o, yenidən namizəd olmamalıdır.

Netanyahunun komandası seçkilərə bir neçə böyük siyasi böhran fonunda yaxınlaşıb və bunlar 7 oktyabr 2023-cü il tarixli hadisələrdən tutmuş məhkəmə islahatlarına, İran müharibəsinə və ultra-ortodoks yəhudilərin hərbi xidmətə çağırılması məsələsinə qədər geniş spektri əhatə edir.

Benyamin Netanyahunun seçkilərdə əsas rəqibi İsrail Müdafiə Qüvvələrinin keçmiş Baş Qərargah rəisi Qadi Ayzenkotdur.

# Avropada 10 mindən çox insan anomal istidən dünyasını dəyişib

**Ötən ayın sonunda Avropanı bürüyən həddindən artıq isti 10 mindən çox adamın ölümünə səbəb olub. Bu barədə Dünya Səhiyyə Təşkilatına bağlı olan agentlik xəbər verib. Məlumata görə, ölümlərin 9 mindən çoxu 65 və daha yuxarı yaşlı insanlar arasında qeydə alınıb.**



Həkimlərin dediyinə görə, qeyri-adi yüksək temperatur təkcə isti vurmasına səbəb olmur, həm də yaşlı insanların ürək-damar və tənəffüs yolları xəstəliklərini ağırlaşdırır. EuroMOMO tədqiqatının müəllifləri 27 Avropa ölkəsindən milli statistikanı ümumiləşdiriblər. Ayrı-ayrı ölkələr üçün məlumat verilməyib, lakin iyun ayının son həftəsində daha çox ölüm hallarının Fransa və Belçikada baş verdiyini qeyd ediblər.

Bu mövzuda digər tədqiqatlar da dərc edilib. Almaniyanın Robert Kox İnstitutunun məlumatına görə, iyun ayının sonuna qədər Almaniyada təxminən 5100 nəfər anomal istidən dünyasını dəyişib. Onlardan 4310-u iyunun 22-28-də - havanın daha çox isti olduğu günlərdə vəfat edib. Vəfat edənlərin 80 faizdən çoxu 75-dən çox yaşı olanlardır.

Başqa bir araşdırma Böyük Britaniyaya yönəlib. London İmperial Kolleci, Meteorologiya İdarəsi və London Gigiyena və Tropik Təbabət Məktəbi tərəfindən aparılan birgə araşdırmalara görə, iyun ayının sonlarında təkcə İngiltərə və Uelsdə həddindən artıq istidən təxminən 2700 nəfər dünyasını dəyişib. Həmin tədqiqat qrupu hesablayıb ki, isti dalğası Avropanın 12 böyük şəhərində təxminən 2300 insanın həyatına son qoyub. İstiliklə bağlı ən çox ölüm halı Milan, Paris və Barselonada qeydə alınıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz olacaq

**Azərbaycanda iyulun 14-də gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-27°, gündüz 34-39° isti, dağlarda gecə 14-18°, gündüz 24-29° isti olacağı ehtimal edilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Konfederasiyanın sədr müavini Musa Mirzəyevə bacısı

**KƏKLİK QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Cəmiyyətin Protokol şöbəsinin müdiri Tural Nəsirova əzizi

**SUQRA NƏSİROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Cəmiyyətin əməkdaşı İlham Bağışova əzizi

**ZİYADXAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3180**
**Sifariş 896**

**Qiyməti 60 qəpik**